İSMAYIL HACIYEV

NAXÇIVAN AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ

63,3(5Ah2-6Nax)
H 14

İSMAYIL HACIYEV

NAXÇIVAN
AZƏRBAYCANIN
DÖVLƏTÇİLİK TARİXİNDƏ

359
122

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

"ELM"
BAKI
2018

Redaktor: **EMİN ŞIXƏLİYEV**
Tarix üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **FƏXRƏDDİN SƏFƏRLİ**
AMEA-nın müxbir üzvü, professor

VƏLİ BAXŞƏLİYEV
AMEA-nın müxbir üzvü

Hacıyev İsmayıl.

H14 **NAXÇIVAN AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ.**
Bakı, "Elm", 2018, 372 s.

ISBN 978-9952-514-18-6

Monoqrafiyada Naxçıvanın Azərbaycanda dövlətin yaranmasınadək olan dövrdəki mövqeyi, dövlətyaranma prosesindəki rolu araşdırılmış, Azərbaycanın qədim və orta əsrlər dövründəki dövlətlərlə münasibət və əlaqələri, Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti dövründəki vəziyyəti, Naxçıvanın muxtariyyətləşdirilməsi, onun Azərbaycanın dövlət müstəqilliyinin yenidən əldə edilməsi uğrundakı mübarizəsi, ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının Azərbaycan dövlətçiliyindəki yeri və roluna dair bir sıra məsələ və problemlər tədqiq edilmişdir.

Kitab tarixçi və tədqiqatçılar, ictimai elm nümayəndələri, eləcə də Azərbaycanın dövlətçilik tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

© Hacıyev İsmayıl, 2018



NAXÇIVANIN QƏDİM DÖVLƏTÇİLİK TARİXİ VARDIR.
BU, AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİDİR.

HEYDƏR ƏLİYEV

Azərbaycan xalqının ümummilli lideri

KİTABIN İÇİNDƏKİLƏR

Giriş 8

BİRİNCİ FƏSİL.
Naxçıvanın Azərbaycanda dövlət yaranma prosesində rolu.....13

1.1.Azərbaycan tarixində "dövlət" və "dövlətçilik" problemi və onun ilkin xronologiyası haqqında: müasir vəziyyətə baxış 13

1.2.Naxçıvan Azərbaycan coğrafiyasında: ərazisi, təbiəti və iqlim xüsusiyyətləri 15

1.3. Naxçıvan Azərbaycanda dövlətin yaranmasınadək olan dövrdə (ən qədim zamanlar-e.ə. III minillik) 18

1.4. Azərbaycanda dövlətin yaranmasına dair yeni müddəalar: tayfaların siyasi birlikləri və şəhər-dövlət başlanğıcı. Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesində rolu (e.ə. III minillik-e.ə. II minilliyin sonları/I minilliyin əvvəlləri) 25

İKİNCİ FƏSİL.
Azərbaycanın qədim dövlətləri və Naxçıvan 28

2.1. Naxçıvan Manna dövründə: siyasi proseslər və əlaqələr haqqında (e.ə. IX-VI əsrlər).....28

2.2. Naxçıvan Midiya və Əhəməni imperiyaları dövründə. Makedoniyalı İsgəndərin imperiyası ilə əlaqələrə dair (e.ə.VI əsrin əvvəlləri- e.ə.IV əsrin 20-ci illəri) 33

2.3. Naxçıvanın Atropatena dövlətində yeri və roluna dair. Naxçıvan ellinizm dövründə 40

2.4. Naxçıvanın adının ilk dəfə yazılı qaynaqlarda çəkilməsi. Naxçıvan Parfiya Arşakiləri dövründə (I-III əsrlər).....46

ÜÇÜNCÜ FƏSİL.
Azərbaycanın orta əsr dövlətləri və Naxçıvan 48

3.1.Naxçıvan Azərbaycanın cənubu və şimalı arasında dövlətçilik ənənələrinin birləşdirici faktoru kimi (III-VII əsrlər) 48

3.2.Azərbaycanda Ərəb Xilafəti hakimiyyətinin süqutu. Naxçıvanın yeni müstəqil dövlətlərin yaranması və möhkəmləndirilməsində rolu (IX –X əsrin 80-ci illəri) 53

3.3.Naxçıvanşahlıq: tarixşünaslıq qeydləri və tarixi haqqında (X əsrin 80-ci illəri-1065/66-cı illər) 60

3.4.Azərbaycanın IX-XI əsrlər dövlətçilik tarixində yeni meyillər və Naxçıvan (Qətran Təbrizinin əsərləri üzrə) 64

3.5. Naxçıvan Atabəylər dövlətinin mərkəzlərindən biri kimi (1136-1225-ci illər) 69

3.6. Naxçıvan Azərbaycanın dövlətçilik ənənələrinin davam etdirilməsi və bərpası uğrunda mübarizədə: Əlincə qalası, Naxçıvan tüməni, hürufizm və azadlıq mübarizəsi (XIII-XIV əsrlər) 82

3.7. Naxçıvan XV əsr Azərbaycan dövlətləri sistemində 89

3.8. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti və Naxçıvan (1501-1736-cı illər) 96

DÖRDÜNCÜ FƏSİL.
Naxçıvan xanlığı (1747-1828). Xanlığın Rusiya imperiyası tərəfindən işğalı və müstəmləkəçilik siyasətinə qarşı mübarizə (XIX- XX əsrin əvvəlləri) 107

4.1.Naxçıvan xanlığı. Rusiya imperiyası tərəfindən Naxçıvanın işğalı və xanlığın süqutu (1747-1828-ci illər) 107

4.2. Naxçıvanın Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı mübarizəsi (XIX- XX əsrin əvvəlləri) 120

BEŞİNCİ FƏSİL.
Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə 140

5.1.Naxçıvan Azərbaycanda dövlətin bərpası uğrunda mübarizə dövründə (1917, fevral-1918, may) 140

5.2.Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan 147

5.3.Araz- Türk Respublikası (1918, noyabr- 1919, mart) 153

5.4.Ermənilərin ərazi iddiaları. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə 160

ALTINCI FƏSİL.
Naxçıvanın muxtariyyətləşdirilməsi. Naxçıvan MSSR Azərbaycan SSR-in muxtar qurumu kimi 170

6.1. Naxçıvanın muxtariyyətləşdirilməsi 170

6.2. Naxçıvan MSSR Azərbaycan SSR-in muxtar qurumu kimi (1920-ci illərin ortaları-80-ci illərin sonu) 184

YEDDİNCİ FƏSİL.
Naxçıvan Azərbaycanın dövlət müstəqilliyinin yenidən əldə edilməsi və möhkəmləndirilməsi uğrunda mübarizədə 200

7.1.Naxçıvan Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ilk dövründə (1980- ci illərin sonu-90-ci illərin başlanğıcı) 200

7.2. Naxçıvan tarixində Heydər Əliyev dövrü (1990-1993-cü illər) 207

7.2.1.Heydər Əliyevin Naxçıvandakı fəaliyyətinin SSRİ-nin dağılmasında və Azərbaycanın müstəqillik əldə etməsində rolu (1990-1991-ci illər) 207

7.2.2.Heydər Əliyevin Naxçıvanda Azərbaycan dövlətçiliyini möhkəmləndirməsi. Naxçıvanın muxtar dövlət statusunun təmin edilməsi üçün zəmin hazırlanması (1991, oktyabr-1993, iyun) 218

7.3.Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası. Naxçıvanın yeni statusunun təsbit edilməsi 235

SƏKKİZİNCİ FƏSİL.
Naxçıvan Muxtar Respublikasının müasir Azərbaycan dövlətçiliyində rolu (1995-ci ilin sonlarından bizim günlərədək) 243

8.1.Naxçıvanda yeni hakimiyyət orqanlarının təşkili. Naxçıvanın yeni Konstitusiyasının qəbul edilməsi 243

8.2. Naxçıvan: muxtar dövlətin əsas inkişaf istiqamətləri və nailiyyətləri 246

Nəticə 264

Biblioqrafiya 268

Adlar göstəricisi 292

Əlavələr 330

GİRİŞ

Naxçıvan Azərbaycanın tarixən formalaşmış ən mühüm regionlarından biridir. Tarixi inkişaf elə gətirmişdir ki, Azərbaycanın bölgələri içərisində yalnız Naxçıvan müasir tariximizdə muxtar qurum kimi ayrılmışdır. Müstəqillik əldə etdikdən sonra isə Naxçıvanın mühüm əhəmiyyəti əsas götürülərək Azərbaycan Respublikasının yeni, 1995-ci il Konstitusiyasında onun statusu yenidən nəzərdən keçirilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının 134-cü maddəsinə görə "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir."[1] Bu hüquqi-nəzəri müddəa Azərbaycanın tarixinin bütün sahələri, xüsusilə onun universal əksi olan dövlətçilik tarixində Naxçıvanın yeri və rolunun kompleks şəkildə tədqiqini irəli sürmüşdür. Təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev məhz, Azərbaycan Respublikası Konstitusiya Komissiyasının Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinin müzakirəsinə həsr edilmiş 1998-ci il 14 yanvar iclasında bu məsələ üzərində xüsusi dayanaraq qeyd etmişdir ki, **"Biz bu gün çox əhəmiyyətli, vacib olan bir məsələni müzakirə edirik, müstəqil Azərbaycan Respublikasında dövlətçiliyin, qanunvericiliyin, qanunvericilik aktlarının yaranması prosesinin həyata keçirilməsi ilə məşğuluq...Naxçıvan Azərbaycanın qədim torpağıdır və qədim zamanlardan Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Deyə bilmərəm ki, Naxçıvanın tarixi istənilən qədər yazılıbdir, ancaq Naxçıvanın həm qədim-eramızdan əvvəlki tarixinin, həm orta əsrlər dövrü, həm də son əsrlər dövrü tarixinin nə qədər zəngin olduğunu mövcud, əlimizdəki yazılardan, kitablardan görmək mümkündür. Naxçıvan həqiqətən zəngin tarixə malik Azərbaycan diyarıdır, torpağıdır. Azərbaycanda vaxtilə şahlıqlar da, xanlıqlar da, dövlətlər də olubdur...Ancaq eyni zamanda, Naxçıva-**

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Yeni redaksiyada. Bakı, 2016, s. 54

nın tarixi nə qədər zəngindirsə, o qədər də kəşməkeşlidir, mürəkkəbdir...”[2] Burada faktik olaraq, Naxçıvanın Azərbaycanın müasir dövlətçiliyindəki rolunun öyrənilməsi vəziyyəti ilə birgə, bu problemin onun tarixi ilə üzvi əlaqəsinə dair konseptual baxış ifadə olunmuşdur.

Dövlətin meydana gəlməsi və dövlət anlayışı haqqında qədim zamanlardan etibarən müxtəlif baxışlar meydana gəlmişdir.[3] Dövlət məsələsini xüsusi tədqiq edən müasir politoloji ədəbiyyatda qeyd edilir ki, İntibah dövrünə qədər dövləti bildirmək üçün konkret anlayışlardan-knyazlıq, krallıq, tiraniya, respublikadan istifadə edilirdi. Onun bütün formalarına tətbiq edilən “dövlət” anlayışını (italiyanca-stato) ilk dəfə N.Makiavelli (1469-1527) tətbiq etmişdir. Bu ifadə tədricən italyan dilindən digər Avropa dillərinə də keçmişdir.[4]

Dövlətin yaranmasına gəldikdə burada müxtəlif nəzəriyyələr- “psixoloji nəzəriyyə”, “ictimai müqavilə” nəzəriyyəsi və başqalarını qeyd etmək olar. Dövlətin yaranmasında xarici faktorların rolu da qəbul edilir.

Dövlətin meydana gəlməsi və onun təbiətinə dair tarixi materialistcəsinə anlayış nəzəriyyəsində də bəhs edilir. Bu nəzəriyyəyə uyğun olaraq, tarixi inkişafın ümumi qanunauyğunluğu qəbul edilir, cəmiyyət bir-birini əvəz edən ictimai-iqtisadi formasiyalara bölünürdü. Çox maraqlıdır ki, bu nəzəriyyənin banisi K.Marks ilk dəfə ictimai iqtisadi formasiyaları fərqli şəkildə müəyyənləşdirmişdir. O, 1859-cu ildə yazdığı “Siyasi iqtisadın tənqidinə dair” əsərinin Müqəddiməsində yazırdı ki, “Asiya, antik, feodal və müasir burjua istehsal üsullarını ümumiyyətlə, iqtisadi-ictimai formasiyaların mütərəqqi dövrləri kimi qeyd etmək olar.”[5] Asiya istehsal üsulu sonralar sərf-nəzər edilmiş, tarixi ədəbiyyatda isə buna haqq qazandırılmışdır.[6] Dövlət məsələsi ictimai-iqtisadi formasiyalara uyğunlaşdırılmışdır. F.Engels “Ailənin, xüsusi mülkiy-

---

[2] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 14-cü kitab. Bakı, 2005, s.73

[3] Bax: Platon. Dövlət. Bakı, 1999 və s.

[4] Ирхин Ю.В., Зотов В.Д., Зотова Л.В. Политология. М., 1999, с.220

[5] Marks K., Engels F. Seçilmiş əsərləri. Üç cilddə, 1-ci cild, Bakı, 1978, s.554

[6] Asiya istehsal üsulunun tarixşünaslığı haqqında bax: Никифоров В.Н. Восток и всемирная история. М., 1975

yətin və dövlətin mənşəyi" adlı əsərində xüsusi olaraq, bu məsələnin üzərində dayanmışdır. Onun fikirlərini davam etdirən Lenin dövlətin meydana gəlməsi və mahiyyəti haqqında 1919-cu il iyulun 11-də Sverdlov universitetində mühazirəsində belə demişdir: "Ümid edirəm ki, dövlət məsələsində siz, Engels tərəfindən yazılmış "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" əsəri ilə tanış olacaqsınız. Bu əsər müasir sosializmin əsas əsərlərindən biridir... Kitab dövlətin nə cür əmələ gəldiyi haqqında tarixi bir xülasə ilə başlanır... Bu məsələdə hər şeydən əvvəl bu cəhətə diqqət vermək lazımdır ki, dövlət heç də həmişə mövcud olmamışdır. Elə zaman olub ki, dövlət yox idi. Cəmiyyət nə zaman və harada siniflərə bölünürsə, istismarçılar və istismar olunanlar nə zaman meydana gəlirsə, dövlət də o zaman və orada meydana gəlir."[7] Tarixi materialistcəsinə anlayış nəzəriyyəsinə uyğun olaraq dövlətin sonrakı inkişafı ictimai-iqtisadi formasiyalara uyğunlaşdırılmış, quldar, feodal, burjua və sosialist dövlətləri ayrılmışdır. Beləliklə, aydın olur ki, dövlətin yaranmasında və onun təbiəti məsələsində vahid fikir yoxdur.

Dövlət və ya dövlətçilik haqqında vahid fikir olmadığı kimi, dövlətin yaranmasının gedişinə dair (bu proses politogenez də adlandırılır) də vahid fikir yoxdur. Qədim dövrdə dövlətin meydana gəlməsinə dair təcrübənin ümumiləşdirilməsi belə bir fikrə gəlməyə imkan vermişdir ki, əgər ibtidai quruluşun inkişafının son pilləsində bəzən böyük tayfa birlikləri (tayfa ittifaqları, konfederasiyası) yaranırsa, ilk dövlətlər həmişə və hər yerdə böyük olmayan miqyasda, məhz bir ərazi icması və ya daha çox bir-biri ilə sıx əlaqəsi olan icmaların miqyasında meydana gəlir. Kiçik ilkin dövlətin mərkəzi kimi şəhər yaranır. Bu şəhər-dövlətlər çox vaxt (lakin mütləq olmayaraq) ictimai idarə orqanlarının (ağsaqqallar şurası, xalq yığıncağı) qalması ilə monarxiya quruluşunda olur.[8] Bu fikir kitabın sonrakı hissəsində daha da inkişaf etdirilir və qeyd edi-

---

[7] Lenin V.İ. Əsərlərinin tam külliyyatı. 39-cu cild, Bakı, 1983, s.73-74

[8] История древнего мира. Под ред. И.М.Дьяконова и др. Изд. 3-е, исправ. и доп. М., 1989, Кн. 1, с.40

lir ki, Qədim Şərqin bütün tarixi göstərir ki, ən qədim dövlətlər dərhal bütöv imperiyalar şəklində qəbilə ittifaqlarından əmələ gəlmir, təbii olaraq vahid mərkəzə (dağ vadisi, magistral suvarma kanalı) meyil edən ayrıca ərazi icmalarından, yəni əksər hissəsi şəhər-dövlətlər və nomlardan yaranır.[9] Digər bir akademik nəşrdə isə dövlətin yaranmasına dair xüsusi yarımbaşlıq ayrılır və burada problem, bilavasitə ibtidai icmanın dağılmasının son mərhələsindən izah olunur. Bu dövrdə məhz tayfanın ön plana çıxması vurğulanır.[10]

Bu nəzəri və təcrübi müddəaları nəzərə alaraq, Azərbaycanda dövlətin meydana gəlməsi və onun tarixi-coğrafi bölgələrindən olan Naxçıvanın həmin prosesdə rolunun nəzərdən keçirilməsi politogenez məsələsini yeni müddəalar ilə zənginləşdirə bilər.

Bu problem ilk dəfə müstəqil tədqiqat problemi kimi 1999-cu ildə müdafiə edilən "Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində" adlı dissertasiyada irəli sürülmüşdür.[11] Həmin ildən keçən dövr ərzində bütövlükdə Azərbaycanın dövlətçilik tarixi, o cümlədən Naxçıvanın bu prosesdə roluna dair yeni elmi araşdırmalar aparılmışdır. Bu tədqiqatların nəticələri Azərbaycan tarixinin yeddi cildlik[12], Naxçıvan tarxinin üç cildlik[13] akademik nəşrlərində ümumiləşdirilmişdir. Bununla eyni zamanda, müasir dövrdə dünyada dövlətçilik tarixinə artan maraq və aparılan tədqiqatlar kontekstində Azərbaycan dövlətçiliyinin, o cümlədən onun xüsusi istiqaməti kimi bu prosesdə Naxçıvanın rolu məsələsi aktual olaraq qalmaqdadır. Deyilənləri əsas götürərək, "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" mövzusuna dair monoqrafik tədqiqat hazırlanması zəruri olmuşdur.

---

[9] История древнего мира. Под ред. И.М.Дьяконова и др. Изд. 3-е, исправ. и доп. М., 1989, Кн. 1, с. 397

[10] История первобытного общества. Эпоха классообразования. М., 1988, с.227

[11] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində. Doktorluq dissertasiyasının avtoreferatı. Bakı, 1999

[12] Azərbaycan tarixi. Yeddi cilddə. Bakı, 2007-2008

[13] Naxçıvan tarixi. Üç cilddə. Naxçıvan, 2013-2015

Bu məqsədi həyata keçirmək üçün qarşıya müasir tarix elminin və politoloji araşdırmaların irəli sürdüyü vəzifələr qoyulmuşdur. Bunun üçün ilk əvvəl diqqət Azərbaycan tarixində "dövlət" və "dövlətçilik" problemi və onun xronologiyasına dair baxışların müəyyən edilməsinə yönəlmişdir. Bu məsələ eyni zamanda, nəzəri xarakter daşıyıb, mövcud vəziyyəti öyrənməklə bərabər, tədqiqatın indiyədək nəzərə alınmayan yeni istiqamətlərini müəyyən etməyə imkan vermişdir. Bunun üçün Azərbaycan coğrafiyasında Naxçıvanın ərazisi, təbiəti və iqlim xüsusiyyətlərinin müəyyən edilməsi bir vəzifə olaraq ortaya çıxmışdır. İlk dəfə oaraq, Azərbaycanda dövlətin yaranmasınadək olan dövrü əhatə edən dövlətyaranma prosesi ayrılmış, Naxçıvanın bu prosesdəki rolu problemi irəli sürülmüşdür. Sonrakı mərhələdə xronoloji-problem prinsipi əsasında Azərbaycan dövlətçiliyində Naxçıvanın rolu və yeri müəyyən edilmişdir.

Təqdim edilən monoqrafik tədqiqat elmi-nəzəri və təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edir. Müasir dünyada ayrı-ayrı ölkələrdə, o cümlədən Azərbaycanın özündə Dağlıq Qarabağın timsalında meydana gələn separatizm şəraitində muxtar qurumun unitar dövlət üçün əhəmiyyətinin Azərbaycan nümunəsi verilir. Onun təcrübəsi dövlətlərin ərazi bütövlüyünün pozulması meyillərinin qarşısının alınması üçün elmi-əməli resurs kimi çıxış edir. Təsadüfi deyildir ki, Azərbaycan dövləti Dağlıq Qarabağ üçün də belə bir model barədə fikir irəli sürmüşdür.[14]

Azərbaycan dövlətçiliyi tarixindəki yeri və rolu sahəsində Naxçıvanın tarix boyu qazandığı zəngin irs müasir dövrdə də onun bu sahədəki missiyasının yüksək səviyyədə həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

[14] Azərbaycvan Respublikasının Prezidenti İlham Əliyevin "RİA Novosti" Agentliyinə müsahibəsi// https://ria.ru/interview/20161018/1479448628.html

BİRİNCİ FƏSİL

NAXÇIVANIN AZƏRBAYCANDA DÖVLƏTYARANMA PROSESİNDƏ ROLU

1.1.Azərbaycan tarixində "dövlət" və "dövlətçilik" problemi və onun ilkin xronologiyası haqqında: müasir vəziyyətə baxış

Azərbaycan tarixşünaslığında dövlətin meydana gəlməsi və dövlət məfhumu, əsasən tarixi materialistcəsinə anlayış nəzəriyyəsi əsasında izah edilir.[15] Bu nəzəriyyəyə uyğun olaraq, Azərbaycan tarixi bir-birini əvəz edən ictimai-iqtisadi formasiyaların tarixi kimi nəzərdən keçirilmişdir.

SSRİ-nin dağılması və müstəqillik əldə edilməsinə baxmayaraq, müasir Azərbaycan tarixşünaslığında bu konsepsiya davam etməkdədir. Yeddicildlik Azərbaycan tarixi məhz bu konsepsiya əsasında yazılmışdır. Həmin kitabların birinci cildində arxeoloji material bu konsepsiyaya uyğunlaşdırılır və Azərbaycan ərazisində dövlətin meydana gəlməsinin belə bir təsviri verilir: "İbtidai cəmiyyətin dağılması ərəfəsində zorakılıqla zəbtetmə və talançılıq bəzi qəbilələrdə varlanma mənbəyi kimi tez-tez baş verən hadisələrə çevrilir... Müvafiq dövr cəmiyyətində qəbilə başçıları, mötəbər şəxslər, hərbçilər, qullar və s. aydın seçilir. Bu, hər şeydən əvvəl, yeni ictimai-iqtisadi əlamətlərin yaranması ilə əlaqədar olub, yeni yaranmaqda olan ictimai quruluşun zəruri "carçıları" idi. Beləliklə, bu dövr ibtidai-icma quruluşunun dağılması prosesində son mərhələ-siniflərin və dövlətin yaranma ərəfəsi idi."[16] Burada "siniflər yaranır-dövlət yaranır" formulunun yeganə yol kimi qəbul edilməsi aydın olur. Azərbaycan tarixinin akademik nəşri ilə eyni zamanda, digər nəşrlərdə müəyyən ziddiyyət də müşahidə edilir.

Azərbaycan tarixi boyunca Azərbaycan dövlətçiliyindən bəhs edilərkən tarixi materialistcəsinə anlayışa uyğun gəlməyən məqam-

---

[15] Sovet tarix elminin dövlət haqqında baxışları və onun dövlətin öyrənilməsinə tətbiqi məsələləri Sovet Tarix Ensiklopediyasında geniş şəkildə ümumiləşdirilmişdir. Bax: Советская Историческая Энциклопедия. Главный редактор Е.М.Жуков. т. 4, М., 1963, с. 648-662

[16] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, Bakı, 2007, s. 166

lar üzərindən sükutla keçilir. IX-X əsrlərdə meydana gələn dövlətlər, feodal dövlətləri kimi xarakterizə olunduğu halda[17] Manna dövləti, Atropatena və ya Albaniya dövlətlərinin xarakteri tam aydınlaşdırılmır.

Azərbaycan tarixşünaslığında dövlət və dövlətçilik anlayışlarının şərhinin problemi onun yalnız qeyri-ardıcıllığı ilə bitmir. Azərbaycan dövlətlərinin demək olar ki, zorakılıq və zülm vasitəsi kimi təqdim edilməsi, dövlətin milli tarixi inkişafda rolunu zərbə altında qoyur, onun ənənələrini və varisliyini inkar edir, xalqın dövlətçilik ruhunu sarsıdır və s. Təəssüflə qeyd etmək lazımdır ki, ümumiləşdirilmiş Azərbaycan tarixində qəbul edilmiş belə bir yanaşma, Azərbaycan fəlsəfəsi, dövlət və hüquq tarixi kimi sahələrə də mənfi təsir etmiş, mövcud dövlət quruluşu və idarə sistemi əsasən, neqativ səpgidə nəzərdən keçirilmişdir.

Azərbaycan tarixində "dövlət" və "dövlətçilik" anlayışları kifayət qədər elmi-nəzəri bazaya əsaslanmadığına görə, dövlətin yaranması şəraiti və ilkin xronologiyasının şərhi də diqqəti cəlb edir. Azərbaycan tarixinin yeddicildlik akademik nəşri və digər ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarında bu suallara aydın cavab tapmaq mümkün deyil. Bütün ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarında dövlətin meydana gəlməsi eyni yanaşmaya əsaslanır:

1) problem arxeoloji dövrləşdirmə çərçivəsində (paleolit, mezolit, neolit, eneolit, tunc və ilk dəmir dövrü və ya, ən qədim zamanlardan e.ə. II-I minilliyin əvvəllərinədək) nəzərdən keçirilir;

2) sonra xronologiya pozularaq, e.ə. III-II minilliklərdə və ya II-I minilliklərdə tayfa və tayfa birliklərindən bəhs edilir, yəni xronologiya pozularaq, yenidən əvvəlki dövrə qayıdılır.[18]

İlk dövlətin yaranmasının xronologiyası isə fərqli şəkildə təqdim edilir. Yeddicildlik Azərbaycan tarixinin birinci cildinə görə "Şimali və Cənubi Azərbaycan vilayətlərinin sosial və iqtisadi mənzərəsində böyük fərq yox idi. ***E.ə. II minilliyin ikinci yarısı*** ibtidai icma quruluşunun intensiv surətdə dağılması və ilkin sinifli qurumların yaranması ilə səciyələnir. E.ə. I minilliyin əvvəlində Urmiyab-

---

[17] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, Bakı, 2007, s. 311-386

[18] Bax:Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, birinci və ikinci bölmələr; Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. İkinci nəşri. Bakı, 2009, birinci və ikinci bölümlər

oyu rayonda fərqləndirici əlamət daha qəbilə-tayfa bölgüsü deyil, ərazi bölgüsündən ibarət olan mövcud xırda vahidlərlə bərabər, nisbətən ***iri siyasi qurumların*** yaranması idi (burada və sonra kursiv mənimdir.-İ.H.)."[19] Uzaq keçmişdən 1870-ci ilə qədər Azərbaycan tarixinin "Kiçik dövlət qurumları" adlı yarımbaşlığında yazılır: "***M.ö. II minilliyin sonunda*** Güney Azərbaycanda iqtisadi-mədəni yüksəliş icma cəmiyyətinin dağılmasının başa çatması ilə müşaiyət olunur. Bunun nəticəsində ***m.ö. X yüzildən gec olmayaraq*** həmin torpaqlarda ***kiçik siyasi birləşmələr*** yarandı."[20] Təqdim olunan iqtibaslarda zamanın və siyasi qurumların miqyasına dair fikirlərin müqayisəsi mövcud ziddiyyəti aydın şəkildə göstərir. Digər bir ümumiləşdirilmiş Azərbaycan tarixində isə "Azərbaycanın ən qədim dövlətləri" adlı yarımbaşlıq ayrılır və ***e.ə. III minillikdə*** mövcud olan Aratta, Lullubi və Kuti dövlətlərindən bəhs edilir.[21]

Nəzərdən keçirilən iqtibaslar ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarında "dövlət" və "dövlətçilik" problemləri kimi ilk dövlətlərin meydana gəlməsi, onun coğrafiyası və xronologiyasında ciddi fikir ayrılığı olduğunu ortaya çıxarır. Bu məsələlərdə tarixi obyektivliyin bərpası üçün Azərbaycan dövlətçiliyinin regional aspektlərinin araşdırılmasına böyük ehtiyacı bir daha üzə çıxarır.

1.2.Naxçıvan Azərbaycan coğrafiyasında: ərazisi, təbiəti və iqlim xüsusiyyətləri

Coğrafi amillərin tarixi inkişafda mühüm rolu olmasına baxmayaraq,[22] uzun müddət bu məsələyə kifayət qədər diqqət yetirilməmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında müasir dövrdə də belə bir vəziyyət davam edir. Yeddicildlik Azərbaycan tarixinin akademik nəşrinin birinci cildində Azərbaycanın təbii-coğrafi şəraitinə yer ayrılsa da, bu hissə müstəqil oçerk səciyyəsi daşıyır və Azərbaycanın tarixi inkişafı ilə əlaqələndirilmir.[23] Naxçıvanın bütövlükdə Azərbaycan

---

[19] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.188
[20] Yenə orada, Uzaq keçmişdən 1870-ci ilə qədər, s.52
[21] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Bakı, 2005, s.64-76
[22] Bax:Дулов А.В. Географическая среда и история России. Конец XV-середина XIX в. М., 1983 и др.
[23] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s. 43-50

tarixində, o cümlədən Azərbaycanın dövlətçilik tarixindəki rolunu tədqiq etmək üçün onun təbii-coğrafi şəraitindən başlamaq lazımdır.

Azərbaycanın tərkib hissəsi kimi onun təbii-coğrafi şəraitinin tərkib hissəsi olmasına baxmayaraq, Naxçıvanın təbii-coğrafi şəraiti özünəməxsus xüsusiyyətlərə malik olmuşdur ki, bu da onun tarixdəki yeri və roluna da önəmli təsir göstərmişdir.

Azərbaycanın ərazisi düzənlik və dağlıq relyefə malikdir. Naxçıvanın ərazisi Böyük Qafqaz, Kiçik Qafqaz və Lənkəranla eyni zamanda, Azərbaycan Respublikasının dağlıq vilayətləri sırasına daxildir. Burada Dərələyəz və Zəngəzur sıra dağları yerləşir. Dərələyəz dağ silsiləsində ən hündür zirvə Küküdağ (3120 *m*), Zəngəzurda isə Qapıcıq (3906 *m*) dağıdır. Ümumiyyətlə , Naxçıvan ərazisinin böyük bir hissəsini hündürlüyü min metrdən yuxarı olan dağlar təşkil edir. Qalan hissə isə Arazboyu düzənliklərdən (Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa və b.) ibarətdir.

Naxçıvanın təbii-coğrafi şəraitinin ən önəmli cəhətlərindən biri də faydalı qazıntılar və mineral bulaqlarla zəngin olmasıdır. Naxçıvanda qədim zamanlardan başlayaraq mis, qızıl, kükürd və b. təbii sərvətlər çıxarılırdı. Mineral su mənbələri isə Naxçıvanı bütün dünyada məşhur etmişdir. Hazırda Naxçıvan Muxtar Respublikasında 250-dən çox mineral su mənbəyinin qeydə alındığı bildirilir. Belə güman etmək olar ki, onların müəyyən hissəsi Naxçıvanın ilk sakinlərinə də məlum olmuşdur. Azərbaycan iqlim zənginliyinə görə fərqlənən bir ölkədir. Burada 11 iqlim tipindən 9-u mövcuddur. Naxçıvan iqliminə görə Azərbaycanda fərqli yer tutan regionlardan biridir. Burada "yayı quraq keçən soyuq yarımsəhra və quruçöl iqlimi hakimdir. Kontinental iqlimə malik olan bu iqlim tipi daxilində illik mütləq minimum temperatur mənfi 32 dərəcə, illik mütləq maksimum müsbət temperatur isə 43 dərəcə olur".[24] Bu ümumi göstərici ilə birlikdə, Naxçıvan ərazisində 5 iqlim tipi (yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl, qışı quraq keçən yarımsəhra və quru çöl, yayı quraq keçən soyuq yarımsəhra və quru çöl, yayı quraq və sərin keçən soyuq iqlim və dağlıq tundra iqlimləri) ayrılır. Belə iqlim şəraiti Naxçıvan ərazisində meşə örtüyünün az olmasına səbəb olmuşdur.

---

[24] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.47

Azərbaycanda iki böyük çay-Kür və Araz çayları vardır. Naxçıvan hidroqrafik baxımdan Araz çayı hövzəsinə aiddir. Naxçıvanın çayları müasir şəbəkəni formalaşdırana kimi, tarixi inkişaf boyunca müəyyən yer dəyişikliyinə uğramışdır. Əsas insan məskənləri də bu çayların ətrafında meydana gəlmiş, yer dəyişikliklərinə uyğun olaraq, dəyişmişdir. Naxçıvan quraq iqlimə malik olduğundan burada geniş göl şəbəkəsi olmamışdır. Bununla belə Göygöl, Salvartı, Qanlıgöl və Batabat kimi göllər formalaşmışdır. Onlar Naxçıvanın hidroqrafik şəbəkəsində özünəməxsus yer tutur.

Naxçıvanın torpaq örtüyü mürəkkəbliyi ilə fərqlənir. Quraq iqlim nəticəsində dağlarda meşə örtüyünün demək olar ki, olmaması torpaqların eroziyasına səbəb olmuşdur. Bununla belə düzən hissədəki məhsuldar torpaqlar, əkinçiliyin meydana gəlməsi və inkişafına mühüm təsir göstərmişdir.

Naxçıvanın təbii-coğrafi şəraiti, xüsusilə iqlim şəraiti onun flora və faunasına həlledici təsir etmişdir. Bu baxımdan Naxçıvanın ərazisi Azərbaycanın digər regionlarına nisbətən daha zəngindir. Bitki örtüyü və heyvanlar aləmi ilk insanın məskunlaşması və həyatını davam etdirməsi üçün mühüm əhəmiyyətə malik olmaqla eyni zamanda, sonrakı tarixi inkişaf üçün də əlverişli şərait yaradan amillərdən olmuşdur.[25]

Naxçıvanın təbii-coğrafi şəraiti Ümumazərbaycan kontekstilə birgə, Yaxın və Orta Şərq kontekstində də araşdırılsa onun unikallığı və tarixi inkişaf üçün hərtərəfli stimula malik olması da ortaya çıxar. İlk insanın məskunlaşmasında və inkişafında məhz təbii amillərin vacib yer tutması nəzərə alınsa[26] Naxçıvanın dövlətyaranma prosesində xüsusi yerə malik olması qeyd edilə bilər. Lakin hər bir regionun təbii-coğrafi inkişafında önəmli yer tutan dəniz və ya dənizə çıxış amili Naxçıvanın sonrakı tarixi inkişafına təsir göstərdi. Azərbaycanın dənizətrafı və dənizə çıxışı olan regionlarının inkişafı nisbətən sürətlə getməyə başladı. Naxçıvan təbii-coğrafi şəraitindəki bu xüsusiyyəti digər faktorlar hesabına aradan qaldırmağa və Azərbaycan dövlətçiliyi üçün vacib rol oynamaqda davam etdi.

---

[25] Naxçıvanın təbii-coğrafi şəraiti haqqında daha ətraflı bax: Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999; Talıbov T. H. Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı, 2001 və b.

[26] Bu barədə mövcud olan fikirlər haqqında bax: Природа и древний человек. М., 1981

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

1.3.Naxçıvan Azərbaycanda dövlətin yaranmasınadək olan dövrdə (ən qədim zamanlar-e.ə. IV minillik)

Naxçıvanın ən qədim tarixi, əsasən arxeoloji dövrləşmə-paleolit, mezolit, eneolit, tunc və ilk dəmir dövrü üzrə araşdırılmışdır. Azərbaycan arxeologiyasının ən mühüm tərkib hissəsi olan Naxçıvan arxeologiyası yüksək elmi nailiyyətləri ilə, nəinki ölkə, eləcə də dünya arxeologiyasını zənginləşdirmişdir. Azərbaycanın müstəqillik əldə etməsindən sonrakı dövrdə Naxçıvan arxeologiyası daha dinamik inkişaf etmişdir. Bunun nəticəsində Naxçıvan tarixinin ilkin tarixi xronologiyasının dərinləşdirilməsi mümkün olmuşdur. Üçcildlik Naxçıvan tarixinin birinci cildində qeyd edildiyi kimi "Əgər otuz il bundan əvvəl diyarın tarixi əslində ancaq 100-80 min il xülasə oluna bilirdisə, indi ***yeni arxeoloji tədqiqatlar nəticəsində*** əldə edilmiş maddi-mədəniyyət nümunələri əsasında biz haqlı olaraq ***Naxçıvan tarixini 500-300 min il bundan əvvəl*** başlayırıq (kursiv mənimdir.-İ.H.)."[27]

Hazırda Naxçıvan arxeologiyasının bütün dövrləri üzrə elmi nöqteyi-nəzərdən dəyərli abidələr sistemi aşkar edilmiş, burada yerli və xarici arxeoloqların iştirakı ilə qazıntılar həyata keçirilir.[28] "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011, 20-24 iyul) və "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012, 27-28 iyul) beynəlxalq simpoziumların materialları Naxçıvan arxeologiyasının böyük nailiyyəti hesab oluna bilər.[29]

Naxçıvan arxeoloji abidələri Azərbaycan arxeologiyası üçün də böyük əhəmiyyətə malikdir. Bu barədə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simpoziumda "Azərbaycanın arxeoloji tədqiqatlarında Naxçıvan abidələrinin yeri" adlı məruzədə xüsusi bəhs edilmişdir. Həmin məruzədə qeyd edilmişdir ki, "Azərbaycan arxeologiyasının olduqca çətin və həlli vacib olan problemlərindən biri eneolit və ilk tunc dövrləri arasında mədəni varislik problemlərinin öyrənilməsidir. Uzun illərdir ki, bu məsələnin həlli tədqiqatçılar arasında həmişə mübahisə mövzusu olaraq qalır. Naxçıvan ərazisində yerləşən Ovçular

---

[27] Naxçıvan tarixi. Üç cilddə, birinci cild. Naxçıvan, 2013, s.13

[28] Naxçıvanın arxeoloji tədqiqi haqqında bax: Yenə orada, s.39-41

[29] Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2012; Naxçıvan: ilkin şəhər və Duzdağ. (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2013

təpəsi, Maxta, Xələc və Plovdağ abidələrində aparılan son arxeoloji tədqiqatlar bu problemin həllinə müəyyən aydınlıq gətirmişdir. Bu abidələrdə aşkar edilmiş arxeoloji tapıntılar, xüsusilə keramika məmulatı eneolit dövründən ilk tunc dövrünə keçidin bütün əlamətlərini özündə əks etdirir. Aparılan son tədqiqatlar sübut edir ki, e.ə.IV-III minilliklərdə Şimali Qafqazdan Suriya və Fələstinədək geniş yayılmış Kür-Araz mədəniyyətinin ilkin vətəni məhz Naxçıvan-Azərbaycan ərazisidir. Naxçıvan diyarı təbii-coğrafi mövqeyinə görə tarixin bütün dövrlərində Yaxın Şərqdə və Ön Asiyada gedən siyasi-mədəni proseslərdə yaxından iştirak etmiş və şimal regionları ilə əlaqədar bilavasitə körpü rolunu oynamışdır."[30]

Arxeoloji materiallar ən qədim dövr tarixini öyrənmək üçün yeganə mənbə kimi unikal əhəmiyyətə malikdir. Lakin ibtidai icma cəmiyyətinin tarixinin, o cümlədən dövlətçilik tarixinin tədqiqi ümumi tarixi dövrləşdirmənin tətbiqini zəruri edir.

Ümumi tarixi dövrləşməyə görə dövlətəqədərki dövrü praicma, yaxud ulu icma (aşağı və orta paleolitə uyğundur), ilkin ibtidai (yuxarı paleolit və mezolit) və son ibtidai (neolit) icma mərhələsinə bölünən ibtidai nəsli icma mərhələsi, nəhayət, bərabərsizliyin meydana gəlməsi və dövlətin formalaşması (yuxarı neolit, eneolit və ilk tunc dövrü) dövrünü ayırmaq olar.[31] İbtidai cəmiyyət və ya dövlətəqədərki tarixin əsas məsələləri, adətən bu mərhələlər əsasında nəzərdən keçirilir.

Azərbaycanda aşkar edilən arxeoloji abidələr dövlətəqədərki dövrün, eləcə də dövlətyaranma prosesinin bütün mərhələlərini izləməyə imkan verir.

Ulu icma zamanı insanlar sürü şəklində yaşamışdır. Belə bir icma 20-30 nəfərdən ibarət olurdu. İnsanların əsas məşğuliyyəti ovçuluq və yığıcılıq idi. Ovçuluq ilə kişilər, yığıcılıq ilə qadınlar məşğul olurdu. İnsanlar arasında kütləvi nikah-promiskuitet mövcud olmuşdur. Orta paleolit və ya mustye dövrünün sonlarına doğru ulu icma dağılmağa başlayır və nəsli qəbilə icmasına keçid baş verir.

Son elmi araşdırmalara görə qədim insan yaşayış məskənləri altı milyon il bundan əvvələ aiddir. Deməli, ulu icmanın tarixi də həmin

---

[30] Rəhimova M. Azərbaycanın arxeoloji tədqiqatlarında Naxçıvan abidələrinin yeri// Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi, s.247

[31] Алексеев В.П., Перщиц А.И. История первобытного общества. М., 1990, с.16

dövrdən başlanır. Azərbaycandakı arxeoloji tapıntılar burada ulu icmanın 1,5-2 milyon il bundan əvvəl başladığını söyləməyə əsas verir. Çoxcildlik Azərbaycan arxeologiyasının daş dövrünə həsr edilmiş birinci cildində qeyd edildiyi kimi, "Qafqaz ərazilərində aparılan arxeoloji tədqiqatlar nəticəsində yaşı 2 milyon ilə bərabər olan maddi mədəniyyət nümunələri, heyvan sümüklərinin qalıqları, paleoantropoloji tapıntıları hələlik Dmanisi (bu bölgə də tarixi-coğrafi Azərbaycan ərazisinə daxildir.-İ.H.) paleolt düşərgəsində, Azərbaycanın Azıx paleolit düşərgəsinin ən aşağı təbəqələrində və Cəbrayıl rayonu ərazisində qeydə alınmışdır."[32] Azıx mağarası ilə eyni zamanda, Tağlar (Qarabağ), Damcılı və Daşsalahlı (Qazax) abidələrinin və b. tapıntıları da ulu icma dövrü haqqında təssəvvür yaratmağa imkan verir.

Ulu icma dövrünü, xüsusilə onun son mərhələsini (orta paleolit) Naxçıvanda da izləmək mümkündür. Son tədqiqatlara görə Naxçıvan ərazisində insanların məskunlaşması aşağı paleolit dövrünə, təxminən 500-300 min il bundan əvvələ aid edilir. Aşağı paleolit dövrü müəyyən tapıntılar üzrə öyrənildiyi halda,[33] orta paleolit (mustye) ayrıca arxeoloji abidə olan Qazma mağarası (Şərur rayonu Tənənəm kəndi) ilə təmsil olunur. İlk dəfə 1983-cü ildə qeydə alınan mağarada, 1987-1990-cı illərdə ardıcıl tədqiqatlar aparılan zamanı burada altı təbəqə aşkar edilmişdir.[34] Qazma mağarasından tapılmış daş məmulatlarının hazırlanma texnikası və tipoloji xüsusiyyətləri insanların burada 80-90 min il əvvəldən məskunlaşdığını sübut edir[35]. Buradan əldə edilmiş maddi qalıqların təhlili nəticəsində aydın olmuşdur ki, "Qazma mağarasından aşkar edilmiş əmək alətləri Cənubi Qafqaz və Yaxın Şərqin Mustye dövrünə aid həmdövr abidələrindən aşkar edilmiş əmək alətləri ilə bənzərdir. Arxeoloji materialların öyrənilməsi göstərir ki, mağarada məskən salan qədim insanların əsas məşğuliyyəti ovçuluq olmuş, yığıcılıq təsərrüfatda ikinci dərəcəli rol oynamışdır. Dördüncü təbəqənin arxeoloji materiallarında Üst Paleolit dövrü üçün xarakterik

---

[32] Azərbaycan arxeologiyası. Daş dövrü. Altı cilddə, birinci cild. Bakı, 2008, s.110

[33] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.42

[34] Yenə orada, s.98

[35] Daha ətraflı bax: Cəfərov Ə.Naxçıvan Paleolit düşərgəsi//NDU-nun Elmi Əsərləri. 1999, № 4; Его же, Средний палеолит Азербайджана. Баку, 1999; Зейналов А. Палеолит Нахчывана. Автореф. дис. на соиск. учен. степ. Доктоа философ. по истории. Баку, 2004; Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, s. 266-267

əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu göstərir."[36]

Qəbilə icması ibtidai sürüyə nisbətən irəliyə doğru bir addım olub, insanların həyatında bir sıra yeniliklərlə müşayiət olundu. İbtidai sürüdən fərqli olaraq qəbilə icmasında müəyyən ictimai normalar yarandı. İnsanlar arasındakı münasibətlər qan qohumluğu ilə tənzimlənməyə başladı. Kütləvi nikah "qoşa nikah"la əvəz olunmağa başladı. Bəzən dövlətin əsası adlandırılan ailə sözün tam mənasında meydana gəlməsə də, onun yaranması yolunda vacib addım atıldı. Qəbilə icmasının ilkin dövründə qadının rolu yüksək olduğuna görə, bu dövr matriarxat-ana xaqanlığı dövrü kimi də xarakterizə olunur.

İlkin ibtidai icma mərhələsi, yaxud ilk nəsli dövr Azərbaycanda da üst paleolit (e.ə. 40-e.ə.XII minillik) və mezolitə (e.ə.XII-e.ə.VIII minilliklər) aid abidələr əsasında oyrənilir. Azərbaycanın üst paleolit mədəniyyətinə dair materiallar Tağlar paleolit düşərgəsinin II təbəqəsi, Damcılı mağara düşərgəsi, Qobustanın "Qayaarası" düşərgəsi, Zar kəndi (Kəlbəcər) və Yataq yeri (Qazax) ərazisindəki düşərgələrdən əldə edilmişdir.[37] Mezolit dövrünün əsas abidəsi isə Qobustan, xüsusilə burada aşkar edilmiş qayaüstü təsvirlər-piktoqramlardır. Mezolit dövründə ixtira edilən ox və kaman insanların həyatında ciddi dəyişikliklərə təkan verdi. Tədricən istehsal təsərrüfatının mühüm sahələrindən olan heyvandarlığın təşəkkülünə şərait yarandı. Ovçular ovladıqları heyvanların balalarını saxlayır, onları əhliləşdirməyə çalışırdı.

Naxçıvanın təbii-coğrafi şəraiti, orta paleolitə aid abidənin aşkar edilməsi burada yuxarı paleolit və mezolit dövründə də həyatın davam etməsini, ilk nəsli quruluşun meydana gəlməsini söyləməyə əsas verir. Gələcək arxeoloji tədqiqatlar yuxarı paleolit və mezolitə aid abidələrin üzə çıxarılmasına imkan verəcəkdir. Hələlik isə, Naxçıvanda qəbilə icmasından bəhs edərkən Ümumazərbaycan abidələri ilə eyni zamanda unikal bir mənbəyə - "Kitabi-Dədə-Qorqud" eposuna (eposlardan tarixi mənbə kimi istifadə edilməsi ənənəsi tarixşünaslıqda elmi cəhətdən əsaslandırılmışdır) müraciət edə bilərik. "Dədə Qorqud" eposunda matriarxatın-anaxaqanlığının izlərinin əks olunması bu barədə olan tədqiqatda sübut edilmişdir. Eposdakı "qadınım anam", "ana haqqı-

---

[36] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.42

[37] Azərbaycan arxeologiyası. Daş dövrü. Altı cilddə, birinci cild, s.101

tanrı haqqı" kimi ifadələr bu fikri təsdiq edir.[38] "Kitabi-Dədə Qorqud"un coğrafi əhatə dairəsində Naxçıvanın mərkəzi yerlərdən birini tutduğunu[39] nəzərə alsaq, burada təsvir edilən matriarxatın ona da aid edilməsini təsdiq etmək olar.

"Neolit inqilabı" (e.ə. VIII-e.ə.VI minillik) ilə insanların təsərrüfat həyatında böyük bir hadisə baş verir, istehlak təsərrüfatından, yəni yığıcılıq və ovçuluqdan istehsal təsərrüfatına keçid yaranır. Əkinçilik, sənətkarlıq və heyvandarlıq əmələ gəlir. İnsanların təbiətdən asılılığı nisbətən azalır. Beləliklə, insanlar arasında mülki bərabərsizliyin meydana gəlməsi və dövlətin təşəkkülü üçün lazım olan iqtisadi baza formalaşmağa başlayır.

Azərbaycanda neolit dövrü e.ə.VIII minilliyin sonlarından VI minilliyin III rübünə kimi davam etmişdir. Bu dövrdə Ön Asiyanın bir sıra yerləri, o cümlədən Cənubi Azərbaycan tam məskunlaşmağa başlayır. İlk əkinçi mərkəzləri Cənibi Azərbaycanın Urmiya gölü hövzəsində Həsənli, Hacı Firuz, Yanıqtəpə və s. kimi yaşayış yerləri və qonşu Zaqros ərazisində meydana gəlir. Azərbaycanın şimalında neolit dövrünə aid abidələr ilk dəfə 1938-1941-ci illərdə Gillikdağda (Gəncəçay həvzəsi) 78 saylı çaxmaqdaşı emalatxanasında, Damcılı mağarasında (Qazax) və s. yerlərdə aşkar edilmişdir.[40]

Naxçıvanda hələlik neolitin orta və son dövrünə aid tapıntılar əldə edilmişdir. Duzdağda aşkar edilmiş iki qəbir orta neolitə aid olunmuşdur.[41] Qeyd etmək lazımdır ki, Naxçıvan əhalisinin qədim dini təsəvvürlərini öyrənmək üçün ən qədim tapıntılar da hələlik neolit dövrünə aiddir.[42] Naxçıvanda neolit inqilabına aid araşdırmanın müəllifinə görə, "Kültəpə bütün Qafqazda "neolit inqilabının" ilk abidəsi kimi tanınmışdır...Qazıntılar nəticəsində...Ön Asiyanın neolit dövrü abidələri üçün səciyyəvi sayılan məişət və təsərrüfat tikintilərinin qalıqları aşkar olunmuş, ibtidai əkinçiliklə bağlı sümük və daş alətlər, gil qab nümunələri, eləcə də müxtəlif növ dənli bitkilər tapılmışdır. Müqayisəli təhlillər Kültəpə kompleksinin Azərbaycanda və Qafqazda

---

[38] Daha ətraflı bax: 164-Əliyarov S.S. "Dədəm Qorqud" kitabında anaxaqanlıq tarixinin izləri// Tariximiz. Bakı, 2012, s.164-177

[39] Babayev S.Y. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı, 1999

[40] Azərbaycan arxeologiyası. Daş dövrü. Altı cilddə, birinci cild, s.149-150

[41] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.54

[42] Yenə orada, s.64

ilkin istehsal təsərrüfatı ilə bağlı ən qədim yaşayış yeri olmasını söyləməyə imkan verir."[43]

"Neolit inqilabı"nın yaratdığı yeni tarixi şəraitdə qəbilə icmasının dağılması və əmlak bərabərsizliyinin meydana gəlməsi (son neolit, eneolit və ya ilkin metal əsri, ilk tunc dövrü) başlayır. Bunun əsas səbəbi daimi izafi məhsulun artması və əlavə məhsulun meydana gəlməsi idi. Burada istehsal təsərrüfatının sonrakı inkişafı, metallurgiyanın və sənətkarlıq fəaliyyətinin digər növlərinin meydana gəlməsi və mübadilənin intensivləşməsi böyük rol oynamışdır.[44]

Azərbaycanın son neolit və eneolitə aid abidələri də ibtidai cəmiyyətin dağılması prosesini izləməyə imkan verir. Azərbaycanda eneolit dövrü eramızdan əvvəl VI-IV minilliyin ortalarını əhatə edir. Çox maraqlıdır ki, Azərbaycanda son neolit və eneolitin tarixinin öyrənilməsi I Kültəpə abidəsindən (Naxçıvan şəhərindən 8 km. şimal-şərqdə, Naxçıvançayın sol sahilində, Babək rayonunun Kültəpə kəndində) başlanmışdır. 1951-1964-cü illərdə burada aparılan arxeoloji qazıntılar zamanı keramikalı neolitə və eneolit dövrünə aid zəngin materiallar aşkar edilmişdir. Sonrakı arxeoloji axtarışlar zamanı Mil-Qarabağ düzənliyində (Ağdam rayonunun Çalağantəpə, İlanlıtəpə, Leylatəpə abidələri), Muğanda (Cəlilabad rayonunun Əliköməktəpə yaşayış yeri) və digər yerlərdə də eneolitə aid yaşayış məskənləri aşkar edilərək öyrənilmişdir.[45] Bütün hallarda I Kültəpə eneolit abidələri içərisində mühüm rolunu saxlamışdır. Bu barədə haqlı olaraq qeyd edilmişdir ki, "Cənubda, xüsusən Naxçıvan ərazisində, Mil, Qarabağ və Muğan düzənlərində yayılmış abidələr I Kültəpə tipli mədəniyyəti əks etdirir və görünür, eneolit dövrünün başqa etnomədəni şaxəsini təşkil edir."[46] Naxçıvanın unkal abidələrindən olan Duzdağ da eneolit dövrünə şamil edilir. Duzdağ dağ-mədən sənayesinin meydana gəlməsinin ilkin dövrünü əks etdirməklə, istehsal təsərrüfatının daha da inkişafını sübut edir.[47]

---

[43] İsmayılzadə Q. "Neolit inqilabı" və Naxçıvan// Naxçıvan: ilkin şəhər və Duzdağ, s.47

[44] Алексеев В.П., Перщиц А.И. История первобытного общества, с.255

[45] Bax: Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку,1982; Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987

[46] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s. 96

[47] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.55

Azərbaycanın eneolit abidələri həmin dövrdə mövcud olan ictimai münasibətləri əks etdirməklə eyni zamanda, onun qonşu mədəniyyətlərlə əlaqələrini də aşkar etmişdir. Arxeoloji materiallar Azərbaycanın Mesopotamiyanın Xalaf və Ubeyd mədəniyyətləri ilə əlaqələrini təsdiq edir. Konkret olaraq I Kültəpənin eneolit mədəniyyətinə gəldikdə, onun Xalaf-Ubeyd mədəniyyəti ilə bağlılığı boyalı keramika və arxası üstə uzadılmış skeletlərin aşkar olunması ilə də təsdiq olunur. Ubeyd tayfalarının Azərbaycan ərazisinə miqrasiyası Naxçıvanı da əhatə etmişdir.[48] Burada bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, Ubeyd tayfalarının Azərbaycana miqrasiyası nəinki maddi-mədəniyyət nümunələrində, eləcə də ictimai münasibətlərə də təsir göstərməli idi. Güman etmək olar ki, bu miqrasiyalar ilkin dövlət hakimiyyəti orqanlarının formalaşmasını da sürətləndirməli idi.

İlk tunc dövrünün yaranması ilə yeni ictimai münasibətlərin təşəkkülü də genişlənir. Bu dövr Azərbaycanda Kür-Araz mədəniyyəti ilə təmsil olunur. Bütövlükdə Azərbaycanda olduğu kimi, Naxçıvanda da ilk tunc dövrünə aid yaşayış məskənlərinin sayı artmışdır. Buna görə həmin dövrə aid tapıntıların sayı da çoxalmış, coğrafiyası isə genişlənmişdir. I Kültəpə ilə yanaşı, bu dövrə aid II Kültəpə, Aşağıdaşarx, Ovçulartəpəsi və s. nekropollar qeydə alınmışdır.[49]

Məşhur Gəmiqaya təsvirlərinin xronologiyasında (e.ə. V-I minilliklər) da eneolit və ilk tunc dövrünə aid piktoqramlar mühüm yer tutur. Gəmiqaya təsvirləri həmin dövrdə yaşayan insanların dünyagörüşündə, mənəvi dünyasında baş verən dəyişiklikləri də izləməyə imkan verir.[50] Ulu öndər Heydər Əliyev Gəmiqaya abidələrindən bəhs edərkən qeyd etmişdir ki, "Bu, bildiyimiz kimi, həm təbiətin böyük abidəsidir, eyni zamanda insan yaradıcılığının bir abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir"[51]

---

[48] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.43-44

[49] Yenə orada, s.55


[50] Bax: Əliyev V.Gəmiqaya. Bakı, 2005, s. 9-16; Baxşəliyev V.Gəmiqaya təsvirləri. Bakı, 2003, s.10-134

[51] Azərbaycan Prezidenti Heydər Əliyevin Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki nitqi // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 40-cı kitab. Bakı, 2012, s.243

Beləliklə, uzun tarixi inkişafdan sonra, ilkin tunc dövründə Azərbaycanda dövlətin formalaşmasının başa çatması üçün şərait meydana gəlmişdir. Naxçıvana aid materialların Azərbaycan tarixi kontekstində nəzərdən keçirilməsi göstərir ki, bölgə bu prosesdə nəinki fəal rol oynamış, hətta dövlətyaranmanın gedişinin bir sıra problemlərini yalnız bu materiallar əsasında bərpa etmək mümkün olmuşdur.

1.4. Azərbaycanda dövlətin yaranmasına dair yeni müddəalar: tayfaların siyasi birlikləri və şəhər-dövlət başlanğıcı. Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesində rolu (e.ə. III minillik-e.ə. II minilliyin sonları-I minilliyin əvvəlləri)

Dövlətin meydana gəlməsinə dair nəzəri və təcrübi baxışlardan aydın oldu ki, bu məsələdə qəbilə və tayfa birliklərinin yaranması və şəhər-dövlət modeli əsas kimi götürülür. Azərbaycan tarixində birinci modelə üstünlük verilmişdir. Şəhər-dövlətlər haqqında bəhs edilsə də dövlətyaranma prosesində onun rolu kifayət qədər aydınaşdırılmamışdır.[52]



Ön Asiyada qədim tayfalar, tayfa birlikləri və dövlətlər (e.ə. III-II minilliklər)

[52] Кашкай С.М. Из истории Маннейского царства. Баку,1977, с.44-49

Azərbaycanda dövlətyaranma prosesinin tədqiqi belə nəticəyə gəlməyə əsas verir ki, burada qeyd edilən hər hansı başlanğıcdan birinin yeganə yol kimi verilməsi doğru görünmür. **Əslində Azərbaycan ərazisində dövlətyaranma prosesinin hər iki yolu özünəməxsus şəkildə mövcud olmuşdur.** Əsas mərhələdə isə vahid dövlətin meydana gəlməsi şəhər-dövlətlər zəminində baş vermişdir.

Azərbaycan tarixşünaslığında qəbul edilmiş müddəaya görə ilk dövlət birlikləri e.ə. III minillikdə Azərbaycanın cənubunda-Urmiya gölü ətrafında təşəkkül tapmışdır. Aratta, lullubi və kuti tayfa birlikləri əsasında müvafiq dövlət qurumlarının yarandığı və fəaliyyət göstərdiyi irəli sürülmüşdür. Çox maraqlıdır ki, e.ə. III minillikdən etibarən Urmiyaətrafının tarixi, həm də mixi yazılı qaynaqlarda əks olunmağa başlamışdır. **Bu o deməkdir ki, dünya tarixi ənənəsinə uyğun olaraq, Azərbaycan tarixəqədərki dövrü başa vurmuş yeni, dövlətçilik dövrünə keçmişdir**. Eradan əvvəl III minilliyin sonlarında aratta, lullubi və kuti tayfa birlikləri əsasında formalaşmış dövlət qurumları süqut etmiş, II minilliyin sonları-I minilliyin əvvəllərində onların yerində şəhər-dövlətlər yaranmışdır. Azərbaycan ərazisində ilk vahid və mərkəzləşdirilmiş dövlət-Manna (e.ə.IX- e.ə.VII əsrin sonu-VI əsrin başlanğıcı) onların əsasında formalaşmışdır. Naxçıvanın bu həlledici prosesdə rolu müəyyən spesifikası ilə fərqlənir.

Arxeoloji tədqiqatlar sübut edir ki, Naxçıvan ərazisində ilkin şəhər mədəniyyəti e.ə. III minillikdə meydana gəlməyə başlamışdır. Urmiyaətrafı bölgələrdə tayfa ittifaqları əsasında siyasi birliklər yaranan zaman, ona paralel olaraq Naxçıvan ərazisində kifayət qədər iri şəhərlər meydana gəlmişdi. Bu şəhərlər eyni zamanda siyasi mərkəz funksiyasına da malik olmuş, yəni şəhər-dövlət xarakteri daşımışdır. Bunların içərisində **II Kültəpə, Şahtaxtı, Nuhdaban və Naxçıvan şəhər yerləri** xüsusi olaraq ayrılır. Dövrün tədqiatçılarından olan S.Qaşqayın yazdığı kimi "Eradan əvvəl II minilliyin sonu-I minilliyin əvvəllərinə aid abidələr-məskən xarabalıqları və nekropollar əhalinin oturaq həyat sürməsindən, eyni zamanda maldarlıqla məşğul olmasından, tikinti və sənətkarlıq sahəsində yüksək mərhələyə çatmasından xəbər verir. Aşkar edilmiş materialların tədqiqi göstərir ki, Naxçıvan zonası Urmiya hövzəsinə yaxın ərazilərdə yayılmış özünəməxsus mədəniyyət mərkəzlərin-

dən biri olmuşdur."[53] Görünür, e.ə. III-II minilliyin sonları I minilliyin əvvəllərində Urmiya ətrafı siyasi birliklər xarici siyasətin mühüm faktoru kimi çıxış etdiyindən (kutilərin Mesopatamiyada təqribən bir əsr davam edən ağalığı) və ya əsas xarici təsirlər bu siyasi birliklərə yönəldiyindən Naxçıvan şəhər-dövlətlərinin vahid dövlətdə birləşməsi üçün xüsusi zərurət olmamış, qeyd edilən kimi vahid dövlət yaranması prosesi Manna ətrafında baş vermişdir.

[53] Qaşqay S. Naxçıvanın e.ə.I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri//Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2006, s.55

İKİNCİ FƏSİL

AZƏRBAYCANIN QƏDİM DÖVLƏTLƏRİ VƏ NAXÇIVAN

2.1. Naxçıvan Manna dövründə: siyasi proseslər və əlaqələr haqqında (e.ə. IX-VI əsrlər)

Manna dövləti qüdrətli vaxtlarında geniş ərazilərə malik olmuşdur. "Asılı vilayətlər də daxil olmaqla Manna dövləti Urmiyadan cənubda və şimalda yerləşən əraziləri, Qızılüzən çayı hövzəsinin xeyli hissəsini və ondan cənubda yerləşən bölgələri əhatə edirdi."[54] Mannanı irsi hakimiyyətə malik olan çar idarə edirdi. Dövlət inzibati cəhətdən çarın təyin etdiyi canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünürdü. Çarın sərəncamında ordu var idi. Manna dövləti yüksək inkişaf mərhələsinə e.ə. VIII əsrin sonlarında nail olmuşdur. Bütün bunları nəzərə alan S.Qaşqay haqlı olaraq göstərir ki, Manna e.ə.I minilliyin birinci yarısında Ön Asiyanın qabaqcıl dövlətləri ilə eyni səviyyədə dururdu.[55]

Naxçıvanın bu dövr siyasi tarixi tarixşünaslıqda kifayət qədər aydın əksini tapmamışdır. Dövrün tədqiqatçılarından olan R.Məlikov yazır ki, "E.ə.IX-VIII əsrlərdə Cənubi Qafqazda məskunlaşmış müxtəlif siyasi və etnik birliklər Etiuni (Etiuhi) adlı dövlət qurumunun tərkibində birləşmişlər. Bəzi tədqiqatçıların fikrincə, Etiuni Cənubi Qafqazın böyük hissəsini əhatə edən iri bir qurum olmuşdur. Bu alimlər etiunilərin adını bu ərazilərə cənubdan köçən kutilərlə bağlayır və etiuniləri sonrakı utilərin əcdadları hesab edirlər."[56] Müəllifə görə, **Naxçıvan bu dövrdə Etiuninin tərkibində olmuşdur.** Sonrakı abzasda urartuluların hücumundan bəhs olunaraq qeyd edilir ki, "Urartu çarı I Argişti (e.ə.786-764) də Etiuni ölkəsinə yürüşlər etmişdir. Çar II Sarduri (e.ə.764-735) isə Puluadi

---

[54] Qaşqay S.M. Azərbaycan e.ə.I minilliyin başlanğıcında//Azərbaycan Milli ensiklopediyası. Ümumi cild. Bakı, 2007, s.166

[55] Кашкай С.М. Из истории Маннейского царства, с.113

[56] Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında)// Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2013, s.55

ölkəsində 21 qalanı, 45 şəhəri və "çar şəhəri olan Libliuni"ni ələ keçirmişdir. S.Qaşqay Urartu mənbələrinə əsaslanaraq Puluadi ölkəsinin bir hissəsini Naxçıvan ərazisində lokalizə edir."[57] Burada vacib bir məqam diqqəti cəlb edir: I Argişti yuxarıda müəllifin qeyd etdiyi kimi tərkibində Naxçıvanın olduğu Etiuniyə, onu hakimiyyətdə əvəz edən II Sarduri isə Puluadi ölkəsinin bir hissəsini əhatə edən Naxçıvan ərazisinə hücum edir.

S.Qaşqay isə qismən fərqli fikir irəli sürür. Problemin mühüm əhəmiyyətini nəzərə alaraq, onun fikirlərini olduğu kimi təqdim etmək lazım gəlir. S.Qaşqay yazır ki, "Urartulular Cənubi Qafqaz vilayətlərinə, eləcə də Naxçıvan ərazisinə və Urmiya gölünün şimal ərazilərinə mütəmadi yürüşlər edirdi. Urartu çarları İşpuini və onun oğlu Menuanın (e.ə.820-810-cu illər) birgə hakimiyyətləri dövründə urartulular şimaldan basqın etmiş, Uiteruni, Luşa, Katarza və Etiuhi(ni) ölkəsinin çoxsaylı hökmdarlarına qarşı mübarizə aparmışdır. Etiuhi adı altında Cənubi Qafqazda Göycə gölü ətrafında yaşayan müxtəlif siyasi və etnik birliklər çıxış edirdilər. İşpuini və Menuanın rəhbərliyi altında Urartu ordusunun şimal-şərq istiqamətində yürüş etdiyini Culfa rayonunun İlanlıdağ (Haçadağ) qayalarında aşkar edilmiş mixi yazı da təsdiq edir: "İlahi Haldinin əzəməti ilə İşpuini Sardurinin oğlu (və) Menua İşpuinin oğlu Arsine şəhərinin ölkəsini zəbt etdilər, İş [... şəhərinin] ölkəsini, Arsikua şəhərinin ölkəsini, Ayaniani şəhərinin ölkəsini zəbt etdilər, dağıtdılar. Puluadi ölkəsində onlar ilahi Haldiyə lövhə ucaltdılar (və) əmr verdilər: Puluadi ölkəsində ilahi Haldiyə öküz və qoyun, Haldinin arvadına inək (qurban) kəsilsin."[58] Mixi mətndə adı çəkilən Arsini Ərəzin kəndi ilə (Culfa rayonu) lokalizə edilir.[59] Urartuluların Culfa ərazisinə basqınları və Arsini şəhər əhalisinin onlara müqavimət göstərmələri tarixi mənbələrdə qeyd edilir. Naxçıvanın ərazisinin isə Puluadi vilayətinə daxil olduğu bildirilir: "Urartu mənbələrinə görə Naxçıvan ərazisini ***qədimdə*** (kursiv mənimdir.-İ.H.) Araz çayının cənub qolu Əhər çayına qədər çatan Puluadi vilayətinə daxil etmək olar. Puluadi ölkəsinin adı, tədqiqatçıların fikrinə görə,

---

[57] Qaşqay S.M. Azərbaycan e.ə.I minilliyin başlanğıcında, s. 166
[58] Qaşqay S. Naxçıvanın e.ə.I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri, s.56-57
[59] Peter Tase. A Journey İn Azerbaijan's Coin Minting House. "Foreign Policy News" April 11, 2017

Yaxın Şərqdə yayılmış dillərin demək olar ki, hamısında "polad" sözü kimi qalmışdır."[60] Buradan aydın olur ki, Naxçıvan ərazisinin bir hissəsi qədim zamanlardan urartuluların hücum istiqamətlərində mühüm yer tutan Puluadi ölkəsinə daxil olmuşdur. **Müqayisələr nəticəsində belə bir fikrə gəlmək olar ki, Naxçıvan həmin dövrdə daha geniş əraziyə malik olmuş, onun şimal hissəsi Etiuni, cənub hissəsi isə Puluadi ölkəsinə daxil olmuşdur.**

Ən vacib suallardan biri qeyd edilən dövrdə Naxçıvanın statusu məsələsi ilə bağlıdır. Bu suala həmin dövrə dair Naxçıvanda aşkar edilmiş arxeoloji abidələr cavab verir. **Bu dövrün ən mühüm arxeoloji abidələrindən biri Oğlanqaladır.** Oğlanqalanın müdafiə istehkamı, şəhər-dövlət və paytaxt olması haqqında mülahizələr vardır.[61] Hər bir halda siyasi nöqteyi-nəzərdən Naxçıvanın dövlətçilik baxımından mühüm statusa malik olması aydın olur.

Araşdırılan dövrə dair digər vacib bir məsələ **Mannanın Naxçıvanla münasibətləridir.** S.Qaşqaya görə Naxçıvan və Manna ərazisində aşkar edilmiş arxeoloji materiallar əsasında izlənilən sıx mədəni əlaqələr müəyyən dövrlərdə Mannanın sərhədlərinin Arazdan şimala uzandığını və özünün gücləndiyi dövrlərdə onun kifayət qədər geniş əraziyə malik olduğunu söyləməyə imkan verir.[62] Tədqiqatçı bu problemə sonrakı araşdırmalarında bir daha qayıtmış və həmin müddəanı inkişaf etdirmişdir.

S.Qaşqay 1979-cu ildə nəşr edilən məqaləsində yazırdı ki, Naxçıvan diyarının e.ə. II minilliyin sonları-I minilliyin əvvəllərinə aid maddi-mədəniyyəti olduqca özünəməxsus olub, həm Sovet Azərbaycanının (hazırda Azərbaycan Respublikası.-İ.H.) digər rayonlarının maddi-mədəniyyətindən, həmçinin Gürcüstan və Ermənistanın ona müasir olan mədəniyyətindən fərqlənir. Tədqiqatın sonunda belə bir nəticə hasil edilir ki, Naxçıvan diyarının vilayətləri e.ə. I minilliyin əvvəllərində güclənən Manna çarlığının təsiri altında və zaman-zaman


---

[60] Qaşqay S. Naxçıvanın e.ə.I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri, s.57

[61] Кашкай С. Связи Нахичеванского края с Иранским Азербайджаном в конце II-начале I тысячилетия до н.э., с.134; Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.86-92; Бахшалиев В. Б. Оглангала-столица государств утиев// Ирс (Наследие),2012, №3 (57),с. 12-15

[62] Кашкай С. Из истории Маннейского царства, с. 69

siyasi asılılığında olmuşdur.[63] Göründüyü kimi Naxçıvanın Manna dövlətinin tərkibinə daxil olması haqqında fikir irəli sürülsə də onun xronologiyası barədə konkret bir mülahizə söylənmir. R.Məlikov da Naxçıvanın Manna tərkibinə daxil olmasını təsdiq edərək yazır: "Güman ki, bu dövrdə (e.ə. IX-VIII əsrlərdə.-İ.H.) Etiuninin tərkibində olan Naxçıvan ərazisi bəzən Mannaya qatılmışdır."[64] Buradan da aydın olmur ki, Naxçıvan ərazisi "bəzən", yəni nə vaxt Mannaya qatılmışdır?



Tarixi faktların təhlili belə bir fikir söyləməyə imkan verir ki, **Naxçıvanın Manna dövlətinin tərkibinə daxil edilməsi e.ə. VIII əsrin sonları-VII əsrin əvvəllərinə aid oluna bilər,** çünki bu dövrdən sonra kimmerlər və skiflərin Azərbaycana yürüşləri başlayır və yeni tarixi situasiya yaranır. Mannanın tərkibində olduğu dövrdə əvvəllərdəki kimi Naxçıvanın şəhər-dövlət statusunu saxladığını ehtimal etmək olar.

Belə bir şəraitdə kimmerlər və skiflərin bölgədə mühüm siyasi qüvvəyə çevrilməsi və Skif çarlığının meydana gəlməsi ilə vəziyyət dəyişdi. Dövrün tədqiqatçısının yazdığı kimi faktik məlumatlar sübut edir ki,

---

[63] Ее же, Связи Нахичеванского края с Иранским Азербайджаном в конце II-начале I тысячилетия до н.э., с.131, 134

[64] Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında), s.55

e.ə. VII əsrin iknci yarısının Skif çarlığı Ön Asiya Şərqində mühüm faktor oldu.[65]

Herodotun məlumatına görə e.ə. VIII əsrin sonlarında "skiflər tərəfindən sıxışdırılan köçəri kimmerlərin sayagəlməz orduları Ön Asiyaya soxulmuşlar.Kimmerlər hələ Cənubi Qafqaz torpaqlarında urartulularla toqquşaraq iki böyük axına bölünmüşlər. Birinci axın cənub-qərbə, Kappadokiyaya yönəlmiş, ikinci axın isə cənuba, Manna vilayətlərinə və Madanın şimal-qərb hissəsinə üz tutmuşdu."[66] Kimmerlərin adı ilk dəfə Aşşur mənbələrində Manna ilə əlaqədar olaraq e.ə. VIII əsrin son rübündə, skiflər (saklar) isə işkuzai (aşkuzai) adı ilə e.ə. 674-cü ilə aid olan mənbədə çəkilir.[67] Təxminən e.ə. VII əsrin 70-ci illərində Azərbaycan ərazisində Skif çarlığı meydana gəlir.

Bəhs edilən dövrdə Naxçıvanın siyasi vəziyyətinin müəyyənləşdirilməsi mühüm vəzifələrdəndir. Azərbaycan ərazisində Skif çarlığına dair əsas tədqiqatların müəllifinin[68] qeyd etdiyinə görə çarlıq Kür çayının orta axarı ilə Urmiya gölü ətrafındakı Manna ərazisi arasındakı vilayətlərdə yerləşirdi.[69] Azərbaycan tarixi atlasında da həmin ərazi Skif şahlığı kimi göstərilmişdir.[70] Naxçıvan da bu əraziyə daxil edilmişdir. Bu məsələdən bəhs edən R.Məlikovun fikrinə görə "Naxçıvan da bu şahlığın (Skif şahlığının.-İ.H.) tərkibində, yaxud nüfuz dairəsində olmuşdur."[71] S.Qaşqay isə yazır ki, "Araz çayının hər iki sahilini əhatə edən maddi-mədəniyyət, skitlərin (skiflərin.-İ.H.) Manna çarlığının şimal sərhədlərində və Naxçıvan ərazisində hətta şox qısa müddət də olsa olmalarını əks etdirmir."[72]

Azərbaycan ərazisində Skif çarlığının coğrafiyası ilə birlikdə, Naxçıvanda az da olsa tapılmış skif tipli tapıntıların (Meydantəpə (Babək rayonunun Nəzərabad kəndi) və Şahtaxtından əldə edilmiş iki

---

[65] Алиев И. О скифах и Скифском царстве в Азербайджане// Переднеазиатский сборник. III. История и филология стран Древнего Востока. М.,1979, с.13

[66] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.231

[67] Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında), s.56

[68] Bax: Алиев И. О скифах и Скифском царстве в Азербайджане// Переднеазиатский сборник. III. История и филология стран Древнего Востока.М.,1979, с.4-14

[69] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.236

[70] Azərbaycan tarixi atlası. Bakı, 2007, s.12

[71] Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında), s.56

[72] Qaşqay S. Naxçıvanın e.ə.I minilliyin birinci yarısında qonşu ölkələrlə əlaqələri, s.59

tunc ox uciuğu) **Naxçıvanın Skif çarlığına daxil olması ehtimalını daha əsaslı hesab etməyə imkan verir.**

Beləliklə, nəzərdən keçirilən məsələlər bəzi elmi nəticələr çıxarmağa imkan verir: 1) Naxçıvanın ərazisi ilk vaxtlar yalnız cənubdan, Urartu və Assuriya vasitəsi ilə hücumlara məruz qalırdısa, skiflərin hücumu ilə şimaldan təhlükə artdı və Naxçıvanın Skif çarlığı ərazisinə daxil edilməsi ilə Azərbaycanın şimal torpaqları ilə əlaqələri genişləndi. 2) Nəzərdən keçirilən dövrdə Naxçıvanın Azərbaycanın cənub torpaqları ilə əlaqələri barəsində bəhs olunduğu halda (S.Qaşqayın məqaləsi), onun şimal torpaqları ilə əlaqələrinin də araşdırılması zərurətini irəli sürür.

2.2. Naxçıvan Midiya və Əhəməni imperiyaları dövründə. Makedoniyalı İsgəndərin imperiyası ilə əlaqələrə dair (e.ə. VII-e.ə. IV əsrin 20-ci illəri)

Ön Asiyada güclü Midiya dövlətinin (e.ə. 673-e.ə.550-ci illər) meydana gəlməsi Azərbaycan dövlətçiliyinə də mühüm təsir göstərdi.

Midiyaşünaslıqdan bəhs edilərkən ənənəvi olaraq, sovet tarixşünaslığına məxsus iki monoqrafiya-İ.M.Dyakonov və İqrar Əliyevin eyni adlı Midiya tarixi kitablarına müraciət edilir.[73] Son zamanlar isə bu sahədə dünya tarixşünaslığında yeni ciddi araşdırmalar nəşr edilmişdir.[74] Onların içərisində İ.N.Medvedskayanın tədqiqatları xüsusi yer tutur. O, 2007-ci ildə Midiya çarlığının tarixinə dair doktorluq dissertasiyası müdafiə etmiş, 2010-cu ildə isə eyni adlı monoqrafiyası işıq üzü görmüşdür.[75] Medvedskayanın tədqiqatlarında Midiya dövlətinin tarixi coğrafiyası, Midiyanın yüksəlişinin vaxtı və səbəbləri, Midiya ekspansiyası faktı və hüdudları, Midiya sülaləsinin xronologiyası və s. məsələlər araşdırılmışdır. Bizim üçün isə başlıca problem Midiya dövründə Azərbaycan dövlətçiliyi, xüsusilə də burada Naxçıvanın yeri məsələsidir.

---

[73] Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV века до н.э. Издание 2-е, дополненное. М.-Л., 2008; Играр Алиев. История Мидии. Баку, 1960

[74] Медведская И.Н., Дандамаев М.А. История Мидии в новейшей западной литературе // Вестник древней истории. 2006, №1, с.202-209

[75] Медведская И.Н. Древний Иран накануне империй (IX-VI в. до н.э.): История Мидийского царства. Автореф. докт. диссерт. СПб., 2007; ее же, Древний Иран накануне империй (IX-VI в. до н.э.): История Мидийского царства. СПб., 2010

Midiya dövlətinin yaranmasında Azərbaycanın Manna dövlətinin və onun əhalisi də iştirak etmişdir. Bu fakt Azərbaycanın dövlətçilik tarixi üçün mühüm əhəmiyyətə malikdir. Manna dövləti daha qüdrətli Assuriyaya qarşı mübarizədə madalılarla müttəfiq olmaqla və onların qələbəsində iştirak etməklə, öz dövlətçiliyini müəyyən müddətə qoruya bilmişdi. Kaştaritinin rəhbərliyi ilə assuriyalılara qarşı üsyan Herodota görə e.ə. 678-ci ildə, yaxud e.ə. 678 və 675-ci illər arasında baş vermişdir. Bu üsyan zamanı madalıların əsas müttəfiqlərindən biri kimmerlər və skiflərlə, eyni zamanda, mannalılar olmuşdur. Məhz bu üsyandan sonra Midiya dövləti meydana gəlmişdir.[76] Sonrakı tarixi şəraitdə Midiya dövlətinin həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində Manna dövləti süqut etmiş, onun ərazisi Midiya dövlətinin tərkibinə daxil edilmişdir. İ.Dyakonov yazırdı ki, Midiya, Midiya çarlığının özü üç köhnə çarlıqdan-Midiya (mərkəzi və şərqi Midiya), Manna və Skif çarlığından ibarət idi.[77] Bu dövrdə Naxçıvanın siyasi statusu məsələsi diqqəti cəlb edir. Tarixşünaslıqda bu məsələyə münasibətdə müxtəlif yanaşmalar vardır. Yeddicildlik Azərbaycan tarixinin birinci cildində yazılır ki, "Mada dövlətinin sərhədləri şərqdə Orta Asiyadan qərbdə Halis çayınadək uzanırdı. Dövlətin şimal sərhədlərinin bir qismi Kolxidanın yaxınlığından keçirdi. **Şübhəsizdir ki, Şimali Azərbaycanın bəzi bölgələri də Mada dövlətinin tərkibinə daxil idi** (seçmə müəllifindir.-İ.H.)."[78] Göründüyü kimi, burada Şimali Azərbaycanın bəzi bölgələrindən bəhs edilir, lakin konkret ərazi müəyyənləşdirilmir. İ.Dyakonov Naxçıvanın adını çəkməsə də Midiyanın şimal sərhədlərinin təsvirindən və tərtib etdiyi xəritədən Naxçıvanın bu dövlətin tərkibinə daxil olduğu aydın olur.[79] Azərbaycan arxeoloqu Vəli Əliev "Naxçıvan-Azərbaycanın tarixi diyarıdır" adlı kitabında "Midiyalılar Naxçıvanda" adlı başlıq ayırmışdır.[80] O, İ.M.Dyakonova istinadən bildirir ki, "Naxçıvan qədim Midiya quldar dövlətinin tərkibinə daxil olmuşdur."[81]

Midiya dövləti tərkibində Naxçıvanın vəziyyətini müəyyən et-

---

[76] Играр Алиев. Указ. соч., с.225, 227
[77] Дьяконов И.А. Указ.соч., с.340
[78] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.229
[79] Дьяконов И.А. Указ.соч., с.341
[80] Əliyev Vəli. Naxçıvan-Azərbaycanın tarixi diyarıdır. Bakı, 2002, s.35-36
[81] Yenə orada, s.35

mək üçün bu dövlətin siyasi sisteminə nəzər salmaq lazımdır. Bu barədə Herodot yazırdı ki, midiyalıların hökmranlığı zamanında bir xalq başqa xalq üzərində, midiyalılar isə hamı, ilk növbədə onlara yaxın olanlar, sonuncular öz qonşuları, qonşular isə onlarla həmsərhəd olan xalq üzərində ağalıq edirdi.[82] Bu siyasi sistemdə Naxçıvanın özünəməxsus yer tutmasını düşünmək olar. Bu ilk əvvəl Naxçıvanın siyasi coğrafiyası ilə bağlı idi.



Midiya dövlətinin sərhədlərini nəzərdən keçirərkən aydın olur ki, Naxçıvan onun şimal hüdudunu təşkil edir və ya burada yerləşirdi. Sərhəddə və ya onun hüdudlarında yerləşən siyasi qurumlar isə daha çox geniş hüquqlara malik olması ilə diqqəti cəlb edir. Bu mühakiməyə əsaslanaraq Naxçıvanın Midiya imperiyası sistemində müstəqil fəaliyyət göstərdiyini qəbul etmək olar. Vəli Əliyev də bu məsələyə diqqəti cəlb edərək yazır ki, "qədim Naxçıvan mədəniyyəti öz zənginliyinə və yüksək inkişaf səviyyəsinə görə Midiya mədəniyyəti ilə eyniyyət təşkil edir. Bu cəhət Naxçıvanın m.ə. II-I minilliklərə aid dulusçuluq, metalişləmə kimi mühüm sənət növlərində, təsviri sənətində, xüsusilə boyalı qablar mədəniyyətində özünü daha aydın göstərir. Naxçıvanın Şahtaxtı, I Kültəpə, II Kültəpə, Nəhəcir, Qarabağlar, Şortəpə, Yaycı, Kərki, Plovtəpə və b. abi-

[82] Геродот. История в девяти книгах. Пер. Ф.Мищенка. М., 1888, т.I, с.134

dələrinin incə naxışlı boyalı qabları Midiyanın mühüm mədəniyyət mərkəzləri Govurtəpə, Sialk və Təpə Giyanın qədim dulusçuluq sənəti nümunələri ilə eyni səviyyədədir. Midiyanın qədim mədəniyyət mərkəzləri ilə Urmiyanın və Naxçıvanın əsas mədəniyyət ocaqları arasında sıx əlaqə olmuşdur... Naxçıvanın qədim maddi mədəniyyət abidələrinin tədqiqi göstərir ki, bu qədim diyar öz iqtisadi-mədəni inkişafında müstəqil olmuşdur."[83]

Naxçıvan ərazisində Midiya tayfalarının məskunlaşması haqqında məlumatlar da bəzi mühüm tarixi mühakimələr irəli sürməyə imkan vermişdir. Üçcildlik Naxçıvan tarixinin birinci cildində bu problemə xüsusi yer ayrılaraq qeyd edilmişdir ki, "Herodotun "Tarix" əsərinin elə birinci kitabında Midiya tayfalarının buslar, partagenlər, struxatlar, arizantlar, budilər və maqlar olduğu göstərilir. Bu tayfaların Midiyanın qüdrətli əyaləti olan Naxçıvan ərazisində məskunlaşma tarixi bu dövlətin yaranma tarixindən qabağa, e.ə. II minilliyin sonları-I minilliyin əvvəllərinə təsadüf edir."[84] Onomastik materiallara əsaslanaraq bildirilir ki, "Naxçıvan bölgələrində bus tayfaları Buzqov, Şahbuz, Bəsri, Ərmus, Bist, Bazur; maqlar Ağmanqan, Maxta, Muğancıq, Məngik, Ayrımanq; partagenlər Partav, Purtak, Bardak; arizantlar isə Ərəzin, Ərzincan, Arzini, Arzanda kimi 53 məntəqə-etnooykonim adında öz adlarını əbədiləşdirmişdir. Bu oykonimlər həm aktiv fondda, həm də arxiv sənədlərində qeydə alınmaqdadır."[85]

Midiyanın idarə edilməsində din xadimlərinin, kahinlərin mühüm rolunu və Avesta təliminin yayıldığını nəzərə alsaq, Naxçıvanda da oxşar modelin olduğunu söyləyə bilərik. Bu, sonralar Naxçıvanın Atropatena dövləti ilə bağlı olmasını təmin edən şərtlərdən olmuşdur.

Midiya dövlətinin çox da möhkəm olmayan siyasi sistemi onun süqutunun başlanğıcını qoydu. Midiya dövlətinin süqutuna dair baxışlar Naxçıvanın bu və sonrakı dövrdə siyasi mövqeyinin müəyyənləşdirilməsi üçün də vacibdir. Bəzi tədqiqatçılar bu hadisəni sadəcə çevriliş, sülalənin dəyişməsi kimi qiymətləndirir. Bu qeyddən sonra

---

[83] Əliyev Vəli. Naxçıvan-Azərbaycanın tarixi diyarıdır, s.35

[84] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.127

[85] Rzayev F. Naxçıvan əhalisinin etnogenezi tarixindən (m.ö.II-I minilliklər). İkinci cild. Bakı, 2017, s.308-345.

İqrar Əliyev yazır ki, farslar tərəfindən Midiyanın tutulması sözün hərfi mənasında sülalənin dəyişməsi olmayıb, işğal idi, ona görə ki, bu hadisələr nəticəsində midiyalılar dövlət müstəqilliyini itirərək farsların hakimiyyəti altına düşdü.[86] Midiyadan fərqli olaraq, yeni yaranan Əhəmənilər dövləti daha uzun müddət, e.ə. 550-330-cu illərdə mövcud olmuşdur.

Əhəmənilər dövlətinin tarixinin mənbələri və tarixşünaslıq məsələləri Rauf Məlikovun monoqrafiyasında araşdırılmışdır.[87] Lakin mənbələr və tarixi əsərlər, bilavasitə, etnik tarix kontekstində tədqiq edildiyindən dövlətçilik məsələlərinə geniş yer verilməmişdir. Bu baxımdan rus dilli ədəbiyyat içərisində M.A.Dandamayevin tədqiqatlarını xüsusi qeyd etmək lazımdır.[88] Bu tədqiqatlarda isə Naxçıvandan bəhs edilmir.

Qeyd edilən problemə Vəli Əliyevin adı çəkilən kitabında münasibətə rast gəlirik. Əhəməni dövründə Naxçıvanın siyasi vəziyyəti barədə də bəhs edən Vəli Əliyev yazır ki, "M.ə. 550-ci ildə Midiya dövləti tənəzzülə uğramışdır. Bu dövrdən etibarən Midiya torpaqları ilə birlikdə Naxçıvan da Əhəməni fars dövlətinin tərkibinə daxil olmuşdur. Əsir edilmiş Midiya hökmdarı Astiyaqın ailəsi, yaxın adamları, əyanları, nökərləri, qulam və kənizləri, eləcə də on mindən çox midiyalı Naxçıvana sürgün edilmiş, əksəriyyəti Araz çayının sahilindəki kəndlərdə yerləşdirilmişdir. Xram, Culfa, Xoşkunik şəhərlərində və Əjdanaxandan başlamış Naxçıvana qədər hər yerdə bu əsirlərə təsadüf edilirdi. Astiyaqın oğlu əsir edilərək Şərur adlı yerə göndərilmişdir."[89] Oğlanqala Midiya dövründə də Naxçıvanın əsas şəhərlərindən olmuşdur.[90]

Əhəmənilər dövləti yarandıqdan az bir müddət sonra, e.ə. 522-ci ildə maq Qaumatanın başçılığı ilə üsyan baş verdi. Üsyanın əsas məqsədi Midiya dövlətinin bərpa edilməsi idi. Qaumatanın üsyanı yatırıldıqdan sonra baş verən ən güclü üsyanlardan biri də Cənubi Azərbaycanda Çissantaxmanın başçılığı ilə olmuşdur. Bu barədə I Daranın

---

[86] Играр Алиев. Указ. соч., с.255

[87] Меликов Р. Этническая картина Азербайджана в период ахеменидского владычества (VI-IV вв. до н.э.). Баку, 2003, гл. I,с.7-40

[88] Дандамаев М.А. Иран при первых Ахеменидах (VI в. до н.э.).V., 1963; Его же, Политическая история Ахеменидской державы. М., 1985 и др.

[89] Меликов Рауф. Древнеперсидские надписи. Транслитерация, перевод, глоссарий. Баку, 2013, с. 64-65, 326

[90] Əliyev Vəli. Naxçıvan-Azərbaycanın tarixi diyarıdır, s.35

Bisitundakı yazısında bəhs edilir. Həmin yazıdan aydın olur ki, saqartalı Çissantaxma Daraya qarşı çıxaraq, xalqa deyirmiş ki, mən Saqartada çaram, Uvaxşatra (Kiaksar.-İ.H.) nəslindənəm. Dara bundan sonra fars və mada qoşunlarını onun üzərinə göndərir. Qoşun başçısı madalı Tahmaspadan təyin edilir. O, qiyamçı qoşunu məğlubiyyətə uğradır, Çissantaxma tutulur və Daraya gətirilir. Dara tərəfindən onun burnu və qulağı kəsilir, gözü çıxarılır. Onu qolları bağlı Daranın qapısında saxlayırlar ki, bütün xalq görsün, sonra isə onu payaya keçirirlər.[91] Çissantaxmaya tətbiq edilən cəzanın ağırlığı və onların icrasında Daranın özünün iştirakı təsdiq edir ki, bu üsyan geniş miqyasa malik olmuş və Daranı daha çax qəzəbləndirmişdir.

I Dara (e.ə. 522-486) tərəfindən bu üsyanlar qəti şəkildə yatırıldıqdan sonra, inzibati, vergi, maliyyə, hərbi islahatlar keçirildi. İnzibati islahatlar nəticəsində imperiyanın ərazisi iyirmi satraplığa bölündü. Azərbaycanın tarixi torpaqları X, XI və XIV satraplıqlara daxil edilmişdir. İ.M.Dyakonov satraplıqların cədvəlini tərtib etmiş, burada satraplıqlarla, eyni zamanda, bacın gümüş talantla miqdarını, kimin dövründə işğal edilməsini və s. məlumatları ümumiləşdirmişdir.[92] Belə güman etmək olar ki, Naxçıvan da bu dövrdə siyasi vəziyyətinin dəyişməsindən razı qala bilməzdi. Naxçıvanın ərazisinin konkret olaraq hansı satraplığa daxil edilməsi bildirilmir, lakin satraplıqların ərazisinin ümumi təsvirindən aydın olur ki, o XI satraplığın ərazisinə (cədvəldə müasir Azərbaycan SSR (hazırda Azərbaycan Respublikası.-İ.H.) ərazisinin cənub hissəsi və cənubi Xəzərsahili (?) kimi qeyd olunur) daxil edilmişdir.[93] XI satraplıq 200 gümüş talant (talant -30 kq. idi) bac verirdi. Naxçıvan bu satraplığa daxil olduğuna görə bacın müəyyən miqdarı onun üzərinə düşürdü.

Naxçıvanın Əhəmənilər dövründəki siyasi – təsərrüfat vəziyyəti barədə arxeoloji materiallar müəyyən təəssürat yaratmağa imkan verir. Bəzi fikirlərə görə Əhəmənilər dövründə Naxçıvan və Kiran şəhərləri sənətkarlıq mərkəzləri kimi tanınmış, Yaxın Şərqlə Cənubi Qafqaz arasındakı ticarət əlaqələrində mühüm rol oynamışdır. Naxçıvanda mədəniyyətin inkişafına dair faktlar da qeyd edilir və bildirilir ki, "Əlincəçay

---

[91] Əliyev Vəli. Naxçıvan-Azərbaycan tarixi diyarıdır, s.35
[92] Дьяконов И.А. Указ.соч., с.344-346
[93] Там же, с.345

vadisindəki Zoğalı abidəsindən antik dövrü sütun altlıqları ilə birlikdə aşkar olunmuş iki tunc qrifon Əhəməni mədəniyyəti abidələri ilə səsləşir. Nadir və gözəl incəsənət əsərləri olan bu qrifonlar ictimai və yaxud dini mərkəzə başçılıq edən səltənət sahibinə məxsus taxtın hissəsi hesab edilir. Əzəmətli zoomorfik obrazların (qartal, şir, qatır-at və s.) vəhdətindən ibarət olan bu qrifonlar hakimiyyət, qüvvət, böyük səltənət, var-dövlət qoruyucusu simvoludur."[94]

Oğlanqalaya aid materiallar da Naxçıvanın Əhəməni dövründə siyasi və mədəniyyət tarixinə dair fikirlər irəli sürməyə imkan verir. Qazıntılar nəticəsində əldə edilmiş materiallar "e.ə.400-250-ci illərdə Oğlanqaladakı iç qalanın yenidən məskunlaşdırıldığını, III Dövr memarlarının saray binasını bərpa etmək istədiyini göstərir."[95] Lakin bu bərpa işləri yarımçıq qalmışdır. Belə bir versiya irəli sürülür ki, "layihənin yarımçıq qalmasının səbəbi ya III Daranın ölümü və Əhəməni imperiyasının dağılması, ya da Makedoniyalı İsgəndərin imperiyasının süqutu ilə bağlı olmuşdur. İkincisi, bu, IV əsrin sonunda imperiyanın dağılmasından sonrakı qarışıq onilliklərdə burada Midiya-Atropatena dövlətinin yaranması ilə bağlı ola bilər. Oğlanqala sitadelinin çoxsaylı özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq bu binanın tikintisini ikinci dövrə aid etmək olar."[96] Faktların təhlili tamamilə fərqli bir versiya irəli sürülməsinə imkan verir. Layihənin xarakteri (binaların çoxsaylı və kiçik həcmli olması, divarların daha az möhtəşəm olması və s.) və xronologiyasının müqayisəsi belə bir fikir söyləməyə əsas verir ki, həmin vaxtlarda Naxçıvanın siyasi həyatında müəyyən dəyişikliklər baş vermişdir. Onun əsas mahiyyəti Əhəməni dövlətinin zəifləməsi şəraitində Naxçıvanın mərkəzi hakimiyyətin asılılığından çıxmaq idi. Ona görə də sarayın tikintisində Əhəməni dövrünə aid müəyyən əlamətlər saxlansa da, yerli xüsusiyyətlər güclənməyə başlanmışdır. Makedoniyalı İsgəndərin (e.ə. 336-323-cü illər) zərbələri altında Əhəməni dövlətinin süqutu ilə bu proses genişlənmiş, Atropatena dövləti zamanı da davam etdirilmişdir. Naxçıvan ərazisində bu dövrə aid küp qəbirlərə və daş qutulara rast gəlinir. Naxçıvanın dövrün siyasi hadisələrində iştirakını təsdiq edən faktlardan biri də onun Makedoniyalı İs-

---

[94] Əliyev Vəli. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır, s.37
[95] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.92
[96] Yenə orada, s.94

gəndərin imperiyası ilə əlaqələridir. Arxeoloji tədqiqatlar ilə "Naxçıvan şəhəri yaxınlığındakı Əliabad kəndi ərazisindəki küp qəbirlərin birində Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş sikkələrin aşkar olunması Naxçıvanın bu imperiya ilə əlaqələrinin olduğundan xəbər verir."[97] Beləliklə, mövcud faktlardan və onlara dair mühakimələrdən çıxış edərək, Naxçıvanın Əhəmənilərin son dövründə müstəqil olmaq uğrunda mübarizəsini və Makedoniyalı İsgəndərin imperiyası ilə əlaqələrini qeyd edə bilərik.

2.3. Naxçıvanın Atropatena dövlətində yeri və roluna dair. Naxçıvan ellinizm dövründə

Azərbaycanın cənubunda dövlətçilik ənənələrinin e.ə. III minillikdən genişlənməsi və Naxçıvanın cənub ərazidəki siyasi qurumlarla siyasi münasibətləri onu burada cərəyan edən hadisələrlə sıx əlaqələndirmişdir. Bunun nəticəsi idi ki, Atropatena dövləti meydana gəldikdə Naxçıvan onun tərkibinə daxil olmuşdur.

E.ə. IV əsrdə Azərbaycanın tarixi torpaqlarında baş verən siyasi proseslər nəticəsində onun şimalındakı ərazidə Albaniya, cənubunda isə Atropatena dövləti meydana gəldi. Albaniya dövlətindən fərqli olaraq, Atropatena dövlətinin mənbəşünaslığı və tarixşünaslığı elə də geniş deyil. Bu sahədəki tədqiqatlar içərisində İqrar Əliyevin rus dilində nəşr edilmiş "Atropatena tarixinin oçerki" və Abdulla Fazilinin "Atropatena" kitablarını qeyd etmək olar. Birinci kitab xronoloji cəhətdən e.ə. IV –e. I əsrlərini, ikinci kitab isə e.ə.IV-e.VII əsrlərini əhatə edir.[98] İqrar Əlievin monoqrafiyası tarixşünaslıqda ətraflı təhlil edilmiş və müsbət qiymətləndirilmişdir.[99] F.Əliyeva antik Azərbaycanın mədəniyyətinə həsr etdiyi kitabında Midiya Atropatenası və Qafqaz Albaniyasının mədəniyyətini birlikdə araşdırmışdır.[100] Atropatena tarixinə yeddi cildlik Azərbaycan tarixində də xeyli yer ayrılmışdır. Əsasən

---

[97] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.92

[98] Алиев Играр. Очерк истории Атропатены. Баку, 1989; Abdulla Fazili. Atropatena (e.ə. IV-e.VII əsri). Bakı, 1992

[99] Вах: Дандамаев М.А. Рец. на: Играр Алиев. Очерк истории Атропатены. Баку, 1989, 160 с. -Вестник древней истории. 1992, № 1; Меликов Рауф. Указ. соч., с.34-37

[100] Алиева Ф.Культура античного Азербайджана-Мидийской Атропатены и Кавказской Албании (IV в. до н.э.-III в.н.э.). Баку, 2007

İqrar Əliyevin müəllifi olduğu həmin hissələrdə Atropatena tarixi ümumiləşdirilmiş şəkildə nəzərdən keşirilmişdir. Naxçıvanın Atropatena dövrü tarixi üçcildlik Naxçıvan tarixinin birinci cildində ümumiləşdirilmişdir. Bu hissə əsas etibarı ilə arxeoloji materiallar əsasında yazılmışdır.[101]

Makedoniyalı İsgəndərin ölümündən sonra dünya tarixində ellinizm adlanan dövr başlayır. Bu dövr xronoloji cəhətdən e. 30-cu illərinədək davam edir. Naxçıvanın Atropatena dövrü tarixinin, eyni zamanda, ellinizm kontekstində nəzərdən keçirilməsi onun ellin dövrü dövlətləri sistemində mövqeyi kimi vacib problemi ortaya çıxarır.

Atropatena dövlətinin meydana gəlməsi Əhəməni satrapı Atropatın adı ilə bağlıdır. Tədqiqatçılar yazır ki, nəinki Cənubi Azərbaycan, eləcə də Şimali Azərbaycanın xeyli hissəsi Atropata tabe idi.[102] Atropat e.ə. 331-ci ildə Makedoniyalı İsgəndərin Əhəməni hökmdarı III Daraya qarşı Qavqamel döyüşündə iştirak etmişdir. Döyüş III Daranın məğlubiyyəti ilə başa çatmış, Əhəmənilər dövləti dağılmışdır. Bütün bunlara baxmayaraq, məharətli dövlət xadimi olan Atropat Makedoniyalı İsgəndər ilə münasibətləri qaydaya sala bilmiş, yenidən satrap təyin edilmişdir. Atropatena dövlətinin meydana gəlməsi, siyasi tarixi və s. məsələlər barəsində Strabon məlumat verir. Onun yazdığına görə, Midiya iki hissəyə ayrılır. Bir hissəsini Böyük Midiya adlandırırlar ki, baş şəhəri Midiya dövlətinin paytaxtı olmuş böyük şəhər Ekbatandır...İkinci hissə- Atropat Midiyasıdır. O öz adını sərkərdə Atropatdan alıb, hansı ki, bu ölkənin, Böyük Midiya kimi makedonyalılara tabe olunmasına yol vermədi. Doğrudan da, təntənə ilə çar elan edilən Atropat öz hökmü ilə bu ölkəni müstəqil elan etdi və indi də varislik onun ailəsində qalır...Bu ölkə Ermənistan və Matiandan şərqdə, Böyük Mitianadan qərbdə və hər iki ölkədən şimalda yerləşir; o cənubdan Matianaya və Hirkan dənizin çuxurunun yanındakı vilayətlərə qonşudur.[103]

Yeni yaranan dövlət ilk vaxtlar Mada adlandırılsa da, sonralar banisinin adı ilə Atropatena adlandırılmağa başlandı. Bəzi versi-

---

[101] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.92-95

[102] Алиев Играр. Очерк истории Атропатены, с.52

[103] Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 2007, s.23-24

yalara görə Azərbaycan sözü də mənşə etibarı ilə Atropatenaya gedib çıxır.[104]

Atropatena dövləti ellin dövlətləri sistemində mühüm yer tuturdu. Makedoniyalı İsgəndərin ölümündən sonra yaranan dövlətlərdən biri Selevkilər dövləti (e.ə. 312-64-cü illər, Roma tərəfindən dağıdılmışdır) idi. Selevkilər dövləti sonralar parçalanmış, onun tərkibindən Parfiya (e.ə. 250-e.224-cü illər, Sasanilər tərəfindən dağıdılmışdır) və Yunan-Baktriya dövləti (e.ə. 250-e.ə. 125-ci illər) ayrılmışdır. Az bir müddət ərzində parfiyalılar mövqelərini xeyli möhkəmləndirməyə nail olmuş, asılı ölkələrdə Parfiya Arşakilərinin kiçik qolları hakimiyyətə gəlmişdir. Bu zaman dövrün siyasi hadisələrində əsas faktorlardan biri də Roma imperiyası idi.

Atropatena dövləti siyasi sisteminə görə monarxiya idi. Burada e.ə. IV-e.ə.I əsrin əvvəllərində dövlətin banisi Atropatdan sonra, Atropatilər sülaləsindən olan Artabazan, Mitridad (Mehradad), Dara (Daryuş), I Aryabarzan və I Artavazd hökmranlıq etmişdir. Sonra Arşakilərin kiçik qolu hakimiyyətə gəlmiş, Vanon, III Artaban, IV Artaban (Küdarz), Küdarz Horavda Vanon, II Pakor, II, III, IV Valagez, V Artaban və V Valagez hökmranlıq etmişdir.[105] Atropatenanın dövlət həyatında mühüm rola malik olan ordusu var idi. Strabonun yazdığına görə, bu ölkə hərbi qüvvə baxımından kifayət qədər böyükdür, belə ki, o Apollonidin dediyinə görə, (döyüşə) , 10 000 atlı və 40 000 piyada çıxara bilir.[106] Atropatena inkişaf etmiş pul dövriyyəsinə malik idi.[107]

Atropatena tarixinin e.ə. I əsrin əvvəllərinədək olan tarixi haqqında məlumatlar azdır, lakin Atropat dövründən sonra dövlətin həyatına dair mənbələrin məlumatının nisbətən genişləndiyi e.ə.I əsrin ikinci yarısı-e.30-cu illərinə aid tarixi hadisələr, xüsusilə xarici siyasi həyata dair faktlar onun bölgədə ciddi rola malik olduğunu göstərir. Bu dövrün əsas məzmununu Parfiya və şərqə nüfuzu getdikcə möhkəmlənən Roma arasında mübarizə təşkil edirdi. Atropatena Antoninin məşhur "Parfiya ekspedisiyası" zamanı (e.ə. 38-ci il) Parfiya ilə bir cəbhədə çıxış etmiş, müttəfiqlər qalib gəlmişdilər.[108] Bu qələbə müttə-

---

[104] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.267-268
[105] Abdulla Fazili. Atropatena (e.ə. IV-e.VII əsri), s.144
[106] Azərbaycan tarixi üzrə qaynaqlar, s.24
[107] Алиев Играр. Очерк истории Атропатены, с.115
[108] Daha ətraflı bax: там же, с.90-97

fiqləri daha da birləşdirmək əvəzinə, tezliklə onlar arasında düşmənçiliyə səbəb oldu. Parfiya Atropatenanın ərazisini ələ keçirmək fikrinə düşdü. Vəziyyəti belə görən Atropatena hökmdarı Artavazd Roma ilə yaxınlaşmağa başlayır. Hadisələrin sonrakı gedişi dramatizmi və siyasi dinamikliyi ilə diqqəti cəlb edir. Atropatena hökmdarı nəhayət, romalıların köməkliyi ilə Ermənistanda hakimiyyətə (e.ə. I əsr) nail ola bilir. Ermənilərin Atropatena hökmdarlarına qarşı çıxışları Roma-Atropatena qüvvələri tərəfindən yatırılmışdı. Lakin Romada baş verən siyasi hadisələr nəticəsində onların mövqeyinin zəifləməsi, Atropatenaya da mənfi təsir göstərir. Eramızın 20-ci illərində Atropatilərin mövqeyinin zəifləməsi o dərəcəyə çatır ki, bu sülalənin hakimiyyətinə son qoyulur. Hakimiyyət Parfiya Arşakilərinin kiçik qoluna keçir.[109] Yeni sülalə sasanilərədək (e.ə. III əsr) Atropatenanı idarə edir.

Naxçıvandan əldə edilən maddi mədəniyyət nümunələrinin Atropatena dövlətinin ərazisindən əldə edilən müvafiq nümunələrlə müqayisəsi təsdiq edir ki, Naxçıvan bu dövlətin tərkibində olmuşdur. V.Əliyev yazır ki, "Əhəmənilər monarxiyası Makedoniyalı İsgəndər tərəfindən süquta yetirildikdən (m.ə. IV əsrdə) sonra, Naxçıvan yeni əmələ gələn Atropaten (Kiçik Midiya) dövlətinin tərkibində qaldı. Naxçıvan ərazisi m.ö. III-I əsrlərdə Atropaten dövlətinin tərkibində olmuşdur."[110]Naxçıvan tarixinin birinci cildində qeyd edilir ki, "Oğlanqala şəhərindən əldə edilmiş maddi-mədəniyyət nümunələri Atropatena dövləti üçün xarakterik olmaqla Naxçıvanın Atropatenanın tərkib hissəsi olduğunu təsdiq edir."[111]

Atropatena dövründə Naxçıvan bölgəsi də, digər bölgələr kimi dövlətin həyatında mühüm rol oynamış, lakin Naxçıvanın təbii-coğrafi şəraiti və siyasi nüfuzu dövlət həyatında xüsusi önəm daşımışdır. Bu məsələyə diqqəti cəlb edən tədqiqatçı qeyd edir ki, "Azərbaycan xalqının qədim təşəkkül tarixində Atropatena dövrü çox mühüm bir mərhələ olmuşdur. Naxçıvan bu dövlətin əsas əyalətlərindən, iqtisadi və mədəni mərkəzlərindən biri olmuşdur. Azərbaycanın iki mühüm iqtisadi regionu-Urmiya ilə Naxçıvanın yaxınlığı, əlaqələri daha da möhkəmlənmişdir. ...Naxçıvan və Qazaka (Atropatenanın paytaxtı.-İ.H.)

---

[109] Алиев Играр. Очерк истории Атропатены, с.103-104

[110] Əliyev Vəli. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır, s.37

[111] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.95

şəhərləri Makedoniyalı İsgəndərə tabe olan Yaxın Şərq şəhərləri ilə geniş iqtisadi-mədəni əlaqə yaratmışdılar."[112]

Naxçıvan Atropatena dövlətinin siyasi tarixinin ən mühüm hadisələrində də fəal iştirak etmişdir. Oğlanqaladan eramızın əvvəllərinə aid əldə edilmiş tapıntılar romalıların yuxarıda təsvir etdiyimiz yürüşləri zamanı Naxçıvanın bu prosesdəki yerini müəyyən etməyə imkan verir. Oğlanqalanın II dövrünə aid yerli adama məxsus iki qulplu küp qəbirdə aşkar edilmiş tapıntılar bu fikri təsdiq edir. Bu tapıntılar Naxçıvanın Atropatena dövlətinin siyasi-iqtisadi həyatındakı rolunu aydın



şəkildə ifadə edir. Arxeoloji qazıntılar zamanı qəbirdən dörd gümüş sikkə tapılmışdır. Sikkələrin üz tərəfində imperator Avqustun portreti var idi. Ətrafında "CAESAR AVGVSTS DİVİ F PATER PATRİAE" sözləri verilmişdir. Sikkənin arxa tərəfində isə öndən arxasında nizələr olan qalxana söykənmiş vəziyyətdə Sezar Qayus və Lusiusun təsvirləri vardır. Onun ətrafında isə "VGVSTİ F COS DESİG PRİNC İVVENT, CL CAESARES" yazılmışdır. Tədqiqatçının fikrinə görə, "sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Digər

---

[112] Əliyev Vəli. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır, s.37

hissələr isə daha kiçik diapozona malik olub e.ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir."[113] Şahbuz rayonunun Ağbulaq kəndində aşkar olunan küp qəbirdən tapılmış Arşaki (Parfiya) hökmdarı I Qotarza aid mis sikkə və Naxçıvan yaxınlığındakı Urud (Arşaki hökmdarı Orodun adını əks etdirir) toponimi isə Parfiya ilə olan əlaqələri əks etdirir.[114]

Naxçıvanın Atropatenanın digər bölgələrindən fərqli xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, o eyni zamanda Azərbaycanın şimalında baş verən hadisələrin də təsirinə məruz qalır, şimaldan olan hücumların qarşısında dayanmaqla, dövlətçiliyin möhkəmlənməsinə köməklik göstərirdi. Azərbaycan tarixindən məlumdur ki, "Albaniyanın və bitişik vilayətlərin ərazisinə şimaldan köçəri tayfaların girməsi eramızın hüdudunda və ilk orta əsrlərdə xüsusilə güclənirdi. Yazılı qaynaqlar və arxeoloji məlumatlar bu zaman Albaniya ərazisinə sarmat-massaget-alan tayfalarının soxulduğunu sübut edir. I əsrin son sülsündə Mingəçevir zonasında yeni qəbir tipləri və dəfn adətləri meydana gəlir. Burada ölüləri küplərdə dəfn etmək adəti qalmaqla bərabər, katakomba qəbirlərə, deformasiya olunmuş kəllələrə təsadüf olunur ki, bu da alanlara xas olan etnik əlamətlərdir."[115] Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı bu tayfaların Naxçıvana da hücumunu təsdiq edən materiallar aşkar edilmişdir. Kəngərli rayonunun Böyükdüz kəndi yaxınlığındakı daş qutu qəbirlər sarmat-alan yürüşləri ilə bağlanır. Bu fikir Biçənək (Şahbuz) və Göynük (Babək) kəndlərindən aşkar edilmiş tapıntılara da aid edilir. Sarmat-alanlar içərisində peçeneq və digər tayfalar da olmuşdur. Toponimik tədqiqatlar Biçənək kəndinin adının peçeneqlərlə əlaqəli olduğunu bildirir.[116]

Naxçıvan Azərbaycanın qədim dövlətlərinin tərkibində olmuş, onlarla müəyyən münasibət və əlaqələr qura bilmişdir. Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələ olan Atropatena dövlətinin həyatında Naxçıvan mühüm yer tutmuş, onun tarixinin bütün dövrlərini özündə əks etdirmiş, bu dövlətə qarşı yadelli hücumların qarşısının alınmasında fəal iştirak etmiş, onun xarici iqtisadi əlaqələrində, mədəniyyətinin inkişafında vacib rola malik olmuşdur.

---

[113] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.94-95
[114] Yenə orada, s.95
[115] Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild, s.430
[116] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.95-96

2.4. Naxçıvanın adının ilk dəfə yazılı qaynaqlarda çəkilməsi. Naxçıvan Parfiya Arşakiləri dövründə (I-III əsrlər)

Eramızın I əsrində Azərbaycan dövlətləri olan Atropatena və Albaniyanın siyasi həyatında mühüm dəyişiklik baş verdi. Həm Atropatena, həm də Albaniyada hakim sülalələr dəyişdi. Atropatena və Albaniyada yerli sülalələri Parfiya Arşakilərinin kiçik qolları əvəz etdi. Bu Parfiya dövlətinin siyasi idarəetmə xətti ilə bağlı idi. Parfiyalılar yerli dövlətləri mərkəzi hakimiyyətə tabe etməkdən daha çox, burada siyasi idarəetməni hakim Arşakilərin kiçik qollarına verməyi üstün tuturdular.

Bu dövr Naxçıvanın tarixində də müəyyən yeniliklərlə müşayət olunur. İlk dəfə adı e.ə. I əsr müəllifi İosif Flavi tərəfindən çəkilən Naxçıvanın adı, e. II əsr müəllifi coğrafiyaşünas Klavdi Ptolemeyin məşhur "Coğrafiya" əsərində də çəkilir.[117] Bu faktlar, əslində, Naxçıvan adının daha qədim tarixə malik olmasını əks etdirir, çünki bu yaşayış məskəni daha əvvəllər mövcud olmalı idi ki, onun adı qeyd edilən dövrlərin yazılı qaynaqlarında əks olunsun.

Naxçıvan tarixinin birinci cildində Naxçıvan sözünün mənşəyi barədə geniş bəhs olunur və belə bir nəticə irəli sürülür ki, bu söz Nuhla bağlı olub, "Nuh tayfalarının yurdu" mənasındadır.[118] Məsələnin digər maraqlı bir cəhəti şəhərin adının bölgəyə şamil edilməsi ilə bağlıdır. Bu nümunəyə Azərbaycanda, eləcə də dünyanın digər dövlətlərində rast gəlmək mümkündür. Bu Naxçıvanın tarixi-coğrafiyası ilə əlaqələndirilə bilər. Həmin dövrdə Azərbaycan şəhərləri üç tipə bölünürdü. Birinci tip şəhərlər beynəlxalq tranzit ticarətinin magistral yollarında yerləşirdi. Bərdə, Dərbənd, Qəbələ, Çola, Beyləqan belə şəhərlərdən idi. İkinci tip şəhərlər sənətkarlıq istehsalı və ticarət mərkəzi olub, qapalı və ticarət mərkəzlərindən aralıdakı yerlərdə yerləşirdi. Naxçıvan, Şəki, Şamxor, Girdiman və s. şəhərlər bu tipə aid idi. Üçüncü tip şəhərlər isə əkinçilik tipli şəhərlər olmuşdur. Govur-

---

[117] Bax: Azərbaycan tarixi .Yeddi cilddə, birinci cild, s.49; Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977, s.23

[118] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.131-140

qala, Torpaqqala, Mingəçevir və b. bu qəbildən idi.[119] Məhz ikinci tipə aid olan şəhərlərin adı, eyni zamanda bütöv bölgələrin adını da ifadə etmişdir.

Azərbaycanda (Atropatena və Albaniya dövlətləri) Arşakilərin hakimiyyəti dövründə (I-III əsrlərdə) Naxçıvan Sünik vilayətinə daxil idi. F.Məmmədovanın yazdığına görə, görünür ki, Sünik alban qəbilələrinin ilkin birliyinə daxil olmayıb. Sünik siyasi cəhətdən müəyyən dövrlərdə (Ermənistanın 387-ci ildə bölüşdürülməsindən sonra) ya Albaniyadan, ya da Atropatenadan asılı olur, bəzi zamanlarda isə müstəqil olurdu.[120] Bu fikri Arşakilər dövrünə də aid etmək olar.

Sünik Albaniyanın uzaq cənubunda, Ermənistan (qərbdə) və şimalda Arsax arasında, Sevan (Göyçə) gölündən cənubda yerləşirdi.[121] Arşakilər Sünik ilə hesablaşmalı olurdu. Eramızın I əsrində Albaniyada hakimiyyətdə olan ilk çar əslən Sünikdən idi. Mənbələrin məlumatına görə Parfiya çarı Valarşak Albaniyada başçı kimi Sisakan nəslindən olan Aranı qoymuşdu. Valarşak I əsrdə çar orduları üzərində komandanlığı Sisakan nəslinə vermişdi ki, ilk vaxtlar "Sisan" adlanan Qafqaz qapılarını mühafizə etsinlər.[122]

Naxçıvan Sünikin mərkəzi idi. Onun əsas vilayətlərindən biri Yerincək və Qoxtan (indiki Ordubad rayonu) idi. Mənbələrin məlumatına görə, I-II əsrlərdə Naxçıvan sakinləri marlar idi. Vilayətin hakimi isə murasanlar nəslindən olan Arqam olmuşdur. Erməni taxt-tacına iddialı olan Yeraund və Artaşesin arasındakı müharibə zamanı o, gah bu, gah da digərini müdafiə edirdi. Qoxtana gəldikdə isə, apostol Varfolomeyin xristianlığın təbliğinə burada başlaması bildirilir.[123]

Beləliklə, Arşakilər dövründə Naxçıvanın Sünik vilayətinin mərkəzi kimi siyasi hadisələrdə fəal iştirak etdiyini və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində ciddi rolu aydın olur.

---

[119] Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э.-VIII в. н.э.). Баку, 1986, с.159
[120] Там же, с.159
[121] Там же, с.105
[122] Там же, с.107
[123] Там же, с.110-111

ÜÇÜNCÜ FƏSİL

AZƏRBAYCANIN ORTA ƏSR DÖVLƏTLƏRİ VƏ NAXÇIVAN

3.1. Naxçıvan Azərbaycanın cənubu və şimalı arasında dövlətçilik ənənələrinin birləşdirici faktoru kimi (III-VII əsrlər)

III əsrin 20-ci illərində Ön Asiyanın həyatında ciddi dəyişiklik baş verir. 226-cı ildə meydana gələn Sasani dövləti geniş işğalçılıq siyasətinə başlayır. Sasani dövlətinin ümumi tarixi barədə müəyyən tədqiqatlar aparılmışdır.[124] Sasani dövrü-III-VII əsrlər Azərbaycan tarixi problemləri də diqqət mərkəzində olmuşdur. Bu sahədəki tədqiqatlardan R.M. Vahidovun, F.M. Məmmədovanın, S.Qasımovanın, T.Məmmədovun və başqalarının monoqrafiyalarını qeyd etmək olar.[125] Naxçıvanın Sasani dövrü tarixinə dair bəzi məsələlər isə R.Məmmədov, V.Əliyev və b. müəlliflərin tədqiqatlarında nəzərdən keçirilmişdir. Üçcildlik Naxçıvan tarixinin birinci cildində də Naxçıvanın bu dövr tarixinə toxunulmuşdur.[126]

III-VII əsrlərdə Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixində rolu daha da güclənmişdir. Naxçıvan tarixinin bu dövrə aid faktları Naxçıvanın erməni dövlətçiliyi ilə əlaqələndirilməsini qəti şəkildə

---

[124] Иностранцев К. А. Сасанидские этюды. СПб., 1909;Луконин В. Г. Иран в эпоху первых Сасанидов. - Л., 1961; Его же, Луконин В. Г. Культура Сасанидского Ирана. - М, 1969; Его же, Иран в III в. - М., 1979; Его же, Сасанидская держава в III—V вв. // История древнего мира. Кн. 3. Упадок древних обществ / Под ред. И. М. Дьяконова, В. Д. Нероновой, С. И. Свенцицикой. М., 1982; Его же, Древний и раннесредневековый Иран. Очерки истории культуры. М., 1987; Дашков С. Б. «Цари царей — Сасаниды. Иран III—VII вв. в легендах, исторических хрониках и современных исследованиях». М., 2008 и др.

[125] Vahidov R.M.Mingəçevir III-VII əsrlərdə. Bakı, 1961; Мамедова Ф.М. Политическая история и историческа география Кавказской Албании. Баку, 1986; Касумова С.Ю. Южный Азербайджан в III-VII вв. (проблемы этнокультурной и социально-экономической истории). Баку, 1983; Ее же, Азербайджан в III-VII веках. Баку, 1992;Ее же, Среднеперсидская эпиграфика Кавказской Албании (Дербент). Города Ирана. Баку, 1994; Мамедов Т.М. Кавказская Албания в. IV-VII вв. Баку, 1993 və b.

[126] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977; Əliyev V. Sasanilər dövrü//Naxçıvan-Azərbaycanın tarixi diyarıdır. Bakı, 2002, s.39-41; Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.149-153

əsassız hesab etməyə imkan verir. Arşakilər dövründə olduğu kimi, bu dövrdə də Naxçıvan Sünik vilayətinin mərkəzi idi. İlk Sasani hökmdarlarından olan I Şapur (241-272) Kəbə Zərdüşt abidəsindəki yazısına görə, Sünikin adı Atropatena, Albaniya, İberiya ilə bir sırada çəkilir və buna əsasən belə qəbul edilir ki, Sünik müstəqil olmuşdur.[127] Naxçıvanın sonrakı taleyinə gəldikdə burada müxtəlif fikirlər qeyd edilir. R.Məmmədov yazır ki, "eramızdan əvvəl meydana gələn Naxçıvan şəhəri ilk orta əsrlər dövründə Sasani hökmdarlığına tabe olur və onların canişinləri tərəfindən idarə edilirdi. I Şapur öldükdən sonra Sasanilərin Roma ilə apardıqları müharibə yenidən alovlandı və 283-cü ildə romalıların xeyrinə sülh sazişi ilə nəticələndi. Bu dövrdə bir sıra şəhərlərlə birlikdə Naxçıvan da Sasanilərin hökmranlığı altından çıxdı. Lakin 364-367-ci illərdə II Şapurun Zaqafqaziya ərazisinə yürüşü zamanı Naxçıvan yeni bir ağır zərbə aldı."[128]

F.M.Məmmədova isə Sünik vilayətinin (Naxçıvan bu vilayətin mərkəzi idi) 387-ci ilədək müstəqil olduğunu bildirir.[129] Sasanilər IV əsrin sonlarında, II Şapurun dövründə (309-379) Naxçıvana hücum etmişdir. Bu barədə tarixi qaynaqda qeyd edilir ki, Sasanilər tutduqları ərazilərdə ələ keçirdikləri əsirləri qoşunların mərkəzləşdiyi Naxçıvan şəhərinə gətirmişdir.[130] Naxçıvanın belə vacib funksiyanı yerinə yetirməsi onun strateji əhəmiyyəti ilə izah edilə bilər. Beləliklə, II Şapurun Naxçıvana qarşı yürüşlərindən sonra, onun ələ keçirilməsi başa çatmış, bu fakt 387-ci il Sasani-Roma müqaviləsi ilə təsbit olunmuşdur. Bu faktlar Naxçıvanın 387-ci il müqaviləsinədək müstəqil olması fikrinin daha əsaslı olmasını təsdiq edir. Bu dövrdən etibarən Naxçıvan Sasani dövlətinin tərkibində olmuşdur. Buna baxmayaraq, Naxçıvan bölgəsi diqqət mərkəzində qalırdı. Belə ki, Naxçıvan bölgəsinə daxil olan Qoxtanın adı V əsrdə Maştosun burada apardığı təbliğat missiyası ilə əlaqədar çəkilir.[131]

---

[127] Мамедова Ф.М. Политическая история и историческа география Кавказской Албании, с.106-107

[128] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), s.29

[129] Мамедова Ф.М. Политическая история и историческа география Кавказской Албании, с.112

[130] Там же, с.112

[131] Там же, с.112-113

VI əsrin sonlarında Naxçıvanın inzibati coğrafiyasında dəyişiklik baş vermişdir. Belə ki, 591-ci il Sasani-Roma müqaviləsindən sonra, Naxçıvan Əl-Busfurrucan vilayətinin tərkibinə daxil edilmişdir. Bu vəziyyət VII əsrin əvvəllərinədək davam etmişdir.

Sasani dövləti tərkibində Naxçıvan vacib rolunu davam etdirmiş və Azərbaycan dövlətçiliyi üçün əhəmiyyətli rol oynamışdır. Burada ilk əvvəl Azərbaycan ərazisində ən qədim zərbxanalardan biri olan Naxçıvan zərbxanasını qeyd etmək lazımdır. R.Məmmədov Naxçıvanda zərbxananın fəaliyyətini bir tərəfdən Naxçıvanın iri ticarət və sənətkarlıq mərkəzi kimi tanınması ilə, digər tərəfdən isə bu şəhərin Sasani dövlətinin düşməni olan Bizans hökmdarlığından müəyyən dərəcədə kənarda yerləşməsi ilə izah edir.[132] Burada siyasi faktorun da roluna xüsusi diqqət yetirməyə ehtiyac vardır. Görünür bu dövrdə Naxçıvan Sasani hökmdarları üçün mühüm siyasi mərkəzlərdən biri olmuşdur. Təsadüfi deyil ki, Sasani mərzbanlarının iqamətgahı müəyyən vaxt Dvindən Naxçıvana köçürülmüşdü. Azərbaycan numizmatikası üzrə tanınmış mütəxəssislərdən olan Y.A.Paxomov Azərbaycan və Naxçıvan sikkələrinə dair araşdırmalarında bu problem üzərində ətraflı dayanmış, burada "naxç" işarəsi ilə sikkələr kəsildiyini bildirmişdir.[133] Onun yazdığına görə ilk Naxçıvan sikkəsi I Xosrovun (531-579) adından 533-cü ildə kəsilmişdir. Sonralar həmin zərbxanada IV Hörmüzd, VI Bəhram Çubin (590-591), II Xosrov Pərviz (591-628), II Qubad Şiruyə (628), III Ərdəşir (628-630), Buran-Puranduxt (630-631), V Hörmüzd (631-632), III Xosrov (632) və III Yezdəgirdə (632-651) aid sikkələr zərb edilmişdir. Naxçıvan zərbxanasında yüksək əyarlı gümüşdən kəsilən draxmaların çəkisi 4,01-4,08 qram idi.[134]

Naxçıvanın siyasi funksiyasının yüksək olmasının nəticəsi idi ki, Sasani dövləti ilə mübarizədə olan digər qüvvələrin maraqları burada toqquşurdu. R.Məmmədov yazırdı ki, "bütün Atropaten ərazisi, o cümlədən Naxçıvan işğalçı İran və Roma ordularının döyüş meydanına çevrilmişdi. Buraya Roma orduları ilə yanaşı, yunan, erməni qoşunları, köçəri alan və hun dəstələri soxulurdu. Bu dövrdə xristianlar

---


[132] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), s.32

[133] Пахомов Е.А. Монеты Азербайджана. Вып. 1, Баку, 1949; Его же, О Сасанидских монетных знаках// Докл. АН Азерб ССР, 1945, № 1; Его же, Монеты Нахичевана// Изв. АН Азербайджанской ССР, 1949, №5

[134] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), s.32

mümkün olan yerlərdə atəşpərəstlərə məxsus məbədləri və dini tikintiləri məhv edir, əvəzində xristian məbədləri tikirdilər."[135]

VII əsrin əvvəllərində Sasani dövləti ilə Roma imperiyasının parçalanması nəticəsində onun şərq vilayətlərində meydana gələn və Romanın işğalçı siyasətini davam etdirən Bizans arasında ziddiyyətlər kəskinləşir. Naxçıvanın siyasi əhəmiyyəti onu Sasani-Bizans münasibətlərində mühüm mərkəzə çevirir. Bizans imperatoru İrakli (610-641) 625-ci ildə 120 minlik qoşunla Naxçıvana daxil olaraq, şəhəri dağıdır və ətraf ərazilərlə birlikdə onu ələ keçirir. Lakin Sasanilər Naxçıvanı yenidən tutmağa nail ola bilir.[136]



Albaniyada Mehranilərin hakimiyyəti bərqərar olduqdan sonra Naxçıvan və Qoxtan Albaniyaya keçmişdir.[137] Bununla da Azərbaycan dövlətçiliyi daha da güclənmişdir. Bu baxımdan Ermitajda mühafizə olunan tunc atlı heykəlinin tarixdə yeri məsələsinin yenidən interpretasiyasına ehtiyac vardır. K.V.Trever 35,6 sm. hündürlüyündə olan bu buxurdanın satıcı tərəfindən 1901-ci ildə Naxçıvan diyarında alındığı

---

[135] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), s.29-30
[136] Yenə orada, s.33
[137] Мамедова Ф.М. Политическая история и историческа география Кавказской Албании, с.113

bildirilir və bu məlumata belə bir qeyd verilir ki, predmetin bu və ya digər yerdən alınması həmin predmetin mənşəyinin bu yerdən olması demək deyildir, o həmin yerə incəsənət abidələri həvəskarı və ya antikvariat taciri tərəfində də gətirilə bilər.[138] V.Əliyev isə tunc atlı heykəlinin məhz Naxçıvan şəhərindən tapıldığını bildirir.[139] Bu fakt həqiqəti əks etdirir. Belə bir yanaşma tunc atlı heykəlinin təsviri və qiymətləndirilməsi ilə vəhdətdə nəzərdən keçirilsə (burada bizim üçün heykəlin incəsənət əsəri kimi təhlili ilə yanaşı,[140] siyasi motivi də eyni dərəcədə əhəmiyyətlidir), Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində roluna dair mühüm artefakta malik olduğumuz aydın olar. Tunc atlı heykəlinin Cavanşirə aid olması haqqında fikirlər üstünlük təşkil edir. Buna uyğun olaraq tunc atlının hakimiyyət simvolu kimi qəbul etsək, onun məhz Naxçıvandan əldə edilməsini təsadüfi hesab etmək olmaz. Belə güman etmək olar ki, Cavanşirin hakimiyyətinin ən uğurlu dövrünün ifadəsi olan bu tunc heykəl Naxçıvanın həmin zamanlarda onun siyasətini müdafiə edən ən mühüm mərkəzlərdən biri olduğunu ifadə edir.

Çox maraqlıdır ki, Zoğalı kəndindən (Culfa rayonu) tapılmış qrifon tipli zoomorf formalı tunc əşyalar-taxt ayaqlar da qüdrət və var-dövlət rəmzi kimi çıxış edir. V.Əliyev onları təsvir edərək belə qiymətləndirir: "Onların yuxarısı qartal başına, boyun hissəsinin üstü at və yaxud qatır yalmanına, ayağı qartal caynağına və yaxud şir pəncəsinə oxşayır. Boğaz hissəsinin altına və döş hissəsinə simvolik məzmunlu zolaqlar, meandr və yarpaqvari naxışlar həkk olunmuşdur. Ümumilikdə bu qrif başlı sənət nümunələrində (hündürlüyü 25,5 sm.) qartal, at, çaqqal (dik qulaqlar) və şir ünsürləri birləşdirilmişdir...Antik dövrün incəsənət nümunələrində, sikkələrdə, barelyeflərdə, qızıl, gümüş qabların üzərində, kəmər toqqalarında və s. bəzəklərdə qrif təsvirləri qüvvət, qüdrət rəmzi, var-dövlət və səltənət qoruyucusu simvolu kimi verilmişdir."[141]

Beləliklə, Azərbaycan dövlətçiliyinin III-VII əsrlərdəki mürəkkəb

---

[138] Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. –VII в. н.э. М.-Л., 1959, с.327

[139] Əliyev V.Naxçıvan – Azərbaycanın tarixi diyarıdır, s.40

[140] Bu barədə daha ətraflı bax: Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. –VII в. н.э., с.327-330

[141] Əliyev V.Naxçıvan-Azərbaycanın tarixi diyarıdır, s.40-41

və ziddiyyətli dövründə Naxçıvanın siyasi rolunun artması və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi uğrunda mübarizə aparan mərkəzlərdən biri olduğu aydın olur.

3.2.Azərbaycanda Ərəb xilafəti hakimiyyətinin süqutu. Naxçıvanın yeni müstəqil dövlətlərin yaranması və möhkəmləndirilməsində rolu (IX–X əsrin 80-ci illəri)

İslam dininin yaranması və Ərəb xilafətinin meydana gəlməsi (632-1258) dünya tarixinin inkişafına həlledici təsir göstərdi. Ərəb xilafəti yarandıqdan qısa müddət sonra geniş istilalara başladı. Xilafətin işğallarının tarixində VII əsrin 30-50-ci illəri və VII əsrin sonları-VIII əsrin 30-cu illəri olmaqla iki mərhələ ayrılır. Xilafətin işğallarının gedişi prosesində Azərbaycan torpaqları da hücumlara məruz qaldı.[142] 637-ci il Kadusiyyə və 642-ci il Nəhavənd döyüşləri ilə Sasani imperiyasına ağır zərbələr vurulur. Sasani imperiyası 651-ci ildə tamamilə dağılır.

Ərəb xilafəti bu yürüşlər prosesində Azərbaycan torpaqlarını da ələ keçirməyə çalışır. Azərbaycana yürüş zamanı Naxçıvanın tutulması əsas hədəflərdən biri olmuşdur. Naxçıvanın ərəblər tərəfindən işğalı bir dəfəyə mümkün olmamış, Xilafət qüvvələri bu əraziyə bir neçə dəfə hücümlar etmişlər. 644-cü ildə, Azərbaycan ərazisinin cənub və Dərbəndədək Xəzərsahili torpaqlarının işğalından sonra, sərkərdə Həbib ibn Məsləmənin başçılığı ilə həyata keçirilən yürüş zamanı Naxçıvan (ərəb mənbələrində Nəşavə-İ.H.) ələ keçirilmiş, onun əhalisi ilə barışıq imzalanmışdır.[143]


Ərəb istilaları zamanı Azərbaycanda islam dini də yayılırdı. İslam dininin yayılması ilə Azərbaycanda dini pərakəndəlik zəiflədi, Azərbaycanın cənub və şimalı vahid dinə gəldi. Naxçıvan yeni dinin qəbul edilməsi və möhkəmləndirilməsində mühüm rola malik oldu.

---

[142] Ərəb xilafəti tərəfindən Azərbaycan torpaqlarının işğalları və Ərəb xilafətinin hakimiyyətinə dair Azərbaycan tarixşünaslığında müəyyən tədqiqatlar vardır. Bu barədə bax: Z. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989; N.Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993: Yenə onun. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016 və s.

[143] Naxçıvanın ərəb işğallarından monqollaradək olan dövr tarixi N.Vəlixanlı tərəfindən xüsusi tədqiqat obyekti olmuşdur. Bax: N. Vəlixanlı. Naxçıvan-ərəblərdən monqollaradək. Bakı, 2005; Yenə onun. Naxçıvan VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan, 2015

Müsəlman aləmində məlum olan ilk məscidlərdən bəziləri də məhz Naxçıvan bölgəsində inşa edilmişdir. "1901-ci ildə Naxçıvan bölgəsinin ikinci böyük şəhəri olan Ordubad şəhər Came məscidinin ətrafında bərpa və abadlıq işləri aparılarkən torpağın altından üstündə ərəb əlifbası ilə "Harun" şəxs adlı və hicri 111-ci il tarixi həkk edilmiş bir kitabə tapılmışdır. Bu kitabə sübut edir ki, şəhərin mərkəzində əzəmətlə ucalan Came məscidinin əsası hicri-qəməri təqvimi ilə 111-ci ildə (miladi 729-cu ildə) qoyulmuşdur."[144]



Naxçıvan ərəblərin Azərbaycan torpaqlarında yaratdığı inzibati-idarə sisteminin vacib mərkəzlərindən biri idi. Ərəblərin həyata keçirdiyi ağır iqtisadi siyasət, köçürmə və s. burada da əhalinin vəziyyətinə ağır təsir göstərirdi. Buna görə Naxçıvan da Ərəb xilafətinin zülmünə son qoyulması və dövlətçiliyin bərpası uğrunda mübarizədə fəal iştirak edirdi. Bu, Babək hərəkatı dövründə (816-837) özünü daha

---

[144] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.186-187


aydın şəkildə göstərmişdir. Babək hərəkatı haqqında bəzi tədqiqatlara baxmayaraq, Z.Bünyadovun bu barədə araşdırmaları elmi aktuallığını bu gün də saxlamaqda davam edir.[145] Babəkin qarşısında duran əsas məqsədlərdən biri ərəbləri qovmaqdan ibarət idi. "Xürrəmilər üsyanının bürüdüyü bütün vilayətlərdə Babək öz ardıcıllarına əmr edirdi ki, ərəblərin mülk və malikanələrinə hücum etsinlər və onların əmlakını ələ keçirsinlər."[146] Bu ideya bütün Azərbaycan torpaqlarında, o cümlədən onun hüdudlarından kənarda xeyli tərəfdarlar toplamışdı. Təkcə Azərbaycanda və Deyləmdə onun tərəfdarlarının ümumi sayı 300 min nəfər idi.[147] 830-833-cü illərdə hərəkatın genişlənməsi və Həmədanın tutulması xilafətin daha fəal addımlar atmasına səbəb oldu. Xəlifə Məmun 833-cü ilin avqustunda ölüm ərəfəsində yeni xəlifə Mötəsimə (833-842) vəsiyyətnaməsində qeyd edirdi ki, "xürrəmilərə gəlincə, onlara qarşı müharibəyə qətiyyətli və rəhmsiz bir adam göndər, ona səbirlə pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər onların vaxtı (xürrəmilərlə müharibə-Z.B.) uzun çəksə, sən özün öz tərəfdarların və yaxın adamların ilə onların üstünə get."[148] Xilafətin gördüyü tədbirlər nəticəsində 837-ci ildə Babəkin mərkəzi Bəzz qalası süqut etdi, o, tutularaq dövlətin paytaxtı Samirəyə aparıldı və orada edam edildi. Babək hərəkatı Ərəb xilafətinə ağır zərbə vurdu və bununla da onun dağılmasını sürətləndirdi.

Naxçıvan da Babək hərəkatının yayıldığı əraziyə daxil olmuşdur. Hazırda Naxçıvanda Babəkin adı ilə bağlı olan tarixi abidələr-Babək qalası (Ordubad rayonu, Biləv kəndi yaxınlığında), Babəki yaşayış yeri (Şərur rayonu, Babəki kəndi) və s. abidələr də Naxçıvanın Babək hərəkatında rolunu, Ərəb xilafətinin dağılması ilə Azərbaycan dövlətçiliyinin bərpasında rolunu təsdiq edir.

Babək hərəkatı ilə, eyni zamanda, Azərbaycan torpaqlarının, o cümlədən Naxçıvan bölgəsinin, xüsusilə onun mərkəzi olan Naxçıvan şəhərinin iqtisadi cəhətdən inkişafı Azərbaycanın dövlət müstəqilliyinin bərpası üçün zəminin hazırlanmasında əhəmiyyətli mövqeyə malik idi. Ərəb müəllifləri Əl-İstəxri və İbn Havqəl VII-IX əsrlər şəhərləri

---

[145] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, V fəsil
[146] Yenə orada, s.235
[147] Yenə orada
[148] Yenə orada, s.241-242



haqqında danışarkən Naxçıvanın inkişaf etmiş və məhsuldar bir şəhər olduğunu qeyd edirlər.[149] Naxçıvanda Sasanilər dövründə olduğu kimi zərbxana fəaliyyət göstərirdi. Burada 692-ci ildə ərəb əmiri Əbdürrəhman ibn Abdullahın adından Sasani tipli gümüş drahma zərb edilmişdir. Bu sikkənin də üzərində Sasani sikkələrindəki kimi "naxç" işarəsi var idi.[150] Naxçıvan istər ölkədaxili, istərsə də beynəlxalq ticarət əlaqələrində də iştirak edirdi. Naxçıvandan keçən mühüm ticarət yolları haqqında mənbələrin məlumatından bəhs edən müəllif yazır ki, Naxçıvan-Mərənd, Xok, Təbriz, Marağa, Urmiya, Salmas, Xarrakan, Dəbil və s. şəhərləri bir-

---

[149] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki,s.43
[150] Пахомов Е.А.Монеты Нахичевана, с.114

ləşdirən tranzit-ticarət yolu üzərində yerləşmişdir.[151] Beləliklə, Ərəb xilafətinin dağılması ilə Azərbaycanda yeni müstəqil dövlətlərin yaranmasında Naxçıvan bölgəsinin özünəməxsus iştirakı olmuşdur.

Ərəb xilafətinin zəifləməsindən sonra Azərbaycanda yaranan ilk dövlət Şirvanşahlar dövləti (861-1538) oldu. Şirvanın ərazisi barədə mənbələrin məlumatını təhlil edən M.Şərifli yazır ki, "IX-XI əsrlərdə Şirvan, Azərbaycanın böyük bir hissəsini təşkil edən şimal vilayətlərini əhatə edirdi".[152] Naxçıvan Şirvan şəhərləri ilə ticarətdə əlaqələndirici rol oynamaqla onların iqtisadi həyatının güclənməsinə təsir göstərirdi.[153]

Azərbaycanda digər bir dövlətin-Sacilər dövlətinin (898-941) yaranması ilə Naxçıvan onun tərkibinə daxil edildi. Sacilər dövlətinin tarixi haqqında ilk dəfə 1961-ci ildə M.Şərifli geniş bəhs etmişdir.[154] Sonra bu barədə doktorluq dissertasiyasında və monoqrafiyasında ümumləşdirmə aparmışdır.[155] Z.Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" kitabında Sacilər dövlətindən də bəhs etmişdir.[156] Azərbaycan numizmatikasına həsr edilmiş əsərlərdə Sacilər dövlətində pul dövriyyəsi və sikkələr də tədqiqat obyekti olmuşdur.[157]

Sacilər dövlətinin meydana gəlməsi Ərəb xilafətinin zəifləməsindən sonra baş verən dövlətlərin yaranması səbəbləri ilə oxşar olmuşdur. Burada təbii ki, dövlətin meydana gəlməsi üçün iqtisadi amillər olmalı idi. Ərəb xilafətinin inzibati-ərazi üzrə idarəetmə siyasəti və dövlət yaratmağa qabil olan siyasi liderin də mühüm rolu var idi. Dövrün tədqiqatçısı M.Şəriflinin qeyd etdiyi kimi "xilafət Azərbay-

---

[151] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.183

[152] Şərifli M.X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1975, s.33

[153] Vəlixanlı N. X əsrin II yarısı-XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha "Naxçıvanşahlıq" haqqında//AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 2001,№3, s.120-129

[154] Şərifli M.Sacilər dövləti//Azərbaycan SSR EA Tarix İnstitutunun Əsərləri.1961, XVc.

155. Шерифли М. Феодальные государства Азербайджана второй половины IX-XI вв. Автореферат докт. дис. Баку, 1965; Şərifli M. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978, II fəsil

156. Bünyadov Z.Azərbaycan VII-IX əsrlərdə, s.196-212

[157] Раджабли А.Нумизматика Азербайджана (очерки истории монетного дела и денежного обращения Азербайджана). Баку, 1997, с.39 и др.

can, Arran və Ermənistanda möhkəmlənmək məqsədi ilə bu vilayətlərə hərbi işləri yaxşı bilən bacarıqlı əmirləri vali göndərir, bu yerlərdən artıq mədaxil əldə etməyə çalışırdı. Heç təsadüfi deyildir ki, Xilafət bir neçə vilayətdə mühüm işdə çalışmış, onun sərəncamı ilə bir sıra döyüşlərdə iştirak edərək qələbə çalan Əbu Sac nəslindən olan əmirləri Azərbaycana vali təyin etmişdir. Sacilər nəslindən bizə məlum olan birinci hakim Əbu Sac Divdad idi."[158] Əslən türk tayfası olan sacilərin Xilafətdə nüfuz sahibi olması burada türklərin mövqeyinin möhkəmlənməsinin ümumi axınında baş verirdi.[159] Sacilər dövlətinin yaranması bilavasitə Məhəmməd ibn Əbu Sacın (889-901) adı ilə bağlıdır. Dövlətin ən görkəmli hökmdarı isə Yusif ibn Əbu Sac (901-919, 922-927) olmuşdur. Yusifin həyat keçirdiyi siyasət nəticəsində Sacilərin sərhədləri genişlənmiş, şimalda Dərbəndə çatmışdır. Arran da Sacilər dövlətinin tərkibinə daxil olmuş, Şirvanşah Məzyədilər sacilərin suverenliyini qəbul edərək onlardan asılı olmuş, bütün Azərbaycan torpaqları bu dövlətin hakimiyyəti altında birləşdirilmişdir. Yusifin müstəqil siyasət yeritmək cəhdləri Xilafət tərəfindən müqavimətlə rastlaşır. 919-cu ildə xəlifənin qoşunları ilə Yusif arasında Ərdəbildə döyüş baş verir, o, məğlub olur və əsir götürülür. Bundan sonra, Yusifin əmirlərindən olan Subuk Azərbaycanda hakimiyyəti ələ almağa nail ola bilir. Subuk ilə xəlifə arasında ziddiyyət Yusifin yenidən siyasət meydanına qayıtmasına səbəb olur. Xəlifə Yusifin yenidən fəal siyasət yeritməsindən narahat olaraq, onu qərmətilərlə döyüşə göndərir. Yusif 927-ci ildə qərmətilərlə döyüşdə öldürülür. Yusifin öldürülməsindən sonra on dörd il ərzində Sacilər dövlətində hakimiyyət müxtəlif hökmdarların əlində olmuş, 941-ci ildə Sacilər dövləti süqut etmişdir.[160] Sacilər dövlətinin paytaxtı əvvəl Marağa, sonra isə Ərdəbil şəhəri olmuşdur.

Naxçıvan Sacilər dövləti tərkibində siyasi baxımdan əhəmiyyətli rola malik olmuşdur. Məhəmməd ibn Əbu Sac 893-894-cü illərdə Dəbilə (Dvinə) gedərkən Naxçıvandan keçmişdir. Yusif ibn Əbu Sac da 910-cu ildə Naxçıvanda olmuş, Dəbil üzərinə yürüş buradan təşkil

---

[158] Şərifli M. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.91

[159] Bu barədə bax: Ахундова Н. Тюрки в системе государственного управления Арабского Халифата.Баку, 2004

[160] Şərifli M. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.95-120

edilmişdir. Bu hadisələr 914-cü ildə baqratilərdən olan I Sumbatın (890-914) edam edilməsi ilə nəticələnmişdir.[161]

Sacilər dövlətinin süqutundan sonra onun ərazisində Salarilər dövləti (941-981/3) meydana gəlmişdir. Salarilər dövləti də Ərəb xilafətinin dağılmasından sonra yaranan siyasi proseslərin gedişində formalaşmışdır. Sacilərin son dövrünü xarakterizə edən M.Şərifli yazır ki, Azərbaycanda hökmranlıq edən Saci əmirlərindən olan Deysəm ibn İbrahim maliyyə işlərini yaxşı bilən və əslən azərbaycanlı Əli ibn Cəfəri dövlət işinə cəlb etmişdir. Məhz onun köməyi ilə Sacilər üzərinə hücuma keçən Salar Mərzuban ibn Məhəmməd qalib gəlir, Deysəmin hakimiyyətinə son qoyulur.[162] Mərzuban ibn Məhəmməd (941-957) Salarilər dövlətini yaratdıqdan sonra, dövlətin möhkəmləndirilməsi uğrunda gərgin mübarizə aparır və buna nail ola bilir. O, hakimiyyətinin son dövrlərində Şirvanşahlar, Şəki, Sənariyə, Əhər, Xaçen, Van, Şərqi Gürcüstanı və b. vilayətləri özünə tabe edərək bir milyon dirhəmə yaxın vergi alırdı.[163] Salarilər dövründə də Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi siyasi və iqtisadi inkişafa təkan vermişdir. M.Şərifli İbn Havqəlin məlumatlarına əsaslanaraq yazır ki, Salarilər dövlətinin sərhəddi Qafqaz sıra dağlarından İraq və Mesopatamiya hüdudlarına, Xəzər dənizindən və Gilan vilayətindən Ermənistana qədər uzanırdı. Azərbaycanın cənub və şimalı bu dövlətin tərkibində vahid şəkildə birləşmişdi.[164] Lakin Mərzuban ibn Məhəmmədin ölümündən sonra ara müharibələri başlayır, bəzi vilayətlər dövlətin tərkibindən çıxdığına görə vergilər azalır. I İbrahim ibn Mərzubanın dövründə (962-981) həyata keçirilən siyasət əvvəlki hakimiyyəti bərpa etməyə imkan vermir, Salarilər dövləti süqut edir.

Sacilər dövründə olduğu kimi Salarilər zamanında da Naxçıvan mühüm strateji bölgə olaraq dövlət həyatında önəmli yer tuturdu. Naxçıvan X əsrin 40-cı illərinin sonlarında qısa müddətə Mosul hakimi olan həmdanilər tərəfindən əl keçirilmişdi. Sacilərin sonuncu hökmdarı Deysəm hakimiyyətini bərpa etmək uğrunda mübarizədə Naxçıvana xüsusi əhəmiyyət verdiyinə görə, həmdanilər tərəfindən işğal edilən Naxçıvan və Dəbil

---

[161] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.317.
[162] Şərifli M. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.125
[163] Yenə orada, s.168
[164] Yenə orada, s.185

şəhərləri Deysəm tərəfindən geri qaytarılmışdır. Lakin Deysəm hakimiyyətini bərpa etməyə nail ola bilmir və sonra buradan qaçmalı olur.[165] Beləliklə, Naxçıvan yenidən salarilərin hakimiyyətinə keçir. Bu X əsrin 70-ci illərinədək davam edir.

971-ci ildə Azərbaycanın şimalında Şəddadilər hakimiyyəti ələ almağa nail olur, bununla da mərkəzi Gəncə şəhəri olan Gəncə əmirliyinin (971-1065) əsası qoyulur. "Gəncə əmirliyinin ərazisi Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Naxçıvan, Sünik, Qafan və Arranın digər əraziləri də bu əmirliyin tərkibində id. Şəddadilər dövlətinin ərazisi Kür çayı, Araz çayı, şərqdə Beyləqan nahiyəsi, qərbdə Xunan qalasına qədər uzanan Arran torpaqlarını əhatə edirdi. Arranın sərhəddi isə Dərbənddən Tiflisə və Araz çayı yaxınlığındakı Naxçıvana qədər çatırdı."[166] Az bir müddət sonra, X əsrin 80-ci illərində Salarilər dövlətinin ləğvi ilə yeni Rəvvadilər dövləti (983-1117) meydana gəlir. Naxçıvan bölgəsi də Azərbaycanda cərəyan edən bu siyasi proseslərin əsas mərkəzlərindən biri olmuş, burada Naxçıvanşahlıq adlandırılan hakimlik təşəkkül tapmışdır.

3.3. Naxçıvanşahlıq: tarixşünaslıq qeydləri və tarixi haqqında (X əsrin 80-ci illəri-1065-66-cı illər)

Naxçıvanşahlıq haqqında ilk dəfə M.Şərifli doktorluq dissertasiyasında (1965) bəhs etmişdir.[167] 1966-cı ildə isə onun bu barədə xüsusi məqaləsi çap edilmişdir.[168] Naxçıvan şəhərinin orta əsrlər dövrünün tədqiqatçısı R.Məmmədov da bu fikrə tərəfdar olmuş, Naxçıvan şəhərinin X əsrin 80-ci illərindən etibarən "Naxçıvan şahlığı" adlanan xüsusi feodallığın paytaxtı olduğunu qeyd etmişdir.[169] F.Məmmədova 1986-cı ildə nəşr edilən kitabında[170], V.Piriyev isə

---

[165] Şərifli M. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, s.163

[166] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.191

[167] Вах: Шерифли М. Феодальные государства Азербайджана второй половины IX-XI вв. Автореферат докт. дис., с.63-65.

[168] Şərifli M. Naxçıvanşahlıq//Azərb.SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq ser., 1966, №4

[169] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, s.69

[170] Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании, с.114

1999-cu ildə nəşr edilən məqaləsində[171] "Naxçıvanşahlıq"dan bəhs etmişdir.

N.Vəlixanlı isə 2001-ci ildə nəşr edilmiş "X əsrin ikinci yarısı-XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha "Naxçıvanşahlıq" haqqında" məqaləsində bu müəlliflərin fikirlərinə qarşı çıxmış və bildirmişdir ki, "ədəbiyyatda adı çəkilən və çox mürəkkəb bir dövrdə fəaliyyət göstərən Naxçıvanşah Əbu Duləfin idarə etdiyi "Naxçıvanşahlıq" (belə bir termin ümumiyyətlə olmayıb) əslində müstəqil dövlət deyil, Şəddadilər dövlətinin tərkibində olmuş, bu dövlətin Gəncə-Naxçıvan (Arran) əmirliyinə aid edilmişdir."[172]

Beləliklə, tarixi araşdırmaların təhlili göstərir ki, Azərbaycanın xüsusi dövr kimi ayrılan IX-XI əsrlər tarixinin ümumi mənzərəsinə (Ərəb xilafətinin dağılmasından sonra bir sıra dövlətlərin, tarixi mənbələrdə göstərildiyi kimi müstəqil və ya asılı hakimliklərin meydana gəlməsi və s.) uyğun olaraq, Naxçıvanşahlıq hakimliyinin mövcud olmasını qəbul etmək daha doğrudur. Belə bir hakimliyin mövcud olması Naxçıvan bölgəsinin həm o zamanadək, həm də sonrakı dövrdə keçdiyi tarixi inkişaf yolu ilə də təsdiq olunur. Bir az irəli gedərək qeyd edə bilərik ki, Naxçıvanşahlığın mərkəzi olan Naxçıvan şəhərinin Atabəylər dövlətinin paytaxtı kimi müəyyən edilməsi, monqol hakimiyyəti dövründə Naxçıvan tümənininin ayrılması, Naxçıvan xanlığının yaradılması və s. prosesin qanunauyğunluğunu ortaya çıxarır.

"Naxçıvanşahlıq" X əsrin 80-ci illərində ölkədə yaranmış siyasi vəziyyətlə əlaqədar meydana gəlmişdir. Naxçıvanşahlıq Salarilər dövlətinin son vaxtlarında meydana gəlmiş və Rəvvadilər dövləti ilə yanaşı fəaliyyət göstərmişdir.[173] Naxçıvanşahlıq adlanan feodallığın təşəkkülü Rəvvadilər dövlətinin adı ilə sıx bağlıdır. Bu feodallığın başında Əbu Duləfilər sülaləsinin nümayəndələri dururdu.[174]

Əbu Duləf adına ilk dəfə IX-X əsrlər ərəb müəlliflərinin əsərlərində rast gəlinir. Duləfilər xanədanı Həmədanla İsfahan arasında

---

[171] Piriyev V. Azərbaycanın qədim diyarı Naxçıvan (Naxçıvan Muxtar Reespublikasının 75 illiyi münasibəti ilə)// Azərb. EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 1999, №2, s.6-7

[172] Vəlixanlı N. X əsrin II yarısı-XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha "Naxçıvanşahlıq" haqqında, s.127

[173] Piriyev V. Azərbaycanın qədim diyarı Naxçıvan (Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibəti ilə), s.7

[174] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, s.69

olan yerlərə sahib idi.[175] Duləfilərin idarə etdiyi, Ordubadla Əylis arasında yerləşən Qoğtən əmirliyinin hakimi Əbu Duləf 982-ci ildə Salarilərin son nümayəndəsi Dvin hakimi Əbul Hica ibn İbrahimi məğlubiyyətə uğradaraq, Dvin, Naxçıvan və digər şəhərləri tutur və Əl-Busfurrucan da daxil olmaqla həmin ərazilərdə möhkəmlənməyə çalışır, lakin buna nail ola bilmir.



Naxçıvanşahlıq Naxçıvan, Qoğtən (Qoltan, Ordubad, Əylis) əmirliyi və Dvin ərazisini əhatə edirdi. Əbu Duləf "xüsusi xidmətlərinə görə" Yusif ibn Əbu Sacın köməyi ilə Naxçıvan və Qoğtənə sahib olmuşdu.[176] Əbu Duləf tutduğu yerləri 987-ci ilə qədər əlində saxlaya bilmişdi,[177] 987-988-ci illərdə Əbu Duləfin qoşunu Əbülheycə ibn Rəvvad tərəfindən məğlubiyyətə uğradılır. Nəticədə Əbu Duləfin ələ keçirdiyi torpaqlar Rəvvadilər tərəfindən geri alınır, 988-ci ildə Rəvvadi hökmdarının

---

[175] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.67
[176] Yenə orada, s.68
[177] Şərifli M. Naxçıvanşahlıq, s.29

ölümü Əbu Duləfin yenidən Naxçıvan və Dvində möhkəmlənməsi üçün şərait yaradır.[178]

Naxçıvanşahlıq dövrünün ən mühüm hadisələrindən biri də onun Bizans tarixi ilə əlaqəsidir. R.Məmmədov yazır ki, "1021-ci ildə Bizans hökmdarlarından II Vasili (975-1025) Naxçıvan şəhəri daxil olmaqla, Busfurrucanı öz hakimiyyəti altına keçirə bilmişdi. Şəhərin Bizansın hakimiyyəti altında neçə müddət qalması məlum deyildir. Lakin 1064-cü ildə baş verən hadisələrdən bəhs edilərkən Naxçıvan hakimi Əbu Duləfin adı çəkilir... Burada artıq söhbət Naxçıvan feodallığının əsasını qoymuş Əbu Duləf haqqında deyil, onun nəvəsi Əbu Duləf Naxçıvanşah haqqında gedir."[179] N.Vəlixanlı da qeyd edir ki, "Əbu Duləfin adı çox uzun, təqribən 77 il müddətinə tarixi qaynaqların səhifələrindən çıxır və yalnız XI əsrin 60-cı illərinin ortalarına yaxın öz mədhiyyələri ilə məşhur olan Qətran Təbrizinin və Tusdan olan Əli Əsədinin əsərlərində görünür".[180] Qətran Təbrizinin qəsidələrində, Əsədi Tusinin "Gərşasbnamə" əsərində Əbu Duləf "ədalətli şahənşah", "Naxçıvan şahı", "ölkələr hakimi" kimi adlandırılır.

Duləfilərin idarə etdiyi Naxçıvan bu dövrdə Şəddadilər dövlətinin tərkibində bir əmirlik idi. XI əsrdə hakim sülalə olan Əbu Duləfilər Naxçıvanda iri feodallar hesab olunurdular. Naxçıvanşah Əbu Duləf Azərbaycan hakimi Rəvvadi Vəhsudan ilə dost olub, onunla hərbi ittifaqa girmiş, rumlulara (Bizansa) və başqa düşmənlərə qarşı birgə vuruşmuşlar. Rəvvadi hökmdarı əmir Vahsudanla Şəddadi hökmdarı Əbülhəsən II Ləşkəri arasında əldə edilmiş dostluq və ittifaq, sözsüz ki, Duləfilərin hakimlik etdikləri Naxçıvanda əmin-amanlığın bərpası üçün şərait yaratmışdı. Rəvvadilərlə qohumluq əlaqələri olan Duləfilərin idarə etdiyi Naxçıvan bu dövrdə də Şəddadilərə tabe idi.

Naxcıvanşahlığın son dövrü haqqında məxəzlərdə məlumata təsadüf edilməmişdir. Yalnız bu məlumdur ki, Səlcuq hökmdarı Alp Arslan (1063-1072) Azərbaycanın cənub vilayətlərində Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra, 1064-cu ildə Naxçıvana yiyələnmiş və buradan Ani şəhərinə hücum edərək onu tutmuşdu. M.Şəriflinin fik-

---

[178] Vəlixanlı N. X əsrin II yarısı-XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha "Naxçıvanşahlıq" haqqında, s.128


[179] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki,s.69-70

[180] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.71

rincə, "Alp Arslan Naxçıvan şahlığını ləğv edərək, Səlcuq dövlətinə tabe etmiş, Naxçıvana öz əmirini təyin etmişdi". [181] N.Vəlixanlıya görə isə "Naxçıvan əmirliyi sultan Alp Arslanın bu əmirliyi ləğvindən sonra da Şəddadilər dövləti süqut edənədək (1075) onun tərkibində qalmışdır".[182]

3.4.Azərbaycanın IX-XI əsrlər dövlətçilik tarixində yeni meyillər və Naxçıvan (Qətran Təbrizinin əsərləri üzrə)

Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan IX-XI əsrlər dövlətlərinin son mərhələsində ölkə ərazisində üç dövlət-Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövlətləri mövcud idi. Belə bir mürəkkəb



şəraitdə yaşayan və dövrünün görkəmli mütəfəkkirlərindən olan Qətran Təbrizi (1012-1088)[183] ətrafında cərəyan edən hadisələr, onların məna və mahiyyəti, ölkənin taleyi haqqında məsələlərə də toxunmuşdur. Qətran Təbrizinin "Divanı"nı fars dilindən tərcümə edib çapa hazırlayan Qulamhüseyn Beqdeli haqlı olaraq yazır ki, "Azərbaycan tarixinin müəyyən dövrünü araşdırıb, aydınlaşdırmaq, işıqlandırmaq məqsədi ilə Qətranın Divanı ən dəyərli mənbə və tarixi sənədlərdən birisidir."[184]

Doğrudan da Qətran Təbrizinin yaradıcılığı tarixi mənbə kimi də tədqiqata cəlb edilmişdir. Lakin bu zaman daha çox onun qəsidələrində mədh olunan tarixi şəxsiyyətlərdən, dövrün ayrı-ayrı hadisələrindən bəhs edilmişdir. Əslində Qətran Təbrizinin əsərləri, eyni zamanda, Azərbaycan dövlətçiliyinin həmin dövr tarixinə yanaşmanı, yeni meyilləri və onun perspektivlərinə dair baxışları da özündə əks etdirir.

---

[181] Şərifli M. Naxçıvanşahlıq, s.32

[182] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.80

[183] Altıcildlik Azərbaycan ədəbiyyatı tarixində həyat illəri 403-483/1012-1091 kimi göstərilmişdir. Bax:Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, ikinci cild. Bakı, 2007, s.312

[184] Qətran Təbrizi. Divan. Bakı,1967, s.20

Bu məsələləri yuxarıda istinad edilən Qulamhüseyn Beqdeli daha ətraflı şəkildə ifadə etmişdir. O, yazırdı ki, "Qətranın yaşayıb-yaratdığı dövr Azərbaycan ərazisinin vilayətlərində Şirvanşahlar, Rəvvadilər və Şəddadilər hökm sürürdülər...O, Azərbaycan hökmdarları arasında barışıq üz verib, dostluq şəraiti yarananda həddindən artıq fərəhlənib sevinir, bu kimi hadisələri ürəkdən alqışlayırdı. **Azərbaycan hökmdarlarını həmişə dostluğa və birliyə çağırıb, ölkədə vahid, qüdrətli bir dövlət yaratmağı xarici basqınlardan müdafiə olunmaq, iqtisadi cəhətdən qüvvətlənmək üçün zəruri hesab edirdi** (seçmə mənimdir-İ.H.)."[185] Burada diqqəti cəlb edən ən mühüm məsələ "ölkədə vahid, qüdrətli bir dövlət yaratmaq" probleminin irəli sürülməsidir. Ərəb xilafətinin dağılmasınadək olan dövr tarixində Azərbaycanın cənubunda ilk dövlət qurumları olmuş, Manna dövləti təşəkkül tapmışdır. Atropatena dövləti bu ənənəni davam etdirmişdir. Azərbaycanın şimalında Albaniya dövlətinin meydana gəlməsi ilə onun cənub və şimalının siyasi tarixi bir-birinə yaxınlaşmışdır. Lakin Atropatena–Albaniya dövründə bir sıra səbəblər, o cümlədən siyasi, dini və s. səbəblər vahid dövlət ideyasının geniş əksinə imkan verməmişdir. Azərbaycan torpaqları ilk dəfə Sasani imperiyası dövründə vahid dövlət tərkibində birləşdirilmiş, bu hal Ərəb xilafəti zamanı da davam olunmuşdur. Ərəb xilafəti dövrünün əsas xüsusiyyəti ondan ibarət idi ki, bu dövrdə Azərbaycanın həm şimalı, həm də cənubunda vahid din-islam dini hakim olmuş, vahid dövlət qarşısında ən mühüm maneələrdən biri aradan qalxmışdır. Ona görə də IX-XI əsrlərdə mövcud olan Azərbaycan dövlətləri dövründə siyasi (Qətran Təbrizinin dövrün siyasi hadisələrində iştirakı[186] belə söyləməyə əsas verir) və ictimai fikrə təsir gücünə görə həlledici rola malik olan ədəbi fikirdə vahid və qüdrətli dövlət ideyası meydana gəlməyə başlayır. Sacilər və ya Salarilər dövlətinin fəaliyyəti və buradan yaranan tarixi dərslər də bir nümunə ola bilərdi.

---

[185] Qətran Təbrizi. Divan. Bakı,1967, s.19

[186] "Qətran, Kəsrəvinin göstərdiyi kimi, birinci Gəncə səfərindən 430 (1038-39)-cu ildə dönmüşdürsə, onda 428 (1036-37) –ci ildə Rəvvadilər hökmdarı Vəhsudan Gəncəyə gəlib Şəddadilər sarayı ilə danışıqlar apararkən, bu danışıqlarda Qətran da yaxından iştirak etmiş, iki Azərbaycan hökmdarı arasında bağlanan əhdnamələri o da alqışlamışdır." Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, ikinci cild, s.316

Qətran Təbrizinin bir müddət Rəvvadilər sarayında olduqdan sonra, Gəncəyə, Şəddadilər sarayına getdiyi (S.Kəsrəviyə görə 1034-1038-ci illərdə) bildirilir. "Ləşgəri hakimiyyətinin (1033-1049.-İ.H.) başlanğıcında Gəncəyə gəlmiş şair bir neçə il burada yaşayıb-yaratmış, ancaq Təbriz sarayını-Rəvvadiləri, Naxçıvan sarayını-Deyranilər hakimi Əbu Duləfi də yaddan çıxarmamışdır."[187] Beləliklə, tarixi faktlardan aydın olur ki, Qətran Təbrizi dövrün siyasi hadisələrindən, dövlət rəhbərlərinin hərəkət və baxışlarından kifayət qədər məlumatlı olmuşdur. Belə güman etmək olar ki, Azərbaycan dövlətlərinin birliyi ideyası həmin dövrdə hökmranlıq etmiş hakimlər arasında da müzakirə predmeti olmuşdur. Qətran Təbrizi ayrı-ayrı hökmdar və ya digər şəxslərin adına mədhiyyələr yazsa da, Əbülhəsən Ləşgəri ilə Əmir Əbülfəzl Cəfərə birlikdə mədhiyə həsr edir, burada onların birliyi və dostluğunu yüksək qiymətləndirir:

Dostların ağlı və ruhu birləşdi,
Düşmənlərin əli və dili qısaldı...
Hiyləgər düşmənlərin əlaqələri pozuldu,
Sədaqətli dostların peymanları bağlandı.
O iki şahzadənin əhd-peymanlarının yenilənməsindən,
O iki gənc şahın görüşüb bir-birlərinə məhəbbət bəsləməsindən
İndi pələnglə şir bir-birinə yaxın oldu,
İndi ayla günəş bir-birinə yaxınlaşdı.
Artıq düşmənlərin bədənləri kədərlənib əriyəcəkdir,
Bədxahların bədənləri şiddətli qüssəyə məruz qalacaqdır...[188]

Ölkənin, xalqın birliyinin tarixi əhəmiyyətinin dərk edilməsi və tərənnümü ilə birlikdə onun həyata keçirilməsi yolları, siyasi liderin rolu və s. mühüm məsələlərin də irəli sürülməsi barədə fikir yürüdülməsi zəruridir. Təsadüfi deyil ki, dövrün siyasi liderləri içərisində Naxçıvanşah Əbu Duləf də xüsusi yer tutmuşdur. Əbu Duləfin şəxsiyyətinin əhəmiyyətini müəyyən etmək üçün qeyd etmək lazımdır ki, həyatının bəzi dövrlərini Naxçıvan və Gəncədə keçirmiş məşhur fars-tacik şairi Əbu Nəsr Əli ibn Əhməd Tusi (XI əsr) də Əbu Duləf haqqında əsərlər

---

[187] Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, ikinci cild, s.316
[188] Qətran Təbrizi. Divan, s.242

yazmışdır. O, "Kərşasbnamə"ni (457/1065-1066) ona həsr etmişdir. Görünür, Əbu Duləfin Əsədiyə münasibəti elə ibrətamiz olmuşdur ki, Nizami Gəncəvi Sultan Mahmud və Firdovsi ilə müqayisədə, məhz onu vəsf etməyi lazım bilmişdir. Böyük şair "Yeddi gözəl" poemasında yazmışdır:

Soltan Mahmud ilə şair Firdovsi
Andıdır nisbətdə Əqrəblə Qövsi.
Əsədi, Əbu-Duləf bəxtiyar oldu,
Çünki taleləri güldü yar oldu.[189]

Bu bir daha təsdiq edir ki, Əbu Duləfin şəxsiyyəti mühüm əhəmiyyətə malik olmuşdur. Bu da təbii ki, Naxçıvanın rolu və mövqeyi ilə də bağlı olmuşdur. Qətran Təbrizinin də dövrün digər görkəmli dövlət adamları ilə eyni zamanda, Əbu Duləfə də əsərlər həsr etməsi təsadüfi hesab edilə bilməz və janrın poetik məziyyətləri ilə birgə, xeyli dərəcədə reallığı əks etdirdiyini söyləmək olar. Bu qəsidələrdən biri "Naxçıvan qalasında düşmənə qələbə çaldığı zaman Əbudələfin mədhi"[190] (orijinaldakı kimi verilir.-İ.H.) adlanır. Orada deyilir:

Düşmənlərin bəlası şah Əbudələf,
Bədxahların şadlığını əskildər, qəmini artırar.
Bəxşiş günü onun əlindən xəzinədə dirəm göz yaşı tökər,
Döyüş günü düşmənin dəbilqəsi qan ağlayar.
O qədər düşmən öldürdü ki, qılıncının bucaqları qırıldı.
O qədər düşmən tutdu ki, kəməndinin halqası sürtüldü...

Qəsidədə Naxçıvanın adının çəkilməsi də diqqətəlayiqdir. Burada Naxçıvanı ələ keçirmək istəyən qüvvələrdən və Əbu Duləfin onu müdafiə etməsindən bəhs olunur və burada da o, Naxçıvanın şahı kimi təqdim edilir:

Naxçıvana tamah etmişdi, oraya yaxınlaşdı,
Həmişəlik olaraq oranı tərk etdi, Naxçıvanla vidalaşdı,

---

[189] Nizami Gəncəvi. Əsərləri 2 cilddə. 2-ci cild. Bakı, 2012, s.16
[190] Qətran Təbrizi. Divan, s.84-85

Məni yola sal gedim, ey şah; çünki mənim burada qalmağımdan
Mənə ziyan olar, sənə də bir mənfəət olmaz...

Qətran Təbrizi "Əbudələfin mədhi" adlanan digər bir iri həcmli qəsidəsində[191] bir sıra yeni məsələlərə toxunur. Ölkənin (Naxçıvanın.-İ.H.) siyasi həyatı ilə eyni zamanda iqtisadi və sosial həyatına da toxunur:

...Bu kamallı hökmdar, bu ədalətli şahənşah,
Bu bəndəpərvər padşah Məlik Əbudələfdir...
Onun əməlindən ölkə yüksəldi,
Onun işlərindən böyüklüyün şöhrəti artdı...

Qətran Təbrizinin bir qəsidəsinin adı isə daha konkretdir: "Naxçıvan şahı Əbudələfin mədhi."[192] Bu qəsidə də mədhnamənin tələblərilə birgə, yeni fikirlərə də təsadüf olunur. O, Əbu Duləf haqqında yazır:

Ey türk heykəlli mələk, ey mələk xasiyyətli türk!
Həm behiştin zinətisən, həm də Xəzərin bəzəyi.

Beləliklə, Qətran Təbrizinin Əbu Duləfə həsr edilmiş mədhiyyələrinin təhlili göstərir ki, şairin bu şəxsiyyətə müraciəti təsadüfi olmamış, onun güclü və vahid dövlət yaradılmasına dair baxışlarında Naxçıvanşah və onun hakimliyinə də böyük ümidlər olmuşdur.

Qətran Təbrizinin həyat və yaradıcılğını Azərbaycan dövlətçiliyinin tarixini öyrənmək üçün əhəmiyyətli edən məsələlərdən biri də ondan ibarətdir ki, o ölkə tarixində baş verən yeni bir dönüş dövrünün Səlcuqlar dövrünün də şahidi olmuş, bu mühüm mərhələnin məna və mahiyyətini doğru-düzgün dəyərləndirmişdir. Əvvəla, şair "Azərbaycan hökmdarlarının səlcuqlarla birlikdə ümumi düşmənə qarşı vuruşunda çox vaxt səlcuq hökmdarlarını ad çəkmədən mədh etmişdir."[193] İkinci, Qətran Təbrizi oğuzlardan bəhs edərkən oğuzları yalnız gəlmə

---

[191] Qətran Təbrizi. Divan, s.119-123
[192] Yenə orada, s.127-129
[193] Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, ikinci cild, s.325

hesab etmir, yerli oğuzlardan da bəhs edir. "Ərəb istilası dövründə qılınc gücünə tabe edilmiş yerli oğuzlar XI yüzillikdə xilafətin gücdən düşməsi və ölkənin daha çox ərəb və fars soylu əmirlərin tərəfindən feodal dağınıqlığı şəraitində idarə edildiyini gördükdə özləri vətənlərinin sahibi, hökmdarı olmağın zamanı gəlib çatdığını duymuş, üsyanlar qaldıraraq siyasi hakimiyyəti ələ keçirməyə çalışmış və bunun uğrunda vuruşmuşlar. Bu həqiqəti kənardan "Oğuz yürüşü" kimi qələmə vermək yanlışdır. Qətranın tarixi mənzumələri bu yanlışlığı ortadan qaldıran ən dəyərli tarixi-ədəbi abidə kimi çox qiymətlidir. Qətranın tarixi mənzumələrindən istifadə edən tarixçi və ədəbiyyatşünaslardan heç biri bu qiymətli cəhəti görə bilməmişlər:

Sənin meylin oğuzlara tərəf olan zamanlar
Onlara heç bir xalqdan dəhşət və qorxu yox idi.
Artıq bir dəfəlik onlardan üzün döndü,
Onların özləri də özlərinə düşmən oldular...
Onların əmirləri və başçıları sənin hökmün altında olan halda
Onda bir ovuc günahkar üsyançının nə qorxusu ola bilər?"[194]

Azərbaycanın Səlcuq imperiyası dövrünə aid belə bir baxış, bütövlükdə həmin dövr tarixinin, o cümlədən Azərbaycanın dövlətçilik tarixinin tədqiqi üçün mühüm əhəmiyyətə malikdir. Səlcuq dövrü, xüsusilə imperiyanın zəifləməsindən sonra yaranan Atabəylər dövlətləri sistemində önəmli yer tutan Azərbaycan Atabəylər və ya Eldənizlər dövləti tarixində Naxçıvanın rolu daha da artdı.

3.5. Naxçıvan Atabəylər dövlətinin mərkəzlərindən biri kimi (1136-1225-ci illər)

Səlcuq imperiyasının təşəkkülü və yaranması Azərbaycanın siyasi həyatına da ciddi təsir göstərdi. Azərbaycanda mövcud olan siyasi pərakəndəlik aradan qaldırıldı, Azərbaycan torpaqları, o cümlədən Naxçıvan Səlcuq imperiyasının tərkibinə daxil edildi. Səlcuq-oğuz türkləri 1018-1021-ci illərdə Araz çayını keçərək cənub istiqamətində Arran torpaqlarına daxil olmuş, Naxçıvan, sonra isə Dəbil şəhərlərini

[194] Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, ikinci cild, s.328-329

tutmuşdular. 1030-cu illərin əvvəllərində Qəznəvilərin təqibindən qurtarmağa çalışan təqribən iki min oğuz ailəsi Rəvvadilərin Cənubi Azərbaycandakı mülklərinə gəlmişdilər. Xorasanda qalan oğuzlar isə Qəznəvilərə qarşı mübarizəni davam etdirmişdir.[195] Azərbaycan oğuzları sözsüz ki, bu mübarizəyə fəal köməklik göstərmiş, sonrakı tarixi hadisələr zamanı isə onların Azərbaycanda möhkəmlənməsinə çalışmışdır.

Səlcuq imperiyasının əsasını Toğrul bəy (1038-1063) qoymuşdur. Toğrul bəyin zamanında Azərbaycan da ələ keçirildi. İbn əl-Əsir yazır ki, hicri 446-cı ildə (1054/55) Toğrul bəy Azərbaycana hərəkət edərək Təbrizə gəldi. O vaxt Təbrizin hakimi olan Əmir Əbu Mənsur Vəhsudan ibn Məhəmməd Rəvvadi Toğrul bəyə tabe olduğunu bildirdi, adına xütbələr oxutdurdu və sikkələr üzərində zərb etdirdi, hədiyyələr göndərərək qəlbini ələ aldı və oğlunu girov olaraq onun yanına göndərdi."[196] Toğrul bəy buradan Naxçıvana yollandı və Naxçıvanşah Əbu Duləfin səlcuqiləri süzeren (vassal) kimi tanımasına nail oldu. İkinci səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycanda təsir gücünü artırmaq ucun Cənubi Qafqaza yürüş etdi.[197] Alp Arslan Səlcuq sultanı olduğu illərdə ilk səfəri Təbriz-Mərənd yolu ilə Naxçıvan bölgəsinə oldu. O, 1064-cu ildə Naxçıvana yiyələndi və burada xüsusi iqamətgah tikdirdi.[198] Alp Arslan Naxçıvanda olarkən özünü orduya və ölkəyə tanıtmaq ucun 14 yaşlı oğlu Məlikşahı vəliəhd elan etdi və ordunun bir hissəsini onun ixtiyarına verdi. Baş vəzir Nizamülmülk və Gəncə-Dvin hakimi əmir Şavur da ordusu ilə birlikdə şahzadəyə yardım göstərdi. Alp Arslan oğlu Məlikşahı və vəziri Nizamülmülkü öz yerində qoyub şəhəri tərk etdi. Məlikşah və Nizamülmülk Naxçıvanda olan müddət ərzində bir sıra qalaları, o cümlədən Sərmari, Kulp-Tuzluca qalalarını fəth edib, Naxçıvan əmirinin sərəncamına verdilər. Az sonra onlar da Naxçıvanı tərk etməli oldular. Buradan məlum olur ki, səlcuqlar artıq Naxçıvan şahlığına son qoyaraq, oraya öz əmirlərini təyin etmişdilər.

Məlikşahın hakimiyyəti dövründə (1072-1092) Səlcuq imperiyasının əraziləri daha da genişləndirilir. O, Azərbaycanı, Arranı, o cüm-

---

[195] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.350

[196] İzzəddin İbn əl-Əsir. Əl-Kamil-fi-t-Tarix (Mükəmməl Tarix). Ərəbcədən tərcümə Z.Bünyadovundur. Bakı, 1996, s.97

[197] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.391

[198] Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, 2002, s.105

lədən səlcuq əmirlərinin strateji yeri hesab etdikləri Naxçıvanı da əmisi oğlu İsmayıla verdi.[199] İsmayıl ibn Yaquti Məlikşahın vəfatından sonra da bir müddət Naxçıvanın valisi olmuşdur. Səlcuqların Azərbaycan üzrə canişini Naxçıvanda əyləşirdi.[200]

Məlikşahın ölümündən sonra imperiyada ara çəkişmələri başladı. Əsas mübarizə Məlikşahın oğlanları Börküyarıq (1092-1104) və Mahmud (1092-1093) arasında idi. Sonra mübarizəyə Məlikşahın digər oğlu Məhəmməd Tapar da qoşuldu. Bu mübarizədə də Börküyarıq (1092-1104) üstünlüyə nail oldu. 1104-cu ildə tərəflər arasında anlaşma bağlandı. Anlaşmaya görə Börküyarıq sultanlıqda qaldı, Məhəmməd Tapar isə varis elan olundu. Diyarbəkir, Əl-Cəzirə, Mosul, Azərbaycan və eləcə də Naxçıvan Məhəmməd Taparın hakimiyyəti altında qaldı. Barışıq çox çəkmədi və qarşıdurma davam etdi.

Börküyarıq öldükdən sonra hakimiyyətə oğlu II Məlikşah (1104-1105) gəldi. II Məlikşahın hakimiyyəti ancaq ay yarım davam etdi. İmperiyanın bir hissəsinə, o cümlədən Naxçıvana sahib olan Məhəmməd Tapar (1105-1118) hakimiyyəti ələ aldı.

Məhəmməd Taparın ölümü ilə sultanlıq taxt-tacı üstündə mübarizə yenidən qızışdı. Mahmud və qardaşları arasında olan hakimiyyət çəkişməsi birincinin hakimiyyətə gəlməsinə imkan vermədi. Save döyüşündə (1119) Mahmudun ordusunun məğlub olması Səncər ibn Məlikşahın (1118-1157) Səlcuq dövlətinin sultanı olması yolunu asanlaşdırdı. Məğlubiyyətdən sonra döyüş meydanından qaçan Mahmud ilə Səncər arasında aparılan danışıqlar 1119-cu ilin noyabr ayında tamamlandı. Səncər ilə Mahmudun görüşməsi nəticəsində Böyük Səlcuq dövləti iki hissəyə bölündü: Şərqi Səlcuqlular və Qərbi Səlcuqlular. Şərqi Səlcuqluların başında duran Səncər ibn Məlikşah, eyni zamanda, "böyük sultan" sifətiylə bütün Səlcuq coğrafiyasının hakimi oldu. Bu danışıqlarda torpaqlar da paylaşdırılmışdı. Gəncə ilə birlikdə "bütün Arran və Araz çayınadək Naxçıvan Toğrula tabe olur". Sultan Mahmud vəfat edənədək (1131) Toğrul Naxçıvanda qalaraq, ona iqta hüququnda verilmiş bu ərazini idarə edir.

Beləliklə, ilk səlcuq hücumları dövründən başlayaraq hərbi-stra-

---

[199] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.88

[200] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, s.72; Piriyev V. Naxçıvanın tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, 2004, s.105

teji əhəmiyyətinə görə Naxçıvan səlcuq əmirlərinin iqamətgahı olub. Sultanlıq taxtına çıxanadək, səlcuq sultanlarından I Məlikşah, Məhəmməd Tapar, Məsud, Toğrul imperiyanın bu mühüm bölgəsində fəaliyyət göstərmişlər.[201] Toğrul hələ Naxçıvanın əmiri olub, sultanlığın paytaxtına gedənədək, arvadı Mömінə xatın və oğlu Arslan şahla Naxçıvanda da yaşamışdır. Naxçıvan bu illərdə Atabəy Qara Sunqurun vasitəsi ilə bölgəyə sahiblik edən Əmir Məsudun idarə sisteminə daxil idi. Göründüyü kimi, Səlcuqlar dövlətinin meydana çıxması, çiçəklənməsi və nəhayət, parçalanma dövrləri Yaxın və Orta Şərqin bir çox ölkələrinin, o cümlədən Azərbaycanın, eləcə də Naxçıvanın tarixi taleyində mühüm yer tutur.

Böyük Səlcuq imperiyasının tənəzzülü dövründə bir sıra müstəqil dövlətlər meydana gəlmişdi. Belə dövlətlərdən biri də Azərbaycan atabəylərinin idarə etdiyi Eldənizlər dövləti idi. Eldənizlər dövlətinin ərazisi əvvəllər İraq Səlcuq sultanlığının tərkibində idi. İraq Səlcuq sultanlığı (1118-1194) İraqı, İranı və Kür çayından cənubdakı Azərbaycan torpaqları daxil olmaqla, Cənubi Qafqazın bir hissəsini əhatə edirdi.

Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldəniz (1136-1175) olmuşdur. Tədqiqatlara görə dövlətin yaradılması tarixi kimi 1136-cı il, yəni sultan II Toğrulun (1132-1135) ölümündən sonra hakimiyyətə gələn Məsud tərəfindən (1135-1152) Arranın iqta kimi Şəmsəddin Eldənizə verilməsindən götürülür.


Şəmsəddin Eldəniz Arranda hələ də nüfuz sahibi olan Qara Sunqurun Gəncədəki və Naxçıvandakı mövqeyinin möhkəm olduğunu nəzərə alaraq, artıq əvvəlki qüdrətini əldən vermiş Bərdə şəhərində qərarlaşır. Bu zaman Gəncə, Naxçıvan və Arranın Arazdan şimalda bir çox torpaqları sultan Məsudun atabəyi Qara Sunqurun idarəsində idi. Şəmsəddin Eldəniz Şirvanı da bir süzeren-vassal kimi öz hakimiyyətinə tabe etmişdi. Qara Sunqurdan sonra onun yerini tutan əmir Çavlının qəfil ölümündən sonra (1146) Şəmsəddin Eldəniz Naxçıvan vilayətini mülklərinə birləşdirir və iqamətgahını Bərdədən Naxçıvana köcürür.

O, sultan sarayından iqta aldığı Arrandan başqa, Azərbaycanın

---

[201] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.93

bütün cənub rayonlarını, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başlayır. 1146-cı ildə Atabəy Naxçıvan vilayətini torpaqlarına birləşdirir və həmin dövrdən başlayaraq Naxçıvan şəhəri və vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir.



Bəhs edilən dövrün hadisələrində Şəmsəddin Eldənizin adı "Gəncə və Arranın sahibi" (İbn əl-Əsir), "Naxçıvan şəhəri və vilayətinin hakimi" (Mxitar Qoş) kimi çəkilir. Mənbələr Eldənizin bu dövrdə Naxçıvanda möhkəmlənməsi, "daim Naxçıvanda olması" haqqında məlumat verir. XI əsrin II yarısından başlayaraq Naxçıvan şəhəri səlcuq əmirlərinin əsas iqamətgahlarından biri idi. Yaqut əl-Həməvinin Azərbaycanın böyük şəhəri adlandırdığı "Naxçıvan (Nəşavə)" şəhəri artıq XII əsrin 40-cı illərindən başlayaraq Eldənizlər sülaləsinin nümayəndələri olan Azərbaycan atabəylərinin doğma (xass) mülk-tac şəhərinə çevrilir. Şəmsəddin Eldəniz ailəsi Mömünə xatın və övladları ilə birlikdə burada yaşayır. Azərbaycan Atabəyləri dövləti dövründə Naxçıvan sərhəd vilayəti kimi xüsusi rejimdə idi. Burada başqa dinə - xristianlığa etiqad edənlərin nüfuzu məhdudlaşdırılmışdı və islamın mühafizəsi üçün ciddi nəzarət movcud idi.[202] Naxçıvan vilayəti divan əl-xassə və ya divan əl-əla adlanan Ali divana tabe idi. Şəmsəddin Eldəniz müstəqil hökmdar kimi fəaliyyət gostərdiyi dovrdə (1136-1175) dövlətin idarə olunmasında fəal iştirak edirdi. O, səlcuq sarayında görkəmli sərkərdə və uzaqgörən siyasi xadim kimi böyük nüfuza malik idi.[203] Şəmsəddin Eldəniz 1160-cı ildə "Böyük Atabəy" titulu aldı və oğulluğu Arslan şahın sultan elan edilməsinə nail oldu. 1160-cı ilin noyabr ayında Eldəniz Arslan şahla Həmədana gəldi, burada Arslan şahı sultan taxtında əyləşdirdi və başına tac qoydu. Şəmsəddin Eldənizin böyük oğlu və sultanın ana tərəfdən qardaşı Nüsrətəddin Cahan Pəhləvan sultanın əmir-hacibi oldu, ikinci oğlu Müzəffərəddin Osman Qızıl Arslan isə sultan ordularının ali baş komandanı təyin edildi. Eldəniz özünün bütün əmirlərini dövlətdə yüksək vəzifələrə təyin etdi. Beləliklə, İraq Səlcuq sultanlığı Eldənizlər evinin hakimiyyəti altına düşdü. Bundan sonra İraq Səlcuq sultanlığı əslində Azərbaycan sultanlığına çevrildi. Azərbaycan torpaqları, əslində, vahid dövlət halında birləşdirildi. Şəmsəddin Eldəniz bütün İraq sultanlığının gerçək sahibi, sultan Arslan şah isə dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxs idi. "Atabəy Eldəniz əsl hökmdar idi. Əmrləri o verir, torpaqları o paylayır, dövlət xəzinəsinə o nəzarət edirdi.

---

[202] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225). Bakı, 2007, s.170-181

[203] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.404

Toğrulun oğlu sultan Arslanşahın isə ancaq adı hökmdar idi."[204] Sultanın adından fəaliyyət göstərmək imkanını əldə etmiş Eldəniz mövqeyindən sülalə mülklərini genişləndirmək ucun istifadə edirdi. O, Qafqaz dağlarından Fars körfəzinədək uzanan böyük ərazini hakimiyyətinə tabe etdi: "Bağdad və ətraf istisna olmaqla bütün ölkələr" Eldənizin hakimiyyəti altına düşdü. Əl-Hüseyninin məlumatına görə, onun mülkləri "Tiflis qapılarından Məkranadək" uzanırdı. O, Azərbaycan, Arran, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan və Rey vilayətlərinin sahibi idi. Eldənizin vassalları olan Mosul, Kirman və Fars atabəyləri, Şirvan, Xuzistan, Xilat, Ərzən ər-Rum və Marağa hakimləri onun adını xütbələrdə çəkir, adına pul kəsdirirdilər.[205] Azərbaycan Atabəyləri – Eldənizlər dövləti o vaxta qədər Azərbaycanda yaranan bütün feodal dövlətlərdən hərbi-siyasi və iqtisadi baxımdan ən güclüsu olmuşdur. Bu dövlət Azərbaycanda məhsuldar qüvvələrin inkişafının və onun davamı olaraq feodal istehsal üsulunun tam hakim mövqeyə keçməsinin nəticəsi idi. Tədqiqatçılar Azərbaycan Eldənizlər dövlətinin və onu idarə edən sülalənin tarixini təşəkkül (1136-1160), çiçəklənmə (1161-1191) və tənəzzül (1191-1225) dövrünə bölürlər. Birinci və ikinci dövrlərdə əldə edilən nailiyyətlər Eldənizin və oğlanlarının adı ilə bağlıdır. İraq Səlcuq sultanı Arslan şahın iqamətgahı olan Həmədan Azərbaycan Atabəylər dövlətinə başçılıq edən Şəmsəddin Eldənizin əsas şəhəri, dövlətin paytaxtı olur. Bununla belə, özünün ilkin paytaxt və Eldəniz nəslinin şəxsi mülki statusunu saxlayan Naxçıvan siyasi-mədəni mərkəz və strateji mövqe kimi əhəmiyyətini itirmədi. Məlumdur ki, Naxçıvan şəhəri bir müddət Eldənizlərin paytaxtı olmuş və XII əsrin 70-ci illərindən mərkəzi şəhər kimi fəaliyyət göstərmişdi. Bu zaman Atabəylərin xəzinəsi həmişə atabəyin olduğu yerdə saxlanılır, əsas xəzinə isə Naxçıvan yaxınlığındakı Əlincə qalasında mühafizə olunurdu. Şəmsəddin Eldənizin hakimiyyəti dövründən dövlətin bütün gəlirləri burada toplanırdı.[206] Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın dövründə (1174-1186) paytaxt Naxçıvandan Həmədana

---

[204] Naxçıvan ensiklopediyası. İki cilddə, ikinci cild. İstanbul, 2005, s.303

[205] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.406; İzzəddin İbn əl-Əsir. Əl-Kamil-fi-t-Tarix, s.119

[206] Piriyev V. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər), s.7

(1175), sonra isə Təbrizə köçürülür. Bununla belə, Şəmsəddin Eldəniz vaxtaşırı Naxçıvanda olur, ölkəni buradan da idarə edirdi. Mənbələrdən bu da məlumdur ki, Sultanın anası və atabəyin arvadı olan Mömінə xatının əsas iqamətgahı Naxçıvan şəhəri olmuşdur. Şəmsəddin Eldənizin hakimiyyəti illərində Azərbaycan Atabəyləri dövlətinin bir sıra əraziləri və şəhərləri qonşu gürcülərin intensiv xarakter daşıyan hücumlarına məruz qalırdı. Gürcü çarı III Georgi 1161-ci ilin yayında 30 min nəfərlik qoşunla Gəncəyə və Dəbil şəhərinə soxulub oranı qarət etdi.[207] Gürcü hakiminin bu vəhşi hərəkətinə cavab olaraq Atabəy Eldəniz 1163-cü ilin yanvarında vassalları ilə birlikdə Gürcüstana hücum edərək xeyli adam öldürdü, əsir götürdü və hərbi qənimət ələ keçirdi. Bu məğlubiyyətin acı nəticələrindən ibrət dərsi almayan gürcü çarı 1164 və 1166-cı illərdə yenidən Azərbaycana hücumlar etmiş, Gəncəyə gəlmiş, qətlə və talana başlamışdı.[208] Eldənizlər hər dəfə gürcülərin hücumlarını daha ağır zərbələrlə dəf etmişlər. 1174-cü ildə gürcü qoşunları Naxçıvana hücum etdi. Gürcü qoşunlarını geri oturdan Şəmsəddin Eldəniz Ağşəhər qalasını ələ keçirdi və Naxçıvana qayıtdı.[209] Gürcü qoşunları 1174-cü ildə Aniyə, 1175-ci ildə isə Dvinə hücum etdilər. Atabəy Eldənizin rəhbərliyi ilə gürcü qoşunları ağır məğlubiyyətə düçar edildi, "çar III Georgi güc-bəla ilə əsir düşməkdən qurtardı, abxazlar darmadağın edildi, müsəlmanlar elə bir qələbə çaldı ki, beləsini kimsə xatırlaya bilmirdi."[210] 1175-ci ilin noyabrında Şəmsəddin Eldənizin arvadı və Səlcuqlu tarixinin ən məşhur xatınlarından olan Mömінə xatın Naxçıvanda vəfat etdi. Dövlətin təşəkkül və ilkin inkişaf mərhələsində mühüm rol oynayan, siyasi həyatında fəal iştirak edən bu qadın İraq sultanlığının başçısı olmuş, böyük oğlu Arslan şahla atabəy Şəmsəddin arasında münasibətlərin tənzimlənməsinə nail ola bilmişdi.[211] Mömінə xatının oğluna müraciətində bu cəhətlər özünü göstərir: "Fikir vermə! Bu adam (Eldəniz – İ.H.) öz həyatını təhlükə altına qoyub, dəfələrlə amansız döyüşlərə atılıb. Bundan başqa, səni sultan edənədək özünün ən əziz malından keçib, neçə qulamını və adamını ölümə göndərib.

---

[207] Azərbaycan tarixi. Bakı, 2005, s.313
[208] Yenə orada
[209] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.64
[210] Yenə orada, s.66
[211] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.102

Səndən də yaşca böyük, nə qədər səlcuqlar var ki, həbsxanalardadır, dara düşüblər. Yerlərindən hərəkət edə bilsəydilər, muradlarına çatardılar. Ancaq edə bilmirlər. Sən isə sultanlıq taxtındasan, o və onun hər iki oğlu sənin xidmətində və sənin əlinin altındadır. Sənin düşmənlərinlə döyüşür, sənin rəqiblərinə qalib gəlirlər. Sənin canın bütün bunlardan azaddır. Atabəy nə qərar qəbul etsə - bağışlasa və ya əlindən tutub alsa, bunlar sənin dövlətinin möhkəmlənməsi, hakimiyyətinin davamlı olması üçündur. Qoy onun əməlləri səni sıxmasın, onun tədbirləri səni darıxdırmasın: axı o, sənin məmlükündür."[212] Azərbaycan Atabəyləri dövlətinin siyasi həyatında mühüm rol oynayan, bu ağıllı qadın Naxçıvanda torpağa tapşırıldı. Atabəy Eldəniz onun qəbri üzərində məqbərə tikdirməyə başladı. Lakin Mömünə xatından bir ay sonra, zəmanəsinin böyük siyasi xadimi, Azərbaycan Atabəyləri dövlətinin yaradıcısı, bu dövlətin, eləcə də Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynamış Şəmsəddin Eldənizin özü də vəfat etdi.[213] Məqbərənin tikintisi Atabəy Cahan Pəhləvanın vaxtında başa çatdırıldı. Türbənin uca gövdəsini yuxarıda qapayan yazı qurşağında – abidənin baş kitabəsində yazılmışdır: "...Bu məqbərəni dünyanın elmli adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl-islam və vəl-müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz... dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Mömünə xatının xatirinə tikməyi əmr etdi!.." Baştağ çərçivəsinin üstündə abidənin tikilmə tarixinin "məhərrəm 582" - (1186)-ci ilin yaz çağı olduğunu aydınlaşdıran Ə.Ələsgərzadə türbə yaxınlığında olmuş baştağın kitabəsindəki məlumata, eləcə də tarixi qaynaqlara əsaslanaraq belə bir məntiqi nəticəyə gəlmişdi ki, "...türbə Cahan Pəhləvanın ölümündən bir az öncə bitmiş, baştağ isə onun ölümündən sonra tikilmişdir. Şübhəsiz ki, Cahan Pəhləvanın özü də bu türbədə dəfn edilmişdir."[214] Azərbaycan Atabəyləri dövləti Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın (1175-1186) hakimiyyəti illərində daha da gücləndi. O, Səlcuq sultanı III Toğrulun (1176-1194) atabəyi

---

[212] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.102

[213] Naxçıvan ensiklopediyası. İki cilddə, birinci cild. İstanbul, 2005, s.49

[214] Ələsgərzadə Ə.Yusif ibn Küseyir və Mömünə xatın türbələrinin kitabələri//A.Bakıxanov adına Tarix İnstitunun Əsərləri. 1947, I cild, s.90; Мешади ханум Неймат. Корпус эпиграфических памятников Азербайджана. Т.III.Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII-начала XX века). Баку, 2001, с.57

idi. Azyaşlı III Toğrul Azərbaycan hökmdarının himayəsi altında Naxçıvanda yaşayırdı.[215] Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə Azərbaycanı onun kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Qızıl Arslan həm də Məhəmməd Cahan Pəhləvanın oğulları Əbubəkrin və Özbəyin atabəyi idi. Valideynlərinin vəfatından sonra, o vaxtadək Həmədanda, sultan sarayında yaşayan, sultanlıqda vəzirdən sonra üçüncü vəzifə olan "hacib" (kamerger) vəzifəsini alaraq "əmir əl-hacib əl-kəbir" titulunu daşıyan Cahan Pəhləvan ata mülkünə - Naxçıvana qayıtdı. Dövlətin buradakı xəzinəsini, taxt-tacın əmlakını, eləcə də bütün süvari və piyada qoşunlarını nəzarəti altına aldı.[216] Məhəmməd Cahan Pəhləvan bütün dövlət vəzifələrinə özünün ən yaxın adamlarını təyin etdi. Öz tərəfdarlarına çoxlu torpaq mülkləri paylamaqla mərkəzi hakimiyyəti xeyli qüvvətləndirdi. Atası kimi onun da 50 min nəfərlik nizamlı və güclü atlı ordusu vardı. Ölkədə əsil hakimiyyət Cahan Pəhləvanın əlinə keçdi. Ətraf torpaqların sahibləri və vassallarından heç biri buna müqavimət göstərmirdi, çünki Pəhləvandan "bütün hakimlər qorxurdular."[217] Ölkə əmirləri və xəzinə - hamısı Cahan Pəhləvanın sərəncamında idi.[218] İbn əl-Əsirin məlumatına görə, Cahan Pəhləvana "Arran, Azərbaycan, Həmədan, əl-Cibəl ölkəsi, İsfahan, Rey və bunların arasında yerləşən torpaqlar tabe idi və ona Farsın və Xuzistanın hakimləri itaət edirdilər."[219] Cahan Pəhləvanın çox böyük uğurlarından biri Ağsunqurilər xanədanına mənsub Təbriz şəhərini mülklərinə qatması idi. Atabəy Cahan Pəhləvanın inzibati bacarığı və sərt tələbkarlığı sayəsində dövlət idarəsinin bütün sahələrində qayda-qanun möhkəmləndirilmişdi. Atabəyin hakimiyyətinin on ili ərzində dövlət heç bir xarici basqına məruz qalmamışdı. Məhz onun hakimiyyəti dövründə "gürcülər onunla sülh bağlamış, onun tələblərini qəbul etmişlər". Bu dövrdə Azərbaycan torpaqlarını Məhəmməd Cahan Pəhləvanın kiçik qardaşı Qızıl Arslan (1186-1191) idarə edirdi. Məhəmməd Cahan Pəhləvan Azərbaycan və Arranı tərk edərək sultanlığın paytaxtı Həmədana gəldiyi

---

[215] Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər).Bakı, 1996, s.222

[216] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.73

[217] Садр ад-Дин Али ал-Хусейни. Ахбар ад-даулат ас-селджукиййе (Зибдат ат-таварих). М., 1980, с.97

[218] İzzəddin İbn əl-Əsir. Əl-Kamil-fi-t-Tarix, s.119

[219] Yenə orada, s.118

üçün, ilk vaxtlar qardaşı Müzəffərrəddin Qızıl Arslanı öz yerinə qoydu. Cahan Pəhləvanın oğlanları Əbubəkr və Özbəyin hakimiyyəti dövründə paytaxt Təbriz olsa da, Naxçıvan iqtisadi və mədəni mərkəz kimi mühüm rol oynamışdır. Bu dövrə aid Naxçıvanda möhtəşəm abidələr vardır. Əbubəkr hələ atasının sağlığında Azərbaycan və Arrana vali təyin olunduğu vaxtdan Naxçıvanda yaşayırdı. Naxçıvan sərhəd vilayətində yerləşən xüsusi rejimli bölgə olduğu üçün, buraya, demək olar ki, həmişə Eldənizlər xanədanı üzvlərindən olan valilər təyin olunurdu.[220] Şəhərləri isə valinin adından "adətən tanınmış yerli nəsildən olan" rəislər idarə edirdilər. Onların vəzifəsi irsən atadan oğula keçirdi. İlk Azərbaycan atabəyləri dövründə Naxçıvanda yaşayan Yusif Küseyir oğlu belə rəislərdən olmuşdur. Ona "xacə, tanınmış rəis" titulu verilmişdir.[221] Məhəmməd Cahan Pəhləvan 1186-cı il martın 23-də vəfat etdi.[222] Atabəyin müasiri İbn əl-Əsir Cahan Pəhləvan haqqında bunları söyləyib: "...O, xoş xasiyyətli insan, ədalətli, müdrik və səbirli hakim idi. Onun hakimiyyəti illərində [tabeliyində olan] ölkələr əmin-əmanlıq, təbəələri isə dinclik şəraitində yaşayırdılar."[223] Eyni zamanda məlumdur ki, o, misilsiz miras qoymuşdur: onun 5000-dən artıq şəxsi məmlükü və 70 min atı, qatırı və dəvəsi var idi.[224] Cahan Pəhləvan özündən sonra kimsənin yığa bilmədiyi miqdarda var-dövlət qoyub getmişdir. Onun var-dövlətinin bir hissəsi Deyləm dağlarında yerləşən Sərcahan qalasında, qalanı isə Naxçıvan yaxınlığındakı Əlincə qalasındakı xəzinədə qorunurdu. Sərcahandakı xəzinəyə onun yoldaşı İnanc xatın sahib olmuş, Əlincə qalasındakı xəzinə isə Cahan Pəhləvanın Naxçıvanda yaşayan ikinci yoldaşı Zahidə xatının ixtiyarında qalmışdı.[225] Cahan Pəhləvandan sonra İnanc xatının və tərəfdarlarının təşəbbüsünə baxmayaraq, hakimiyyətə atabəy Qızıl Arslan keçdi (1186-1191). Cahan Pəhləvan sağlığında "Azərbaycan və Arranın idarə olunmasını oğlu Əbubəkrə tapşırmış və onun tər-

---

[220] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.109

[221] Мешади ханум Неймат. Корпус эпиграфических памятников Азербайджана. Т.III.Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII-начала XX века), с.51

[222] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225),s.83

[223] İzzəddin İbn əl-Əsir. Əl-Kamil-fi-t-Tarix, s.118

[224] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.83

[225] Садр ад-Дин Али ал-Хусейни. Ахбар ад-даулат ас-селджукиййе (Зибдат ат-таварих), с.154, 156

biyəsini əmisi Qızıl Arslana həvalə etmişdi. Qızıl Arslanın hakimiyyəti dövründə də Naxçıvan özünün Azərbaycan atabəylərinin mərkəzi şəhəri statusunu saxlayırdı. Naxçıvanda yaşayan Zahidə xatın həm şəhərin idarəsini, həm də Əlincə qalasındakı dövlət xəzinəsini ələ keçirir.[226] Bu bacarıqlı qadın dövrünün tanınmış şəxsiyyətlərindən olub, Eldənizlər dövlətinin siyasi həyatında mühüm mövqe tutmuşdu. Zahidə xatın əsasən, Naxçıvanda yaşamış, hakim kimi Azərbaycanın bu vilayətini idarə etmişdir. Zahidə xatın vəfat etdikdən sonra müəyyən müddət Naxçıvanın hakimi əl-Cəlaliyyə olmuşdur. Ehtimala görə əl-Cəlaliyyə Cahan Pəhləvan və Zahidə xatının qızıdır.[227] Qızıl Arslan hakimiyyətdə möhkəmlənməmiş sultan III Toğrul, İnanc xatın və bir sıra əmirlər ona qarşı çıxırlar. Qızıl Arslan qardaşı arvadı İnanc xatınla evlənməklə onun özü və oğlanları ilə barışığa nail ola bilir. Sultan III Toğrul isə Qızıl Arslanın hakimiyyətdə olması ilə barışmaq istəmir. Nəticədə, 1188-1190-cı illərdə III Toğrulla əmisi Qızıl Arslan arasında qarşıdurma birincinin məğlubiyyəti ilə qurtarır. "III Toğrulun əl-qolu qandallanıb, Naxçıvan yaxınlığındakı Qəhrəm qalasına salınır."[228] Qızıl Arslan İraq sultanlığının müttəfiq hakimi olur. Atabəy Azərbaycan, Arran, Həmədan, İsfahan, Rey vilayətlərinə, onlara bitişik ərazilərə sahiblik edir, Fars və Xuzistan hakimləri vassal kimi ona tabe olur. Qızıl Arslanın mövqeyi möhkəmlənir, ordu onun tərəfinə keçir və hakimiyyəti az qala əlindən çıxacaq Atabəy o dərəcədə qüvvətlənir ki, artıq ciddi rəqib görmürdü.[229] Xəlifə ən-Nasirin məsləhəti ilə Atabəy Qızıl Arslan sultan taxtını tutur. İnanc xatın və onun tərəfdarları Qızıl Arslana qarşı sui-qəsd hazırlayırlar. 1191-ci il sentyabrın 21-də o, yatağında öldürüldü. Eldənizlərin yaratdığı mərkəzi hakimiyyət parçalandı. İraq, Rey, Mosul, İsfahan onların asılılığından xilas oldu. Eldənizlərin əlində, ancaq Azərbaycan torpaqları qaldı. Azərbaycanda hakimiyyəti Qızıl Arslanın qardaşı oğlu, həm də onun qəyyumluğu altında tərbiyə olunmuş Əbubəkr (1191-1210) ələ keçirdi. Əbubəkr tezliklə Naxçıvana gəlir. Əlincəqalaya və xəzinəyə sahib olur.[230]

---

[226] Садр ад-Дин Али ал-Хусейни. Ахбар ад-даулат ас-селджукиййе (Зибдат ат-таварих), с.154

[227] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.84

[228] Yenə orada, s.94; Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.110

[229] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.89

[230] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.98

Atabəy Əbubəkrin hakimiyyətə gəlməsi ilə Naxçıvan şəhəri yenidən ölkənin əsas idarə mərkəzinə çevrilir. Naxçıvanın və Əlincənin valiləri Əbubəkrin ali hakimiyyətini tanıyırlar. Bu işdə analığı Zahidə xatın ona yardımçı olur. "Bütün Azərbaycan və Arran" Əbubəkrə tabe olur.[231] Atabəy Əbubəkr öz sələflərindən fərqli olaraq hakimiyyətinin əksər illərini Naxçıvanda qalır, yalnız Azərbaycana və Arrana hakimlik etməklə kifayətlənməli olur.[232] Ara müharibələri və feodal çəkişmələri, xüsusilə də gürcü qoşunlarının Azərbaycan torpaqlarına dağıdıcı yürüşləri dövlətin tənəzzülünü sürətləndirir. 1202-1203-cü illərdə gürcü qoşunları Gəncəni mühasirəyə alır, Dvini işğal və qarət edərək, Naxçıvana doğru istiqamət götürür. Gürcülərin Dvini tutduğunu bilən və onların ölkənin içərilərinə soxulacağından qorxan Əbubəkr Naxçıvandan Təbrizə yola düşür.[233] Zəif iradəli Əbubəkr sələflərinin ənənələrini yaşada bilmədi, təmsil etdiyi sülalənin nüfuzunu zəiflətdi, dövlətin süqutunun qarşısını ala bilmədi. Atabəy Əbubəkrin ölümündən sonra (1210) ona tabe olan torpaqlar qardaşı Müzəffərəddin Özbəyin ixtiyarına keçdi.[234] Onun hakimiyyətinin ilk ilində (1210-1211) gürcü qoşunları yenidən Azərbaycana hücum edirlər. Bu, gürcülərin Azərbaycana təşkil etdikləri ən böyük hərbi yürüşlərdən idi. Əvvəlcə Naxçıvana hücum edən gürcülər şəhəri ələ keçirə bilmir, Culfaya doğru yönələrək Dəvədüz dərəsini keçib Mərəndi talayır və Təbrizi mühasirəyə alırlar.[235] Şəhər hakimi Zahidə xatın çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtarır. Atabəy Əbubəkrdən fərqli olaraq Naxçıvanda deyil, Təbrizdə yaşayan "...Özbək Xarəzmşahın adına xütbə oxutdurub tabeliyinə daxil olur."[236] Atabəylərin bütün xəzinəsi Xarəzmşahın əlinə keçir. Naxçıvanda isə bu zaman Özbəyin anadangəlmə lal-kar olduğu üçün Xamuş ləqəbli oğlu atabəy Qızıl Arslan, yəni əl-Məlik Xamuş hakimlik edirdi. Gürcü hücumlarının səngidiyi bu illərdə Naxçıvanda da nisbi əmin-amanlıq hökm sürürdü. 1221-ci ilin yanvarında Xorasan və İraqi- Əcəmdən keçərək Azərbaycan ərazisinə soxulan monqolların dağıdıcı və viranedici hücumları, nəhayət

---

[231] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.112
[232] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.419
[233] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.110
[234] Azərbaycan tarixi. Bakı, 2005, s.317
[235] Azərbaycan tarixi. Yeddi cilddə, ikinci cild, s.426
[236] İzzəddin İbn əl-Əsir. Əl-Kamil-fi-t-Tarix, s.130

Naxçıvana da yetişdi. Monqolların hücumlarının davam etdiyini görən Özbək "Təbrizi tərk edib, Naxçıvana gedir..."[237] Atabəy Özbək Əlincə qalasında gizlənir. Qırğınlar yalnız Atabəyin Naxçıvanın sahibi olan oğlu Qızıl Arslan Xamuş monqollara üzrxahlıqla "günahı boynuna götürüb" müraciətindən sonra dayandırılır.[238] Bununla belə, atabəylərin böyük zövqlə abadlaşdırdıqları Naxçıvan şəhəri və onun ətrafı böyük dağıntılara məruz qaldı, insanları məhv edildi, əsir aparıldı. Atabəy Özbəyin müasiri İbn əl-Əsir onun bir dövlət başçısı kimi bu dövr fəaliyyətini kəskin tənqid etmişdir. Çünki monqollar Azərbaycanı tərk etdikdən sonra Özbək Naxçıvanı tərk edərək yenidən Təbrizə qayıtmış, arvadı, III Toğrulun qızı Məleykə xatın isə ərinin ölkəsinə hakimlik etmişdir.[239] Naxçıvan isə bu zaman Zahidə xatının qızı, Özbəyin atabir bacısı məlikə Cəlaliyyənin əlində idi.[240] Xarəzmşahlar dövlətinin hökmdarı sultan Məhəmmədin oğlu Qiyasəddin Pirşah Azərbaycana yürüş etdikdə, bu hücumların qarşısını ala bilməyən atabəy Özbək bacısı Cəlaliyyəni ona ərə verir və bu yolla barışıq əldə edir. Beləliklə, Naxçıvan Qiyasəddin Pirşahın tabeliyinə keçir. Atabəy Özbək Əlincə qalasında olarkən arvadı Məlikə xatının Cəlaləddin ilə evləndiyini eşidir. Bu xəbərdən sonra Özbək vaxtını içki içməklə keçirir və 1225-ci ilin ikinci yarısında Əlincə qalasında vəfat edir. Atabəy Özbəyin vəfatı ilə dövrün ən qüdrətli dövlətlərindən olan Azərbaycan Atabəyləri dövlətinə son qoyuldu.

3.6. Naxçıvan Azərbaycanın dövlətçilik ənənələrinin davam etdirilməsi və bərpası uğrunda mübarizədə: Əlincə qalası, Naxçıvan tüməni, hürufizm və azadlıq mübarizəsi (XIII-XIV əsrlər)

Monqolların birinci hücumu nəticəsində zəiflədilmiş Azərbaycan 1225-ci ildə Xarəzmşah Cəlaləddinin əlinə keçdi. Beləliklə, qısa bir dövr ərzində-1231-ci ildə monqolların ikinci yürüşünün başlanmasına-

---

[237] Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225), s.128
[238] Yenə orada
[239] İzzəddin İbn əl-Əsir. Əl-Kamil-fi-t-Tarix, s.147
[240] Vəlixanlı N. Naxçıvan ərəblərdən monqollaradək, s.117

dək olan dövrdə Azərbaycanda Xarəzmşah Cəlaləddin hökmranlıq etmişdi.

Azərbaycan Atabəylər dövlətinin süqutunun son dövründə sonuncu hökmdar Özbək Xarəzmşaha müqaviməti təşkil etmək üçün Əlincə qalasına gəlir. O, buradan effektli mübarizə təşkil edə bilməsə də, bu dövrlərdən başlayaraq, Əlincə qalası uzun müddət Azərbaycan dövlətçiliyinin qorunması və saxlanması uğrunda mübarizənin simvoluna çevrilir.

Monqolların 1231-ci ildə başlayan ikinci yürüşü 1239-cu ilədək davam etdi və Azərbaycan torpaqlarının işğalı ilə başa çatdı. Bütövlükdə Azərbaycan torpaqları, o cümlədən Naxçıvan 1239-cu ildən Ali Monqol xaqanlığından idarə edilməyə başlandı. 1256-cı ildə Hülakü xanın başçılığı ilə həyata keçirilən üçüncü yürüş yeni Hülakülər və ya Elxanilər dövlətinin yaradılması ilə başa çatdı. 1257-ci ildən Azərbaycan, 1258-ci ildən isə Naxçıvan bu dövlətin tərkibinə daxil edildi.

Azərbaycanın XIII-XIV əsrlər kimi mürəkkəb və ziddiyyətli dövrünün ilk mərhələsində zəmanəsinin görkəmli mütəfəkkirlərindən olan Nəsirəddin Tusinin (1201-1274) dövlət haqqında təliminin meydana gəlməsi təsadüfi deyildi.[241] A.Rzayev qeyd edir ki, Nəsirəddin Tusi Azərbaycan siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisidir.[242] Bu nəzəriyyə tarixi təcrübə ilə birgə, dövrün yeni meyillərini də özündə əks etdirirdi. Tusiyə görə, insanlar bir-birinə, birinin bitkinlik və kamilliyi öz növündən olan başqalarının bitkinlik və kamilliyinə, bir-birinin zəruri köməyinə möhtac olduqlarından...heç kəs təklikdə bir kamala çata bilməz. Beləliklə, bir-birinə kömək edən bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zəruriyyəti meydana çıxar. Tusi tarixi təcrübədən çıxış edərək yazır ölkə dolandırmağa məsul adam bir şeyi qəti bilməlidir ki, dövlətlərin bünövrəsi qarşılıqlı kömək və əmək əsasında birləşən, beləliklə, bir bədənin üzvləri yerində olan insanların ümumi ittifaqı zəminəsində yaradılmışdır. Bu ittifaq ədalətli olsa, dövlət haqq olmasa, dövlət nahaq yaradılmışdır...Əksər

---

[241] Bu barədə daha ətraflı bax: Рзаев А. История политических и правовых учений в Азербайджане. От истоков до XX века. Баку, 2000 və s.

[242] Yenə orada, s.206

dövlətlər xeyirxah və iradəli başçıları, ədalətli hökmdarları olduqca, müttəfiqlik şərtləri yerinə yetirildikcə yaşamış və inkişaf etmişdir.[243]

Naxçıvan monqol işğalları prosesində ciddi dağıntılara məruz qalmasına baxmayaraq, tədricən Hülakü dövləti sistemində mühüm yer tutmağa başlayırdı. Bu Naxçıvanın hərbi-strateji cəhətdən əlverişli mövqeyi ilə eyni zamanda, Atabəylər dövləti dövründə paytaxt şəhəri kimi əhəmiyyətli rolu ilə də bağlı idi. Naxçıvan tarixində də haqlı olaraq qeyd edildiyi kimi, Hülakülərin dövründə zərbxanaların olduğu 19 Azərbaycan şəhəri içərisində Bakı, Təbriz, Marağa, Sultaniyyə, Salmas, Şabran kimi məşhur şəhərlərlə yanaşı, Naxçıvan (1244-1245;1333-1334), Şərur (1349-1350; 1351-1352), Əlincə, Əncan şəhərlərinin də adlarının olması bu bölgənin dövlətçilik baxımından əhəmiyyətindən xəbər verir. Hülakülər dövlətinin görkəmli hökmdarlarından olan Qazan xanın (1295-1304) həyata keçirdiyi islahatlar Naxçıvanda da sosial-iqtisadi həyatın canlanmasına təkan vermişdir. Bu uzun müddət davam etməmiş, bir tərəfdən Hülakülər dövləti ilə Qızıl Orda arasındakı müharibələr, digər tərəfdən dövlətin öz daxilində genişlənən hakimiyyət uğrunda çəkişmələr sosial-iqtisadi və siyasi böhrana səbəb olmuşdur. Bu da Hülakülər dövləti daxilində Çobanilərin mövqeyinin güclənməsinə gətirib çıxarmışdır. Çobanilər Naxçıvanın əhəmiyyətini nəzərə alaraq burada nüfuz uğrunda mübarizəyə xüsusi diqqət verirdi. 1341-ci ildə yeni Cəlairi dövlətinin yaranması ilə bölgədə siyasi hakimiyyət uğrunda mübarizə daha da kəskinləşdi. Hadisələr 1357-ci ildə Hülakülər dövlətinin süqut etməsi ilə nəticələndi, Azərbaycan torpaqları cəlairilərin nüfuz dairəsinə daxil oldu.

XIV əsrin 70-ci illərində Teymurilər dövlətinin meydana gəlməsi ilə bölgədə cəlairilər və Qızıl Orda ilə yanaşı onun da iştirakı gücləndi. Bu dövrdə Əlincənin rolu bir daha ortaya çıxdı. Teymur 1387-ci ildə Naxçıvanda Əlincə qalasını mühasirəyə aldı. Bu zamandan başlayaraq qalanın mühasirəsi 14 il davam etdi və qala yalnız daxili çəkişmələrdən sonra, 1401-ci ildə təslim oldu. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra onun imperiyası zəiflədi və Azərbaycan dövlətçiliyinin bərpasını reallaşdırmaq mümkün oldu.

Hülakülər və cəlairilər dövründə Naxçıvanın ayrıca inzibati vahid, tümən kimi təşkil edilməsi onun konsolidasiyası və Azərbaycan dövlət-

---

[243] Tusi N. Əxlaqi-Nasiri. Bakı, 1989, s.180, 211

çiliyinin bərpasında rolunun güclənməsinin əsas faktorlarından biri oldu.

Hülakülər dövlətinin ərazisi vilayətlərə, onlar isə "tümənlərə bölünmüşdü. Tümən hərbi və inzibati bölgü cəhətdən eyni ərazini əhatə edirdi. Azərbaycanın, bir vilayət kimi, sərhədləri Xəzər dənizi – Gilan vilayəti – Zəncan, Savucbulaq, Uşniyə şəhərlərinin və Ruyendej qalasının cənubundan – Urmiya, Salmas, Xok, Maku şəhərlərinin və Naxçıvan vilayətinin qərbindən – Dvin şəhərindən – Göycə gölü – Debed çayı – Şəki vilayətinin qərbindən və şimalından – Dərbənd şəhərinin şimalından keçirdi. Azərbaycan vilayəti (tarixi Atropatena) inzibati-ərazi bölgüsü baxımından 4 əyalətə, eyni zamanda 9 tümənə bölünmüşdü və onların hər biri əyalətin iri şəhərlərinin adı ilə adlanırdı. Naxçıvanın bu dövrdəki inzibati-ərazi bölgüsü hülakülərin, çobanilərin, cəlairilərin təyin etdikləri hakimlər tərəfindən idarə olunurdu. Naxçıvan ərazisi Azərbaycan əyalətinin tərkibində olmuş və onun 9 tümənindən biri idi. Həmdullah Qəzvini (1282-1345) həmin tümənlərdən səkkizinin – Təbriz, Ərdəbil, Pişkin, Xok, Sərab, Marağa, Mərənd və Naxçıvan tümənlərinin adını çəkir.[244] Orta əsrlərdə "tümən" termini ilk növbədə hərbi, inzibati və pul vahidləri məzmununda işlədilirdi. Çoxmənalı "tümən" termini ilə ilk növbədə on min döyüşçünü birləşdirən hərbi bölüm, on min dinara bərabər pul vahidi və on min əsgər verə biləcək inzibati-ərazi vahidi nəzərdə tutulurdu. Göründüyü kimi, Naxçıvan bölgəsi Azərbaycanın bir tüməni idi və dövlətə on min döyüşçü vermək qüdrətinə malik idi.[245] Naxçıvan tümənində Azərbaycanın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Makuyə şəhərləri daxil idi.[246]

Naxçıvan və Ordubad şəhərləri Azərbaycanın 260 tümən illik hasilatının toplandığı 21 iri şəhəri sırasına daxil idi.[247] Naxçıvan tümənini mahal hakimi və tümən əmiri idarə edirdi. Şəhərləri isə şəhər hakiminin başçılığı ilə mütəsərrif, mustovfi, xazin, nazir və b. məmurlar idarə edirdilər. Naxçıvan tüməni hazırda Naxçıvan Muxtar Respublikasının ərazisindən nisbətən geniş ərazini – Araz çayının şimal və cənub sahillərini əhatə edirdi. Naxçıvan tüməni Makudan Qafan dağlarına

---


[244] Həmdullah Qəzvini. Nuzhət əl-qulub. Tehran, 1336 (h.q.), s.85-102

[245] Ализаде А.Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 2012, с.256

[246] Naxçıvan ensiklopediyası. İki cilddə, c.2, s.168

[247] Piriyev V. Naxçıvan XIII-XIVəsrlərdə//Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu, s.97

qədər geniş ərazini əhatə etmiş, Xoy, Mərənd, Pişkin tümənləri və Qarabağla hüdudlanaraq Göycə gölü istiqamətində Dərələyəz silsiləsinin şimalına kimi çatırdı. Maku və Qafan əraziləri də Naxçıvan tüməninə daxil idi.[248]



Arazın cənubunda Naxçıvan şəhərindən çox da uzaqda olmayan və onunla eyni en dairəsində yerləşən Makunun Azərbaycanın başqa tümənlərinin tərkibində, xüsusilə Naxçıvana qonşu olan Xok və ya Mərənd tümənlərinin tərkibində verilməməsi onun məhz Naxçıvan ərazisinə daxil olduğunu bir daha təsdiq edir. Naxçıvanın qərb hüdudlarına Dvin (Dəbil) şəhərinin də daxil olduğu orta əsr mənbələrindən məlumdur.[249] Ərəb coğrafiyaşünası Yaqut Həməvinin (1179-1229) yazdığına görə, Dvin "Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında" yerləşir. Əbu-Bəkr əl-Əhəri (XIV əsr) isə 1338-ci ildə Şərur və Dvin

---

[248] Piriyev V. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər), s.23; Kəlbizadə E. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı), Naxçıvan, 2016, s.46

[249] Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003, s.81

ərazilərinin Hülaku əmiri Əkəncinin oğlu Hacıbəy tərəfindən idarə olunduğunu bildirir.[250] Dvinin orta əsrlərdə Azərbaycanın, deməli, Naxçıvanın tərkibində olduğunu söyləməyə əsas verir. Fəzlullah Rəşidəddinin (1247-1318) məlumatına görə, Qafan ərazisi də Naxçıvan tümənինə daxil olmuşdur. Müəllif yazır: "Zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir",[251] ərvağan çiçəyi "Naxçıvan vilayətində Qafan dağlarında çox bitir".[252] XIII-XIV əsrlərə aid yazılı qaynaqlarda Naxçıvan tümənində və onun ətrafında Vənənd, Qarabağlar, Giran, Cülahə (müasir Culfa), Şahbuz, Şərur, Əlincə, Sürməli, Gərni, Tağmar, Fəqnan və b. yaşayış məskənləri, qala və istehkamlar, Əshabi-Kəhf mağarası, Xudafərin və Ziyaülmülk körpüləri və s. mövcud olmuşdur.

Naxçıvanın ərazi-inzibati cəhətdən konsolidasiyası, sosial-iqtisadi və siyasi baxımdan fəallığının Azərbaycan dövlətçiliyinin bərpasında rolunun əhəmiyyəti nə dərəcədə vacib olsa da, dövlətçiliyin bərpası üçün ideoloji zəminin təşəkkülü də o dərəcədə vacib idi. Əgər əvvəllər bu ayrı-ayrı şair və mütəfəkkirlərin, xüsusilə Qətran Təbrizinin və Nəsirəddin Tusinin yaradıcılığında özünü göstərirdisə, XIV əsrin sonlarında hürufilik kimi dini-fəlsəfi cərəyanın meydana gəlməsi ilə əlamətdar olmuşdur.

Hürufizm XIV əsrin sonlarında Azərbaycanda yaranmış və təşkilati baxımdan formalaşmışdır.[253] Azərbaycanda hürufizmin meydana gəlməsinin əsas mərkəzlərindən biri isə sözsüz ki, XIII-XIV əsrlər tarixinin bütün gedişini özündə əks etdirən Azərbaycanın Naxçıvan bölgəsi idi.

Hürufiliyin banisi və hərəkatın ilk rəhbəri Fəzlullah Nəimi (1339/40-1394) onun başlıca müddəalarını Azərbaycanda bəyan etdiyinə görə buranı "Oyanmış torpaq" (Sərzəmine-restaxiz) adlandırırdılar. Hürufiliyin əsasları Nəiminin "Məhəbbətnamə", "Cavidannamə", "Ərşnamə" ("Dünyanın taxt-tac kitabı") traktatlarında, "Novmnamə" ("Yuxular haqqında") əsərində və "İsgəndərnamə" adlı fəlsəfi poemasında şərh edilmişdir. Hürufilik fəlsəfəsi Allahı gerçək aləmin, dünya təkamülünün ali məhsulunun-insan və onun nitqinin içərisində

---

[250] Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003, s.47
[251] Naxçıvan ensiklopediyası. İki cilddə, c.2, s.168
[252] Piriyev V.Azərbaycan XIII-XIV əsrlərdə, s.82
[253] Кулизаде З. Хуруфизм и его представители в Азербайджане. Баку, 1970 с.43

əridirdilər. Hürufilər ərəb əlifbasında olan hərflərə ilahi, mistik məna verirdilər. Onlar kainatın, aləmin əbədiliyini, gerçəkliyin dərk olunmasının mümkünlüyünü qəbul edirdilər.[254] Hürufilər Allahın Nəimidə təcəssüm etdiyinə inanırdılar. Hürufizmin görkəmli nümayəndələrindən olan İmaməddin Nəsimi (1369-1417) Fəzlullah Nəimini əsərlərində vəsf etmiş, onu Həq-Allah adlandırmışdır.

Fəzli-həqdir vaqifi-əsrarımız,
Fəzli həqdəndir qamü ənvarımız,
Fəzli-həq göstərmiş idi karımız,
Fəzli-həqdir, fəzli-həq memarımız.[255]

Hürufiliyin ictimai-siyasi baxışlarına bir sıra ictimai-siyasi cərəyanlar kimi xürrəmilik də mühüm təsir göstərmişdir. Ona görə hürufilikdə də zülmə və ədalətsizliyə qarşı mübarizə çağırışı var idi. Bunun nəticəsi idi ki, hürufilər Əmir Teymur tərəfindən amansızcasına təqib edilirdi. Hürufi fəlsəfəsinin siyasi qorxusu ilə bağlı Səmərqənddə çağırılan üləma yığıncağı Fəzlullah Nəiminin qətl edilməsi haqqında fitva verdi. Nəimi 1394-cü ildə Teymurun əmri ilə oğlu Miranşah tərəfindən həbsə alınaraq, Naxçıvandakı Əlincə qalasına aparılmış və orada amansızlıqla qətlə yetirilmişdir.[256] Belə güman edilir ki, Nəimi müridləri tərəfindən hazırda Culfa rayonundakı Xanəgah kəndindəki türbədə dəfn edilmişdir.[257] Bu Naxçıvanı teymurilərə qarşı mübarizənin, bütövlükdə isə azadlıq hərəkatının mərkəzlərindən birinə çevirmişdir.

Nəiminin qətlindən sonra hürufizmin əsas liderlərindən biri olan Nəsimi fəlsəfi-dini təbliğatla eyni zamanda, siyasi ideyaların da həyata keçirilməsi yolunda mübarizə aparmışdır. Nəsimi yaradıcılığının görkəmli tədqiqatçılarından biri olan Həmid Araslı şairin qətli haqqında yazırdı ki, Misir sultanı öz fərmanında Nəsiminin dərisi soyulduqdan sonra əllərinin birini Zülqədər hakiminə, ikincisini Ağqoyunlu hökmdarına göndərmişdi. Bu fakt şairin siyasi əlaqələrini təxmin etməyə imkan verir. Bəlkə də Nəsimi bu hökmdara öz fikirlərini qəbul etmək

---

[254] Azərbaycan tarixi. Yeddi cilddə, üçüncü cild, Bakı, 2007, s.164
[255] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.262
[256] Yenə orada, s.262
[257] Naxçıvan xanəgahları haqqında daha ətraflı bax: Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı, 2003

şərti ilə Hələbi və Suriyanı Misir sultanlığından ayırıb onlarla birləşdirməyi vəd etmişdir. Bu ehtimal Nəsiminin öldürülməsinin siyasi bir mahiyyət daşımasını güman etmək üçün də əsas vermiş olur.[258] Bu mülahizə hürufilərin və onların liderlərindən birinin Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizə aparan ağqoyunlularla əlaqəsini göstərir. Hürufilər gələcəkdə Azərbaycanda mərkəzləşmiş Səfəvi dövlətinin yaranmasında tarixi rol oynamış Səfəviyyə ordeni və qızılbaş ideologiyası ilə də əlaqədə olmuşdur. Hürufizm kimi qızılbaş ideologiyasının vətəni də Azərbaycan idi.

3.7. Naxçıvan XV əsr Azərbaycan dövlətləri sistemində

XV əsrin əvvəlləri Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutur. Teymurun ölümündən sonra siyasi arenada möhkəmlənən Şirvanşahlar dövlətinin hakimi I İbrahim (1382-1417) Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizəyə başlayır. Dövrün tarixinə dair tədqiqatlarda bu hadisələrin gedişində Naxçıvanın mövqeyinə diqqət yetirilməmişdir. C.İbrahimov yazırdı ki, "Teymur dövlətinin dağılması və oğlanları arasında davam edən mübarizələr yerli hökmdarların hakimiyyətlərinin möhkəmlənməsinə və genişlənməsinə imkan yaradır. Şirvan şahı I İbrahim bu fürsətdən istifadə etməyi nəzərdən qaçırmır. Məsələ burasında idi ki, Şirvan şahı I İbrahim Teymur ilə olan müqaviləyə baxmayaraq, Şirvanın tam müstəqilliyini əldə etmək və Azərbaycan torpaqlarını Şirvan şahlığı ətrafında birləşdirmək fikrindən əl çəkməmişdi. Hətta o, Azərbaycanın müxtəlif şəhərləri ilə əlaqəyə girərək əlverişli məqam gözləyirdi. İndi elə düşən fürsət isə ona bu niyyətini həyat keçirməyə imkan verirdi."[259] Qeyd edilən dövrdə Naxçıvanın siyasi hadisələrdə əsas faktorlardan biri olduğunu əsas götürsək, Şirvanşah I İbrahim onu nəzərə almaya bilməzdi. Ona görə də onun əlaqədə olduğu şəhərlər arasında Naxçıvan da olmalı idi. I İbrahimin yürüşünün əsas istiqamətinin Təbrizə yönəldiyini nəzərə alsaq Naxçıvanın rolu daha aydın olar. I İbrahim 1406-cı ilin may ayında Təbriz şəhərini tutmaqla qısa bir zamanda olsa da Azərbaycan torpaqlarının birləşdirməyə nail ola bildi. İyun ayında isə

---

[258] Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri, s.269

[259] İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958, s.33-34

Cəlairi Sultan Əhməd və Qaraqoyunlu Qara Yusifin birləşmiş qüvvələrinin Təbrizə yürüşü ilə şəhəri tərk etməyə məcbur oldu. Təbriz tutulduqdan sonra şəhər qazisi İmadəddinin Sultan Əhməd tərəfinə keçməsi və soyurqal olaraq bütün Naxçıvan mahalını hakimiyyəti altına alması, Əlincə qalasının əhəmiyyətinin nəzərə alınaraq onun bərpa edilməsi haqqında fərman verilməsi[260] Naxçıvanın birləşdirmə siyasətini müdafiə etməsini təsdiq edir.

I İbrahimin Azərbaycanın birləşdirilməsi siyasətində ilk cəhdinin uğursuz olmasına baxmayaraq, bu siyasətindən əl çəkmədi və əlverişli fürsət düşən kimi həmin ideyanın həyata keçirilməsini davam etdirdi. Keçmiş müttəfiqlər-Cəlairi Sultan Əhməd və Qara Yusif arasında 1410-cu ildə ziddiyyət yarandıqda, yenidən bu siyasəti davam etdirdi. Sultan Əhməd və Qara Yusif arasında yaranan hərbi qarşıdurma zamanı cəlairiləri müdafiə etdi. Bununla da həm qaraqoyunlulardan müdafiə olunmaq, həm də Azərbaycanın cənub torpaqlarında möhkəmlənmək istəyirdi. Qara Yusifin Şirvan qoşunları gələnədək, 1410-cu il avqustun 30-da Şənbi-Qazanda Sultan Əhmədi məğlub etməsi ilə bu plan da süqut etdi.[261]

Oğuz mənşəli qaraqoyunlu, o cümlədən sonralar Azərbaycan ərazisində dövlət yaratmağa nail olan ağqoyunluların ölkə ərazisinə gəlməsinin erkən dövrü VIII-IX əsrlərə aid edilir. Baharlı, sədli, qaramanlı, alpout, duharlı, cəgirli, hacılı, ağacərili kimi tayfalardan ibarət olan qaraqoyunlular XIV əsrin sonlarında Anadolunun şərqində bəylik yaratmağa nail ola bilmişdilər. Baharlı və sədli tayfalarının siyasi rolu daha çox olmuşdur. Sədli oymağının mərkəzi Naxçıvan və Sürməli idi.[262] Qaraqoyunluların Qara Mahmud (1378-1388), Bayram Xoca (1388-1392), Qara Məhəmməd (1392-1405) kimi başçıları bölgənin siyasi hadisələrində fəal iştirak etməyə başlamış, Qara Yusif isə cəlairilərlə mübarizədə 1410-cu ildə dövlət yaratmağa (1410-1468) nail ola bilmişdir.[263]

Qaraqoyunlu dövləti Azərbaycan dövlətçilik ənənəsinə əsaslanmaqla eyni zamanda, dövrün hüquqi-siyasi tələbləri üzrə formalaş-

---

[260] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki,s.97


[261] Azərbaycan tarixi. Yeddi cilddə, üçüncü cild, s.86

[262] Yenə orada, s.79; Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.32-38

[263] İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər, s.37-48

mışdır. Bu öz əksini Qara Yusifin deyil, məhz oğlu Pirbudağın sultan elan edilməsində tapır. Qara Yusif hələ Dəməşqdə həbsdə olduğu zaman azyaşlı oğlu Pirbudağı Sultan Əhməd Cəlairiyə rəsmi sənədlə oğulluğa vermiş, onun ölümündən sonra Pirbudağın adına yazılmış yarlıq əsasında Təbrizdə çağırılan Azərbaycan əyanları və Qaraqoyunlu əmirlərinin məclisində onu sultan elan etmişdir.[264] Dövlətin idarəsini isə onun qurucusu Qara Yusif (1410-1420) həyata keçirmişdir.

Qaraqoyunlu dövləti yarandığı zaman Naxçıvan mahalı Cəlairilərə tabe olan qazi İmadəddin tərəfindən idarə edilirdi. Ona görə də qaraqoyunluların qarşısında duran vəzifələrdən biri tezliklə Naxçıvana sahib olmaq idi. Əlincə qalasının möhkəmliyi onun ələ keçirilməsini çətinləşdirirdi.



Qulfa rayonu, Xanəgah kəndi. Təkyə

Qara Yusif bunu nəzərə alaraq, qala və ətrafının qazi İmadəddinə, uzaqdakı torpaqların isə oğlu İsgəndərə verilməsini qərara almış-

---

[264] Fərzəlibəyli Ş.XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003, s.19-20

dır. Az bir müddət sonra qazi İmadəddinin hakimiyyətinin möhkəmlənməsindən narazı qalan Hacı Qorçu, Cəmaləddin və Şəhriyar kimi mühafizlər onu öldürmüş, qalanı ələ keçirmiş və onu İsgəndərə tabe etmişdilər. Qara Yusif İsgəndərin (sonralar Qaraqoyunlu hökmdarı, 1421-1429, 1431-1436) qala üzərindəki hakimiyyətini təsdiqləmişdir.[265] Beləliklə, Qaraqoyunluların Naxçıvandakı hakimiyyəti qəti şəkil almışdır. Cəlairilər dövründə olduğu kimi, Qaraqoyunlular da xəzinəni Naxçıvanda, Əlincə qalasında saxlayırdılar ki, bu da bölgənin strateji əhəmiyyətini göstərirdi. Əlincə qalası İsgəndərə sadiq qüvvələrin nəzarətində idi.[266]

Naxçıvan Qaraqoyunlu dövlətinin tərkib hissəsi kimi onun siyasətinin həyata keçirilməsində də iştirak edirdi. 1412-ci ilin dekabrında Qaraqoyunluların Şirvan və onun müttəfiqlərinə qarşı Kür çayı sahilində baş verən və qələbə ilə başa çatan döyüşündə Naxçıvanın da silahlı dəstələri iştirak etmişdi.[267]

1420-ci ilin noyabrında Teymuri Şahruxun yürüşünə qarşı döyüşə gedən Qara Yusifin ölümündən sonra meydana gələn tarixi şəraitdə Naxçıvan siyasi hadisələrin əsas mərkəzinə çevrilmişdir. Bir tərəfdən Qaraqoyunlu əmirlərindən olan Əmir Qaraman və xatun Qədəm Paşa ordugahdan ayrılaraq xəzinənin olduğu Əlincə qalasına yola düşmüş, digər tərəfdən Qara Yusifin oğlanlarından olan İspənd (İsfahan) Mirzə sədli tayfa əmirlərinə arxalanaraq özünü Qaraqoyunlu hakimi elan etmiş, Bayazid qalasında saxlanılan xəzinəni ələ keçirib, Çuxur-Sədə getmişdi.[268] İsgəndər Mirzə Qaraqoyunluların hakimiyyətini bərpa etdikdən sonra, Təbrizi və Əlincə qalasını İspənd Mirzənin əlindən alaraq, Azərbaycandan çıxarmaq istəmiş, o da qaçıb Avnikə və Ərzuruma getmişdi.[269]

Teymuri Şahruxun Qaraqoyunlu dövləti ilə apardığı ziddiyyətlərin yenidən kəskinləşməsi nəticəsində 1429-cu ilin sentyabrında Salmas yaxınlığında hər iki dövlət arasında döyüş baş vermiş, İsgəndər bu döyüşdə məğlub olaraq, hakimiyyətdən uzaqlaşdırılmışdır. Şahrux hakimiyyətə Əbusəidi (1429-1431) gətirmişdir. Bu məğlubiy-

---

[265] Sümer F. Karakoyunlular (Başlanğıcdan Cihan Şaha kader). C.5.Ankara, 1984, s.78

[266] Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, s.46

[267] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, 1951, s.86; Петрушевский И.П. Государства Азербайджана в XV в. // Сборник статей по истории Азербайджана. Вып.I. Баку, 1949, с.160

[268] Sümer F. Karakoyunlular (Başlanğıcdan Cihan Şaha kader). C.1.Ankara, 1967, s.111, 116-117

[269] Tehrani Əbu Bəkr. Kitabi-Diyarbəkriyyə. Bakı, 1998, s.73

yətdən sonra Naxçıvan Teymurilərin hakimiyyəti altına düşmüş, lakin 1431-ci ildə yenidən taxta çıxan İsgəndər Şahruxun hakimyyətini aradan qaldırmağa nail olmuşdur. 1434-cü ildə Şahruxun yeni hücumu başlamış, bu zaman İsgəndəri hakimiyyətdən salmış, taxta Cahanşah (1436-1467) çıxmışdı.[270] Həmin dövrdə Əlincə qalası İsgəndərin oğlu Şah Qubadın əlində idi və İsgəndərin əsas dayaqlarından hesab olunurdu. Şahrux Azərbaycanı tərk etdikdən sonra, yeni hərbi qüvvə toplayan İsgəndər Cahanşaha qarşı döyüşə başladı, lakin tərəfdarları onu tərk etdiyinə görə, Əlincə qalasına sığındı. Burada oğlu Şah Qubad tərəfindən qətlə yetirildi və bununla da Cahanaşaha tabeçiliyni bildirdi. Cahanşahın Əlincə qalası üzərində də hakimiyyətinin bərpa edilməsinə baxmayaraq, o, ata qatili və onun tərəfdarlarını qətlə yetirdi.

Teymuri Şahruxun ölümündən (1447) sonra Cahanşah müstəqil siyasət yeritməyə başladı, lakin Ağqoyunluların hakimiyyət uğrunda mübarizəsi Qaraqoyunlu dövlətinə ciddi zərbə vurdu. 1467-ci ilin noyabrında Cahanşah Ağqoyunlu Uzun Həsənlə döyüşdə öldürüldü, hakimiyyətə oğlu Həsənəli (1467-1468) gəldi. Həsənəli Azərbaycanın cənub torpaqlarında qüvvə toplayaraq Ağqoyunlulara qarşı çıxır. Uzun Həsən ona məktub yazaraq, yanına 30 nəfərlik heyət göndərib, təslim olmasını tələb edir. Həsənəli elçiləri öldürür və mübarizəni davam etdirir, lakin Mərənd yaxınlığındakı döyüşdə məğlub olur və Teymuri sultanı Əbi Səidin yanına qaçır.[271] Beləliklə, Qaraqoyunlu sülaləsinin hakimiyyətinə son qoyulur, Ağqoyunlu sülaləsi hakimiyyətə gəlir. Yeni sülalə də paytaxt şəhəri kimi Təbrizi seçir. Bu Azərbaycan dövlətçiliyinin varisliyinin göstəricilərindən biri idi. Dövlətin yaradıcısı Uzun Həsən on il (1468-1478) davam edən hakimiyyəti dövründə dövləti hərbi-siyasi cəhətdən möhkəmləndirməklə yanaşı, "Qanunnamə" qəbul etmiş, dövləti hüquqi baxımdan da sabitləşdirməyə çalışmışdır. Uzun Həsənin "Qanunnamə"si Azərbaycan dövlətçiliyi tarixi üçün önəmli bir sənəddir. Bu sənəd nəinki, öz dövründə hətta, XVI əsrdə də qüvvədə olmuş və sonrakı dövlətlərin də hüquqi sisteminin yaradılmasına təsir göstərmişdir.[272]

---

[270] İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər, s.56

[271] Yenə orada, s.74

[272] Problemin tarixşünaslığı və "Qanunnamə"nin təhlili haqqında bax: Fərzəlibəyli Ş.F. XV əsr Azərbaycan dövlətlərinin quruluşu, s.86-98



Uzun Həsənin ölümündən sonra hakimiyyəti onun varisləri Xəlil Mirzə (1478), Sultan Yaqub (1478-1490), Baysunqur Mirzə (1490-1492), Rüstəm (1492-1497), Gödək Əhməd (1497), Məhəmməd Mirzə (1499), Əlvənd Mirzə (1499-1501) və Sultan Murad (1499-1503) idarə etmişdilər. Sultan Yaqubdan sonra hakimlərin tez-tez dəyişməsi dövlət idarəçiliyinə mənfi təsir göstərmişdir.

Qaraqoyunlu və Ağqoyunlular arasında hakimiyyət uğrunda gedən mübarizədə Naxçıvan, xüsusilə Əlincə qalası vacib yer tuturdu. Əlincə ətrafında baş verən hadisələri Əbubəkr Tehrani "Kitabi-Diyarbəkriyyə" də (1470-1478) vermişdir. Bu təsvirin maraqlı cəhəti ondan ibarətdir ki, hadisələr o zaman gedən siyasi mübarizə kontekstində verilir. Bununla da Naxçıvanın ümumi siyasi mübarizədə yerini müəyyən etmək mümkün olur. Onun yazdıqlarından aydın olur ki, Həsənəlinin məğlubiyyətindən sonra siyasi hadisələr sürətlə dəyişməyə başlamışdır. Uzun Həsən Təbriz əhalisini sakitləşdirmək məq-

sədilə şahzadə Sultan Xəlil Bahadırı ora göndərmişdir. "[Sultan Xəlil] tələsik Təbrizə gəldi, şəhərin və vilayətin əhalisinə əmin-amanlıq, rahatlıq və arxayınlıq bəxş etdi. Və ...Məhəmməd bəyi Cuşin tərəfə, Yusif bəyi isə Səraba-Mahmud bəyin (Uzun Həsənin əmisi, Həsən-əlinin əmirlərindən idi.-İ.H.) və [digər] qaçmış ağqoyunluların ardınca göndərdi. Şahəli bəy Pornakı isə müzəffər əsgərlərdən bir dəstə ilə birlikdə Əlincəq qalasına göndərdi. Elə o zaman xəbər gəldi ki, Maku qalasının hakimi itaət göstərib və Həsən Əlinin o qalada olan arvadını tutub Sahibqranın yanına göndərib, qala da ələ keçirilib. Huri adlı yerdə xəbər gəldi ki, Şahəli bəy də Əlincəqi tutub. Qısa bir müddətdə belə bir qala əziyyət çəkmədən bütün xəzinələri ilə birlikdə ələ keçdi. Bu hadisə Turan şahlarının dilində bir misal oldu ki, əvvəlki Sahibqıran Əmir Teymur Kurqan o cür qüdrəti ilə təqribən on yeddi il (həqiqətdə 14 il.-İ.H.) [Əlincəni] mühasirədə saxladı; elələri oldu ki, mühasirə dövründə doğulub-böyüdü və mühasirədəkilərlə birlikdə döyüşdü; böyük əzab və itkilərdən sonra qala fəth olundu. [Lakin] bu əbədi dövlətdə ilahinin hökmü ilə qala və xəzinə qısa zamanda ələ keçdi və sakinlərə heç bir ziyan dəymədi."[273] Təbii ki, belə bir qalanın xəzinə ilə birgə, Ağqoyunluların əlinə keçməsi yeni sülalənin hakimiyyətinin möhkəmlənməsinə xeyli kömək göstərdi.

Ağqoyunlu dövləti mövcud olduğu dövr ərzində (1468-1501) bir tərəfdən hakimiyyətinin möhkəmləndirilməsi uğrunda qonşu dövlətlərlə mübarizə aparmış, digər tərəfdən fəal xarici siyasət yeridərək Avropa dövlətləri ilə diplomatik, hərbi-siyasi və ticarət əlaqələri qurmağa çalışmışdır.[274] Naxçıvan, o cümlədən Əlincə qalası dövlətin siyasi həyatında mühüm rolunu davam etdirmişdir. Şahin Fərzəliyev "Naxçıvan XV əsrdə" adlı tədqiqatında bu dövrün siyasi hadisələrindən bəhs edərək yazır ki, Sultan Yaqubun ölümündən sonra oğlu Baysunqur lələsi Sufi Xəlil Mosullunun köməyi ilə rəqiblərinə qalib gəldikdən sonra əmirlər tərəfindən padşahlığa namizəd göstərilən Rüstəm Mirzəni Əlincə qalasında zindana saldırdı. Həsən bəy Rumlunun məlumatına görə, 1492-ci ildə Eybə Sultan Bayandur ordusu

---

[273] Tehrani Əbu Bəkr. Kitabi-Diyarbəkriyyə, s.250-251

[274] Bu barədə daha ətraflı bax: Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü (XV əsrin II yarısı). Bakı, 1986; Azərbaycan diplomatiyası. Bakı, 2007; Azərbaycan və Avropa: Ağqoyunlu dövründə qarşılıqlı əlaqələr (XV əsrin ikinci yarısında). Los-Angeles, 2011 (Azərbaycan, ingilis dillərində).

ilə Qarabağdan Əlincəyə yollandı, qalanın hakimi olan Qazaq Seyid Əlini özünə müttəfiq etdi və həbsdəki Rüstəm bəyi azad edərək Təbrizə yollandı. Baysunqur qaçdığı üçün Rüstəm Mirzə taxt-taca yiyələnə bildi. 1497-ci ilin yazında Uzun Həsənin nəvəsi Gödək Əhməd Naxçıvan yaxınlığında Rüstəm padşahın qüvvələrini ağır məğlubiyyətə uğratmış və hakimiyyəti əlinə almışdı.[275] Gödək Əhməd qısa müddətdən sonra öldürülmüş, Əlvənd və Murad Mirzə arasında hakimiyyət uğrunda mübarizə başlamışdır. Murad 1500-cü ildə Təbrizə Əlvəndin üzərinə yürüş edir və şəhəri dörd verstliyindəki Sayın qalasında dayanır. Baba Xeyrulla adlı bir nəfərin başçılığı ilə ağsaqqallar işə qarışıb, hər iki tərəfi müharibədən çəkindirir. Əbhər adlı yerdə (Təbriz yaxınlığında) onların arasında sülh imzalanır, dövlətin ərazisi bölüşdürülür. Qızılüzən çayı sərhəd olamaqla Diyarbəkr və Azərbaycanın Kürdən cənuba olan hissəsi Əlvəndin və bütün İraq, Fars və Kirman məmləkətləri Muradın hakimiyyəti altında qalır.[276] Naxçıvan Əlvənd Mirzənin hakimiyyətinə daxil idi. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin yaranması uğrunda mübarizə Naxçıvanı yenidən siyasi hadisələrin mərkəzinə çevirir.

3.8. Naxçıvan Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti dövründə (1501-1736-cı illər)

Səfəvi dövləti Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açmışdır. Bu hər şeydən əvvəl Səfəvi dövləti tərəfindən Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi ilə bağlı olmuşdur. Azərbaycanın tanınmış səfəvişünas alimi O.Əfəndiyev yazırdı ki, ölkənin şimal və cənub vilayətlərinin Azərbaycan Səfəvilər dövləti daxilində siyasi baxımdan birləşməsi feodal Azərbaycanının tarixində yeni mühüm mərhələ hesab edilməlidir. Dövlət, xüsusilə də şəxsi feodal torpaq mülkiyyətinin inkişafı, bununla birbaşa əlaqəsi olan mərkəzləşdirilmənin güclənməsi də yeni cəhətlər idi.[277]

---

[275] Fərzəliyev Ş. Naxçıvan XV əsrdə//Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan, 2006, s.95

[276] İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər, s.111

[277] Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.254

Səfəvi dövləti quruluşuna, inzibati-ərazi bölgüsünə, idarə sisteminə görə dövrünün ən güclü imperiyalarından biri olmuşdur. Dövrün tədqiqatçısının yazdığı kimi, "XV yüzilliyin sonu, XVI yüzilliyin əvvəllərində Səfəvi dövləti Azərbaycan cəmiyyətinin mükəmməl bir siyasi təşkilatı kimi meydana çıxmış, mərkəzi hakimiyyət orqanları təşkil edilmiş və onların arasında səlahiyyət bölgüsü həyata keçirilmişdir. İnzibati-ərazi bölgüsü prinsipləri əsasında yerli idarə orqanları yaradılmış və nəticədə ali hakimiyyətin bütün ölkə ərazisində həyata keçirilməsi təmin olunmuşdur."[278] Dövləti mövcud olduğu dövr ərzində onun banisi olan Şah I İsmayıl (1501-1524) və onun varisləri I Təhmasib (1524-1576), II İsmayıl (1576-1577), Məhəmməd Xudabəndə (1577-1587), I Abbas (1587-1629), I Səfi (1629-1642), II Abbas (1642-1666), Süleyman (1666-1694), Sultan Hüseyn (1694-1722), II Təhmasib (1722-1732) və III Abbas (1732-1736) idarə etmişdilər.

Naxçıvan Səfəvilər dövlətinin qurulmasında və onun sonrakı tarixində mühüm rol oynayaraq, Azərbaycan dövlətçiliyinin varisliyinə vacib töhfə vermişdir. Əvvəlcə Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətlərinin tərkibində olan Naxçıvan Səfəvilər dövlətinin yaradılmasına köməklik göstərmişdir. Naxçıvanın əhəmiyyətini bilən Ağqoyunlu Əlvənd Mirzə də qüvvələrini ora yönəltmişdi. Əsas hadisələr isə Naxçıvanın şimal-qərbində, Şərurda cərəyan etmişdi. İsmayıl ilə Əlvənd Mirzə arasında həlledici döyüş burada 1501-ci ilin ortalarında baş vermişdi. Əlvəndin 30 minlik ordusuna qarşı İsmayılın 7 min nəfərlik qoşunu dayanmışdı. Ona görə də döyüşün taleyi üçün sərkərdələrin hərbi bacarığı və yerli əhalinin tərəflərə münasibəti vacib rola malik idi. Hər iki üstünlük İsmayıl tərəfində olduğundan o, qələbə qazanmağa nail oldu. "Əlvənd döyüş meydanından Ərzincana qaçmaqla güclə canını qurtardı. Qızılbaşlar zəngin qənimətlər (atlar, dəvələr, qatırlar, qiymətli mallar, qızıl və gümüş ləvazimat və s.) ələ keçirdilər. Elə həmin-1501-ci ilin payızında, Şərur qələbəsindən dərhal sonra İsmayıl təntənə ilə Təbrizə daxil oldu və şahlıq taxt-tacına yiyələndi."[279] Naxçıvanın şah İsmayılın tərəfində olması Murad Mirzə üzərində 1503-cü ildə qələbə əldə edilməsinə də təsir etdi.

---

[278] Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006, s.3

[279] Yenə orada, s.44-45

Naxçıvan XVI əsrdən etibarən ustaclu qızılbaş qəbilələrinin bir qolu olan kəngərli qəbiləsinin irsi ölkəsi hesab olunurdu. Bu Naxçıvanın həm Səfəvi, həm xanlıq, həm də Rusiya imperiyası dövrünün ilk mərhələsində dərin izlər buraxmışdı. Kəngərlilərin bir hissəsi Şah İsmayılın vaxtında diyarı türkmənlərin hücumundan qorumaq üçün Xorasanın Nisa dairəsinə köçürülmüşdü. Şah Abbasın dövründə qəbilənin başçısı və Naxçıvan hakimi Maqsud Sultan Kəngərli-Ustaclı idi. İsgəndər Münşinin 1628-ci ilə aid əmirlərin siyahısına görə Maqsud Sultan nəinki Naxçıvan, eyni zamanda, Xorasan kəngərlilərinin də hakimi idi.[280] Sonrakı dövrdə Naxçıvanda Nadir bəy Rzaəddin xan (1647), Əliqulu xan (1668), Murad xan (1668-1669), Şərəf xan (1669-1678), Məhəmməd Rza xan (1678-1691) hakimlik etmişdilər.[281] Kəngərlilərin Naxçıvan ölkəsinin siyasi idarəsi sahəsində əldə etdiyi təcrübə sonralar Naxçıvan xanlığının yaradılmasında vacib rol oynamışdır.

Naxçıvanın Səfəvi dövləti tərkibində tarixinin sonrakı mərhələsi də dövlətçilik ilə sıx bağlı olmuşdur. Naxçıvan uzunmüddətli Səfəvi-Osmanlı müharibələrinin əsas hərbi-strateji məntəqələrindən biri olmuş, müharibənin bütün ağrı-acıları və itkiləri ilə üzləşmişdir. Naxçıvanın bu dövr tarixi Səfəvi dövlətinin həyatının ən mühüm hadisələri ilə bilavasitə əlaqədardır.

Naxçıvan ilk əvvəl Səfəvilər ilə Osmanlılar arasında baş verən 1514-1555-ci illər müharibəsinin çətinliklərinə məruz qaldı. Səfəvilərin 1514-cü ilin avqustunda baş verən Çaldıran döyüşündə məğlub olması dövlətin paytaxtı Təbriz kimi Naxçıvanın da osmanlıların əlinə keçməsinə səbəb oldu. Osmanlılar burada 1514-cü il 20-26 sentyabrda qala bildilər, sonra isə qoşunlar İrəvana çəkildi.[282] Sultan Süleyman (1520-1566) bu müharibə dövründə baş verən 1534, 1535 və 1548-ci illərdəki üç yürüşü də Naxçıvana ağır zərbə vurdu. Buna baxmayaraq, Naxçıvan Səfəvi dövlətinin mühüm hərbi-strateji bölgəsi olaraq qalırdı. Sultan Süleymanın 1554-cü ilin ortalarında başlayan dördüncü yürüşü isə "12-ci səfər" və ya "Naxçıvan səfəri" kimi tarixə daxil olmuşdur. Osmanlı qüvvələri iyulun 28-də Naxçıvana daxil olmuş, 30-


---

[280] Петрушевский П.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI –начале XIX вв. Л., 1949, с.132

[281] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki,s.138

[282] Kırzıoğlu F. Osmanlıların Qafqaz ellerini fethi (1491-1590). Ankara, 1976, s.226-227

da isə oranı tərk etmişdilər. Görünür "Naxçıvan səfəri"ndən çıxarılan əsas dərslərdən biri müharibənin davam etdirlməsindənsə, sülhün vacibliyinin müəyyənləşdirilməsi olmuşdu. Bununla əlaqədar olaraq, dövlətlər arasında sülh danışıqları başlamış və 1555-ci il mayın 29-da Amasiyada müqavilə imzalanmışdı. Müqavilənin şərtlərinə görə İmeretiya, Minqreliya, Quriya və Şərqi Anadolu Osmanlı imperiyasına keçmiş, Mesxiya, Kartli, Kaxet və İrəvan Səfəvilər dövlətində qalmışdı.[283] Naxçıvan da Səfəvilər dövləti tərkibində qalmışdır.



Azərbaycan Səfəvilər nəslinin mülkləri

ŞAH İSMAYIL XƏTAİNİN DÖVRÜ
(1501-1524-cü illər)

- Mühüm döyüş yerləri
- Şah İsmayıl ordusunun yürüşləri
- 1500-cü ilin yazında İsmayılın Səfəvi müridlərini toplamaq üçün Ərzincana yürüşü
- Osmanlıların Azərbaycana yürüşləri

I ŞAH TƏHMASİBİN DÖVRÜ
(1524-1576-cı illər)

- Mühüm döyüş yerləri
- I Şah Təhmasib ordusunun yürüşləri
- Osmanlıların Azərbaycana yürüşləri

ŞAH ABBASIN DÖVRÜ
(1587-1629-cu illər)

- Mühüm döyüş yerləri
- Şah Abbas ordusunun yürüşləri
- Osmanlı ordusunun Azərbaycana yürüşləri

[283] Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, s.83

Səfəvilər və Osmanlılar arasında yeni müharibənin başlandığı 1578-ci ilədək Naxçıvanda da sülh şəraiti iqtisadi inkişafa müsbət təsir göstərdi. II İsmayılın dövründə Səfəvilərin hakimiyyəti altında olan Naxçıvana "Şərəfnamə" adlı tarixi əsərin müəllifi Şərəfxan Bidlisi hakim təyin edilmiş, lakin onun hakimiyyəti uzun sürməmişdir. Osmanlılar və Səfəvilər arasında yeni müharibə başladığı zaman, 1578-ci ilin dekabrında Naxçıvanı tərk edərək 400 nəfər yaxın məiyyəti ilə Bidlisə getmişdi.[284]

1578-1590-cı illər müharibəsi zamanı da Naxçıvan hərbi əməliyyatların əsas mərkəzlərindən biri olmuşdur. Müharibənin elə ilk ilində Naxçıvan Osmanlı qoşununun hücumuna məruz qalmış və onların əlinə keçmiş, lakin tezliklə Naxçıvan tərk edilmişdir. Növbəti 1579-cu ildə osmanlılar Naxçıvan şəhəri və ətraf yerlərdən 40 mindən çox əsir aparmışdılar. 1588-ci ildə yeni Osmanlı hücumu zamanı Naxçıvan ələ keçirilmişdi. Səfəvilərin məğlub olduğu bu müharibə nəticəsində bağlanılan 1590-cı il İstanbul sülhünə görə Naxçıvanın da Osmanlı dövlətinə keçməsi təsbit edilmişdi.[285]


Naxçıvan osmanlılar tərəfindən ələ keçirildiyi 1588-ci ildən etibarən 15 il müddətinə Osmanlı dövlətinin tərkibində qalmışdır. Osmanlı dövləti Naxçıvanın hərbi-strateji əhəmiyyətini nəzərə alaraq, onun dirçəldilməsi və möhkəmləndirilməsi sahəsində tədbirlər həyata keçirmişdir. Bu dövrdə Naxçıvanın idarəsi Xızır Paşaya həvalə edilmişdir.[286]

Naxçıvan rəsmən Osmanlı dövlətinin tərkibinə daxil edildikdən sonra, o sancağa çevrilmiş və İrəvan əyalətinə daxil edilmişdir. Osmanlı ənənəsinə uyğun olaraq, bütövlükdə İrəvan əyalətində, o cümlədən Naxçıvan sancağında fiskal məqsədlə 1590-cı ilin noyabrında müfəssəl dəftər tərtib edilmişdir. Bu siyasətin və onun nəticəsində meydana gəlmiş dəftərlərin (müfəssəl və icmal) dövlətçilik baxımından əhəmiyyətini nəzərə alaraq onun üzərində xüsusi dayanmağa ehtiyac vardır. Bu məsələyə İrəvan əyalətinin icmal dəftərinin tədqiqatçıları da xüsusi diqqət yetirərək yazmışdır ki, ələ keçirdikləri bölgələri mərkəzləşmiş qaydada idarə etmək məqsədi ilə osmanlılar buraları

---

[284] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki,s.127; Türklər. XIX cild. Ankara, 2002, s.309.
[285] Yenə orada, s.127
[286] Yenə orada, s.128

ölkənin ictimai-siyasi və sosial-iqtisadi sisteminə inteqrasiyası ilə ciddi məşğul olmağa başlayırlar. Siyasi sabitliyi və asayişi təmin etmək, hücumlardan qorunmaq üçün osmanlılar ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən edirdilər. Bu tədbirdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılır, rəhbərləri (bəylərbəyi, sancaqbəyi, qazi, naib, kətxuda, dəftərdar) təyin edilirdi... Beləliklə də, əyalətin idarə olunması üçün lazım olan qanunnamə və vergilərin nizamlı şəkildə toplanmasını mü əyyən edən müfəssəl dəftər tərtib edilirdi.



Növbəti sonuncu mərhələdə isə, əkilən torpaq sahələri və formaları ilə bərabər torpaq sahibləri müəyyən edilərək, toplanan məlumatlara əsasən müfəssəl dəftərdə istifadə olunmaqla icmal dəftər ha-

zırlanırdı.[287] İrəvan əyalətinin icmal dəftərinə görə Naxçıvan bölgəsi Naxçıvan, Məvazi-Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Qışlağat nahiyələri; Şərur bölgəsi isə Şərur, Zar, Zəbil, Əlincə, Sisyan nahiyələri; Ordubad bölgəsi isə Ordubad, Culfa, Azadciran, Şorlut, Dərənürgüt nahiyələrindən ibarət idi. Müfəssəl dəftərin məlumatına görə Naxçıvan sancağının 393 yaşayış məntəqəsindən 269-nun əhalisi oranı tərk etmiş, Bazarçayı, Şərəbxana, Zar və Zəbil isə tamamilə boşalmışdır.[288] Bu 1579-cu il hücumu ilə əlaqədar olmuşdur.[289] Beləliklə, Naxçıvanın Osmanlı idarəçiliyində olduğu dövrdə (1588-1603) Osmanlı dövlətinin həyata keçirdiyi tədbirlər nəticəsində burada idarə sistemi və sosial-iqtisadi həyat stabilləşməyə başlamışdır.

1590-cı il müqaviləsi ilə Azərbaycanın böyük bir hissəsini, o cümlədən hərbi-strateji baxımdan xüsusi rolu olan Naxçıvanı itirən Şah Abbas belə bir vəziyyətlə barışmaq istəməmiş, Osmanlı dövləti ilə yeni müharibəyə hazırlaşmaq məqsədi ilə bir sıra islahatlar (hərbi, vergi və s.) aparmışdır. 1602-ci ildə Osmanlı dövləti ilə müharibə başlamışdır. 1612-ci ilədək davam edən bu müharibədə də Naxçıvan uğrunda mübarizə əsas məsələlərdən biri olmuşdur. Şah Abbas 1603-cü ilin oktyabrında Təbrizi azad etdikdən sonra, Culfanı və Əlincə qalasını aldı və həmin ilin sonunda Naxçıvana doğru irəlilədi. Bu zaman Osmanlı qoşunu Naxçıvanda 150 nəfərlik kiçik bir qarnizon saxlayaraq, oranı tərk etmişdi. Osmanlı qüvvələrinin Naxçıvanı tərk etməsi hərbi-strateji səbəblərlə eyni zamanda, yerli əhalinin Səfəvilər dövlətini müdaifə etməsi və Osmanlı hakimiyyətindən xilas olmaq arzusu ilə də izah edilir. Bunu Naxçıvanın azad edilməsindən sonra Şah Abbasla birlikdə Naxçıvan şəhərinə gələn Alman imperatoru II Rudolfun səfiri Tektander də qeyd etmişdir. Naxçıvanda Səfəvi hakimiyyəti bərpa edildikdən sonra şəhərin və bütün vilayətin idarəsi Maqsud Sultan Kəngərliyə həvalə edilmişdir.[290]

---

[287] İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 1996, s.5-6

[288] Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi H.Məmmədov. Tərcümə edənlər Z.Bünyadov və H.Məmmədov. Bakı, 2001, s.13

[289] İrəvan əyalətinin icmal dəftəri, s.12-13

[290] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, s.130-131

Osmanlı sultanı I Əhməd (1603-1617) müharibənin gedişində dönüş yaratmaq məqsədi ilə 1605-ci ildə Cığal oğlunun başçılığı altında yeni qüvvə göndərdi. Şah Abbas bu qüvvələrə qarşı əvvəllər də tətbiq edilən "boşaldılmış (bəzən yandırılmış və ya viran edilmiş kimi ifadələr də tətbiq edilir) torpaq" taktikasını tətbiq etməyə başladı. Osmanlı qoşunlarının əlinə keçməməsi üçün yaşayış məskənləri dağıdıldı, əhalisi köçürülməyə başladı. Bu siyasət Naxçıvanda da tətbiq edilməyə başladı.[291] Bu siyasətin mahiyyəti bəzən ciddi şəkildə təhrif edilir. Onun etnik və ya dini səciyyə daşıması, qırğın şəkli alması, "böyük sürgün" adlandırılması və s. bu kimi yanaşmalar həqiqətə uyğun görünmür. Bu tamamilə hərbi-strateji məqsəddən irəli gəlirdi. (Yeri gəlmişkən qeyd edək ki, hərb tarixində bu taktikadan istifadə edilmişdir. Napoleonun Rusiyaya 1812-ci il yürüşü zamanı bu taktika tətbiq edilmiş, o Rusiyaya güclü Napoleon üzərində qələbə çalmağa imkan vermişdir və s.). Bununla eyni zamanda, boşaldılmış Naxçıvanı da Osmanlı hücumundan müdafiə etmək lazım gəlirdi. Cığal oğlu Sinan Paşanın Ömər Ağanın başçılığı ilə Naxçıvan üzərinə göndərdiyi hərbi dəstələr Şah Abbasın sərkərdəsi Əmirgunə xan tərəfindən dəf edilmişdi. Müharibə isə 1612-ci il noyabrın 20-də İstanbulda bağlanmış sülh müqaviləsi ilə başa çatmış, 1555-ci il Amasiya müqaviləsi bərpa edilmişdi.[292] Naxçıvan da yenidən rəsmən Səfəvi dövlətinin tərkibində qalmışdır.

XVI əsrin sonları-XVII əsrin əvvəllərində Azərbaycanda da genişlənən cəlalilər hərəkatının Osmanlı dövlətinə qarşı mübarizə aparması, şah hökuməti üçün də onu cəlbedici edirdi. Ona görə də bu hərəkat Şah Abbas tərəfindən dəstəklənmişdir. Bu hərəkatın Naxçıvan ərazisində də yayılması Osmanlılara qarşı mübarizədə müəyyən rol oynadığını söyləməyə əsas verə bilər.[293]

1612-ci il sülhündən az sonra, 1616-cı ildə Osmanlı-Səfəvi müharibəsi yenidən başlandı və 1618-ci il 29 sentyabr Mərənd sülhü ilə

---

[291] R.Məmmədov bu barədə mənbələrdə və tarixşünaslıqda olan məlumat və dəyərləndirməni xüsusi olaraq nəzərdən keçirmişdir. Bax: Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, s.132-136; Əliyev İ.N. Naxçıvan bölgəsi Səfəvilər dövründə, Bakı, 2014, s.49

[292] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, 1981; Qurbanov C. Səfəvi hökmdarı I Şah Abbas (1587-1629). Bakı, 2011, s. 138-139

[293] Петрушевский П.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI –начале XIX вв., с.327

başa çatdı. Lakin bu sülh də stabilliyi bərpa edə bilmədi. 1623-cü ildə hərbi əməliyyatlar yenidən başlandı. 1639-cu ilədək davam edən bu müharibə zamanı Naxçıvan yenidən dağıntılara məruz qaldı. Sultan IV Murad (1623-1640) tərəfindən göndərilən ordu 1635-ci il hərbi əməliyyatları zamanı Təbriz və İrəvan şəhərləri ilə birgə, Naxçıvanı da tutmağa nail oldu. Naxçıvan osmanlıların əlinə keçdi. Müharibə 1639-cu il mayın 17-də bağlanan Qəsri-Şirin müqaviləsi ilə başa çatdı. Müqaviləyə görə İraqi Ərəb osmanlılarda, Zəncir qalasından şərqdəki torpaqlar isə səfəvilərdə qalırdı. Cənubi Qafqazda isə sərhədlər dəyişmirdi.[294] 1639-cu il müqaviləsi Naxçıvanın Səfəvi dövləti tərkində qalmasını təsdiq edirdi.

Beləliklə, Səfəvilər və Osmanlılar arasında 1514-cü ildən bəri fasilələrlə davam edən müharibəyə 1639-cu il müqaviləsi ilə son qoyuldu. Naxçıvan Azərbaycan Səfəvilər dövlətinin tərkib hissəsi kimi müharibələrin gedişində əsas hərbi-strateji ərazilərdən biri olmuş, osmanlılar tərəfindən ələ keçirilməsinə və bir müddət (1588-1603) Osmanlı dövlətinin tərkibinə daxil edilməsinə baxmayaraq, burada Azərbaycan dövlətçiliyinin bərpasına çalışmış və buna nail olaraq, sonda Səfəvilər dövlətinin tərkib hissəsi kimi qalmışdır.

1639-cu il müqaviləsindən Səfəvilər dövlətinin 1722-ci ildə əfqanların hücumu ilə yeni təhlükə qarşısında qaldığı dövrə qədər ölkədə sülh mövcud olmuşdur. Lakin buna baxmayaraq, dövlətin digər müharibə gedən bölgələrində olduğu kimi, Naxçıvanda da müharibənin ağır nəticələrinin aradan qaldırılması mümkün olmadı, əksinə sosial-iqtisadi vəziyyətdəki problemlər və yeni daxili çəkişmələr vəziyyəti daha da mürəkkəbləşdirdi. 1667-ci ildə Naxçıvan, Culfa və İrəvanda iki il müddətində maaş ala bilməyən qacar və bayat tayfasından olan əsgərlərin üsyanı baş verdi. XVII əsrin 70-ci illərində isə aclıq baş verdi. Sultan Hüseynin vergiləri artırmaq məqsədi ilə 1699-1702-ci illərdə əhalinin siyahıya alınmasını həyata keçirməsi və onun ağır nəticələri əhalinin vəziyyətini daha da çətinləşdirdi.[295]

1722-ci ildə əfqanların hücumu və şahın hakimiyyətdən salınması, eyni zamanda rus çarı I Pyotrun Xəzərsahili torpaqlara yürüşü

---

[294] Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Bakı, 2009, s.47

[295] Naxçıvan tarixi. Üç cilddə, birinci cild, s.292-293

və Şirvanda anti-Səfəvi üsyanları siyasi vəziyyəti kəskinləşdirdi. 1723-1727-ci illərdə Səfəvi dövləti ilə Osmanlılar arasında başlayan yeni müharibə də ağır təsirini göstərdi.[296] Osmanlılar müharibənin gedişində Azərbaycan torpaqlarının xeyli hissəsini ələ keçirməyə nail oldular. 1724-cü il 12 iyunda Osmanlı dövləti ilə Rusiya arasındakı İstanbul müqaviləsi Azərbaycan torpaqlarının bölüşdürülməsini təsdiq etdi.[297] Naxçıvan Osmanlı dövlətinin nüfuz dairəsinə daxil edildi. Osmanlılar tərəfindən 1724-cü il sentyabrın əvvəllərində Naxçıvan şəhəri, 10-da isə Ordubad şəhəri tutuldu.[298]

Naxçıvanın Osmanlı imperiyası tərkibinə daxil olduğu ərəfədə onun ərazisi və inzibati bölgüsü haqqında farsdilli "Təzkirət əl-mülük" əsəri məlumat verir. Naxçıvan ölkəsi bu dövrdə Çuxur-Səəd bəylərbəyliyinə daxil idi. Bununla yanaşı, osmanlıların əvvəllər tərtib etdikləri dəftərindən fərqli olaraq inzibati baxımdan Naxçıvan sancaq kimi deyil, Səfəvilər dövlətinin inzibati quruluşuna uyğun olaraq tümən kimi qeydə alınıb; həmin əsərdə (əlyazmasında) osmanlılar dövründə Zar və Zəbil kimi qələmə alınan nahiyələr birləşdirilib Zar-zəbil adlandırılmışdır...və nəhayət, bu dövrdə Sədərək adlı yeni inzibati vahidi yaradıldığı haqqında da məlumat əldə edilir. "Təzkirət əl-mülük"ə görə osmanlılar dövründən fərqli olaraq Naxçıvan diyarı Çuxur-Səəd bəylərbəyliyinə tabe olan sancaqbəyi və yaxud da naiblər tərəfindən deyil, ayrı-ayrı hakimlər tərəfindən idarə olunurdu."[299]

Naxçıvan Osmanlı imperiyası tərkibinə daxil edildikdən sonra burada müvafiq inzibati-ərazi bölgüsü həyata keçirildi. Naxçıvan sancağı yaradıldı və 1590-cı ildə olduğu kimi, 1727-ci ildə yeni müfəssəl dəftər tərtib edildi. Bu müfəssəl dəftər Naxçıvanın inzibati-ərazi bölgüsü, əhalisi və iqtisadi imkanları haqqında məlumat verməklə, onun Osmanlıyaqədərki Səfəvi dövləti tərkibində və Osmanlı dövründə vəziyyəti haqqında təsəvvür yaratmağa imkan verir.[300]

---

[296] Левиатов В.Н. Очерки по истории Азербайджана в XVIII веке. Баку, 1948, с.85-90

[297] Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları, s.121-136

[298] Mustafazadə T.T. Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində//Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri, s.99

[299] Budaqova S. Naxçıvan diyarının tarixi-coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı, 1995, s.18-19

[300] Naxçıvan sancağının müfəssəl dəftəri, s.10-15, 17-19

Səfəvilərin hakimiyyətinin son dövründə dövlətin siyasi həyatında ciddi dəyişikliklər baş verirdi. 1722-ci ildə hakimiyyətə gələn II Təhmasib siyasi arenaya cəsarətlə qədəm qoyan Nadir tərəfindən taxt-tacdan uzaqlaşdırıldı, yerinə körpə uşaq olan III Abbası gətirməklə faktiki hakimiyyəti ələ aldı və Səfəvi dövlətinin torpaqlarını Osmanlılardan geri almaq uğrunda mübarizəyə başladı. Bu mübarizənin gedişində, 1735-ci ildə Naxçıvan geri alındı.[301] Nadir mövcud vəziyyətdə siyasi statusu ilə razılaşmayaraq, Səfəviləri devirməyi və hakimiyyəti öz əlinə keçirməyi qərara aldı. O, 1736-cı ildə Muğan qurultayında özünü şah elan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyinin Səfəvi dövrü başa çatdı.

Naxçıvan nəinki, siyasi hadisələr, o cümlədən sosial-iqtisadi və mədəni həyatda rolu ilə də Səfəvilər dövlətində mühüm rol oynamışdır. Naxçıvan bölgəsinin mərkəzi kimi Naxçıvan şəhəri Səfəvi-Osmanlı müharibələri dövründə amansız dağıntılara baxmayaraq, digər tarixi Azərbaycan şəhərləri kimi (Şəmkir, Mahmudabad və s.) məhv olub sıradan çaxmadı, çətinliklə olsa da, şəhər həyatı bərpa edildi və davam etdirildi.[302] Bunun nəticəsi idi ki, Naxçıvan imperiyanın pul dövriyyəsi və zərbxana sistemində və ticarətində rolunu saxlaya bilmişdir. Təsadüfi deyil ki, orta əsr şəhərləri ərazisində aparılan arxeoloji tədqiqat işləri və təsadüfi tapıntılar nəticəsində XVI-XVII əsrlərə aid bir çox Naxçıvan sikkəsi əldə edilmişdir.[303] I Təhmasibin Naxçıvanda zərb edilmiş sonuncu sikkəsi 1568-ci ilə aiddir. Osmanlı hakimiyyəti zamanı III Sultan Murad və III Sultan Məhəmməd dövründə də Naxçıvanda sikkələr kəsilmişdir. I Şah Abbas Naxçıvanı 1603-cü ildə azad edərkən burada sikkə zərbini yenidən bərpa etmişdir.[304]

Beləliklə, tarixi faktlar sübut edir ki, Naxçıvan bölgəsi Azərbaycan Səfəvilər dövlətinin meydana gəlməsi və tarixində əhəmiyyətli rol oynamış, hərbi-strateji, siyasi, sosial-iqtisadi və mədəni həyatında dərin iz buraxmışdır.

---

[301] Mustafazadə T.T. Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində, s.100

[302] Naxçıvan şəhərinin bu dövr tarixi haqqında bax: Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, s.99-139

[303] Seyidov A.Q., Quliyev A.A., Rzayev R.Ş. Azərbaycan tarixi (numizmatik materiallar). Bakı, 2017, s.104, 106-108

[304] Yenə orada, s. 106-108

DÖRDÜNCÜ FƏSİL

NAXÇIVAN XANLIĞI (1747-1828-Cİ İLLƏR). XANLIĞIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALI VƏ MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNƏ QARŞI MÜBARİZƏ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

4.1.Naxçıvan xanlığı. Rusiya imperiyası tərəfindən Naxçıvanın işğalı və xanlığın süqutu (1747-1828-ci illər)

XVII əsrin 20-ci illərində Azərbaycan Səfəvi dövlətinin süquta uğradığı, ölkə torpaqlarının bir qisminin çar Rusiyası, digər qisminin isə Osmanlı dövləti və əfqan tayfaları tərəfindən istila edildiyi ağır, ümidsiz dövrdə siyasi səhnəyə çıxan və yaranmış faciəli mənzərəni qısa müddət ərzində aradan qaldıraraq, dövrünün ən qüdrətli imperiyasını qurmağa müvafiq olan Nadir şah Əfşar tariximizin bu qəbildən parlaq simaları sırasındadır.[305]

Nadir şahın (1736-1747) yaratdığı Əfşarlar dövləti dövrünün güclü dövlətlərdən biri idi. Bu dövlətin yaranmasında Azərbaycan mühüm rol oynamışdır. Ona görə də Nadir şah yaratdığı dövlətdə Səfəvilərdən qalma inzibati-ərazi bölgüsünü ləğv edib, yeni sistem formalaşdırarkən Azərbaycanı Təbriz mərkəz olmaqla inzibati vahid kimi ayırmışdı. "Naxçıvan xanlığı" kitabının müəllifləri bu barədə yazmışdır: "1736-cı ildə Nadirqulu xanın tacqoyma mərasimi keçirildi. O, İran şahı elan edildikdən sonra dövlətin idarə olunmasında və inzibati quruluşunda ciddi dəyişiklik apardı. Nadir şah Səfəvi inzibati-ərazi bölgülərini-bəylərbəylikləri ləğv etdi. Azərbaycan ərazisində Şirvan, Qarabağ (Gəncə), Təbriz və Çuxur-Səəd bəylərbəyliklərini ləğv edib, vahid Azərbaycan vilayəti adı altında bir mərkəzdə-Təbriz ətrafında birləşdirdi. Şah vilayətin idarəsini qardaşı İbrahim xana həvalə etdi. Bundan əlavə hər yerdə yerli hakimlər Nadir şahın yaxın adamları ilə əvəz olundu."[306] Azərbaycanın tarixi-coğrafi bölgələrinin, o cümlədən Naxçıvanın idarə edilməsində də dəyişikliklər edilmişdir. Naxçıvanın idarəsindəki dəyişiklik kəngərli tayfasına olan inamsızlıqla bağlı olmuşdur. Görünür kəngərlilər hakimiyyət uğrunda mübarizədə Səfəvi-

---

[305] Nadir şah Əfşar: diplomatik yazışmalar. Bakı, 2015, s.6

[306] Əliyev F., Əliyev M.Naxçıvan xanlığı. Bakı, 2007, s.27

lərin tərəfini saxlamış, buna görə də Nadir onlara şübhə ilə yanaşmışdır. Nadirin əmri ilə kəngərlilərin mövqeyini zəiflətmək məqsədi ilə onların bir hissəsi Əfqanıstana köçürülmüşdür. Kəngərlilər əvvəldə qeyd etdiyimiz kimi, vaxtilə Xorasana da köçürülmüşdü. Lakin o zaman əsas məqsəd kəngərlilərə olan inam və onların dövlətin mühafizəsində iştirakının təmin edilməsi olmuşdur. Bununla kifayətlənməyən Nadir şah Naxçıvanın idarəsi üçün iki hakim-hakim-e ölke-yi Naxçıvan (Naxçıvan ölkəsinin hakimi) və hakim-e tümən-e Naxçıvan (Naxçıvan tüməninin hakimi) təyin etmişdir. Bununla eyni zamanda, Naxçıvan ölkəsinin idarəsində vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər. Bu dəyişikliklərə baxmayaraq, Naxçıvanda stabil hakimiyyət yaratmaq mümkün olmurdu. İlk vaxtlar Naxçıvan hakimi Muğan qurultayında Naxçıvanı təmsil edən Mirzə Rza idi. Mirzə Rza vəzifədən uzaqlaşdırıldıqdan sonra bu vəzifəyə Ağa Həsən təyin edilmişdi. Bu da vəziyyəti dəyişə bilməmişdir. Hakimin zülmündən xalq üsyana qalxmışdır.[307] Bu dövrdə Nadirin hakimiyyətinə qarşı çıxan sui-qəsdçilər 1747-ci ilin iyun ayında onu öldürmüşdülər.

Nadir şahın öldürülməsindən sonra onun imperiyası parçalandı, bu zaman Azərbaycan ərazisində iyirmiyədək xanlıq (Şəki, Quba, Qarabağ, Urmiya, Təbriz, Sərab və s.) yarandı. Belə xanlıqlardan biri də müstəqil Naxçıvan xanlığı olmuşdur. Tədqiqatçıların yazdığı kimi "1747-ci ildə Nadir şahın dövləti süquta uğradıqdan sonra kəngərli tayfa başçısı Heydərqulu xan yerli feodallara arxalanıb, Ağa Həsəni hakimiyyətdən uzaqlaşdıraraq özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi."[308]

Lakin Naxçıvan xanlığının meydana gəlməsini yalnız bu hakimiyyət dəyişikliyi ilə izah etmək doğru olmazdı. Xanlığın timsalında müstəqil Naxçıvan xanlığının yaranması onun uzun tarixi bir dövr ərzində Azərbaycan dövlətçiliyində oynadığı rol, Səfəvilər dövləti tərkibində Naxçıvan ölkəsi kimi vahid inzibati ərazi olaraq inkişafı, Naxçıvan şəhərinin siyasi və iqtisadi mərkəz funksiyasını üzərinə götürməsi və kəngərli tayfası hakimlərinin siyasi liderlik ənənəsilə izah etmək olar. Naxçıvan Muxtar Respublikası Ali

---

[307] Əliyev F., Əliyev M.Naxçıvan xanlığı, s.29
[308] Yenə orada, s.30

Məclisinin Sədri Vasif Talıbov qeyd etmişdir ki, "Azərbaycanın Naxçıvan diyarı qədim tarixə malikdir. Burada əsrlər boyu böyük mədəniyyət formalaşmışdır. Biz bu gün Naxçıvanın qədim mədəniyyətindən danışarkən təkcə sənətkarlıq, əkinçilik, memarlıq mədəniyyətini yox, bununla yanaşı, zəngin dövlətçilik mədəniyyətini də nəzərdə tuturuq. Bu ərazidə müxtəlif dövrlərdə mükəmməl dövlət idarəçiliyi formaları meydana çıxmışdır. Buna misal olaraq Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ təşkil edən Naxçıvan xanlığını göstərmək olar. Naxçıvan xanlığı böyük bir əraziyə malik idi. Olduqca gərgin bir dövrdə yaranan bu dövlət qurumu Azərbaycanda inzibati idarəçiliyin formalaşmasına öz töhfəsini vermiş, xalqımıza məxsus tarixi ərazini, dil və milli mədəniyyəti qorumağı bacarmışdır."[309]

Naxçıvan xanlığı yarandıqda onun ərazisi Zəngəzur dağlarından başlayaraq[310] Araz çayı vadisinə qədər olan torpaqları əhatə edirdi. Xanlıq şimal-şərqdən Dərələyəz dağları, cənub-şərqdən Haçadağ, şimal-qərbdən isə Böyük və Kiçik Ağrı dağları ilə əhatə olunmuşdu. Naxçıvan xanlığı İrəvan, Qarabağ, Xok və Maku xanlıqları ilə həmsərhəd idi.[311] M.Quliyevin hesablamalarına görə Naxçıvan xanlığının tarixinin birinci dövründə, yəni müstəqil olduğu 1747-1797-ci illərdə ərazisi 9428,71 kv.km., İrandan qismən asılı olduğu 1797-1828-ci illərdə isə ərazisi 4642, 83 kv.km. olmuşdur.[312]

Naxçıvan xanlığı mövcud olduğu ərazi daxilində müəyyən inzibati-ərazi vahidlərinə bölünmüşdü. Yuxarıda qeyd etdiyimiz kimi Naxçıvanın inzibati ərazi bölgüsünə də son məlumatlar farsdilli "Təzkirət əl-mülük"də (1727) və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (1727) əks olunmuşdur. Naxçıvanın tarixi-coğrafiyasına dair tədqiqatda göstərilir ki, inzibati-ərazi bölgüsündə əvvəlki dövrlə müqayisədə heç bir dəyişiklik baş verməyən Naxçıvan xanlığı 1797-1813-cü illərdə faktiki olaraq İrandan asılı vəziyyətə düşür. İran hakimiyyəti dövründə Naxçıvan xanlığı inzibati baxımdan iki tümənə

---

[309] Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 2015. Naxçıvan, 2016, s.103

[310] M.Quliyevə görə Naxçıvan xanlığının ərazisinin bu cür ənənəvi şəkildə göstərilməsi həqiqətə uyğun deyil. Onun fikrincə, Naxçıvan xanlığının ərazisi Zəngəzur sıra dağlarından xeyli şimalda olan Kəngərli çayından başlanır. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan, 2013, s.31

[311] Mustafazadə T. Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində, s.101

[312] Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.26

bölünmüşdür ki, bunlardan biri Naxçıvan, digəri isə Ordubad tümənləri idi. 1797-ci ildən etibarən Naxçıvan xanlığına daxil olan Mehri və Qafan mahalları İbrahim Xəlil xan tərəfindən işğal olunub, Qarabağ xanlığına birləşdirilmişdir. Naxçıvan və Ordubad tümənləri bir neçə mahala bölünürdü. 1813-1828-ci illərdə Naxçıvan tüməni dörd mahaldan (Naxçıvan, Əlincə, Xok və Dərələyəz), Ordubad tüməni isə beş mahaldan (Ordubad, Əylis, Dəstə, Çənnab və Biləv) ibarət idi.[313]

Naxçıvan xanlığının idarə sistemi, əsasən, Azərbaycan xanlıqlarının idarə sistemi ilə eyni idi.[314] Bu idarə sistemi isə ümumən Səfəvilər dövlətinin idarə sisteminə əsaslanırdı. Bununla eyni zamanda, hər bir xanlığın təşəkkül tapması və fəaliyyətinin bəzi xüsusiyyətlərinə uyğun olaraq, idarəetmədə də spesifik cəhətlər özünü göstərirdi. Naxçıvan xanlığının müstəqilliyi dövründə-1747-1797-ci illərdə xanlar sərbəst olduğu halda, 1797-1828-ci illərdə Qacarların iradəsindən asılı idilər. Naxçıvan xanlığının mövcud olduğu dövrdə burada Heydərqulu xan (1747-1763/64), Şükrulla xan (1768, 1770-1771, 1777, 1779), Kalbalı xan (1787-1820), Ehsan xan (1827-1828) və s. nüfuzlu xanlar hakimiyyətdə olmuşdur.


Xanlıq dövrünə aid idarə sistemi barədə XVII-XIX əsrlərə aid 25 Naxçıvan əlyazmalar sənədləri məlumat verir. Sənədlər K.N.Smirnov tərəfindən tədqiqata cəlb edilmişdir.[315] Prof. Şahin Fərzəlibəyli həmin sənədləri yenidən tədqiqata cəlb etmiş və bir sıra yeni fikirlər irəli sürmüşdür. O qeyd edir ki, bu 25 sənəd Kəngərli bəy sülaləsinin "ata-baba əlyazmalarını" toplu halda hifz edən "bir çuvalda" aşkar olunmuşdur. Həmin çuvalda 300-dən çox sənəd olmuşdur ki, hal-hazırda onların taleyi naməlumdur. Lakin məlum olan budur ki, Kəngərli bəylərinin o zaman Rusiya və sovet siyasəti üçün

---

[313] Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi).Bakı, 1995, s.25-26

[314] Xanlıq dövründə idarə sistemi haqqında bax: Мамедова Э. Административное устройство и управление азербайджанских ханств во второй половине XIX века. Автореферат диссертации...канд. ист. наук. Баку, 1999; Ağamalı F.R. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, 1999, s.17-38 (İdarəçilik sistemi).

[315] Передняя Азия в документах (Серия памяти Ю.Н.Марра). Кн.1.Нахичеванские рукописные документы XVII-XIX вв. Тбилиси, 1936



Naxçıvan şəhəri. Xan sarayı, XVIII əsr



Karvan ticarət yolu

1747-ci ildə Nadir şahın ölümündən sonra onun imperiyası dağılmış və Azərbaycanda 20-dək xırda irsi feodal monarxiyalar-xanlıqlar, həmçinin qonşu hakimlərdən asılı olan bir neçə sultanlıq meydana gəlmişdir.

Hüseyn xan Naxçıvanski



Naxçıvan xanlığında xalçaçılıq, toxuculuq, metal üzərində naxışsalma və dulusçuluq ilə məşğul olan böyük emalatxanalar var idi. Saxsı istehsalı sənəti xüsusi yer tuturdu.

Naxçıvan məmulatlarının nümunələri qərbi avropalıları heyrətə gətirirdi. Naxçıvanın özünün zərbxanası var idi.

Naxçıvan xanlığının sahəsi 9428,7 kv.km olmuşdur.

1828-ci ildə Naxçıvan xanlığı Rusiya tərəfindən ilhaq edildi.

"sərfəli olan" 25 sənədi məlum tədqiqata məruz qalmış, qalanları ola bilsin ki, gizlədilmiş, yaxud aradan çıxarılmışdır.[316]

Topluya daxil edilən sənədlərdən aydın olur ki, Kəngərli tayfasının irsi başçısı olan xan eyni zamanda Naxçıvan hakimi olmuşdur. Hakimin xüsusi müavini-"vəkil" adı ilə fəaliyyət göstərən yüksək rütbəli məmur isə Kəngərli xanının adından qəbilə köçərilərinin daxili işlərinin tənzimlənməsi üçün vəzifədar edilmişdir.[317] 1803-cü ilə aid olan şah fərmanından aydın olur ki, İran-Rusiya döyüşləri vaxtı Fətəli şah tərəfindən orduya 50 min adam səfərbər edilmiş və onların arasında kəngərlilər də olmuşdur. Orada Kəngərli tayfasına ehtiram göstərilməsi və tayfa başçısı-Naxçıvan əyalətinin hakimi Kalbalı xan Kəngərliyə

---

[316] Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər//Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, 1999, s.80

[317] Yenə orada, s.81

hörmət edilməsi xüsusunda ciddi əmr olunmuşdu. Amma, bu sənəddə Kəngərli tayfasına bir qədər tənqidi yanaşılmış və yazılmışdır ki, "bu tayfa İrandan daha çox öz ölkəsinə bağlıdır."[318] Bu tamamilə doğru bir müşahidədir və Qacarların kəngərlilərə şübhə ilə yanaşdığını ortaya çıxarmaqla, eyni zamanda hakimiyyət münasibətlərinin rus-İran münasibətləri kontekstində ziddiyyətli olduğunu, daha doğrusu Qacarlardan asılılıq dövründə də Kalbalı xanın müstəqil siyasət yeritmək fikrini təsdiq edir.

Naxçıvan xanlığının dövlət həyatının ən önəmli faktorlarından biri onun hərbi gücü idi. Bu qüvvələr əsas etibarı ilə kəngərlilərdən toplanırdı. 1780-ci illərə aid bir məlumatda Şükrulla xanın on min nəfərlik hərbi qüvvə çıxara biləcək bir əraziyə hakimlik etməsi qeyd edilir.[319] Digər bir mənbədə Kalbalı xanın qoşunlarının sayının on iki min döyüşçü olduğu göstərilir.[320] 1833-cü ildə nəşr edilmiş Naxçıvan əyalətinin statistik təsvirinə görə xanlığın hərbi hissələri 800 piyada və 200 süvaridən ibarət idi.[321] Naxçıvan xanlığına aid sənədlərdə maafların da adlarına rast gəlinir. Vergi və mükəlləfiyyətlərdən azad olunmuş maaflar da təhlükəli günlərdə, çərik döyüşçülər kimi xanın tələb etdiyi yerlərdə hazır olmalı idilər. Amma Naxçıvan xanlığında sərhədlərin ən sədaqətli və etibarlı keşikçiləri Kəngərli süvariləri sayılırdı."[322] Naxçıvan əlyazma sənədlərinin məlumatına görə, Kəngərli tayfası rus işğalınadək aparılan döyüşlərdə süvari qoşun çıxarırdı və həmin qoşun "Naxçıvan süvariləri" adlanırdı. Amma, Naxçıvan əhalisinin Kəngərli tayfasına mənsub olmayan digər hissəsi isə "Naxçıvan piyada batalyonu" (yəni sərbazlardan ibarət dəstə) adı altında döyüşürdü.[323]

Naxçıvan xanlığının bir dövlət kimi əsas atributlarından biri də onun pul dövriyyəsi ilə bağlı idi. Əvvəlki tarixi dövrlərdən məlum olduğu kimi Naxçıvan şəhəri müxtəlif dövlətlər zamanı zərbxanaya malik olmuş,

---

[318] Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər, s.83
[319] Seyidbəyli E.M. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000, s.108
[320] Акты собранные Кавказской Археографической Комиссией. В 12- ти тт. Т.1. Тифлис, 1866, с.625-627
[321] Григорьев В.Н.Статистическое описание Нахичеванской провинции. СПб., 1833, с.60-61
[322] Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.42
[323] Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər, s.82

burada sikkələr zərb edilmişdi. Xanlıq dövründə isə dövlətin özünəməxsus pul vahidləri zərb olunmuşdur.[324]

Azərbaycan xanlıqlarını müstəqil dövlət kimi xarakterizə edən əsas atributlardan biri də onların gerbləri və bayraqları olmuşdur.[325] Dövlət bayrağının Azərbaycan dövlətçiliyi üçün əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidenti tərəfindən 9 noyabr Dövlət Bayrağı günü elan edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə 17 noyabr Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qəbul edilmişdir.

Müstəqil dövlət kimi meydana gələn Naxçıvan xanlığının gerbi və bayrağı da var idi. Naxçıvan xanlığının dövlət və döyüş bayrağı Azərbaycan dövlətləri bayraqlarının ənənəsini davam etdirməklə eyni zamanda dövrün yeni meyllərini də özündə əks etdirmiş, bununla birgə, sonrakı dövr dövlət bayraqlarına da mühüm təsir göstərmişdir. Hazırda Naxçıvan xanlığının iki dövlət və bir döyüş bayrağı aşkar edilmişdir. Bu bayraqlar tədqiqatçı P.Gözəlov tərəfindən aşkar edilmiş və öyrənilmişdir. Dövlətçilik üçün əhəmiyyətini nəzərə alaraq həmin təsvirləri burada vermək yerinə düşər. Sankt-Peterburq şəhərindəki "Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondundan aşkar edilmiş birinci dövlət bayrağı 1827-ci ildə xanlığın işğalı zamanı general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür. "Bayraq düzbucaq formada eni 144 sm, uzunluğu 178 sm-dir. Qızılı ipəkdən hazırlanmış bayraq bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarətdir. Bayrağın iki hissəsi bir ölçüdə, biri isə nisbətən ensizdir. Bayrağın üzərində ərəb qrafikası ilə Qurani-Kərimdən 48-ci əl-Fəth ayəsinin bir hissəsi və dini şüarlarla yanaşı altı səkkizguşəli ulduz və nəbati elementlər əks edilir. Üst zolağın üzərində ərəb qrafikası ilə Qurani-Kərimdən 48-ci əl-Fəth surəsinin bir hissəsi "Allahdan kömək, qələbə yaxındır, Məhəmməddən mömünlərə müjdə" yazısı qızılı saplarla bayrağın üzərinə həkk edilib. Zolağın sol tərəfində digər xanlıq bayraqlarında əks olunmuş zanbaq gülü burada da parçadan tikilib. Sağ tərəfdə biri digərinin

---

[324] Quliyev M.Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.27

[325] Bu məsələyə dair bax: Гезалов П. Знамена азербайджанских ханств как источник по изучению истории государственности. Баку, 2010

içərisində, aralarında dairəvi sədd olan iki səkkizguşəli ulduz qızılı saplarla bayraqda yerləşdirilib. Qeyd etmək lazımdır ki, əks edilmiş ulduz Mömінə Xatın türbəsinin üzərindəki ulduzların üslubunda tərtib edilib. Buradakı ulduzların daxilində həndəsi elementlər açıq-aşkar görünür. Nəinki Azərbaycan xanlıqlarının bayraqlarının üzərində, XVIII-XIX əsr Şərq dövlətləri bayraqlarında da buna oxşar elementə rast gəlinməyib. Orta zolaqda açıq qızılı parçadan iki tiyəli tutacağı əjdaha başı ilə yekunlaşan Həzrəti Əlinin qılıncı (şəmşir) təsvir olunub. Qılıncın üst hissəsində "Əlidən başqa döyüşçü yoxdur" yazısı əks edilib. Yazının qarşısında insan əli formasında (xəmsə), yaxud ələm şəklində açıq qızılı parça tikilib. Qılıncın alt hissəsində isə "Zülfuqardan başqa qılınc yoxdur" yazısı var. Yazının qarşısında və hər iki tərəfində səkkizguşəli ulduz olan, ucları sol tərəfə istiqamətlənən aypara və ulduz, aypara təsvirləri əks olunub. Hər iki yazının axırında isə yuxarıda göstərilən səkkizguşəli ulduz və zanbaq gülü tikilib. Ayparanın sağ tərəfində "Əli" adı iki dəfə güzgü əksi kimi təsvir edilib, yazının üst hissəsinin mərkəzində minarə yerləşdirilib. Əli sözünün solunda "Hüseyn", sağında isə "Həsən" adları yazılıb. Sonuncu zolağın sağ tərəfində iç-içə, arasında dairəvi sədd olan səkkizguşəli sonuncu ulduz tikilmişdir. Bayrağın ucluğu nizəvari formada, üç hissədən ibarətdir: 1) Nizə formalı ucluq; 2) Orta hissədə, içi boş kürəcik yerləşdirilib; 3) Ağaca taxılan konusvari hissə. Ucluq və bayraq dirəyi nizəvari formada dəmirdən düzəldilib, ucluğun üzərində iki qotaz bağlanıb. Bayrağın parça hissəsi bayraq ağacına xüsusi mıxlarla bərkidilib. Bayraq dirəyinin rənglənməsi müşahidə olunmur, üzərində bir neçə xırda çat görünür.[326]

Dövlət Ermitajı Muzeyinin arxiv sənədlərində aşkar edilmiş ikinci bayraq 1812-ci ilin 19-20 oktyabrda Aslandüz döyüşündə generalmayor Kotlyarevski tərəfindən qənimət kimi götürülmüşdür. "Bayraq dördkünc formada olaraq, uzunluğu 145 sm., eni 159 sm-dir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", bayrağın sol tərəfində Qurani-Kərimdən 48-ci əl-Fəth surəsinin bir hissəsi yazılıb: "Həqiqətən, biz sənə açıq-aydın qələbə verdik". Bayrağın aşağı hissəsində Qurani-Kərimdən 2-ci əl-Bəqərə surəsinin bir hissəsi yazılıb. Sağda ərəb qrafikası ilə "Ey rəbbimiz bizə

---

[326] Gözəlov P. Naxçıvan bayraqları. Bakı, 2015, s.33-36

səbr ver, bizi sabit et", sol tərəfdə isə "Kafirə və qövmiyə qarşı mübarizədə bizə kömək et" yazıları vardır. Bayrağın orta hissəsində açıq sarı rəngli romb parça tikilib, üzərində sarı rəngdə şir və günəş rəmzi təsvir edilib. İrəvan xanlığının bayrağından fərqli olaraq burada şirin üzü sağ tərəfə duraraq, başı frontal istiqamətdə göstərilir. Şirin sol pəncəsində qılınc təsvir edilib. Bayraq ucluğu "xəmsə" - insan əli formasındadır. Ucluğun üzərinə ucları qotazlı ağ rəngdə iki lent bərkidilib".[327]

"Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyi"nin bayraq fondunda aşkar edilmiş üçüncü bayraq 1827-ci ildə xanlığın işğalı zamanı general Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür. "Bayraq düzbucaq formada eni 92 sm, uzunluğu 192 sm-dir. Bir-birinə üfüqi şəkildə tikilmiş solğun yaşıl və qırmızı parçalardan ibarətdir. Yaşıl hissədə simvolik günəş formasında qırmızı parçadan səkkiz guşəli ulduz tikilib. Bayraq qumaşının çox saylı zədələrindən aydın olur ki, sözü gedən bayraq döyüşlərdə istifadə edilib. Bayrağı dəqiqliklə müşahidə etdikdə görünür ki, üzərində zədələnmiş hissələr bərpa edilərək tikilib və bir necə yerdən yamanıb. Bayrağın üzərindəki ulduzun bir hissəsi zədəli olduğundan bərpa edildikdən sonra ulduz yeddiguşəli qalıb. Şam ağacından hazırlanmış bayraq ağacına dəmirdən düzəldilmiş nizəvari formada, ortasında içi boş kürəcik olan bayraq ucluğu taxılıb".[328]

Naxçıvan xanlığının bayraqlarından başqa, heç bir xanlığın bayrağının üzərində xanlıqlara mənsubluğunu bildirən rəmz istifadə olunmayıb. Səkkizgüşəli ulduz Azərbaycan ərazisində qədim dövrlərdən istifadə edilmiş və müqəddəs hesab olunmuşdur. Əcəmi Naxçıvaninin Mömінə Xatın məqbərisinə yerləşdirdiyi ulduz kompozisiyası Naxçıvan xanlığının bayrağındakının eynidir. Əcəmi memarlıq elementləri Naxçıvan xanlığının Dövlət bayrağının üzərində, mənsub olduğu Naxçıvan xanlığının əsas əlaməti və möhürüdür. Naxçıvan xanlığının bayrağında rəmzi şəkildə minarənin də təsvir edilməsi bu bayraqda Naxçıvana aid ikinci bir elementin özünə yer aldığını göstərir. "Xəmsə" insan əli rəmzi islamda qəbul edildikdən sonra, "xəmsə" simvolu islamiyyətə qələbə gətirən Həzrəti Əlinin əli kimi simvolizə edilmişdir.

---

[327] Gözəlov P. Naxçıvan bayraqları, s.30-32

[328] Gözəlov P. Naxçıvan xanlığının ikirəngli bayrağı. "Azərbaycan" qəzeti, 2016, 02 fevral

İslam dinində bu rəmz Məhəmməd, Əli, Fatimə, Hüseyn, Həsəni birlikdə simvolizə edən rəmz kimi qəbul olunmuşdur.

Bayraqların üzərindəki rənglər xalqın tarixi ənənələrini əks etdirir. Yaşıl rəngin çox mənaları var, islamçılıqla yanaşı – bolluq, həyat sevgisi, inam, sevinc, ümid, azadlığı ifadə edir. Qırmızı rəng isə, müasirliklə yanaşı digər mənaları olub, məhəbbət, yüksək məqsədlər, qəzəb, igidlik, cəsurluq, düşmənin axan qanını ifadə edib. Naxçıvan ərazisində aypara rəmzli nümunələr olmuşdur. Hesab olunur ki, bütpərəstlik dövründə aypara rəmzi aya sitayiş edilən ölkələrdə olmuşdur. Qafqaz Albaniyasında uzun müddət Aya sitayiş və Ay məbədi olmuşdur. Ola bilsin ki, məhz buna görə də Naxçıvan ərazisindən tapılan tunc buxurdanda Alban hökmdarı Cavanşirin tacının üzərində aypara rəmzi görünür. İslamda aypara ilahiliyin və ali hakimiyyətin əsas simvolu sayılır. Aypara VII əsrin əvvələrində islamın, bütün onun şaxələrinin və təriqətlərinin emblemi olmuşdur, X-XI əsrlərdən isə aypara əksər müsəlman ölkələrinin dövlət simvolu olmuşdur. "Naxçıvan xanlığının bayrağında ay-ulduz, ayrapa simvolunun istifadə edilməsi də, ənənələrin dərin köklərinin subutudur. Bu həm də, bayrağımızdakı ay-ulduzun ənənəvi dövlətçilik rəmzləri kimi istifadəsinə, Azərbaycan bayraqlarında həmin rəmzlərin bildiyimizdən daha qədim dövrə aid olmasına əsas verir".[329]

Naxçıvan xanlığının Dövlət bayrağında ay-ulduz (aypara) təsvirlərinin olması, Naxçıvan xanlığının bayrağının ipək parçadan tikilməsi, üzərində qızılı rəngli saplardan istifadə edilməsi bu bayrağın iqamətgahda, rəsmi yerlərdə istifadə olunduğunu göstərir. Bayrağın üzərindəki ulduzlar da Naxçıvan xanlığının əhatə etdiyi ərazilərdəki nahiyələri, qəzaları, əsas tayfaları idarə etmədə iştirakını əks etdirir.

Naxçıvan xanlığı mövcud olduğu dövr ərzində gərgin siyasi hadisələrlə zəngin olmuşdur.[330] Xanlığın meydana gəldiyi ilk dövrdə Heydərqulu xan ilə qarabağlı Pənah xan arasında dostluq münasibəti var idi. Heydərqulu xan xanlığın siyasi və iqtisadi cəhətdən möhkəmləndirlməsinə xüsusi önəm verirdi. Onun ölümündən sonra xanlıqda

---

[329] Gözəlov P. Naxçıvan bayraqları, s.43-44

[330] Naxçıvan xanlığının siyasi tarix məsələləri barədə bax: Əliyev F., Əliyev M. Naxçıvan xanlığı, s.63-81; Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, II fəsil; Naxçıvan tarixi. Üç cilddə. İkinci cild. Naxçıvan, 2014, s.23-58

hakimiyyət uğrunda mübarizə onun vəziyyətinə mənfi təsir etdi, qonşu hökmdarların xanlığın daxili işlərinə müdaxiləsi genişləndi. Ənənəvi olaraq Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan İran və Osmanlı dövləti ilə birgə, 1783-cü ildə Kartli-Kaxetiya çarlığı ilə Georgiyevsk müqaviləsi bağlayan Rusiya imperiyasının da bu mübarizəyə qoşulması ilə regionda vəziyyət mürəkkəbləşdi. Naxçıvan bu geopolitik vəziyyətdə tarixən olduğu kimi, həmin dövrdə də mühüm rol oynayırdı. Naxçıvanda Abbasqulu xan və Cəfərqulu xan arasında hakimiyyətə yiyələnmək uğrunda gedən mübarizə xanlığın siyasi mövqeyini zəiflədirdi.[331] Görkəmli dövlət xadimi Kalbalı xanın (təxminən 1730-40-cı illər-1823) Naxçıvanda hakimiyyətə gəlməsi ilə xanlığın siyasi tarixində mühüm yer tutur. Onun hakimiyyət dövrünü iki yerə ayırmaq olar: 1787-1797-ci illəri əhatə edən on illik dövr müstəqil siyasət yeridildiyi dövr kimi, 1797-1820-ci illər isə Qacarlardan asılılıq dövrü kimi ayrıla bilər. Lakin bu iki dövr arasında hökmdarın həyatında böyük bir faciə baş vermişdir. Qacarlar dövlətinin banisi Ağa Məhəmməd şah (1795-1797) onun Rusiya ilə siyasi münasibətlərini əsas tutaraq gözlərini çıxartdırmış və həbs edərək Tehrana göndərmişdir.[332] Buna baxmayaraq, Kalbalı xan dövrünün siyasi simalarından biri kimi ən mühüm hadisələrdə iştirak etmişdir.

Ağa Məhəmməd şah Qacardan sonra hakimiyyətə gələn Fətəli şah Kalbalı xanı həbsdən azad etmiş, lakin Naxçıvanda deyil, İrəvanda yaşamağa icazə vermişdir. Kalbalı xan İrəvanda olarkən onun nüfuzu daha da artmış, Naxçıvanda hakimiyyətini möhkəmləndirməyi qərara alan Fətəli şah tərəfindən onun 1803-cü ildə doğma Naxçıvana qayıtmasına razı olmuşdu. Tezliklə, İran və Rusiya arasında kəskinləşən münasibətlər 1804-1813-cü illər müharibəsinə çevrilmişdir. Xoy xanı Cəfərqulu xanın qohumu İrəvan xanı Məhəmməd xanla birlikdə anti-İran mövqeyində durması, Fətəli şahın 1804-cü ildə İrəvanı ələ keçirməsinə, Məhəmməd xanı əsir edərək Tehrana göndərməsinə və İrəvan xanlığının idarəsinin də Kalbalı xana tapşırılmasına səbəb oldu.[333] Bunun nəticəsində Qafqazdakı rus qoşunlarının komandanı P.D.Sisiyanovla Kalbalı xan arasında münasibətlər kəskinləşdi. 1806-cı ildə

---

[331] Çingizoğlu Ə. Abbasqulu xan Kəngərli. Bakı, 2013, s.38

[332] İvanov R. N. Kalbalı xan Naxçıvanski. Dövrü və irsi. Tarixi oçerklər. Bakı, 2012, s.117.

[333] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı, s.84

Sisiyanovun öldürülməsindən sonra Kalbalı xan siyasi manevr etməyə başladı və mövqeyini möhkəmləndirmək məqsədi ilə Rusiyanın Qafqaz dairələri ilə münasibəti bərpa etdi və müstəqil siyasət yeritməyə başladı. Onun bu siyasəti Fətəli şahın narazılığına səbəb olduğundan, Abbas Mirzəni Naxçıvan üzərinə göndərdi. Abbas Mirzə yalnız xəyanət hesabına Naxçıvanı ələ keçirə bildi və Abbasqulu xan hakimiyyətə gətirildi.[334] Ruslar da Naxçıvan uğrunda mübarizəyə başladılar. 1808-ci ilin oktyabrında rus qoşunları Qarabağdan Naxçıvana doğru hərəkətə başladı. Qarababa döyüşündən sonra ruslar Naxçıvana daxil oldular. Lakin Naxçıvanda uzun müddət qala bilmədilər və şəhəri tərk etməyə məcbur oldular. Vəziyyətin belə olduğunu görən Abbas Mirzə Naxçıvanda möhkəmlənməyə xüsusi diqqət yetirdi və sonrakı yürüşlər Naxçıvan vasitəsi ilə həyata keçirilməyə başlandı. Ona görə də Naxçıvanda nüfuzlu xanın hakimiyyətinə ehtiyac yarandı. Bunu nəzərə alan Abbas Mirzə etimadı doğrultmayan Abbasqulu xandan sonra yenidən hakimiyyətə Kalbalı xanın gətirilməsinə nail oldu.

Abbas Mirzə tərəfindən Naxçıvana xüsusi əhəmiyyət verilməsinin göstəricilərindən biri də şəhərin yaxınlığında möhkəmləndirilmiş Abbasabad qalasının tikilməsi oldu.[335] Abbasabad qalası hərbi-strateji mövqeyinə, həmin dövr üçün müasir olan hərbi tələblərə cavab vermə-sinə görə bölgədə İranın mühüm bazası rolunu oynayırdı.

Müharibənin gedişində üstünlüyə nail ola bilməyən İran 1813-cü il oktyabrın 12-də Rusiya ilə Gülüstan müqaviləsini imzaladı.[336] Naxçıvan xanlığı İranın tərkibində qaldı.

Gülüstan müqaviləsindən sonra Qacarlar Naxçıvanda daha da möhkəmlənmək üçün xan hakimiyyətini zəiflətmək və mərkəzdən asılılığını artırmağa çalışırdı. Kalbalı xan isə müstəqil siyasət yeritməyə çalışır, bunun üçün artıq Naxçıvanla qonşu olan Rusiya ilə münasibətləri gücləndirməyə çalışırdı. Bu məqsədlə xan çar I Aleksandr tərəfindən Qafqazdakı rus qoşunlarının yeni komandanı və 1816-cı

---

[334] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı, s.90; Çingizoğlu Ə. Abbasqulu xan Kəngərli. Bakı, 2013, s.44, 65.

[335] Bu qalaya dair tarixi faktlar M.Quliyev tərəfindən təhlil edilmiş və ümumiləşdirilmişdir. Bax: Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.118-122

[336] Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları, s.437-443; Süleymanov M. Gülüstan müqaviləsi. I, II hissə. Bakı, 2014

ildə İrana göndərilən nümayəndə heyətinə rəhbər təyin edilmiş A.Yermolovun Naxçıvandan keçən elçiliyini qəbul etmişdir.[337] Bu görüş Yermolov üçün də xüsusi əhəmiyyətə malik idi, çünki ona verilən təlimatda Rusiyaya birləşdirilmiş bəzi torpaqların Naxçıvan və İrəvan xanlıqları ilə dəyişdirilməsi də nəzərdə tutulurdu. Görüşə dair mənbələrdən aydın olur ki, Kalbalı xan əslində, özünü siyasi cəhətdən müstəqil aparırdı.[338] Yermolov missiyasını başa çatdırıb geri dönərkən, 1817-ci ilin sentyabrında Naxçıvandan keçərkən Kalbalı xanla yenidən qısa bir görüşü olmuşdu.

Yermolovun elçiliyinin əsas nəticələrindən biri ondan ibarət oldu ki, İran zəifdir və ona hər hansı torpaq güzəştə getmək məqsədəuyğun deyil, digər tərəfdən ingilislərin də fəal kömək göstərdiyi İran özü məğlubiyyətin əvəzini çıxmaq üçün yeni müharibə hazırlığındadır. Belə bir mürəkkəb hərbi-siyasi və diplomatik mübarizə şəraitində Kalbalı xanın 1820-ci ildə hakimiyyətdən uzaqlaşması Naxçıvanda hakimiyyət uğrunda mübarizəni yenidən kəskinləşdirdi. Kalbalı xandan sonra hakimiyyətə gələn böyük oğlu Nəzərəli xanı hakimiyyətdə əmisi oğlu Kərim xan, 1822-ci ildə isə onu da Hüseyn Mirzə əvəz etdi. 1823-cü ildə yenidən Kərim xan hakimiyyətə gəldi (1823-1827)[339] və sonrakı hadisələr onunla, Ehsan xanın dövründə (1827-1828) cərəyan etdi.[340] Rusiya hökuməti Ehsan xanı Naxçıvan hakimi təyin etdi.[341]

1826-cı ildə Rusiya İran arasında Naxçıvan xanlığının da hakimiyyətini sona çatdıran müharibə başladı.[342] Müharibənin gedişi zamanı, 1827-ci il iyunun 27-də ermənilərin xəyanəti, rus qoşunlarına köməkliyi və bələdçiliyi nəticəsində Naxçıvan işğal olundu.[343] İyulun 5-də Araz çayı sahilində Cavanbulağı adlı yerdə baş verən döyüşdə

---

[337] Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları, s. 469-471; Əliyev F., Əliyev M. Naxçıvan xanlığı, s.100

[338] Соколов А.Е.Дневные записки о путешествии российского императорского посольства в Персии в 1816-1817 гг. М., 1910; Борозна В. Кратко описание путешествия российского императорского посольства в Персии в 1817 г. СПб., 1821

[339] Əliyev F., Əliyev M.Naxçıvan xanlığı, s.104-105

[340] Quliyev M. Naxçıvan xanlığının sonuncu xanı kim olub? "525-ci qəzet", 2017, 13 aprel

[341] Naxçıvan ensiklopediyası. İki cilddə, ikinci cild, İstanbul, 2005, s.87

[342] 1826-1828 Rusiya-İran və sonralar başlayan 1828-1829-cu illər rus-türk müharibəsinin hərbi məsələləri tarixşünaslıqda geniş tədqiq edilmişdir: Потто В.А. Кавказская война. Т.III. СПБ, 1886; Ибрагимбейли Х. М. Россия и Азербайджан в первой трети XIX века. М., 1969 и др.

[343] Quliyev M.Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.126

ruslar qalib gəldi. Bu döyüş Abbasabad qalasının müdafiəçilərinin döyüş ruhuna mənfi təsir etdi. Ehsan xanın da yaxından iştirakı ilə qala təslim oldu. 1827-ci il oktyabrın 1-də İrəvanın da təslim olması ilə müharibə son dövrünə qədəm qoydu. Rus qoşunları artıq, Azərbaycanın cənub hissəsində hərbi əməliyyatları genişləndirməyə başladı. Vəziyyətin böhranlı həddə çatdığını görən İran ingilislərin də təsiri ilə tezliklə sülh müqaviləsi bağlamaq üçün danışıqları intensivləşdirdi.[344] 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya ilhaq edildi. 1828-ci il martın 6-da Ehsan xan Ordubaddan Abbasabad qalasına gətirildi və Naxçıvan naibi təyin edildi.[345] Beləliklə, faktiki olaraq Naxçıvan xanlığının ləğv edilməsi başa çatdı.

Naxçıvan xanlığında sosial-iqtisadi həyatın inkişafı və onun səmərəli idarəsinin təşkili dövlətin varlığını davam etdirməsi üçün zəruri şərtlərdən idi. Lakin hakimiyyət uğrunda siyasi mübarizələr, qısa bir dövr ərzində xeyli miqdarda vəsait toplamaq siyasəti xalqın vəziyyətini ağırlaşdırır, əhalini var-yoxdan çıxarırdı. Belə bir çətin vəziyyətə baxmayaraq, tarixən ölkənin mühüm iqtisadi mərkəzlərindən biri olan Naxçıvan Azərbaycanın xanlıq dövrü iqtisadi həyatında vacib rolunu davam etdirirdi. Bu dövr mədəniyyətin inkişafına da müəyyən töhfələr vermişdir.[346]

4.2. Naxçıvanın Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı mübarizəsi (XIX-XX əsrin əvvəlləri)

Rusiya imperiyası Naxçıvanı tutduqdan sonra burada ağır işğal rejimi quruldu. Bunun üçün Naxçıvan xanlığının tarixən formalaşmış dövlətçilik ənənələrinin ləğv edilməsi siyasəti həyata keçirildi. Bu məqsədlə ilk növbədə mövcud idarə sistemi dağıdılmağa və yeni imperiya idarə sistemi formalaşdırılmağa başlandı. Bu siyasət Azərbaycanın Rusiya tərəfindən işğal edilən digər xanlıqlarından fərqli şəkildə həyata keçirilirdi. Naxçıvan xanlığının Rusiya tərəfindən, əsasən, dinc yol ilə

---

[344] Bu barədə daha ətraflı bax: Şükürov K. Türkmənçay-1828. Bakı, 2006; Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, 2016

[345] Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, s.129

[346] Daha ətraflı bax: Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.62-78

tutulmasına baxmayaraq, çar hökuməti onunla, bu yol ilə ilhaq edilən Qarabağ, Şəki və Şirvan xanlıqları kimi müqavilə bağlamamış,[347] lakin Ehsan xan və Şeyxəli bəyin xidmətləri nəzərə alınaraq, onlar həmin torpaqlara naib təyin edilmişdi.[348] İrəvan xanlığı 1827-ci ilin oktyabrında işğal edildikdən sonra[349] vilayətə çevrildi və Naxçıvanın idarəsinin onunla birləşdirilməsi təcrübəsi tətbiq edilməyə başlandı ki, bu da fərqli cəhətlərdən biri idi. Belə ki, İrəvan xanlığının işğalından qısa müddət sonra, 1827-ci il oktyabr ayının 6-da Paskeviç Irəvan vilayətinin idarəsi üçün ümumi qaydaları müəyyən etdi. Bu qaydalar 19 bənddən ibarət olub, vilayətin yeni idarə sisteminin (Müvəqqəti idarə yaradılması və s.) əsaslarını göstərirdi.[350] Baş Qərargah rəisi qraf Dibiçin Paskeviçə 1827-ci il 15 dekabr tarixli təliqəsindən aydın olur ki, Sankt-Peterburqda hazırlanmış və qaydalar layihəsi adlanan bu sənəd İrəvan əyaləti adı altında İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarını nəzərdə tuturdu.[351] Vilayət inzibati-ərazi baxımdan İrəvan və Naxçıvan qəzalarına və Ordubad dairəsinə bölünürdü.

Ümumi qaydalara uyğun olaraq yaradılan Müvəqqəti idarəyə general-leytenant Krasovski, erməni katolikosu Nerses Aştaraketsi və İrəvan qalasının komendantı polkovnik Borodin daxil idi. Göründüyü kimi əvvəla, Müvəqqəti idarəyə azərbaycanlı əhalidən heç kim daxil edilməmişdi; ikinci, İrəvan əyalətinin coğrafiyasının daha geniş nəzərdə tutulmasına baxmayaraq, Naxçıvanın nümayəndəsi burada təmsil olunmamışdı. Hətta, belə bir vəziyyətdə də idarə səmərəli fəaliyyət göstərə bilmədi. Paskeviç ilə Krasovski və Nerses arasında yaranan ziddiyyətlər, onların İrəvandan uzaqlaşdırılması ilə başa çatmışdı.[352] Krasovskini bu vəzifədə A.G.Çavçavadze, onu isə əslən erməni olan D.O.Behbudov əvəz etmişdi.

---

[347] Bu müqavilələr haqqında bax: Гарабах: Кюрекчайский договор-200. Баку, 2005; Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. s. 365-376

[348] Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.105

[349] Bax: İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.Mahmudov. Bakı, 2010; Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, 1997

[350] Акты, собранные Кавказской археографической комиссией. Тифлис, 1878, т.VIII, док.432, с.480-481

[351] Там же, док.435, с.482

[352] Гаджиев И. Армянская область-мина замедленного действия//İrs. Наследие. 2011, №6(54), с.38

Ermənilər yaranmış vəziyyətdən istifadə edərək Rusiya imperiyasının protektoratlığı altında erməni muxtariyyətinin yaradılması və erməni dövlətçiliyinin bərpası haqqında əvvəlki dövrlərdə olduğu kimi layihələr hazırladılar və çara təqdim etdilər. I Nikolay 1828-ci ilin fevralında Türkmənçay müqaviləsinin imzalanmasından az bir vaxt keçməmiş, martın 21-də əlahəzrət fərmanı ilə hökumətin bu məsələyə baxışını ortaya qoydu. Fərmanda bildirilirdi ki, İranla bağlanmış müqaviləyə əsasən, Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarının bundan sonra, "Erməni vilayəti" adlandırılması hökm edilir və çarın titulaturasına daxil edilirdi. Vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali senat lazımı fərmanları vaxtında almalı idi.[353]

Bu fərman ermənilərin mənafeyini müəyyən dərəcədə nəzərə alsa da, onu tam şəkildə ifadə etmədi. Bununla belə, bu fərman bütövlükdə Azərbaycanın mənafeyinə uyğun deyildi və formalaşmış tarixi gerçəkliyi nəzərə almırdı.

Fərmana uyğun olaraq, bölgədə vilayət idarəsi yaradılmışdı. Fərmanın həyata keçirilməsi də göstərirdi ki, çarizm onun reallaşdırılmasına siyasi-hüquqi baxımdan hazır deyildi. Belə ki, vilayətin 1828-ci ilin martında yaradılmasına baxmayaraq, onun idarəsi üzrə imperatorun təsdiq etdiyi Nazirlər Kabinetinin ştatın təsdiqi haqqında əsasnaməsi 1829-cu il sentyabrın 10-da həyata keçirilmiş, lakin bu da müvəqqəti adlandırılmışdı.[354] Vilayətin gerbi isə çar tərəfindən 1833-cü il 27 fevralda təsdiq olunmuşdu.

Vilayətə dair ən mühüm hüquqi sənəd-"Erməni vilayəti" idarəsinin quruluşu haqqında Əsasnamə isə beş il sonra, 1833-cü il iyunun 23-də təsdiq olunmuşdu.[355] 16 maddədən ibarət olan bu sənədin birinci maddəsi ilə vilayət idarəsində kollegial idarə dayandırılır, işlərin nazirliklərin departamentləri üzrə aparılması müəyyən edilirdi. Naxçıvan və Ordubadda əvvəlki inzibati-ərazi bölgüsü saxlanır, beşinci maddəyə görə, naiblər-polkovnik Ehsan xan və mayor Şeyxəli bəyə həmin əya-

---

[353] Акты, собранные Кавказской археографической комиссией. Тифлис, 1878, т.VIII, док.437, с.487

[354] Полное собрание законов Российской империи (ПСЗРИ). Собр.вт. т.IV.1829. СПб., 1830, док.3144, с.642

[355] Полное собрание законов Российской империи (ПСЗРИ). Собр.вт. т.VIII. Отд. Первое. 1833. СПб., 1854, док.6282, с.374

lətlərdə zemstvo hakimiyyəti verilirdi. Səkkizinci maddə ilə İrəvan şəhəri ilə eyni zamanda, Naxçıvanda da Rusiya məmurlarından ibarət əyalət məhkəməsi təşkil edilirdi. Ordubad əyalətinin işləri də Naxçıvan məhkəməsinə verilirdi.

Bütün Qafqazda olduğu kimi, Naxçıvanda da yaradılan inzibati-idarə sistemi özünü doğrultmayıb, əhali üçün ciddi problemə çevrilmişdi. İstər çar hökuməti dairələrində, istərsə də yerlərdə mövcud idarə sistemindən narazılıq var idi.[356] Bunu nəzərə alan çar hökuməti 1840-cı il aprelin 10-da Zaqafqaziya diyarının idarəsi üzrə təsisatları təsdiq etdi.[357] Təsisatlara uyğun olaraq, Cənubi Qafqazda üç pilləli-quberniya (vilayət), qəza (dairə) və sahə inzibati-ərazi bölgüsünə keçildi. "Erməni vilayəti" ləğv edildi, onun ərazisi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Naxçıvan qəzası və Ordubad dairəsi Naxçıvan qəzasında birləşdirildi. O da özlüyündə Naxçıvan, Ordubad və Dərələyəz sahələrinə bölünürdü.

İnzibati-ərazi bölgüsü ilə bərabər, idarə və məhkəmə sistemi də dəyişdirildi. Cənubi Qafqazda baş idarə, quberniya və qəza idarəsi olmaqla üçhəlqəli sistem yaradıldı.

Naxçıvanda yeni idarə sisteminə keçid nəinki, Cənubi Qafqaz, eləcə də Azərbaycanın digər bölgələrinə nisbətən daha gərgin şəraitdə həyata keçirilirdi. Bu hər şeydən əvvəl, 1840-cı il islahatı ərəfəsində Naxçıvandakı idarə sisteminin xüsusiyyətləri ilə bağlı idi. Belə ki, bu dövrə qədər Naxçıvanı naiblər-Ehsan xan və Şeyxəli bəy idarə edirdi. Yeni qaydalara uyğun olaraq naiblərin hakimiyyətinin ləğvinə Ehsan xandan daha barışmaz münasibət bəsləyən Şeyxəli bəy İrana qaçdı. Onun mülkü xəzinəyə müsadirə edildi. Naiblərin kiçik qardaşı rus xidmətinin poruçiki Mehdi ağa da qaçdı.[358] Ehsan xan ilə məsələ fərqli oldu. Bu hal onun Peterburqda çar I Nikolay ilə görüşündən sonra aydın oldu. Çarın hökmü ilə Ehsan xana maaş təyin edildi. Kəngərlilər isə onun tabeliyindən çıxarıldı. Qafqazdakı rus qoşunlarının baş komandanı Qolovin tərəfindən kəngərlilər üçün "kompensasiya" olaraq xana altı tiyul kəndi verilməsi haqqında təklifi də qəbul edilmədi.

---

[356] Bu barədə daha ətraflı bax: Мильман А.Ш. Политический строй Азербайджана в XIX-начале XX веков. Баку, 1966, с.101-112

[357] ПСЗРИ. Собр. вт., с.13368

[358] Нагдалиев Ф. Ханы нахичеванские в Российской империи. М., 2006, с.91

Beləliklə, Ehsan xan vəsifəsindən qəti şəkildə uzaqlaşdırıldı, onun qarşısında yalnız, 200 kəngərli süvarisinin hərbi hazırlığının təmin edilməsi vəzifəsi qoyuldu. Xan 1846-cı ilin fevralında vəfat etdi.[359]

1840-cı il inzibati-məhkəmə islahatı özünü doğrultmadığına görə, onun nəticələrinin qaldırılması sahəsində tədbirlər görülməyə başladı. 1844-cü ildə Qafqazda canişinlik sistemi tətbiq edildi. Qafqazda vəziyyətin stabilləşdirilməsində ilk canişin M.S.Vorontsova (1844-1854) böyük etimad göstərilirdi. Onun təqdimatı əsasında 1846-cı il 14 dekabr fərmanı ilə inzibati-ərazi bölgüsündə dəyişiklik olundu. Diyar dörd quberniyaya-Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Naxçıvan qəzası Tiflis quberniyasının tərkibinə daxil edildi.[360] Bu inzibati-ərazi bölgüsü də uzun müddət davam etmədi.

1849-cu il iyunun 9-da Zaqafqaziya diyarında İrəvan quberniyası yaradılması haqqında fərman verildi. Fərmana əsasən, Tiflis quberniyasından İrəvan, Naxçıvan və Axalkalaki sahəsindən başqa, Aleksandropol qəzası, Şamaxı quberniyasından Şuşa qəzasının Mehri sahəsi və Qapaq kəndi ayrılmaqla yeni quberniya təşkil edildi. Quberniya mərkəzi İrəvan şəhəri təyin edildiyinə görə, quberniya İrəvan quberniyası adlandırıldı. Naxçıvan qəzasının Ordubad sahəsi istisna olmaqla, mərkəzi şəhəri Naxçıvan olan qəza və Naxçıvan qəzasının Ordubad sahəsi, Şuşa qəzasının Qapaq kəndi ilə birgə, Mehri sahəsi əsasında yaradılan Ordubad qəzası İrəvan quberniyasının tərkibinə daxil olurdu. Ştatdan kənar (заштатный) şəhər olan Ordubad qəza şəhəri statusunu alırdı. Quberniyaya daxil olan İrəvan, Naxçıvan və Aleksandropol qəzalarından fərqli olaraq, Ordubad və Novobəyazit qəzaları hələlik sahələrə bölünmürdü.[361] Bütövlükdə Zaqafqaziyanın, o cümlədən Naxçıvan bölgəsinin də inzibati-ərazi bölgüsü bununla başa çatmadı, bölgü prosesi yenə da davam etdirildi. 1867-ci il dekabrın 9-da Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman verildi. Həmin fərmana görə, Zaqafqaziyada yeni-beşinci Yelizavetpol quberniyası yaradıldı.[362] Bununla əlaqədar olaraq, Ordubad qəzası

---

[359] Нагдалиев Ф. Ханы нахичеванские в Российской империи. М., 2006, с.95, 97

[360] Мильман А.Ш. Политический строй Азербайджана в XIX- начале XX веков, с.133; Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.109

[361] ПСЗРИ. Собр.вт. т.XXIV. Отд. первое. 1849. СПб., 1850, док.2303, с.311-312

[362] Там же, т.XLII. Отд. Второе.1867. СПб., 1871, док.45259, с.383



Bakı şəhəri. XIX əsrin II yarısı



Bakı şəhəri. Birinci tramvay xətti, 1924-cü il

ləğv olunaraq, Naxçıvan qəzası ilə birləşdirildi, Mehri sahəsi isə Yelizavetpol quberniyasının tərkibinə verildi.

1870-ci ilin əvvəllərində həyata keçirilən dəyişikliklər üzrə İrəvan qəzasının Şərur sahəsi Naxçıvan qəzasına birləşdirildi, 1874-cü ildə isə Naxçıvan qəzasının Şərur və Dərələyəz sahələri əsasında, Şərur-Dərələyəz qəzası təşkil edildi.[363]

Beləliklə, Naxçıvan bölgəsinin Rusiya imperiyası tərkibində həyata keçirilən inzibati-ərazi bölgüsü və idarə sistemi çarizmin müstəmləkəçilik siyasətinə xidmət edirdi. Bu siyasət hər vasitə ilə nəinki, Azərbaycan torpaqlarını, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi torpaqlarını digər inzibati-ərazi vahidləri ara-

---

[363] Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.109-110

sında parçalayaraq, ərazi və əhalinin konsolidasiyasına mane olurdu.

Çarizmin müstəmləkəçilik siyasətinin digər bir istiqamətini Şimali Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana ermənilərin kütləvi şəkildə köçürülməsi təşkil edirdi. Məlumdur ki, ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi çar I Pyotrun 1724-cü il 10 noyabr tarixli fərmanı ilə dövlət siyasətinə çevrilmişdi.[364] II Yekaterina dövründə də bu siyasət davam etdirilmiş, XIX əsrin əvvəllərindən Rusiya imperiyasının Şimali Azərbaycan torpaqlarının işğalının başlanması ilə sistemli və kütləvi hal almışdı.[365] Ermənilərin köçürülməsi hüquqi-siyasi baxımdan 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay müqaviləsinin XV maddəsi ilə tənzimlənirdi.[366]

Köçürmənin həyata keçirilməsinin təşkili və reallaşdırılması məsələlərinə dair ilk sənədlərdən biri Paskeviçin qraf Dibiçə təliqəsi idi. Bu təliqədə köçürmə ilə əlaqədar üç bənddən ibarət olan sərəncamından bəhs edilir. Birinci bənddə köçürmə işinin təşkilinə polkovnik Lazarevin təyin edilməsindən və ona əksəriyyəti erməni dilini bilən hərbçilərin köməkçi təyin edilməsi bildirilirdi. İkinci maddədən aydın olur ki, köçürülən ermənilərin məskunlaşdırılmasında İrəvan və Naxçıvan vilayətlərinə üstün yer verilir. Paskeviç bu bənddə İrəvan Müvəqqəti idarəsinə ermənilərin İrəvan və Naxçıvana gəlməsinə qədər tədbirlər görülməsi barədə göstəriş verdiyini qeyd edir. Qarabağa bu iki əyalətə nisbətən daha yaxın olan yerlərdən ermənilər köçürülməli idi. Üçüncü bənddə köçürülən ermənilərin xərcləri üçün traktata uyğun İran hökumətindən alınan təzminatdan 50 min gümüş manat ayrıldığı diqqətə çatdırılırdı.[367] Digər sənədlərdə polkovnik Lazarevə və İrəvan Müvəqqəti idarəsinə köçürülən ermənilər barədə verilən qaydalar göstərilirdi. Qaydaların 12-ci bəndində xristianların Naxçıvan və İrəvan vilayətlərinə getməsinə razılaşdırılması əksini tapmışdı, bununla həmin vilayətlərdə mümkün olduqca xristian əhalinin artırılması nəzərdə tutulurdu.[368]

---

[364] Эзов Г.А. Сношения Петра Великого с армянским народом. СПб., 1898, док. 255-260, с.392-397

[365] Вах: Глинка С. Описание переселения армян азербайджанских в пределы России. СПб, 1831

[366] ПСЗРИ. Собр.вт. т.III. 1828, СПб, 1830, с.130

[367] Российский Государственный Военно-исторический архив, ф.846, оп.16, д.978, лл.1-2

[368] Там же, лл.4 об.

Naxçıvan bölgəsinə köçürülən ermənilərə dair rəqəmlər İ.Şopen[369] və V.Qriqoryevin[370] bilavasitə, həmin dövrə aid tədqiqatlarında əksini tapmışdır. Şopenin məlumatlarından aydın olur ki, Naxçıvan bölgəsinin Rusiya imperiyası tərəfindən ələ keçirilməsindən sonra Naxçıvan əyalətinə İrandan 2137 ailə (10652 nəfər), Türkiyədən isə 8 ailə (27 nəfər), Ordubad dairəsinə isə 250 ailə (1340 nəfər) köçürülmüşdü.[371] Burada bir maraqlı fakt diqqəti cəlb edir. Belə ki, İrandan Naxçıvan əyalətinə köçürülən hər bir erməni ailəsinə təxminən 5, Ordubad dairəsində isə 5,36 nəfər düşdüyü halda, bu rəqəm Türkiyədən köçürülənlərə 3,3 nəfər düşür. Deməli, burada rəqəmlərdə yanlışlıq var və Türkiyədən köçürülən ermənilərin sayı da əslində, çox olmalıdır.

İrandan Naxçıvan bölgəsinə köçürülən ermənilər haqqında V.Qriqoryevin məlumatlarının daha informativ olmasını və bir sıra yeni məsələlərə aydınlıq gətirdiyini nəzərə alaraq, onu burada təqdim edirik. Cədvəldən aydın olur ki, burada 9 mühüm məsələ (köçürülən ermənilərin ilkin məskunlaşdıqları yerlər, ailələrin sayı, onların sosial tərkibi, cinsi, yaşı və haradan köçürülmələri) əksini tapmışdır.

Bütövlükdə, Naxçıvan bölgəsinə 2551 ailə köçürülmüşdü.

Bu, Şopenin rəqəmindən (2387 ailə) 164 ailə çox idi. Köçürülən ermənilərin tərkibində tacirlər 8,15%, sənətkarlar 18,74%, əkinçilər isə 73,11% təşkil edirdi. Köçürülən ermənilər içərisində kişilər (6954 nəfər, yaxud 52,84%) qadınlara (6206 nəfər, yaxud 47,16%) nisbətən çox idi. Kişilərin yaş üzrə bölgüsündən aydın olur ki, böyüklər kiçiklərdən 1964 nəfər çox idi. Nəhayət, cədvəl köçürülən ermənilərin İran, bütövlükdə isə Cənubi Azərbaycan üzrə coğrafiyasını müəyyən etməyə imkan verir.

Naxçıvana köçürülən ermənilərə dair faktlar nəinki, konkret zaman kəsiyindəki vəziyyəti deyil, perspektivi də aydınlaşdırmağa imkan verir. Çar hökuməti tərəfindən ən yaxşı torpaqlarda yerləşdirilən və xüsusi imtiyazlar ilə təmin olunan ermənilərin mexaniki artımı ilə eyni zamanda, təbii artımı üçün də əlverişli şərait yaradılmış və onlar sonrakı

---

[369] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи.СПб., 1852

[370] Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. СПб., 1833

[371] Шопен И. Указ соч., с.635-638; Ermənilərin Türkiyədən köçürülməsi haqqında bax: Потто В. Переселение христиан из Турции. СПб, 1901

Ermənilərin İrandan Naxçıvan əyalətinə köçürülməsinə dair

İlkin məskunlaşdırıldıqları yer	Ailələrin sayı	Onlardan			Sayı			Hansı daire və sahələrdən köçürülmüşlər
		Tacir	Sənətkar	Əkinçi	Kişi cinsi		Qadın	
					Böyüklər	Kiçik yaşlılar		
1	2	3	4	5	6	7	8	9
Naxçıvan dairəsinə Naxçıvan şəhəri	166	63	63	40	281	118	313	Xoy şəhəri
	53	31	15	7	111	52	113	Təbriz şəhəri
	69	25	23	21	120	43	129	Marağa şəhəri
	66	20	30	16	126	60	149	Salmas
	31	9	12	10	50	26	75	" "
	26	10	10	6	34	15	55	Dehqarqan
	5	-	5	-	10	4	16	Urmiya şəhəri
Cəmi:	416	158	158	100	732	318	850	
Kəndlər:								
Güznüt	72	-	12	60	133	51	135	Salmas
Qızılca	23	-	-	23	51	18	63	" "
Əbrəqunus	36	-	24	12	60	37	20	" "
Kırna	44	-	13	31	83	32	105	" "
Bənəniyar	49	4	12	33	103	52	157	" "
Göydərə	23	-	-	23	43	26	59	" "
Qazançı	22	-	-	22	44	25	57	" "
Ağyari	36	-	-	36	56	40	95	" "
Azadlıq	22	-	-	22	40	32	57	" "
Mardrus	42	-	-	42	76	49	115	" "
Keşkənd	37	-	-	37	60	40	102	" "
Keytul	33	-	-	33	56	37	79	" "

1	2	3	4	5	6	7	8	9
Meltikənd	35	-	4	31	66	30	88	" "
Yelpin	20	-	-	20	33	19	51	" "
Aruleşin	17	-	-	17	18	18	31	" "
Xəlilli	24	-	-	24	31	27	61	" "
Didivar	31	-	-	31	41	35	68	" "
Kültəpə	70	-	24	46	86	100	176	" "
Bədəxşan	26	6	-	14	41	18	38	" "
Nehrəm	208	15	30	163	398	221	545	" "
Təzəkənd	44	-	3	41	86	38	101	" "
Tumbul	53	-	13	40	65	60	100	" "
Qaraxan-bəyli	81	7	20	54	145	74	196	" "
Kürədiz	37	-	-	37	63	40	85	" "
Arınç	31	-	3	28	51	30	70	" "
Sultanbəyli	34	-	-	34	60	27	75	" "
Məmədrza-Dizə	20	-	4	16	45	13	37	" "
Xalxal	35	-	-	35	50	32	83	" "
Ərəzin	60	-	8	52	113	50	153	Xoy
Saltaq	33	-	5	28	56	30	83	" "
Alagöz	42	-	2	40	74	43	98	" "
Uzunoba	40	-	-	40	63	46	127	" "
Qarababa	24	-	3	21	34	25	59	" "
Külüs	13	-	-	13	20	12	30	" "
Nurs	30	-	5	25	50	24	74	" "
Şıxmahmud	63	-	7	56	117	69	160	Salmas və Xoy
Nəzərabad	49	-	3	46	73	50	117	" "
Cəhri	151	-	40	11	309	160	465	" "
Badamlı	23	-	4	19	33	13	58	" "
Şahbuz	20	-	2	18	31	23	44	" "

1	2	3	4	5	6	7	8	9
Yarımca	78	-	27	54	99	80	154	“ ——— ”
Məzrə	22	-	3	19	32	14	42	Urmiya və Salmas
Kərimbəy-Dizə	22	-	4	18	50	24	48	Urmiya
Cəmi:	1869	32	275	1562	3238	1884	4629	
Naxçıvan dairəsi üzrə yekun	2285	190	433	1662	39709	2202	5479	
Ordubad dairəsi Kəndlər:								
Əylis	37	11	13	13	53	40	86	Təbriz şəhəri
Qayadamış	29	7	10	12	41	30	82	“ ——— ”
Aza, Dər və Dizə	182	-	22	160	354	200	501	Marağa
Əlağa	18	-	-	18	41	23	58	Təbriz
Cəmi:	266	18	45	203	489	295	727	
Naxçıvan əyaləti üzrə yekun	2551	208	478	1865	4459	2495	6206	

Qaynaq: *Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, с. 123-127*

tarixi dövrdə Naxçıvanda müstəqillik və dövlətçiliyin bərpası uğrunda mübarizə qarşısında ciddi maneəyə çevrilmişdilər.

Çarizmin Naxçıvanda iqtisadi və sosial-mədəni sahədə həyata keçirdiyi tədbirlər də müstəmləkəçilik sisteminin möhkəmləndirilməsinə xidmət göstərirdi. Naxçıvan bölgəsinin iqtisadi əsasını kənd təsərrüfatı təşkil edirdi. Çar hökumətinin bütün Şimali Azərbaycanda olduğu kimi, Naxçıvanda da iqtisadi siyasətinin əsas istiqamətini daha çox

gəlir əldə etmək, yeni işğal edilmiş torpaqların Rusiya sənayesinin xammal bazasına çevrilməsi təşkil edirdi. Bu sırada pambıqçılığı xüsusi qeyd etmək olar.[372] Çar hökuməti aqrar münasibətləri də bu siyasətinə uyğunlaşdırmağa çalışır, hər vasitə ilə özünə bölgədə sosial dayaq yaratmağa da cəhd edirdi. 1846-cı il 6 dekabr reskriptinin birinci maddəsi ilə çar hökumətinin bəzi şəxslərə bəxşiş etdiyi torpaqlarla bərabər, müsəlman əyalətlərinin Rusiayaya birləşdirilməsi dövründə onların nəsillərinin sahib olduqları və o zaman da onların ixtiyarında olan bütün torpaqları irsi mülkiyyət kimi təsdiq olunurdu. Bu çar reskriptinə uyğun olaraq, kəndli əsasnamələri qəbul edilmişdi. İrəvan quberniyası və Tiflis quberniyasının Axalsix qəzasına aid 1851-ci il 8 iyun əsasnaməsi qəbul edilsə də, Krım müharibəsi ilə əlaqədar həyata keçmədi. Rusiyadakı 1861-ci il kəndli islahatından sonra, Cənubi Qafqazda da kəndli islahatına hazırlıq başlandı və nəhayət, 1870-ci ilin may ayında kəndli islahatı elan edildi, lakin sahibkar kəndindəki problemləri tam həll edə bilmədi. Sahibkar kəndindəki kimi dövlət kəndində də hüquqi münasibətlər tam tənzimlənməmişdi. Çar hökuməti dövlətin və ona sadiq olan sahibkarların mənafeyini müdafiə etsə də, əsas istehsalçılar olan kəndlilərin vəziyyəti ağır idi [373] və bu da onların müstəmləkə zülmünə qarşı mübarizəsini şərtləndirirdi.

Rusiya imperiyasının müstəmləkəçilik siyasəti özünü sosial-mədəni sahədə də sərt şəkildə göstərirdi. Çar hökuməti xüsusilə, müsəlman coğrafiyasında, o cümlədən Naxçıvan bölgəsində təhsilin, elmin və mədəniyyətin inkişafı qarşısında ciddi maneələr yaradırdı. Tarixin əvvəlki dövrlərində böyük elmi, ədəbi-bədii potensialı ilə fərqlənən Naxçıvan bölgəsində qəza məktəbi yalnız 1837-ci ildə açılmışdı. Çox maraqlıdır ki, bu məktəb üçün də xüsusi bina tikilməmiş, on iki il müddətinə Ehsan xanın oğlanlarının evində yerləşmişdi. Ordubadda isə yalnız 1854-cü ildə ibtidai məktəb açılmşdı.[374] Naxçıvan qəza məktəbi 1879-cu ildə şəhər məktəbinə, Ordubad ibtidai məktəbi isə sonralar dördsinifli ali ibtidai məktəbə çevrilmişdi.[375] Bu məktəblər Naxçıvan kimi geniş əraziyə və əhaliyə malik olan bir bölgə üçün

---

[372] Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı, 2008, s.69
[373] Yenə orada, s.70-73, 128-130
[374] Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixindən. Bakı, 2001, s.10-15
[375] Yenə orada, s.74; Ваидова Х. История города Ордубада в XIX- нач. XX в. Баку, 2007, с.138-139

olduqca az idi. Bu fakt göstərir ki, çarizm bölgədə elm və təhsilin, bununla əlaqədar olan digər sahələrin inkişafında maraqlı deyildi və bu sahədə tarixən böyük ənələrə malik olan Naxçıvan ziyalıları bu vəziyyətlə barışa bilməzdi.

Çarizmin bütövlükdə Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda formalaşdırdığı müstəmləkə üsul-idarəsi yerli xalqın müqaviməti ilə rastlaşır və dövlətçiliyin bərpası uğrunda mübarizə üçün zəruri bir platformaya çevrilirdi. Bu özünü əvvəla, çarizmin Naxçıvanda yaratdığı müstəmləkə rejiminə qarşı azadlıq hərəkatında, ikinci, çar hökuməti tərəfindən Naxçıvan bölgəsinə köçürülərək burada yerləşdirilən və onun müstəmləkə siyasətinin etno-sosial və siyasi dayağını təşkil edən erməni iddialarına və yerli əhalinin soyqırımı əleyhinə mübarizədə, üçüncü, Naxçıvanın görkəmli ziyalılarının çarizmin müstəmləkə rejiminin sosial-mədəni əsaslarına qarşı fəaliyyətində özünü göstərirdi.

Çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalının başa çatdırılmasından sonra, əsasən Gülüstan müqaviləsindən sonra ələ keçirilmiş Car-Balakən (1830), Lənkəran (1831), Quba (1837) və Şəki (1838) bölgələrində anti-müstəmləkə üsyanları baş verdi.[376] Bu üsyanlar çarizmi müstəmləkə üsul-idarəsində dəyişiklik etməyə məcbur etdi. 1840-cı il 10 aprel qanunu əsasında aparılan inzibati-məhkəmə islahatının gedişində müstəmləkəçiliyin ilk simvollarından biri olan komendant üsul-idarəsi ləğv olundu.[377] Naxçıvan bölgəsi 1830-cu il üsyanlarının coğrafiyasından kənarda qalsa da, burada müstəmləkə rejiminə qarşı mübarizə yerli idarəetmənin xüsusiyyətlərindən asılı olaraq, özünəməxsus şəkildə əks olunmuşdur, Naxçıvanın idarəsinin ilk vaxtlar yerli hakimlər-naiblər tərəfindən həyata keçirilməsi komendant üsul idarəsinə, yaxud İrəvan əyalətində tətbiq edilən idarə- üsuluna nisbətdə əhaliyə daha yaxın idi. Buna baxmayaraq, bu hal yeni yaradılmış idarə-üsuluna qarşı narazılığı tam aradan qaldıra bilməmişdi. Ən maraqlısı odur ki, bu idarə üsuluna ilk etiraz Şeyxəli bəydən olmuşdu. Onun gizli olaraq Abbas Mirzə ilə məktublaşması haqqında şayiələr var idi.[378] O, Ordubad dairəsinin idarəsində iştirak etmək məqsədi ilə pristav göndərilməsini neqa-

---

[376] Azərbaycan tarixi. Yeddi cilddə, dördüncü cild, Bakı, 2000, s.99-110; Сумбатзаде А.С. Кубинское восстание. Баку, 1961; Qurbanov R. XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı. Bakı, 2006, s.111-164

[377] Azərbaycan tarixi. Yeddi cilddə, dördüncü cild, s.110-119

[378] Акты, собранные Кавказской археографической комиссией., т.VII, док. 622, с.646

tiv qarşıladı və Ordubadı tərk edərək yaşamaq üçün Naxçıvana gəldi. Vilayətin rəisi Çavçavadzeyə müraciət edərək Ordubadda tək hakim olmasını rica etdi.[379]

Sonrakı tarixi hadisələr göstərir ki, Naxçıvan əhalisi də bu narazılığa qoşulmuş, rejim əleyhinə olan hadisələrdə iştirak etmişdir. Zaqafqaziya diyarının quruluşu haqqında komissiyanın üzvü, kollej asessoru (mülki çin, həmin vaxtlar mayora uyğun idi.-İ.H.) Nefedyevin yazılı qeydlərində özünü peyğəmbər kimi qələmə verən bir mollanın fəaliyyəti nəticəsində Ordubadda əhali arasında həyəcanlardan bəhs olunur, minlərlə insanın bu həyəcana qoşulduğu bildirilir. Bu həyəcan Naxçıvan və ətraf yerlərin sakinlərini də əhatə etmişdi. Nefedyev yazırdı ki, hər şey təhlükədə idi; xoşbəxtlikdən xan və pristav hələ yaylağa yola düşməmişdi və vilayət rəisinin bura gəlişi ölümcül nəticələri aradan qaldırdı.[380]

1840-cı il 10 aprel inzibati-məhkəmə islahatı ilə Naxçıvanda yaradılan yeni idarə üsulu da narazılığa səbəb olmuş, yuxarıda qeyd etdiyimiz kimi Ordubad dairəsinin naibi Şeyxəli bəy və kiçik qardaşı Mehdi bəy də İrana qaçmışdı.

Kəngərlililərin hüquqi statusunda baş verən dəyişikliklər də etirazlara səbəb olmuşdu. Ehsan xan ilk vaxtlar kəngərlilərin vergidən azad olmasına nail olsa da, yeni təyin edilən Naxçıvan qəza rəisi Serbinov vergilərin ödənməsini tələb etdi. Çar hakimiyyətinə loyal münasibət bəsləyən Ehsan xan kimi şəxs də bu vəziyyətlə barışmamış və Serbinovun qeyri-qanuni tələblərini boykot etməyə çağırmışdı.

Kəngərlilərin böyük hissəsinin İrana qaçması ilə münaqişənin silahlı toqquşmaya çevrilməsi təhlükəsi aradan qalxmışdı. Bundan sonra çar I Nikolay ilə görüşməsinin təşkili əsas götürülərək Ehsan xan da Naxçıvandan uzaqlaşdırılmışdı.

Naxçıvan əhalisinin geniş təbəqəsini təşkil edən kəndlilər də çar üsul-idarəsindən narazı idilər və bu da kəndli hərəkatının müxtəlif formaları (ərizə və şikayətlər ilə müraciətlər, İrana qaçmaq və s.) vasitəsi ilə özünü göstərirdi. XIX əsrin sonlarına doğru kəndli hərəkatının

---

[379] Акты, собранные Кавказской археографической комиссией., т.VII, док. 624, с.649

[380] Записка Нефедьева о Нахичеванской провинции, 22 ноября 1837 г.//Колониальная политика российского царизма в Азербайджане 20-60-х гг. XIX в. М.-Л., 1936, ч.1, с.336; Həmçinin bax: Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.132-133

silahlı mübarizəyə çevrilməsi genişlənməkdə idi. Azərbaycan kəndində kəndli hərəkatının spesifik forması kimi özünü göstərən qaçaq hərəkatı Naxçıvanda da yayılmışdı. Öz miqyasına və əhəmiyyətinə görə, XIX əsrin 90-cı illərində Rusiya imperiyasının ucqarlarında azadlıq hərəkatı tarixində iz buraxan Qaçaq Nəbinin mübarizəsi Naxçıvan ilə də sıx bağlı olmuşdur. XX əsrin əvvəllərində kəndli hərəkatının coğrafiyası və iştirakçılarının sayı xeyli artmışdı.[381]

Naxçıvan bölgəsində Naxçıvan, Ordubad və Culfa kimi şəhərlərin olması, burada çarizmin müstəmləkə zülmünə qarşı mübarizənin daha mütəşəkkil xarakter alması və siyasi cəhətdən təşkilatlanmasına şərait yaradırdı. Belə ki, 1904-cü ildə təşkil edilmiş "Hümmət" təşkilatının Naxçıvan və Culfa şöbələri yaradılmışdı.[382]

Birinci Dünya müharibəsinin başlanması və Rusiya imperiyasının tərkibində Şimali Azərbaycanın, o cümlədən Naxçıvan bölgəsinin müharibəyə daxil olması ilə burada da siyasi fəaliyyət genişlənməyə başladı. Naxçıvanda "Mücahidin" adlı milli partiya təşkil olundu (1915), müharibə alovlandıqca anti-hərbi mitinqlər də keçirilməyə başlandı.[383]

Naxçıvanda müstəmləkəçiliyə qarşı mübarizənin digər bir istiqaməti çar hökumətinin erməniləri məqsədyönlü şəkildə bölgəyə köçürməsi ilə bağlı idi. Ermənilərin köçürülməsi ideyasının gündəmə gətirilməsi, onun həyata keçirilməsinə hazırlıq və təşkilati işlərin görülməsi mərhələsində bu prosesə qarşı mübarizə imkanları məhdud olmuşdur. Lakin ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin başlanmasının ilk mərhələsindən etibarən ona qarşı mübarizədə Naxçıvan bölgəsi əsas yeri tuturdu. Azərbaycanın digər bölgələri ilə müqayisədə Naxçıvanda özünəməxsus cəhətlər də var idi. Belə ki, ermənilərin

---

[381] Bu problemlər Azərbaycan tarixşünaslığında xüsusi olaraq nəzərdən keçirildiyinə görə onlara istinad etməklə kifayətlənirik: Гасанов И. Из истории крестьянского движения в Азербайджане в последней трети XIX века. О выступлениях крестьян под руководством Качега Наби//Изв.АН Азерб.ССР. Сер.общ.наук. 1961, №4, с. 38-49; Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.133-139; Гусейнов Дж. Из истории национально-освободительного движения в Азербайджане в начале XX в. (1900-1907). Баку, 2001; его же, Движение качагов в Азербайджане в 1900-1910 гг.Баку, 2004; Алиев А. Крестьянское движение в Азербайджане в 1905-1907 гг. Нахчыван, 2004 və s.

[382] Daha ətraflı bax: Багирова И.Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку, 1997

[383] Там же, с.334; Мадатов Г. Победа советской власти в Нахичеване и образование Нахичеванской АССР. Баку, 1968, с.24

kütləvi şəkildə köçürülməsinədək Azərbaycanın şimalında olan xanlıqlar ləğv edildiyindən, hakim təbəqənin bu prosesə qarşı çıxması üçün adminstrativ resurs aradan qaldırıldığından, yalnız yerli əhalinin müqavimətindən bəhs oluna bilər. Naxçıvan bölgəsində isə yerli idarə etmədə naiblərin rolu ermənilərin köçürülməsinə qarşı mübarizədə yeni istiqamət yaratmışdı. A.S.Qriboyedovun Paskeviçə 1828-ci il 1 oktyabr tarixli məktubunda bu istiqamətin hər ikisi haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. O, məktubunda ermənilərin köçürülməsi ilə əlaqədar tatarlar (azərbaycanlılar.-İ.H.) içərisində həyəcan və narazılığın yüksək dərəcəyə çatdığını bildirir. Məktubdan aydın olur ki, Şeyxəli bəy də ermənilərin köçürülməsinə narazılığını bildirmişdir, çünki Qriboyedov qeyd edir ki, o, narazılıqları aradan qaldırmaq üçün köçürülənlərə bu münasibət qeyri-adi və keçicidir. Bir sözlə, Qriboyedov diplomatik tərzdə bölgədə yaranmış bu və digər narazılığı aradan qaldırdığını bildirir.[384] Qriboyedovun ermənilərin İrandan yeni işğal edilmiş torpaqlara köçürülməsi haqqında qeydlərində də köçürülmənin yerli əhali üçün yaratdığı problemlərdən və bununla əlaqədar ortaya çıxan həyəcan və narazılıqlardan bəhs edərək yazırdı ki, köçürülənlər özləri darısqallıqdadırlar və müsəlmanları sıxışdırırlar, onlar isə əsaslı narazılıq edirlər. Qriboyedov ermənilərin köçürülməsi işinə o zaman rəhbərlik edən knyaz Arqutinskidən bəhs edərək qeyd edirdi ki, biz onunla müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük ki, onları indiki çətinliklərlə barışdıraq və inandıraq ki, bu uzunmüddətli olmayacaq və ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə onların qorxusunu aradan qaldıraq. Bu barədə mən polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm.[385] Burada iki məqama xüsusi diqqət yetirmək istərdik: 1) müsəlmanlarda ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə qorxu təsadüfi olmayıb müəyyən təcrübəyə, yəni əvvəlki tarixi dövrdə də ermənilərin buraya köçürüldükləri təsdiq olunur; 2) "Bu barədə mən polismeysterə, idarə

---

[384] Письмо А.С.Грибоедова графу И.Ф.Паскевичу, от 1 октября 1828 г. Переправа на Араксе против Джульфы// А.С.Грибоедов. Соч. М.,1988, с.611-614

[385] Грибоедов А.С. Записка о переселение армян из Персии в наши области// А.С.Грибоедов. Польное собрание соч. В 3-х тт. Пг, 1917, Т.3, с.267-270

heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm" ifadəsi isə bu fikirlərin bilavasitə, Naxçıvan bölgəsinə aid olduğunu bildirir.

Çar hökumətinin ermənilərı kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına, xüsusilə Naxçıvan bölgəsinə köçürdükdən sonra onlar üçün əlverişli və imtiyazlı şərait yaratması ilə ermənilər köçürüldükləri ərazidə mühüm müstəmləkəçilik vasitəsinə çevrilməklə yanaşı (təsadüfi deyil ki, çar hakimiyyət orqanları ya ermənilər ilə əlbir hərəkət edir, ya da onları dəstəkləyirdi), ərazi iddialarını da reallaşdırmağa başladılar. Bu özünü XX əsrin əvvəllərində daha kəskin şəkildə göstərməyə başladı. Naxçıvan 1905-1906-cı illər "erməni-müsəlman davasının" əsas mərkəzlərindən birinə çevrildi. Naxçıvan bölgəsinin erməni iddialarına və onun aşkar şəkildə yerli əhaliyə qarşı çevrilmiş soyqırımı siyasətinin qarşısının alınmasında tarixi rol oynadı.[386]

Naxçıvanda 1905-ci il hadisələrinin başlanması və gedişi əslində ermənilərin bölgəyə köçürülməsindən sonra keçən dövrün ümumi mənzərəsini də bərpa etməyə köməklik göstərir. M.S.Ordubadi sənəd və mənbələr əsasında yazdığı və ilk dəfə 1911-ci ildə nəşr olunan "Qanlı illər" əsərinin "Kədərli Naxçıvan hadisələri" bölməsində bu mətləblərə də aydınlıq gətirir. O, yazır ki, "1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdən də belə hallar hər dəqiqə gözlənilirdi. Hər vəziyyətdə, erməni siyasətini götür-qoy edəndə elə belə də olmalı idi. Zira, ermənilərin rəyincə, bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın,- deyib hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar...".[387] Təqdim olunan parçadan ermənilərin silahlı hazırlıq görməsi, qəflətən hücum etməyi planlaşdırması və s. kimi nəticələr ilə birlikdə bir mühüm məsələ də önə çıxır. Ermənilər azərbaycanlılara

---

[386] 1905-1906-cı illər hadisələrinin Naxçıvanda azərbaycanlılara qarşı soyqırımı kimi araşdırılmasına dair bax: Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.216-226

[387] Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi, s.18

qarşı müharibəyə psixoloji dəstək də təmin etməyə çalışırdı. Şəhərə "səs salmaq" da bunun göstəricisi idi. Fikrini davam edən Ordubadi yeni bir faktı da nəzərə çatdırır: "Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər."[388] Buradan aydın olduğu kimi ermənilərin hərəkatı daha geniş miqyas daşımış, əsgəri qüvvə formalaşdırmış, özlərində güc hiss edən kimi əsl simalarını ortaya qoymuşdular. 1905-ci il may ayının 5-də ermənilər Cəhri kəndinin üç sakinini yaralamaqla açıq şəkildə meydan oxumağa, qanlı hadisələrin coğrafiyasını genişləndirməyə başladılar. İş o yerə çatdı ki, mayın 7-də azğınlıq edən ermənilər əhalisinin iki hissəsi müsəlmanlardan, yalnız bir hissəsi ermənilərdən ibarət olan Tunbul kəndindən keçən bir müsəlmanı vurub öldürdülər.[389] Müsəlmanların hakimiyyət orqanlarına şikayətləri isə cavabsız qaldı. Ermənilər bundan istifadə edərək təcavüzkar hərəkətlərini davam etdirməyə başladı. Mayın 9-da naxçıvanlı Əli Hacı Bayramzadə qətlə yetirildi. Mayın 11-də isə daşnaklar tərəfindən onlara yardım etmədiyi üçün cəzalandırılaraq öldürülən erməni ailəsinin qətlini müsəlmanların üzərinə atmağa cəhd etməklə iki tərəfdən yararlanmağa çalışdı: əvvəla, bu qətl digər ermənilərə də xəbərdarlıq olmalı idi, digər tərəfdən isə azərbaycanlılara qarşı təcavüzü daha da genişləndirməyi nəzərdə tuturdu.

Ermənilərin bütün hazırlığına və hökumətin etinasızlıq pərdəsi altında faktiki olaraq onları müdafiə etməsinə baxmayaraq, naxçıvanlılar bu fitnəkarlığın qarşısını almağa nail oldular. Bu ermənilərin hakimiyyət ilə yeni iş birliyi quraraq, müsəlmanlara qarşı yeni hücumuna səbəb oldu. Ordubadi bu hadisələri belə təsvir edir: "Noyabrın 26-cı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmin gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar..." Onun əsasını isə kazaklar və ermənilərin əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra

---

[388] Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi, s.18

[389] Hadisələrin sonrakı gedişi Ordubadi tərəfindən ətraflı şərh edilmişdir. Bax: Ordubadi M.S. Qanlı illər, s.18-22

od vurması olmuşdu. Noyabrın 30-da isə Cəhri kəndi ermənilər və kazaklar tərəfindən yandırıldı.[390] Ermənilərin hərtərəfli hazırlığına və çar hakimiyyət orqanları ilə əlbir olaraq, Azərbaycanda və o cümlədən, Naxçıvanda hakim mövqe tutmaq, etnik üstünlüyə malik olub, ərazi iddialarını həyata keçirmək strategiyası iflasa uğradı. Bu ümumi mübarizədə Naxçıvan bölgəsi mühüm rol oynadı. Çarizmin ermənilər vasitəsi ilə reallaşdırmaq istədiyi müstəmləkəçilik siyasətinə də ciddi zərbə vuruldu.

Naxçıvan bölgəsində çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizənin mühüm bir istiqamətini də sosial-mədəni sahədə də özünü göstərən hərəkat təşkil edirdi. Bu istiqamətin ən mühüm səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, o daha uzunmüddətli məqsədə xidmət edirdi. Azərbaycanın azadlıq hərəkatı ölkə üçün savadlı və dövrün qabaqcıl dünyagörüşünə malik insanların yetişdirilməsini tələb edirdi. Bunun üçün çarizmin müstəmləkə siyasətinin daha kəskin şəkildə təzahür etdiyi sosial-mədəni sahədə dönüşə nail olmaq lazım idi. Çar hökumətinin bu hərəkatın daha təhlükəli olacağını nəzərə alaraq, onu ciddi nəzarətdə saxladığı və hər bir mütərəqqi addımı müqavimətlə qarşıladığı əsas götürülsə bu sahədə fəaliyyət böyük iradə və xalqın gələcəyi üçün yenilməz ruh tələb edirdi. Naxçıvan bölgəsi sosial-mədəni sahədə dönüşə xüsusi önəm verən ziyalılar baxımından bütün Azərbaycanda öndə gedirdi. Bu baxımdan Məhəmməd Tağı Sidqinin fəaliyyətini, xüsusilə onun əvvəlcə Ordubadda "Əxtər" (Ulduz) adlı məktəbini (1892-ci il), sonra isə Naxçıvan şəhərində açdığı "Məktəbi-tərbiyə"ni (1894-cü il) qeyd etmək olar. "M.T.Sidqinin "Tərbiyə-məktəbi"ndəki fəaliyyəti bir sıra maarifçi ziyalıları da məktəbdarlıq işinə həvəsləndirdiyindən onlar öz yazışmalarında "Naxçıvanda Sidqinin "hərəkəti-arifanəsi" bizi də burada fövqəladə səy və qeyrətlərə sövq edirdi" fikrini etiraf edirdilər. Bu etiraflar isə öz növbəsində dövrün maarifçi ziyalılarının əməli fəaliyyəti ilə nəticələnir, Azərbaycanın müxtəlif bölgələrində yeni tipli məktəblərin açılması zəminində iş gedirdi."[391]

Naxçıvanda qadın təhsilinin inkişafı sahəsində də müəyyən addımların atılması Azərbaycanın təhsil tarixinin mühüm səhifələrindən

---

[390] Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi, s.21-22

[391] Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.179

idi. M.T.Sidqi 1890-cı illərdə Naxçıvanda xüsusi qız məktəbi açmağa nail olmuşdu. 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində çalışan C.Məmmədquluzadənin fəaliyyəti də qeyd edilməlidir.[392]

Naxçıvanın və onun timsalında Azərbaycanın müstəmləkə zülmündən qurtarması üçün fəaliyyət göstərən görkəmli insanlardan biri də Məhəmməd ağa Şahtaxtlı (1846-1913) idi. Onun çoxşaxəli yaradıcılığında Azərbaycançılıq məfkurəsinin formalaşmasındakı rolunun böyük əhəmiyyəti olmuşdur. Onun 1891-ci ildə "Kaspi" qəzetində dərc edilmiş "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsi elmi dəyərini bu gün də saxlamaqdadır. Buradan çıxan əsas nəticələrdən biri də ölkənin adı və onun titul xalqı haqqındakı uzaqgörən mühakimələri ilə bağlıdır. Məlum olduğu kimi Azərbaycanın M.F.Axundov kimi görkəmli mütəfəkkiri xalqın inkişafı və tərəqqisi ilə əlifba arasında əlaqəyə mühüm önəm verirdi. Bəzən düşünüldüyü kimi əlifbanın dəyişdirilməsi məqsəd deyil, bir vasitə idi. M.A.Şahtaxtı da əlifba məsələsinə əhəmiyyət vermiş, "Təkmilləşdirilmiş Azərbaycan əlifbası" layihəsini çap etdirmiş, XX əsrin əvvəllərində də əlifba islahatı sahəsində fəaliyyətini davam etdirmiş, latın əlifbasına keçid hərəkatının iştirakçılarından olmuşdur.[393]

Naxçıvan ədəbi məktəbinin yaradıcılığında da azadlıq uğrunda mübarizə meyilləri özünü həmişə göstərmişdir. C.Məmmədquluzadə bədii əsərləri və publisistikası ilə azadlıq ideologiyasının formalaşmasında böyük xidmət göstərmişdi.[394]

Beləliklə, Naxçıvanda çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizənın gedişində Azərbaycanın müstəqilliyi ideyasının təşəkkülü reallığa çevrilməyə başladı. Bunun nəticəsi idi ki, belə bir tarixi şəraitdə formalaşan nəsillər 1918-ci ildə müstəqil Azərbaycan Cümhuriyyətinin yaranmasında, Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi varlığının davam etdirməsinin təmin edilməsində həlledici rol oynadı.

---

[392] Şahverdiyev.Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.166
[393] Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.180-181
[394] C.Məmmədquluzadənin həyat və fəaliyyəti haqqında bax: Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Təkmilləşdirilmiş ikinci nəşri. Naxçıvan, 2009; Yenə onun, Böyük ədəbiyyat nəhəngi. Bakı, 2012 və s.

BEŞİNCİ FƏSİL

NAXÇIVAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ

5.1.Naxçıvan Azərbaycanda dövlətin bərpası uğrunda mübarizə dövründə (1917, fevral-1918, may)

1917-ci il fevralın 27-də Rusiyada çarizm devrildikdən sonra rus imperiyasının hər yerində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik yaranmışdı. Bir tərəfdən diyarda qəza komissiyalarının və ictimai təşkilatların kənd icraiyyə komitələrinin timsalında Müvəqqəti hökumətin hakimiyyəti yaranmış, digər tərəfdən isə Naxçıvanda əlahiddə fəhlə və əsgər deputatları sovetləri, Culfa şəhərində, habelə Şahtaxtı dəmir yolu stansiyasında əsgər sovetləri təşkil edilmişdi. Mütləqiyyətin devrilməsi Cənubi Qafqazda siyasi prosesləri sürətləndirdi və sonrakı dövrdə hadisələrin inkişafına ciddi təkan verdi. Müvəqqəti hökumətin ilk addımlarından biri Cənubi Qafqazın idarə edilməsi ilə bağlı xüsusi qurum yaratmaqdan ibarət oldu. Bu məqsədlə mart ayının 9-da Cənubi Qafqazı idarə etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM) yaradıldı. Xüsusi Zaqafqaziya Komitəsi elə həmin aydan başlayaraq, bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan qəzalarında Müvəqqəti hökumətin hakimiyyət orqanları olan ictimai təşkilatların icraiyyə komitələrini və komissarlıqları yaratmağa başladı.[395] Naxçıvan və Şərur qəzalarında isə Xüsusi Zaqafqaziya Komitəsinin vəkalətli komissarları 1917-ci il aprel ayının axırlarında təyin edildi. Yalnız 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkilləri Naxçıvanda yerli hakimiyyət orqanları - qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başlamışdılar. Sonrakı aylarda kənd ictimai təşkilatlarının icraiyyə və ərzaq komitələrinə seçkilər keçirilmiş, 1917-ci ilin yayında isə Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının yaradılması prosesi başa çatdırılmışdı.[396]

---

[395] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, s.36-37

[396] Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958, s. 14-15

Müvəqqəti hökumətə tabe olan Xüsusi Zaqafqaziya Komitəsi Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, qanunvericilik hüququna malik deyildi. Cənubi Qafqaz kimi mürəkkəb və çətin regionda sabitliyi təmin etmək üçün əsaslı addımlar atmaqda acizlik göstərən Xüsusi Komitə və onun yerli orqanları əslində hadisələrin gərginliyi fonunda batıb qalırdı.[397] Bu da öz növbəsində, bir çox bölgələrdə ikihakimiyyətliyin yaranmasına gətirib çıxarırdı.

Rusiyada Fevral inqilabının qələbəsi və mütləqiyyətin devrilməsi əsarət altına alınmış müstəmləkə xalqları arasında azadlıq əldə etmək ümidlərini artırdı və milli azadlıq hərəkatının genişlənməsinə səbəb oldu. Azərbaycan xalqı Fevral inqilabı xəbərini böyük sevinclə və ruh yüksəkliyi ilə qarşıladı. Fevral hadisələrindən sonra "Müsavat" partiyası açıq fəaliyyətə başladı. Gəncədə "Federalistlər" partiyası, İrəvanda "İrşad" milli partiyası təsis edildi. Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə uyğun olaraq "qarışıq milli komitələr" yaradıldı.[398] Milli komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmləndirilməsinə də kömək edirdilər. Eyni zamanda, milli komitələrin silahlı qüvvələrinin yaradılmasına başlandı. Milli komitələrdə təmsil olunan başlıca partiyalar – müsavatçılar və daşnaklar öz qüvvələrinin sayını artırmaq məqsədilə yerlərə təşkilatçılarını göndərdilər. Əlbəttə, ilk vaxtlar belə tədbirlər, daha çox demokratik vasitələrə riayət etməklə həyata keçirilmişdi. Belə bir cəhəti qeyd etməliyik ki, Naxçıvan diyarında azərbaycanlıların əhalinin böyük əksəriyyətini təşkil etməsi onların qarışıq milli komitələrdə də təmsil olunmasında özünü göstərirdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından onlar müxtəlif fitnəkar tədbirlərə əl atır, milli düşmənçiliyi qızışdırırdılar. Bu isə, təbii olaraq müsavatçıların və daşnakların qarışıq milli komitələrdə birgə fəaliyyət göstərməsini getdikcə çətinləşdirirdi. Milli komitələrin "milli hissələr" bayrağı altında öz silahlı qüvvələrini yaratması erməni fitnəkarlarının təhlükəli mövqe tut-

---

[397] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s. 68

[398] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 37

masına imkan verirdi. Lakin Naxçıvan Milli Komitəsində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması dinc əhalinin daşnakların fitnəkar hərəkətlərindən qorunmasında böyük rol oynadı. Hadisələrin sonrakı inkişafı bunu bir daha təsdiqlədi. Naxçıvanda fəaliyyət göstərən sovetlərin işi ilə bağlı qeyd etmək lazımdır ki, onlar daha çox rus ordu hissələrinə arxalanırdılar. Məsələn, 1917-ci il martın 9-da Naxçıvanda ştabs-kapitan Prokopoviçin təşəbbüsü ilə yaradılan qarnizon komitəsi fəaliyyətinin ilk günlərində qarnizon rəisi Qrippenberqi vəzifəsindən kənar etmiş, Tiflis qarnizonu Sovetinin İcraiyyə Komitəsi ilə əlaqə yaratmağa çalışmışdı. Martın ortalarında Şahtaxtı Soveti 6-cı Qafqaz fəhlə batalyonunun polkovniki Vişkonu həbs etmişdi. İlk vaxtlar Sovetlərin fəaliyyətində yerli əhali demək olar ki, iştirak etməmişdi. Bu hal təsadüfi deyildi. Çünki rus qoşun hissələri Naxçıvandan çəkildikdən sonra Sovetlərin fəaliyyəti xeyli zəifləmiş və onlar Naxçıvan milli komitələri tərəfindən dağıdılmışdı.

1917-ci ilin oktyabr çevrilişi xalqların milli müstəqilliyə olan ümidlərini daha da artırdı. Bu ümidlər bolşeviklərin elan etdikləri bəyannamələrdən irəli gəlirdi. Sülh haqqında dekret, habelə "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiyanın və Şərqin müsəlman zəhmətkeşlərinə müraciətnaməsi ilk addım kimi keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratmaq üçün hüquqi təminat verirdi. Lakin az sonra məlum oldu ki, bu sənədlər real əməli addımlardan uzaq olub, daha çox təbliğat xarakteri daşıyır.

Bolşeviklər hakimiyyətə gəldiyindən Cənubi Qafqazın idarə edilməsi üçün yeni hakimiyyət forması yaradılmalı idi. Gürcü menşeviklərin rəhbəri Noy Jordaniyanın təklifi ilə regionu idarə etmək üçün Cənubi Qafqaz Komissarlığının yaradılması qərara alındı. Noyabrın 15-də yeni yaradılmış hökumətin tərkibi elan edildi. Ona gürcü menşeviki E.P.Geqeçkori sədrlik edirdi və Cənubi Qafqazın hər üç milləti komissarlıqda təmsil edilmişdi. Azərbaycandan F.Xoyski, M.Y.Cəfərov, X.Məlik Aslanov, X.Xasməmmədov müxtəlif nazirliklərə rəhbərlik edirdilər. Bu hakimiyyət strukturunun daxilində də ciddi fikir ayrılıqları ortaya çıxdı.

1918-ci ilin əvvəllərində Naxçıvan ciddi təhlükəyə məruz qaldı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdılar.[399] Təqribən bir il ərzində erməni cəlladları İrəvan quberniyasında 197 kəndi talan etmişdilər[400] 1918-ci ilin fevralında Zaqafqaziya Komissarlığını Zaqafqaziya Seyminin əvəz etməsi və Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq uğrunda fəaliyyətin güclənməsi Naxçıvan milli komitəsindəki ziddiyyətləri daha da dərinləşdirdi və nəticədə müsavatçılarla daşnakların birgə fəaliyyət imkanları təbii olaraq aradan qalxdı. Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsi yalnız güclü hərbi qüvvəyə arxalanmaqla təmin oluna bilərdi. Bakının daşnakların və eserlərin əlində olduğu bir şəraitdə Naxçıvan Milli Komitəsi real köməyi yalnız türklərdən ala bilərdi. Buna görə 1918-ci ilin yazında Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski o zaman türklərin tabeliyində olan Maku xanlığına getmiş, burada Maku xanının vasitəsilə türk komandanlığı ilə əlaqə yaratmış və Naxçıvana türk hərbi dəstələri yeridilməsi barədə danışıqlar aparmışdı. Naxçıvan əhalisinin təhlükəsizliyinə heç bir təminat vermək iqtidarında olmayan Zaqafqaziya Seymi Cəfərqulu xanın belə hərəkətlərindən narazı qalmış və bunu Naxçıvan xanlarının Zaqafqaziya Seymini və Rusiyanı tanımaq istəməməsi kimi qiymətləndirmişdi. [401]

Daşnakların mənfur niyyətlərinə yaxşı bələd olan türk komandanlığı hələ 1918-ci ilin fevralında Naxçıvanın təhlükəsizliyi naminə bir sıra tədbirlər görmüş və öz qoşunlarını şərq istiqamətində xeyli irəli çəkmişdi. Bu əməliyyatın vacibliyi həm də bundan irəli gəlirdi ki, o zaman Şimali İrandakı ingilis ordusu Türkiyə sərhədlərinə xeyli yaxınlaşaraq onun həyati mənafeyi üçün real təhlükə yaratmışdı. Türk komandanlığı Zaqafqaziya Komissarlığı nümayəndələri ilə danışıqlarda ingilislərə qarşı fəal döyüş əməliyyatları keçirmək məqsədilə, həmçinin, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının, eləcə də Culfa-Aleksandropol dəmir yolu xəttinin onların nəzarəti altına keçməsinin zəru-

---

[399] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 39

[400] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy.l, iş 185, v. 7

[401] Sadıqov S. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995, s.15

riliyini qeyd etdilər. Belə olan təqdirdə, Naxçıvan diyarının da daşnakların yeni basqınlarından qorunması üçün real təminat əldə olunardı.

Zaqafqaziya Komissarlığı hələ 1917-ci il dekabrın 18-də 3-cü türk ordusunun komandanı Mehmet Vehib paşa ilə barışıq bağlasa da, türklərin yuxarıda qeyd etdiyimiz tələblərini qəbul etmədi. Bununla belə, türklərin Zaqafqaziya Komissarlığı ilə müstəqil surətdə danışıqlara başlamaq təklifi qəbul olunmuşdu. Bu təklif mahiyyət etibarı ilə Zaqafqaziyanı Rusiyadan ayırmaq yolunda ciddi addım sayıla bilərdi.

Dördlər İttifaqı ölkələri ilə Sovet Rusiyası arasında 1917-ci ilin dekabrından başlanan Brest-Litovsk sülh danışıqları 1918-ci il martın 3-də eyni adlı müqavilənin imzalanması ilə nəticələndi. Brest-Litovsk müqaviləsinin Qafqazla bağlı IV maddəsinə görə, Sovet Rusiyası rus qoşunlarının işğalı altında olan Şərqi Anadolu vilayətlərinin boşaldılmasını və Osmanlı dövlətinə müntəzəm bir şəkildə geri verilməsi üçün əlindən gələn hər bir şeyi etməyi və 1877-1878-ci il Rusiya-Osmanlı müharibəsinin nəticəsində Osmanlı dövlətinin ödəyə bilmədiyi təzminatın əvəzi olaraq Rusiyaya verməyə məcbur olduğu Qars, Ərdəhan və Batum vilayətlərini türklərə geri qaytarmağı öz üzərinə götürdü. Bununla bağlı adı çəkilən müqavilənin VI maddəsində deyilirdi: "... Ərdəhan, Qars və Batum vilayətləri Rusiya orduları tərəfindən dərhal boşaldılacaq. Rusiya dövləti bu ərazilərin yeni idarə formasına və hüquqi durumlarına qarışmayacaq. Bu bölgələrin gələcək idarə forması qonşu dövlətlər və xüsusilə Osmanlı dövləti ilə razılaşacaq yerli əhali tərəfindən müəyyən ediləcəkdir".[402]

Lakin, 1917-ci ilin Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda yaranan Zaqafqaziya Komissarlığının, daha sonra, 1918-ci il fevralın 23-də yaranan Zaqafqaziya Seyminin Sovet Rusiyasını tanımaqdan imtina etməsi Brest-Litovsk müqaviləsinin Cənubi Qafqazla bağlı maddələrinin yerinə yetirilməsi yolunda ciddi problemlərə yol açdı. Belə ki, Zaqafqaziya Seymi bəyan etdi ki, o bolşevik hökumətini tanımır və bu səbəbdən Zaqafqaziya Seyminin iştirakı olmadan Sovet Rusiyasının imzaladığı Brest-Litovsk müqaviləsinin Qafqazla bağlı müddəalarını yerinə yetirməyəcəkdir. Bu səbəbdən Türkiyə hökuməti Cənubi

---

[402] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 111; Документы внешней политики СССР. Т. 1, с. 121; 14 Caucasian Boundaries: Documents and Maps. 1802-1946. Edited by Anita L.P.Burdett. Richmond, Archive Editions, 1996, p. 464

Qafqazda yaranan yeni siyasi vəziyyəti nəzərə alaraq, Cənubi Qafqazla bağlı Brest-Litovskda Sovet Rusiyasına qəbul etdirdiyi müqavilə əsaslarını Zaqafqaziya Seyminə də qəbul etdirmək məcburiyyətində qaldı. Türkiyə tərəfi ilə Seym arasında aparılan bir sıra məsləhətləşmələrdən sonra Brest-Litovsk müqaviləsinin şərtlərinin yerinə yetirilməsi və sərhədlərin müəyyən edilməsi ilə bağlı tərəflər arasında Trabzonda konfrans keçirilməsi qərarlaşdırıldı. Türkiyə ilə Seym arasında Trabzon danışıqları 1918-ci il martın 14-də açıldı və aprelin 13-dək davam etdi və nəticəsiz başa çatdı. Brest sülhünü qəbul edib, Qars, Ərdəhan və Batum vilayətlərinin Türkiyəyə keçdiyini təsdiq etməklə bağlı Trabzondakı Zaqafqaziya nümayəndələri arasında, həmçinin Seymdəki fraksiyalar arasında birlik yox idi. Erməni və gürcülər Türkiyənin tələblərini rədd edib, onunla müharibə aparmağa çalışırdılarsa, Azərbaycan fraksiyası qarşılıqlı güzəştlər əsasında Osmanlı imperiyası ilə razılığa gəlməyi təklif edirdi. Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxartdı ki, gürcülər Batumu əldə saxlamaqla Qars və Ərdəhanın güzəştə gedilməsinə razı idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Azərbaycan fraksiyası isə bu fikirdə idi ki, Qars və Ərdəhanın əhalisinin əksəriyyəti türklər olduğu üçün Brest-Litovsk müqaviləsinin bu iki vilayət haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Zaqafqaziyanın tərkibində ayrıca müsəlman respublikasına çevrilməlidir, əgər bu mümkün olmazsa, onda o, Türkiyəyə birləşdirilməlidir. Batum isə xaricə mühüm çıxış yolu kimi Zaqafqaziyanın tərkibində qalmalıdır.[403] Aprelin 13-də danışıqlar kəsildi və Seym hökuməti Türkiyənin Brest-Litovsk sülhünün şərtlərinin yerinə yetirilməsi ilə bağlı tələblərinin qarşısına silahla çıxmaq haqqında qərar qəbul etdi. Nəticədə, səkkiz gün davam edən müharibə nəticəsində Osmanlı dövləti Brest-Litovsk sülhü ilə ona verilmiş ərazilərə silah gücünə yiyələndi. Bu da öz növbəsində, Batum konfransında türklərin mövqeyinin sərtləşməsinə gətirib çıxardı.

1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Türkiyənin tələblərini qəbul etdiyini bildirdi və sülh danışıqların davam etdirilməsini xahiş etdi. Elə həmin gün Seym Zaqafqaziyanı müstəqil demokratik, federa-

---

[403] BOA, HR. SYS, D. 2371, G. 6, v. 6; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 132.

tiv respublika elan etdi[404] və bununla da, Zaqafqaziyanın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi.

Osmanlı dövləti ilə Zaqafqaziya Respublikası arasında Batum konfransı 1918-ci il may ayının 11-də açıldı və fasilələrlə iyunun 4-nə qədər davam etdi. Batum konfransının 1918-ci il mayın 11-də keçirilən ilk və son ümumi iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə Türkiyənin tələblərini şərh edərək bildirdi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılmışsa həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz.[405] Daha sonra on iki maddə və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Zaqafqaziya Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsi müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim edildi. Bu layihədə artıq Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi.[406] Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Qəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Zaqafqaziyanın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi.[407] Zaqafqaziya nümayəndə heyəti isə, Brest-Litovsk müqaviləsi əsasında sülh bağlamaq üçün Batuma gəlmişdi.[408] Türk tələbləri ilə bağlı nota Zaqafqaziya nümayəndə heyətinə təqdim edildikdən sonra nümayəndəlikdə gərgin bir vəziyyət yarandı və Zaqafqaziya heyətində, həmçinin Seymdə onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşməyə başladı. Batum danışıqlarında meydana çıxan ziddiyyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni

---

[404] Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000, s.92.

[405] Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 313-314; Каземзаде Ф. Борьба за Закавказье (1917-1921). Баку, 2010, с.110

[406] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 147-148; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s. 38; Авалов З. Независимость Грузии в международной политике. 1918-1921 гг. Париж, 1924, с. 42

[407] Yenə orada, s. 157-158

[408] BOA, HR. SYS, D. 2398, G. 7

nümayəndələrinin isə Almaniyaya sığınmasına gətirib çıxartdı ki, belə şərtlər daxilində Zaqafqaziya Federasiyasının mövcudluğu sual altında qaldı.

1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi və burada Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi. Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi.[409] Seymin buraxılması ilə yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər.[410] Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi.[411] Beləliklə, Türkiyənin haqlı tələblərinə münasibətdə vahid bir fikrə gələ bilməyən Zaqafqaziya Seymi süqut edərək Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarına parçalandı.

5.2. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan

Türkiyə Zaqafqaziya Seymi ilə başladığı Batum danışıqlarını Seymin parçalanmasından sonra yaranan Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları ilə davam etdirdi və bu danışıqlar 4 iyun 1918-ci il tarixli Batum müqavilələrinin imzalanması ilə nəticələndi. Trabzon konfransında Osmanlı dövlətinin Brest-Litovsk sülhü ilə bağlı tələblərini qəbul etməyən və nəticədə müharibəyə rəvac verən erməni və gürcülərdən fərqli olaraq Azərbaycan nümayəndələrinin sülh tərəfdarı olmalarına və sonadək Türkiyə ilə müharibəyə qarşı mübarizə aparmalarına baxmayaraq, sonda Ermənistan və Gürcüstanla paralel olaraq Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Azərbaycan Tiflis quberniyasının Abastuman və Askueri istisna olmaqla Axıska və Axalkələk qəzalarının, İrəvan quberniyasının Aleksandropol (Gümrü)

---

[409] Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919, с. 336-338.
[410] ARDA, f. 970, siy. 1, iş 1, v. 46-47
[411] Yenə orada, v. 49-50

və Sürməli (İğdır) qəzalarının, Eçmiədzin qəzasının Sərdarabad hissəsinin Osmanlı dövlətinə keçdiyini qəbul etməklə bərabər, İrəvan qəzasının Qəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələrini, Şərur-Dərələyəz qəzasının Şərur hissəsini və Ordubad istisna olmaqla Naxçıvan qəzasını Türkiyəyə verməli oldu. Bundan əlavə, Aleksandropol (Gümrü) türklər tərəfindən tutulduqdan sonra Azərbaycan yeni yaranan erməni dövləti üçün siyasi mərkəz olaraq İrəvanı ermənilərə güzəştə getməyə məcbur edildi.[412]

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olundu. Baş nazir F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Şuranın üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verdi. Fətəli Xan öz məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün Aleksandropol türklər tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Daha sonra bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd etdilər. Nəticədə 28 nəfər Şura üzvündən 16 nəfəri bu təklifin lehinə səs verdi.[413] Bununla da İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu.

Batum konfransı başa çatdıqdan sonra erməni quldur dəstələri bu müqaviləni tanımadıqlarını bəyan edib türklərə qarşı silahlı mübarizələrini davam etdirsələr də, bunun elə bir əhəmiyyəti olmadı. Osmanlı dövləti Batum müqavilələri ilə əldə etdiyi ərazilərə yiyələndi. 1918-ci il iyulun 20-də Osmanlı ordusu erməni quldur dəstələrinin müqavimətini qıraraq Naxçıvana girdi və beləliklə Naxçıvanda türk bayrağı dalğalanmağa başladı. 11-ci alay komandanı Sürəyya bəy Naxçıvan Məhəlli hökumət rəisi təyin edildi. Bir qədər sonra onu Əli Şəfiq bəy əvəz etdi.[414] 1918-ci il avqustun 15-də Osmanlı Sultanı VI Mehmed Vahidəddin tərəfindən "Elviye-i Səlasə" əhalisinə yayımlanan bir bə-

---

[412] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 182-183

[413] ARDA, f. 970, siy. 1, iş 1, v. 51-52.

[414] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 184.

yannamə ilə bu torpaqlar rəsmən ilhaq edildi. Sentyabrın 14-də bölgədə idarəçilik orqanlarının qurulması haqqında qərarnamə qəbul edildi. Bu qərarnaməyə görə, Qars, Ərdəhan, Batum və ətraf ərazilərdə (Batum müqavilələrinə görə Osmanlı dövlətinə keçən ərazilərdə) Batum və Qars livalarından ibarət mürəkkəb Batum vilayəti təşkil edildi. Naxçıvan da Qars livası tərkibində qəza olaraq Batum vilayətinə daxil oldu.[415] Birinci dünya müharibəsinin sonuna qədər Naxçıvan Türkiyənin tərkibində qaldı. 1918-ci il oktyabrın 30-da dünya müharibəsində məğlub olan Türkiyənin Mudros barışığını imzalamasından sonra, noyabrın 18-də Naxçıvan və ətraf yerlərin silahlı erməni quldur dəstələrinin və Ermənistan Respublikasının təcavüzündən qorumaq zərurətindən bu ərazilərdə Araz-Türk Respublikası yaradıldı.[416]


1918-ci ilin mayında müsəlman şərqində ilk dəfə yaradılmış yeni suveren dövlət - Azərbaycan Xalq Cümhuriyyəti çətin və mürəkkəb şəraitdə 23 ay yaşayıb fəaliyyət göstərdi. Bu Cümhuriyyət Rusiya ilə yanaşı dünyanın böyük dövlətlərinin - ABŞ, İngiltərə və Fransanın siyasi, iqtisadi siyasətlərinin məngənəsində mübarizə aparmalı oldu, öz suverenliyini qoruyub saxlamaq üçün bütün vasitələrə əl atdı, bu yolda çox mürəkkəb problemlərlə üzləşdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113 895, 97 kv. km idi. Onun 97 296, 67 kv. km-i mübahisəsiz, 16 598, 30 kv. km-i mübahisəli zonaları əhatə edirdi.[417]

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı. Azərbaycan tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti, Antanta ölkələri ilə əlaqələri, qonşu ölkələrlə münasibətləri, daxili regionlarla əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər bir sıra tarixçilər tərəfindən öyrənilmişdir. Bu sahədə T.Svyatoxovski, O.Alştadt, C.Həsənli, N.Nəsibzadə, İ.Musayev, A.Hacıyev, B.Nəcəfov, A.Balayev və başqalarının tədqiqatları diqqəti xüsusilə cəlb edir. Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın

---

[415] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 184.
[416] Bir sıra tədqiqatçılar bunun noyabrın 3-də olduğunu qeyd edirlər
[417] Azərbaycan tarixi. Yeddi cilddə, beşinci cild (1900-1920-ci illər), Bakı, 2008, s. 161.

əlaqələrindən tədqiqat əsərlərində bəhs edilsə də, problemin bütün tərəfləri öyrənilməmişdir. Hətta bu problemlə bağlı müxtəlif fikirlər mövcuddur.



Culfa şəhəri. Dəmiryol vağzalı. 1900-cü il

Mübahisəli ərazilər

28.V.1918 Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

28 may 1918-ci ildə Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyini elan etdi. Bununla bütün şərqdə və türk dünyasında ilk demokratik respublika yarandı. Azərbaycan Milli Şurası öz üzərinə icra və qanunvericilik səlahiyyətləri götürdü.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının birinci sədri Fətəli xan Xoyski təyin edildi. Azərbaycan hökuməti səlahiyyətli dövlət strukturu yaratdı. Azərbaycan-türk dili dövlət dili elan edildi, dövlət bayrağı təsdiq edildi və yeni yaradılan azərbaycan ordusuna çağırışın elan edilməsi haqqında qərar qəbul olundu.

18 noyabr 1918-ci ildə Azərbaycan Milli Şurası özünü Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti elan etdi. Ə.M.Topçubaşov Parlamentin sədri seçildi.

Cümhuriyyətin ərazisi müəyyən edilərkən qarşıya böyük çətinliklər çıxdı. Ən ağır ərazi problemi Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhədlərin müəyyənləşdirilməsi idi. Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikası Azərbaycanın Naxçıvan, Şərur - Dərələyəz qəzalarına və Dağlıq Qarabağa iddialar irəli sürdü. Eyni zamanda Azərbaycana məxsus olan Zəngəzur ərazisini də özünə birləşdirməyə çalışırdı. Gürcüstan Respublikası Zaqatala dairəsinə iddialar qaldırırdı. Azərbaycan hökuməti öz qanuni torpağı olan Borçalı qəzasının Gürcüstan Respublikasının tərkibinə daxil olmasını qəbul etməkdən imtina edirdi. Azərbaycan həmçinin Cənubi Dağıstan (Tabasəran) ərazisinə də haqlı iddia irəli sürürdü.

Azərbaycan sovet tarixşünaslığında belə bir fikri əsaslandırmağa çalışmışlar ki, guya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ayrı-ayrı bölgələrinin ərazi toxunulmazlığını və onların əhalisinin təhlükəsizliyini nəinki təmin edə bilməmiş, hətta buna cəhdlər belə göstərməmişdir. Lakin arxiv sənədləri, obyektiv araşdırmalar bu mövqeyin həqiqətə uyğun olmadığını göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin "rəhbərliyi və yerli hakimiyyət orqanları imkanları daxilində bu problemlərə diqqət yetirmiş, torpaqlarımızın bütövlüyü və suverenlik məsələlərində daxili və xarici düşmən qüvvələrə qarşı barışmaz mövqe tutmuşlar".[418] Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti öz fəaliyyətində, daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra

---

[418] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 142.

məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdir.[419] Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqədar Naxçıvan ətrafında yeni konkret tarixi şəraitdə sosial və ictimai-siyasi qüvvələrin yeni nisbəti yaranmışdı. Cümhuriyyətin fəaliyyət göstərdiyi dövrdə baş vermiş sosial və siyasi proseslər bir-biri ilə çox sıx əlaqəli inkişaf edirdi. Bu proseslər daxili və xarici amillərin mürəkkəb qarşılıqlı təsirini əks etdirən bir mənzərə yaratmışdı. RSFSR çar Rusiyasından miras qalmış millətçilik ideologiyasını hər vəchlə müdafiə və inkişaf etdirərək çox mürəkkəb şəraitdə müsəlman aləmini parçalamaq, bu regionda ona arxa ola biləcək xristian dövləti - Ermənistan Respublikası yaratmaq məqsədi ilə cəhdlərini daha da genişləndirirdi. Rusiya Türkmənçay müqaviləsi əsasında Azərbaycandan qoparıb imperiyaya birləşdirilmiş ölkəmizin tarixi torpaqlarının - İrəvan quberniyasının, həmin əraziyə tabe edilmiş Naxçıvan diyarının, Şərur-Dərələyəz və Ordubad qəzalarının süni surətdə yaradılmış Ermənistana birləşdirilməsini elan etdi.

Həmin illərdə Naxçıvan məsələsi həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi dünün nöqtələrindən birinə çevrildi. Bu dövr Naxçıvanda hakimiyyətin tez-tez dəyişilməsi illəri olmuşdur. Bu müddətdə müsavatçılardan və daşnaklardan ibarət yaradılmış Milli Komitələr, ABŞ və İngiltərə arasında Naxçıvana yiyələnmək uğrunda ardı-arası kəsilməyən mübarizələr getmişdir.

Ermənistan Respublikasının Naxçıvana hücumları, hakimiyyət çəkişmələri bu bölgəni daha çıxılmaz vəziyyətə salmışdı. Əhalinin xeyli hissəsi qaçqına çevrilmişdi, aclıq hökm sürürdü. Naxçıvan diyarına 1828-1830-cu illərdə köçürülmüş və burada məskunlaşdırılmış erməni əhalisi diyarda vəziyyətin daha da mürəkkəbləşməsinə çalışırdı. Naxçıvandakı ermənilərə, xarici silahlı qüvvələrə arxalanan Ermənistan Respublikası Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirirdi. ABŞ, İngiltərə, Fransa, Rusiya dövlətləri Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər. Naxçıvan ermənilərı diyarın təkləndiyindən və daxildəki ziddiyyətlər, habelə hakimiyyətsizlik

---

[419] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev. Naxçıvan, 2010, s.6

məngənəsində boğulduğundan istifadə edərək Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər. Erməni qüvvələri vəziyyətin mürəkkəbliyindən, qarışıqlıqdan istifadə edərək "Böyük Ermənistan" yaratmaq üçün ərazi iddiaları irəli sürürdülər. Ermənilər torpaq iddiaları ilə bağlı layihə hazırlamış və bunu Ənvər paşaya da təqdim etmişdilər. Bu layihəyə görə Naxçıvan və Ordubadla bırlikdə Sürməli, Axalkələk, Eçmiədzin, İrəvan (qəzası), Borçalı, Qazax, Şərur-Dərələyəz, Qarabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi. Ermənilər bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzaların əhalisinin 70 faizi ermənilərdir. [420] Əslində isə Şərur-Dərələyəz qəzasında əhalinin 72,3 faizini, Naxçıvan qəzasında 62,5 faizini, İrəvan qəzasında 60,2 faizini, Sürməlidə 70 faizini, Qarayazıda 89 faizini azərbaycanlılar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi. 1918-ci ilin yayında Naxçıvan ikitərəfli təhlükə ilə rastlaşdı. Bir tərəfdən Naxçıvana köçürülən və burada yaşayan erməni əhalisi bu diyarın Ermənistana birləşdiriləcəyi barədə yayılan şayiələrdən ruhlanaraq Naxçıvana Ermənistanın bir hissəsi kimi baxır və diyarın müxtəlif yerlərində hər cür fitnəkarlıq törədirdilər. Digər tərəfdən isə daşnakların ingilislərdən geniş yardım alaraq[421] Culfanı öz əlinə keçirmiş qaniçən Andranik Ozanyan Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdı: Yaycı, Dizə, Düylün, Süst, Çeşməbasar, Tumbul və b. kəndlər tamamilə dağıdılmışdı. Lakin bu azğınlıqlara baxmayaraq müttəfiq dövlətlər - İngiltərə və Fransa daşnakların hərbi əməliyyatlarına yardım göstərdiklərini bildirməkdə davam edirdilər. Belə ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi haqlı olaraq türklərlə əlaqəni daha da genişləndirməyi lazım bildi.[422] Həmin vaxtda türklər Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın koman-

---

[420] ARDA, f.894, siy. 10, iş 31, v. 4

[421] Emin Arif (Şıxəliyev). İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan, 2016, s.9,10

[422] Cəfərli E. Rusiya və Türkiyənin və Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri). Naxçıvan, 2016, s.159

danlığı altında olan türk diviziyası Şərur qəzasına daxil olduqdan sonra hücumu müvəqqəti dayandırmış və beləliklə Andranikin Naxçıvanı ələ keçirməsi üçün əlverişli imkan yaranmışdı. Belə bir şəraitdə Naxçıvan Milli Komitəsi daşnakların sayca üstün qüvvələri ilə döyüşə girmədən geri çəkilməyi məqsədəuyğun sayırdı. Bununla belə, bütün xalq öz torpaqlarının müdafiəsi üçün ayağa qalxdı. Nehrəm kəndində qonşu kəndlərin nümayəndələrinin fəal iştirakı ilə xalq qoşun dəstələri yaradıldı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsi ilə qarşılaşaraq onu əzdi. Andranik rüsvayçılıqla Qarabağ dağlarına qaçmağa məcbur oldu. Bu hadisələrdən sonra, yeni daşnak talanlarına yol verməmək məqsədilə türk qoşunları Naxçıvana, Ordubada və Culfaya daxil oldular. Türklərin daşnaklara qarşı döyüşdə kifayət qədər qətiyyətli olmaması Naxçıvan Milli Komitəsi ilə onların arasında soyuqluq yaratmışdı. Türklər Naxçıvana daxil olan vaxt ilk siyasi tədbir kimi Naxçıvan Milli Komitəsini və milli hissələri buraxmışdılar. Xəlil bəy isə Naxçıvanın general qubernatoru təyin olunmuşdu.[423] Lakin vəziyyət uzun sürmədi. Tezliklə Naxçıvan Milli Komitəsinin və onun silahlı dəstələrinin fəaliyyəti bərpa edildi. 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyil göstərirdi. Elə yerli hakimiyyət ki, daşnakların hücumuna davam gətirsin və diyarı heç vaxt onların tapdağı altına qoymasın. Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq qoşunlarını Azərbaycandan, Naxçıvandan çıxarmağa məcbur oldu.

5.3. Araz- Türk Respublikası (1918, noyabr- 1919, mart)

1918-ci ilin noyabrın 18-də yerli əhali Qafqazda altıncı olan Araz-Türk Respublikasının müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi.[424]

---

[423] Atnur İ.E. Osmanh yönetiminden Sovyet yönetimine kadar Nahçivan (1918-1921). Doktora tezi. Erzurum, 1996, s.36.

[424] Hacıyev A. Qars və Araz-Türk respublikalarımn tarixindən. Bakı, 1994, s.47

Araz-Türk Respublikasının əhalisi 1 milyon nəfər, ərazisi 8696 kv. km olmaqla[425] tərkibinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. bölgələr daxil idi.[426] Respublikanın paytaxtı Naxçıvan şəhəri, hökumətin sədri isə Əmir bəy Nərimanbəyov idi.[427] Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı.

Araz-Türk Respublikasının yaradılması ilə türklərin Naxçıvan diyarı ilə əlaqələri tamam kəsilmirdi. Türk ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasında səlahiyyətli nümayəndəliyin başçısı təyin olunmuşdu.[428] Bundan başqa, türklərin Naxçıvanda 5 zabit və 300 əsgəri qalırdı. Araz-Türk Respublikası qısa müddət fəaliyyət göstərməsinə (1918 noyabr - 1919 mart) baxmayaraq "bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsinə və bölgənin ermənilərə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etdi".[429]

Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. 1919-cu il yanvarın 4-də Naxçıvandan Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə göndərilən müraciətdə Naxçıvan, Şərur və Ordubad qəzalarında ermənilərin törətdiyi vəhşiliklər haqqında geniş məlumat verilirdi. Müraciətdə deyilirdi: "1917-ci ilin dekabr ayından başlayaraq 1918-ci ilin iyun ayına qədər erməni hərbi hissələri tərəfindən İrəvan quberniyasında 200-dən artıq müsəlman kəndi yandırılmış, əhalinin böyük əksəriyyəti öldürülmüş, bir hissəsi isə dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. Musəlmanların kütləvi şəkildə yaşadıqları İrəvan quberniyasının Sürməli, Eçmiədzin, Şərur qəzaları erməni qoşunları tərəfindən tutulmağa başlanıldığı vaxt dinc

---

[425] Naxçıvan tarixi atlası. Bakı, 2010, s. 33

[426] ARDA, f. 970, siy. 1, iş 1, v. 9

[427] Yenə orada, f. 894, siy. 10, iş 178, v.7; Bir sıra tədqiqat əsərlərində Əmir bəyin soyadı Əkbərzadə və başqa formalarda göstərilib ki, bunlar da həqiqəti əks etdirmir.

[428] Naxçıvan Muxtar Respublikası. Bakı, 2001, s. 91

[429] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s.76

müsəlman əhalisinin bir hissəsi öldürülür, bir hissəsi də öz yaşayış yerlərini tərk edərək dağlara çəkilib İran sərhədlərinə keçməyə məcbur olmuşdular ki, burada onları hər dəqiqə ölüm gözləyirdi.



Naxçıvan Araz-Türk Cümhuriyyəti
(noyabr 1918-mart 1919-cu illər)

Məcburi təmizlənmiş yerlərə, "Türkiyə Ermənistanı"ndan qaçmış ermənilər yerləşdirirlər".[430] 1918-ci il noyabrın 4-də İrəvan müsəlmanları, dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanları, yanvarın 4-də Ordubad qəzasının sakinləri, yanvarın 2-də İrəvan quberniyasının ictimai xadimləri yaranmış ağır vəziyyətlə bağlı Azərbaycan hökumətinə müraciət etmiş və tədbirlər görülməsini xahiş etmişdilər.[431] 1918-ci il dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanlarının Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə xəbər verirdi ki, "bəzi kəndlərdə bütün Zəngəzur qəzasının Ermənistana birləşməsi barədə Ermənistan hökumətinin elanları asılmışdır. Onların məqsədi bundan ibarətdir. Əgər bunu etməyə gücləri çatmasa, Zəngəzur, Şərur-Naxçıvan və Ordubad qəzalarının bütün müsəlman əhalisini qılıncdan keçirsinlər, bu qəzaları müsəlmanlardan təmizləsinlər ki, xalqların gə-

---

[430] ARDA, f. 894, siy. 10, iş 37, v. 9
[431] "Azərbaycan" qəzeti, 1919, 5-31 yanvar; 4 noyabr

ləcək sülh konfransında özlərinin bu yerlərə sahiblik hüquqlarını sübut etsinlər və həmin əraziləri Ermənistan elan etsinlər, çünki bütün xalqlar müsəlmanların yaşamadığı qəzaları ermənilərinki hesab edəcəklər... Nə vaxta qədər bizim hökumət öz müsəlman qardaşlarının qırılaraq məhv edilməsinə yabançı kimi soyuqqanlıqla tamaşa edəcəkdir...



Naxçıvan şəhəri.
Araz-Türk Respublikasının
qərargahının yerləşdiyi bina

Əgər ermənilər bu əraziləri müsəlmanlardan təmizləsələr, sonra gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq və burada bizim xalqımızın izi də qalmayacaq..."[432] 1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərməyə məcbur oldu. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu.[433] Yanvarın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti müzakirə etdi, qəbul olunmuş qətnamədə hökumətə ciddi tədbirlər görməyi tapşırdı. Yanvarın 25-də Parlament "İrəvan quberniyasındakı hadisələrə dair" məsələni yenidən müzakirə etdi.

---

[432] "Azərbaycan "qəzeti, 1919, 14 yanvar
[433] Yenə orada, 1919, 7 yanvar

M.Ə.Rəsulzadə bəyanatla çıxış edərək bildirdi ki, Naxçıvan qəzasında ermənilər günahsız müsəlmanların qanını tökür. O, hökuməti bir daha kəskin tədbirlər görməyə çağırdı.[434] Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərin Naxçıvandakı vəhşiliklərinə son qoymaq üçün müttəfiqlərin Qafqazdakı ali komissarına müraciət etdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılmasında və əhalinin problemlərinin həllində İrəvan quberniyasından olan ictimai xadimlərin, onların yaratdıqları müxtəlif təşkilatların mühüm rolu olmuşdur. 1919-cu ilin yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirilmiş, burada Araz-Türk Respublikasının yaranması, bölgədəki vəziyyət haqqında məlumat verilmiş və çıxış yolları göstərilmişdir. Yanvarın 5-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlı nümayəndələrin fövqəladə iclası keçirilmiş və quberniya müsəlmanlarının Həmyerlilər cəmiyyəti yaradılmışdı.[435] Bir gün sonra Həmyerlilər cəmiyyətinin idarə heyəti aşağıdakı tərkibdə seçilmişdi: T.Makinski, H.Qasımov, R.İsmayılov, M.Ə.Sidqi, A.Makinski. Həmyerlilər cəmiyyəti öz nümayəndəsi kimi Mirabbas Mirbağırovu (Mirbağırzadəni) İrəvan quberniyasına göndərdi. Burada əsas məqsəd yerlərdə vəziyyətlə tanış olmaq və müəyyən tövsiyələr hazırlamaq idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Naxçıvan əhalisinə, eyni zamanda İrəvan quberniyasından olan qaçqınlara müxtəlif yardımlar edir və onların ehtiyaclarını ödəmək üçün maliyyə vəsaiti ayırırdı. Azərbaycan hökumətinin Naxçıvan üçün ayırdığı 900 min manatı P.Bayrambəyov və Y.Qazıyevə vermişdi.[436] AXC hökumətinin razılığı ilə M.Mirbağırov Gəncəyə gəlmiş, burada ona 12 nəfər Azərbaycan zabiti qoşulmuş və onlar Ordubadda əhali ilə görüşdükdən sonra 1919-cu il fevralın 19-da Naxçıvana çatmışdılar.[437] M.Mirbağırov və onunla gələn heyət yerli hökumətin rəhbərləri, ingilis general-qubernatoru və xalqın nümayəndələri ilə görüşləri

---

[434] "Azərbaycan "qəzeti, 1919, 31 yanvar

[435] ARDA, f. 894, siy. 2, iş 94, v. 2

[436] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 92

[437] ARDA, f. 894, siy. 2, iş 94, v. 2

oldu. Fevralın 23-də keçirilən yığıncaqda Naxçıvan əhalisi yekdilliklə Azərbaycana birləşmək arzusunda olduğunu bildirdi. Nümayəndələr Azərbaycanın təmsilçiləri kimi mövcud yerli hökuməti tanıdıqlarını bildirdilər. M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət məsələlərinə dair maddələrdən ibarət olan akt hökumətin, Milli Şuranın və əhalinin nümayəndələri tərəfindən imzalandı.[438] Mirabbas Mirbağırov 1919-cu ildə Naxçıvanın Azərbaycana birləşməsi haqqında akt qəbul etdirmiş "Mirbağırzadə missiyası"nin başçısı kimi xatırlanır.[439] M.Mirbağırov Naxçıvanda olduğu müddətdə bölgədəki və ətraf yerlərdəki siyasi-hərbi vəziyyətlə tanış oldu, əhalinin və ictimai qüvvələrin mövqelərini öyrəndi. Bütün bunlardan sonra Azərbaycan hökumətinə aşağıdakı təkliflərini verdi: "1. Bu mahalı idarə etmək üçün müttəfiqlərin, İran və Ermənistanın təsirinə qarşı mübarizə aparmağa qabil olan, özgə təsiri altına düşməyən və müəyyən məqsədyönlü siyasəti inadla və ardıcıllıqla həyata keçirən, habelə iradəli, cəsur, qətiyyətli, rüşvətə meyil etməyən azərbaycanlı general-qubernator təyin olunmalıdır. 2. Bölgəyə Hərbi nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir. 3. Mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar, mütləq azərbaycanlılar təyin edilməlidirlər. 4. Yerli hərbi işi təşkil etmək üçün göndərilən zabitlər kifayət etmədiyindən əlavə zabitlər dəstəsini bölgəyə yollamaq lazımdır. 5. Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu və digər faydalı mineralları olan və müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Respublikası tərəfindən səxavətlə təchiz olunmalıdırlar".[440]

M.Mirbağırovun Naxçıvana səfəri, Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrinin artırılması sahəsindəki təkliflərinin çox böyük əhəmiyyəti oldu.

---

[438] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 94

[439] Tahirzadə Ə. Mirabbas Mirhüseyn oğlu Mirbağırzadə//525-ci qəzet, 2005, 19 fevral

[440] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 95

Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı. Azərbaycan hökuməti Naxçıvana kömək göstərilməsində bir sıra addımlar atdı. Regional əlaqələri yaxşılaşdırmaq üçün Ağdam-Karyagin-Naxçıvan poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizə edilməsinə diqqət artırıldı.[441] Ticarət və sənaye naziri M.Əsədullayev AXC Nazirlər Şurasına məktubla müraciət edərək Naxçıvan bölgəsinin neft məhsulları ilə təmin edilməsini əsaslandırdı. Azərbaycan hökuməti M.Mirbağırovun və Naxçıvanın Müvəqqəti hökumətinin işlər müdiri



Bəhram xan və Kamran xan Naxçıvanskilər

Bəhram xan Naxçıvanskinin təklifləri əsasında 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaratdı.[442] Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov onun köməkçiləri təyin olundular. General-qubernatorluğun nəzdində Şura yaradıldı. Yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün 500 min manat pul ayrıldı.[443] Bir qədər sonra - 1919-cu il 30 mart tarixli

---

[441] Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən, s. 61.
[442] ARDA, f. 894, siy. 2, iş 102, v.2
[443] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s.96

sərəncamla bölgədə idarəçiliyin təşkilinə daha 1 milyon manat ayrıldı.[444]

1919-cu il martın 8-də Araz-Türk Respublikasının xüsusi missiyası Bakıya gəldi. Bu missiyaya Bəhram xan Naxçıvanski rəhbərlik edirdi. O, yolüstü Tiflisdə və Gəncədə danışıqlar aparmışdı. Bəhram xan özü ilə Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirmək təklifini də gətirmişdi. Bəhram xan Bakıdan eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etdi.[445] Məhz Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən və AXC rəhbərləri ilə danışıqlarından sonra iki respublika arasında qarşılıqlı əlaqələrin fəallaşması nəzərə çarpır. Nümayəndə heyətinin qaldırdığı məsələlər Azərbaycan Parlamentinin 1919-cu il 10 mart tarixli iclasında müzakirə olundu.

5.4. Ermənilərin ərazi iddiaları. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə

1919-cu ilin əvvəlində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını, Naxçıvan Milli Komitəsini ləğv etmişdilər. İngilislər Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək üçün hər cür üsul və vasitələrə əl atır, fəal danışıqlar aparırdılar. Hələ 1919-cu il yanvarın əvvəllərində Böyük Britaniya ordusunun mayoru Hibbon Naxçıvana gəlmişdi. Onun gəlişinin əsl məqsədi diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz-Türk Respublikası silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdu.[446] 1919-cu ilin fevralında digər bir ingilis komissarı kapitan Lautenin başçılıq etdiyi nümayəndə heyəti də Naxçıvana gəlmişdi.[447] O, Britaniya qoşun hissəsinin Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda yerləşdirilməsi, bu yerlərdə bütün məsələlərin ingilis hakimiyyət orqanları tərəfindən həll ediləcəyi barədə danışıqlar aparmışdı. Naxçıvan rəhbərləri yerli muxtariyyəti saxlamaq şərtilə ingilislərin təkliflərini qəbul etmiş və hətta bir neçə ingilispərəst yerli hakimi öz hökumətlərinin tərkibinə daxil etmişdilər.[448] Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin bey-

---

[444] ARDA, f. 894, siy. 2, iş 102, v. 3

[445] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı,1996, s. 161.

[446] Мадатов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку, 1968, с.56

[447] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 314, siy.5, iş 67, v. 24

[448] NMRDA, f. 314, siy. 5, iş 67, v. 26

nəlxalq mövqelərinin kifayət qədər aydınlaşmadığı bir şəraitdə məqbul sayılan bu güzəştlər ingilislərə münasibətdə məqsədəuyğun addımlar idi. Bu güzəştlər başqa çıxış yolunun olmamasından və növbəti daşnak təhlükəsinin yaxınlaşmasından irəli gəlirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan bölgəsinə dair suveren hüquqlarının bərqərar edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi ingilislər tərəfindən müdafiə olunmur və müxtəlif maneələrlə qarşılaşırdı.[449] Ümumiyyətlə, Böyük Britaniya komandanlığının Naxçıvana münasibətdə ikiüzlü, riyakar siyasəti həmişə müşahidə olunmuşdur. Məsələn, M.Mirbağırovun başçılığı ilə Naxçıvana gələn nümayəndə heyətinə ingilis valisi "Bakının buraya hərbi işin təşkili üçün zabitlər göndərməyə haqqının olmadığını" bildirib, onlara eşitdirmişdi ki, "bu ərazi hələlik Azərbaycanın tərkib hissəsi deyil və məlum deyil ki, kimə çatacaq; indi burada ingilis general-qubernatorluğudur..."[450] Başqa bir fakt: 1919-cu il martın 10-da Ermənistanla Naxçıvan şəhərindəki daşnak hərbi hissələrindən Ermənistanın daxili işlər nazirinin adına göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı daşnakların Şərur qəzasının bir sıra kəndlərini tutmasına etiraz etmir. Elə bu siyasətin nəticəsi olaraq 1919-cu ilin iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da, yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovdu.[451] Yenə başqa bir misal: 1919-cu il mayın 4-5-də ingilis generalı Devi Naxçıvana gələrək bildirmişdir ki, Naxçıvan və Şərur qəzası Ermənistan Respublikası ərazisində yerləşdiyinə görə Ermənistan hökumətinə tabe olmalıdır.[452] Lakin həmin təklif müsəlmanların yığıncağında müzakirə olunarkən bildirildi ki, ermənilərin tutmuş olduqları ərazilər tarixən Azərbaycan torpaqları olduğundan və bu yerlərdə müsəlmanlar yaşadıqlarına görə Devinin təklifi məqbul sayıla bilməz. Naxçıvan və Şərur qəzalarının müsəlmanları özlərinin və yaşadıqları ərazinin Azərbaycan Respublikasına tabe olduğunu təsdiq edir və erməni silahlı hissələrini deyilən qəzaların ərazisinə buraxmamağı qərara alırlar.[453] Lakin ingilis ko-

---

[449] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s.129

[450] ARDA, f. 894, siy. 10. iş 76, v. 3

[451] Naxçıvan Muxtar Respublikası. Bakı, 2001, s. 91-92

[452] NMRDA, f. 314, siy. 5, iş 71, v. 17

[453] Газета «Азербайджан» от 16 мая 1919 г.

mandanlığı xalqın bu haqlı tələbinə də məhəl qoymadı. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək Naxçıvan ərazisindən kənara atdı.[454] Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər.[455] Milli Şura əlverişli vəziyyətdən istifadə edib, erməni nizami hissələrini əzdi. Naxçıvan və Şərur qəzalarının, demək olar ki, bütün ərazilərini tutaraq, burada öz şəriksiz nüfuzunu bərpa etdi.[456] İngilislərin Naxçıvan bölgəsində olduqları müddətdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi bu əraziyə dair öz suveren hüquqlarını müdafiə etmək, oranın təhlükəsizliyinin təminatına yardım göstərmək və azərbaycanlı əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, ən başlıcası isə, mahalı Quzey Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində müəyyən tədbirləri həyata keçirmək istəyirdi. Bir sıra hallarda ingilislər bunlara mane olurdular. İrəvan quberniyası müsəlman əhalisinə bir milyon manat vəsait çatdırılması üçün F.Xoyski 1919-cu il aprelin 3-də məktubla Tomsona müraciət etdi. Həm də hökumət komissiyasının Naxçıvan, Şərur və s. rayonlara getməsinə şərait yaradılmasını da xahiş etdi. Lakin hər iki xahişə mənfi cavab verildi. İngilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifini irəli sürürdülər.[457]

Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli müəyyən işləri görə bilməsə də, bəzi diplomatik-siyasi yollardan istifadə edirdi. Bu sahədə Azərbaycan hökumətinin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri səmərəli və işgüzar fəaliyyət göstərir, Azərbaycan rəhbərliyini və Xarici İşlər Nazirliyini obyektiv məlumatlarla təmin edir, bir sıra hallarda təkliflərini də çatdırırdılar. M.Təkinski Naxçıvanla bağlı AXC hökuməti sədrinə yazırdı ki, əgər Ermənistan Qarabağın Azərbaycana keçməsinə razılaşarsa, ingilislər

---

[454] ARDA, f. 970, siy. 1, iş 42, v. 3-4

[455] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti, s. 165

[456] Мадатов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, с. 51-53.

[457] Там же, с.59

Şərur-Naxçıvan rayonunu ona verəcəklər.[458] Onun fikrincə, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək olmazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında da M.Təkinskinin böyük əməyi olmuşdur.[459] O, bu məsələlərlə əlaqədar məlumat hazırlayaraq Xarici İşlər Nazirliyinə göndərirdi. Bununla əlaqədar F.Xoyski Azərbaycan hökumətinin məlum mövqeyini Tomsona bildirmişdi. Yəni, Naxçıvan rayonunun idarəsi müvəqqəti olaraq Ermənistana verilərsə, Azərbaycanın bu aktla heç vəchlə razılaşmayacağını bəyan etmişdi.

Naxçıvan bölgəsinin müsəlmanları özlərini Azərbaycanın ayrılmaz hissəsi sayır və hökumətdən silah-sursat alacaqlarına ümid edirdilər. Bu dövrdə Şərur-Naxçıvan bölgəsində süvari dəstə və top, pulemyotlarla birlikdə 6 minədək qoşun hissələri olmuşdur.[460] Bunlar öz döyüş keyfiyyətlərinə görə ermənilərinkindən heç də geri qalmırdı. Naxçıvanlılar baş nazirdən buraya zabit kadrları göndərməyi və 100 min manat pul buraxılmasını xahiş edirdilər.[461] Azərbaycan hökuməti Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat göndərmişdi və daha 300 min manat göndərilməsi nəzərdə tutulmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin baş nazirləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvana köməklik edir, onun Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir və qəhrəman naxçıvanlıların fəaliyyətlərini də yüksək qiymətləndirirdilər. F.Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu bölgə ilə bağlı qeyd etmişdir ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi.[462] 1919-cu il dekabrın 22-də N.Yusifbəyli parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdir: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni

---

[458] ARDA, f. 970, siy. 1, iş 54, v. 18

[459] Paşayev A. Məmməd xan Təkinski kimdir? "Xalq" qəzeti, 2010, 18 iyul

[460] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s.143

[461] ARDA, f. 970, siy. 1, iş 54, v. 30

[462] Газета "Азербайджан" от 10 сентября 1919 г.

özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa-vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar...".[463] Göründüyü kimi, Naxçıvan əhalisi ciddi-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün müxtəlif yol və vasitələr aramışdı. Bütün bunlar isə AXC tərəfindən razılıqla qəbul olunmuş, müəyyən tədbirlər görülmüşdü. Qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Naxçıvanla əlaqələrin çətinliyini nəzərə alaraq Qarabağ general-qubernatorunun Naxçıvan bölgəsinin idarəsi üzrə köməkçisi vəzifəsini təsis etmişdi. Bir qədər sonra isə Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkillik vəzifəsi yaradıldı. Səməd bəy Cəmillinski Naxçıvanın general-qubernatoru təyin edildi. S.Cəmillinskinin qərargahı əvvəlcə Ordubadda yerləşmiş, sonra isə Naxçıvana köçürülmüşdü. Naxçıvan və Ordubadda yerli hakimiyyətin və silahlı qüvvələrin təşkili üçün 1919-cu ilin avqustunda S.Cəmillinskinin sərəncamına 1 mln. manat vəsait ayrıldı. 1919-cu ilin ikinci yarısında Zaqafqaziya məsələləri üzrə Paris sülh konfransı adından çıxış edən ABŞ-ın rolu bölgədə kəskin surətdə artdı. Hələ 1919-cu ilin əvvəllərindən Azərbaycanla ciddi maraqlanan ABŞ nümayəndələri tez-tez Bakıda görünməyə başlamışdılar. Şübhəsiz, onların Azərbaycana dair planlarında mühüm strateji mövqedə yerləşən Naxçıvan diyarı da öz əksini tapmışdı. Lakin ilk vaxtlar amerikalıların siyasəti də ermənipərəstliyi ilə ingilislərdən az fərqlənirdi. 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ polkovniki Rey eyni vaxtda həm müsavatçılarla, həm daşnaklarla, həm də türk zabiti Xəlil bəylə danışıqlar aparmışdı.[464] O, Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq ideyasını irəli sürmüşdü.[465] 1919-cu il avqustun axırlarında Amerika polkovniki Paris sülh konfransı və Antantanın ittifaq şurası adından AXC hökumətinə bildirmişdi ki,

---

[463] ARDA, f. 894, siy. 10, iş 37, v. 4-5

[464] NMRDA, f. 314, siy. 5, iş 71, v. 71

[465] Quliyev C., Mədətov Q., Nadirov A. Sovet Naxçıvanı. Bakı,1984, s.29-30

Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general- qubernatorluğu təşkil olunacaqdır.[466]

1919-cu il sentyabrın 1-də Haskelin Paris sülh konfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi "Naxçıvan və Şərur-Dərələyəz qəzaları haqqında əsasnamə"də həmin fikirlər bir daha nəzərə çatdırıldı.[467] Əsasnaməyə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar bitərəf zona elan edilir və burada bütün idarəçilik işləri Amerika general-qubernatorluğuna tapşırılırdı.[468] Bütün hərbi qüvvələr, poçt, teleqraf onun tabeliyinə verilir, yerli vəzifəli şəxsləri general-qubernator təyin edirdi. Lakin ABŞ-ın həmin mövqeyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilmədi. Çünki 20 bənddən ibarət Haskel layihəsinin məzmunundan görünürdü ki, belə bir layihə amerikanlar tərəfindən hazırlana bilməzdi. Bu, müttəfiqlərin Ali komissarı Vilyam Haskelin adı ilə elan edilmiş erməni layihəsi idi. Bu layihə Azərbaycan hökuməti tərəfindən qəbul edilmədiyi üçün sentyabrın 27-də V.Haskel birincidən o qədər də fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi. Azərbaycan xarici işlər naziri sentyabr ayının 29-da Haskelə yazırdı ki, onun hökuməti şərtlərin bir qisminə etiraz edir. Bununla belə hökumət Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general-qubernatorluğun yaradılmasının əleyhinə deyildir. Azərbaycan hökuməti 12 bənddən ibarət layihə hazırladı və sentyabr ayında polkovnik Haskelə göndərdi. Layihədə göstərilirdi: "Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq, xüsusi general-qubernatorluq yaradılır; general-qubernatoru Amerika vətəndaşları içərisindən polkovnik Haskel təyin edir; bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə yolu ilə seçilən yerli şuralar tərəfindən idarə edilir; vilayətlərdə bütün hakimiyyət-inzibati, məhkəmə, dəmir və şose yolları, poçt-teleqraf, xalq maarifi və sair Şuranın müstəsna səlahiyyətinə daxil edilir və bu işi general-qubernator tənzim edir; Şura tərəfindən

---

[466] Мадатов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР, с. 65

[467] NMRDA, f. 314, siy. 5, iş 73, v. 135

[468] Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998, с.300-301

təyin edilən icra hakimiyyəti çoxluq təşkil edən millətin nümayəsindən olmalıdır; bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyətin və əmlakın toxunulmazlığı elan edilməlidir; general-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılmalı, çatışmayan məbləğ Azərbaycan xəzinəsindən əlavə edilməlidir; Azərbaycan pulu rəsmi pul vahidi kimi qəbul edilməlidir; seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib onların köməyi ilə qayda-qanun yaratmalıdır; neytral zonadan Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbaycan hökumətinə verilməlidir; general-qubernatorluğun əhalisi tərksilah edilməməlidir; general-qubernatorluğun bütün ərazisində amnistiya keçirilməlidir".[469] V.Haskel Azərbaycan tərəfindən təqdim edilən layihəni qəbul etmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və K.M.Əsgərovu qəbul edərək bildirdi ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmund Delli Naxçıvana qubernator təyin edilmişdir və bir aydan sonra öz vəzifəsinə başlayacaqdır. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin 10 bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisinin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi.[470] 1919-cu il oktyabrın 23-də Müttəfiqlərin Ali Komissarlığından Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə ünvanlanmış aşağıdakı məlumat alınmışdı: "Naxçıvan və Şərur rayonlarında əminamanlıq yaratmaq məqsədilə Azərbaycan və Ermənistan hökumətləri razılığa gəldilər ki, bu iki rayon bundan sonra da ittifaq səviyyəsində idarə edilən zonada Amerika qubernatorluğunun inzibati hakimiyyəti altında qalacaqdır".[471] 1919-cu il oktyabrın 22-də Bakıda AXC-nin rəsmi orqanı olan "Azərbaycan" qəzetində Naxçıvanda ABŞ polkovniki Edmund Delli başda olmaqla Amerika general-qubernatorluğunun təşkil olunması haqqında əsasnamə dərc edildi.[472] Bu isə çıxılmaz vəziy-

---

[469] Газета «Азербайджан» от 23 октября 1919 г.
[470] Yenə orada.
[471] "Azərbaycan" qəzeti, 1919, 23 oktyabr
[472] Газета «Азербайджан» от 22 октября 1919 г.

yətdə qalmış AXC rəhbərliyinin həmin məsələyə qeyri-rəsmi qaydada razılığı kimi qəbul edilə bilərdi. Bununla belə, Azərbaycan hökuməti ilə Naxçıvan Milli Komitəsi arasında qardaşlıq münasibətləri əvvəlki kimi saxlanılırdı. Əldə olunmuş razılığa əsasən, AXC hökuməti altı min nəfərlik qoşun hissələrini silahlandırmağı Naxçıvan Milli Komitəsinə vəd vermişdi.[473] Oktyabr ayının 24-də Ceyms S.Rey Naxçıvana gəldi və müsəlman Milli Şurası qarşısında neytral zona yaratmaq barədə V.Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi ki, Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını..., polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm. Ceyms Rey sərəncamla bəyanatda qeyd olunanları rəsmiləşdirdi. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarının nümayəndəsi kimi qaldı. Milli Şuradan C.Reyə məlumat verdilər ki, "xalq azərbaycanlı general-qubernatordan başqa heç kimi tanımaq istəmir". C.Rey başa düşürdü ki, neytral zona üçün nəzərdə tutulan ərazini Azərbaycandan ayırmaq qeyri-mümkündür. Noyabr ayında C.Rey və E.Delli cəhd göstərsələr də, general-qubernatorluq yarada bilmədilər, onların missiyası süquta uğradı və Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmadı. Bunu görən ermənilər 1919-cu ilin sonlarında Naxçıvana yenidən hücum etdilər. Ermənistanın nizami qoşun hissələri ilə Naxçıvan Milli Komitəsinin hərbi dəstələri arasında qanlı toqquşmalar başlandı. Bu qanlı döyüşlər amerikalıların ümidlərini doğrultmadı. Döyüş qabiliyyətini itirmiş Ermənistan ordusu heç bir əhəmiyyətli müvəffəqiyyət qazanmadı. Amerikalıların gözlədiklərinin əksinə olaraq hərbi toqquşmalar, azərbaycanlı əhaliyə qarşı törədilən qanlı cinayətlər Naxçıvan Milli Komitəsinin, müsavatçı Kalbalı xanın hərbi, inzibati və siyasi hakimiyyətini daha da möhkəmləndirdi. O, həmçinin, xəzinəyə, dəmir yoluna, poçt-teleqrafa və vergilərin qoyulmasına nəzarəti ələ keçirdi. Belə uğurlu vəziyyətə baxmayaraq amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhd göstərdikdə, diyarın müdafiəçilərinin vəziyyəti xeyli mürəkkəbləşdi. Azər-

---

[473] Газета «Азербайджан» от 22 октября 1919 г.

baycan Xalq Cümhuriyyətinin özündə siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım göstərilməsini çətinləşdirdi. Düşmənin üstün qüvvələri qarşısında tək və zəif qalmış Naxçıvan rəhbərliyi kömək üçün türklərə müraciət etməli oldu. Belə cəhd öz növbəsində Naxçıvanda Azərbaycanın mövqelərini xeyli zəiflətdi. Təsadüfi deyil ki, 1920-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri Naxçıvanı tərk etməyə məcbur oldular. Naxçıvanda hərbi-siyasi vəziyyət xeyli mürəkkəbləşdi. Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur, Ordubad və Naxçıvan torpaqları 1920-ci ilin ortalarına doğru tamamilə erməni daşnaklarından təmizləndi. Kalbalı xan və onun tərəfdarlarının səyləri nəticəsində Naxçıvandakı general-qubernatorluq 1920-ci ilin martında faktiki olaraq ləğv edilmiş və Naxçıvan yenidən dövlət müstəqilliyi qazanmışdı. Təsadüfi deyildir ki, o günlərdə Naxçıvan, Şərur, Ordubad və Vedibasar rayonu nümayəndələrinin iclası "qəti olaraq AXC-yə birləşmək" cəhdini ifadə edirdi.[474] Naxçıvan diyarının əhalisini erməni qırğınından xilas etmək üçün türklərin köməyinə ehtiyac duyulurdu. Yerli əhali nümayəndələrinin türk qoşunlarını Naxçıvana dəvət etmək barədə mətbuatda dərc olunmuş müraciətdə də həmin reallıq öz ifadəsini tapmışdı. Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymur bəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən böyük şadlıqla qarşılandı. Hadisələrin sonrakı gedişi bir daha təsdiq etdi ki, bu tədbir Naxçıvan əhalisinin yeni qırğınının qarşısını almış, diyarın gələcək siyasi taleyinin həllində, onun məhz Azərbaycan dövlətinin tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli, bəlkə də müəyyənedici rol oynamışdır.

Beləliklə, aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın itirilməsinə və ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş və bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparmış, eyni zamanda Naxçıvana hərbi və maddi köməkliklər göstərmiş, lakin bütün bunlarla yanaşı, özləri çətin ictimai-siyasi və hərbi vəziyyətlə

---

[474] Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən, s.116

qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməmişlər. Bölgə əhalisinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan ərazisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmış və nəhayət 1921-ci ilin yanvarında keçirilmiş referendumun nəticəsində, 1921-ci ilin martında və oktyabrında imzalanmış beynəlxalq Moskva və Qars müqavilələrinə uyğun olaraq Naxçıvan Azərbaycanın tərkibində saxlanılmışdır.

ALTINCI FƏSİL

NAXÇIVANIN MUXTARİYYƏTLƏŞDİRİLMƏSİ. NAXÇIVAN MSSR AZƏRBAYCAN SSR-İN MUXTAR QURUMU KİMİ

6.1. Naxçıvanın muxtariyyətləşdirilməsi

1920-ci il aprelin 28-də Bakıda Azərbaycanda sovet hakimiyyəti qurulmasının elan edilməsi ilə onun tarixində yeni, lakin fərqli bir dövr başladı. Azərbaycanın dövlətçilik tarixi üçün milli zəminə malik olmayan, əvvəlki dövlətlər ilə heç bir varislik əlaqəsinə əsaslanmayan dövlət yaradılmağa başlandı. Onun əsas fəaliyyət istiqamətlərindən biri də yeni hökumətin Azərbaycanının bölgələrinə yayılmasına nail olmaqdan ibarət idi. Naxçıvan bu siyasətdə mühüm yer tuturdu.

AK(b)P MK Siyasi Bürosu 1920-ci il iyulun 28-də Naxçıvandakı vəziyyəti müzakirə edərək, Azərbaycan İnqilab Komitəsinə tapşırdı ki, Naxçıvan məsələsini prinsipial şəkildə aydınlaşdırsın, Ermənistan ilə Azərbaycan arasında sərhədləri müəyyənləşdirsin və Naxçıvan diyarında sovet hakimiyyətinin qurulmasına kömək göstərsin. Elə həmin gün axşamüstü XI Qırmızı Ordunun hərbi hissələri Naxçıvan şəhərinə daxil oldu. 1920-ci il iyulun 28-də Naxçıvanda da sovet hakimiyyətinin qurulması rəsmən elan edildi.[475] Naxçıvan Sosialist Sovet Respublikasının[476] elan edilməsi ilə eyni zamanda, respublikanın ali hakimiyyət orqanı - Naxçıvan İnqilab Komitəsi yaradıldı. Naxçıvanın ayrıca sovet sosialist respublikası elan edilməsinə baxmayaraq, o özünü Azərbaycanın tərkib hissəsi hesab edirdi. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin Azərbaycan SSR XKS-in sədri N.Nərimanova göndərdiyi məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet

---

[475]Daha ətraflı bax: Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958; Naxçıvan tarixi.Üç cilddə, ikinci cild, s.332-340

[476] Naxçıvanın sovetləşdirilməsindən sonra onun rəsmi adı bir neçə dəfə dəyişdirilmişdir: 1920, 28 iyul-1923, 27 fevralda Naxçıvan Sosialist Sovet Respublikası; 1923, 27 fevral-1924, 18 yanvarda-Naxçıvan Muxtar Diyarı; 1924, 18 yanvar-1936, 5 dekabrda-Naxçıvan Muxtar Sosialist Sovet Respublikası; 1936, 5 dekabr-1990, 17 noyabr-Naxçıvan Sovet Sosialist Respublikası; 1990-cı il 17 noyabrından-Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi hesab etmişdir".[477]

Azərbaycanda sovet hakimiyyətinin qurulmasında həlledici rola malik olan Sovet Rusiyası yenə ikili siyasət yeridir, erməni daşnak qüvvələri ilə eyni zamanda həm müharibə, həm də danışıqlar aparılırdı. Sovet Rusiyasının təşəbbüsü ilə 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə barışıq sazişi imzalandı.[478] Sazişə görə tərəflər hərbi əməliyyatları dayandırmalı, erməni qoşunları Şahtaxtı-Xok-Çalxanqala-Sultanlı, daha sonra Küküdən şimala və Bazarçaydan qərbə uzanan demarkasiya xəttində dayanmalı, sovet qoşunları isə Qarabağ, Zəngəzur və Naxçıvanı tutmalı idilər. Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan ermənilər qeyri-hərbi məqsədlər üçün istifadə edə bilərdilər. Beləliklə, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının məsələsi müzakirə olunur, Ermənistanla danışıqlarda Sovet Rusiyası onun adından çıxış edirdi. Bu danışıqlarda Azərbaycanın mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu bilən Nəriman Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda, həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir...".[479]

İ.Stalin 1920-ci ilin noyabrın 9-da Bakıdakı çıxışında demişdir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar".[480]

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla

---

[477] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 609, siy.1, iş 6, v.3

[478] ARDA, f.28, siy.1, iş 20, v. 171-172

[479] ARPİİSSA, f.609, siy.1, iş 71, v.1; Nəriman Nərimanov. Tərtib edən və ön sözün müəllifi T.Əhmədov. Bakı, 2010, s.103

[480] ARPİİSSA, f.1, siy.1, iş 24, v.30

çıxış etdi.[481] HİK- in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diqtəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir".[482]

S. Orconikidze dekabrın 2-də Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə Rusiya rəhbərliyinə məlumat verir və həmin gün RSFSR ilə Sovet Ermənistanı arasında bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" adlandırırdı.

Beləliklə, 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarınm Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

1920-ci ilin dekabrın 2-də RSFSR ilə Sovet Ermənistanı arasında səkkiz maddədən ibarət Gümrü müqaviləsi imzalandı. Həmin müqavilənin üçüncü maddəsində göstərilirdi ki, Rusiya Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini - İrəvan quberniyasının, Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir.[483]

Naxçıvan əhalisi Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr 1920-ci il bəyanatına və sonrakı qərarlara kəskin etirazını bildirdi. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan rəhbərliyi Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. B.Şahtaxtinski Naxçıvan şəhərində, Şərur və Ordubadda əhali ilə keçirdiyi görüşlərdə 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə əlaqədar əsl həqiqəti əhaliyə söyləməli oldu: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Mən Azərbaycan İnqilab Komitə-

---

[481] NMRDA, f.314, siy. 5, iş 15, v.6

[482] Yenə orada

[483] Международная политика новейшего времени в договорах, нотах и декларациях, ч. III, вып.I. M., 1928, c.75-76; Azərbaycan tarixi. Yeddi cilddə. Altıncı cild (aprel 1920-iyun 1941). Bakı, 2008, s.63

sinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib, özümlə Bakıya aparacağam. Sizin torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq üçün yeganə qüvvə Türkiyə qoşunlarıdır.

Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər".[484]

B.Şahtaxtinskinin əhali ilə görüşləri və söhbətləri öz nəticəsini verdi. Diyarın əhalisi Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil sovet respublikası yaradılmasını tələb edirlər. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz münasibətini müəyyən qədər də olsa dəyişməsinə səbəb oldu. Türkiyənin yardımına güvənən Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli və inadlı mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozdu.

Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir. Əslində Ermənistanın Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil respublika kimi tanıması onun düşünülmüş, məkrli planlarının tərkib hissəsi idi. Naxçıvanı müstəqil qurum kimi tanımaqla Ermənistan gələcəkdə onu ilhaq etmək niyyəti güdürdü.

Azərbaycan bolşevik rəhbərliyi Naxçıvan vilayətində təsirli tədbirlər görmək, əhalinin narazılığını sakitləşdirmək üçün B.Şahtaxtinskini 1921-ci il yanvarın 11-də Hərbi İnqilab Komitəsinin mandatı ilə fövqəladə komissar kimi Naxçıvana göndərdi.[485]

Naxçıvanın ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi ilə Azərbaycanın ərazi bütövlüyünə ciddi zərbə vuruldu. Belə bir şəraitdə Naxçıvanın ərazi statusuna dair yeni baxışın meydan gəlməsi zəruri oldu. Bu vəziyyət muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".[486]

Naxçıvan diyarının əhalisi də Azərbaycan Sovet Sosialist Res-

---

[484] NMRDA, f.314, siy. 5a, iş 66, v.1

[485] ARPİİSSA, f.1, siy.2, iş 18, v.15

[486] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 24-cü kitab. Bakı, 2005, s.75

publikasının tərkibində muxtariyyət tələb edirdi. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi.[487] Bu rəy sorğusunun nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında mühüm rol oynadı.

Naxçıvan məsələsində N.Nərimanovun əvvəlki mövqeyindən fərqli olaraq sonradan prinsipial mövqe tutması, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə və nəticə etibarı ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etdi. Ümumiyyətlə, Naxçıvan Diyar İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri, Azərbaycanın Ədliyyə komissarı, Rusiyada Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi, Azərbaycan SSR-in Fəhlə-Kəndli Müfəttişi, Azərbaycan Xalq Komissarları Sovetinin sədr müavini kimi çox məsul vəzifələrin öhdəsindən layiqincə gələn Behbud ağa Şahtaxtinskinin Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidməti olmuşdur.[488] O, fəaliyyəti dövründə Azərbaycan SSR-in müxtəlif problemləri ilə bağlı RSFSR XKS-in sədri V.Leninə teleqramlar vurmuş, məktublar yazmış, bu məktublara bir sıra arayışlar da əlavə etmişdir.[489] Onun V.Leninə göndərdiyi məktub və arayışlar içərisində 1921-ci il martın 1-də göndərdiyi teleqram və ona daxil etdiyi əlavələrin xüsusi əhəmiyyəti vardır.[490] B.Şahtaxtinskinin V.Leninə ünvanladığı teleqramda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sür-

---

[487]NMRDA, f.2, siy.2, iş 9, v.79

[488] İbrahimzadə F.Z. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı, 2007; Behbud ağa Şahtaxtinski: Sənədlər və materiallar. Toplayanı, tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev. Naxçıvan, 2017, s.22-24; Əhmədova F. B.Şahtaxtinskinin V.Leninə məktubunda mərkəzi hakimiyyətin Azərbaycana dair siyasətinin təhlili//Milli Azərbaycan Tarixi Muzeyi, 2016, s.263-275

[489] Həbibbəyli İ. Behbud ağa Şahtaxtinskinin Leninə məktubları. "Şərq qapısı" qəzeti, 2011, 6 oktyabr

[490] ARPİİSSA, f. 1022, siy.5, iş 56, v.1

müşdü.[491] Martın 7-də V.Leninin dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmışdı.

Naxçıvanın Azərbaycan SSR-in himayəsi altında olan muxtar ərazi statusu 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsində də öz əksini tapdı. Türkiyə tərəfi istər Moskva danışıqları ərəfəsində, istərsə də onun gedişində Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi. Bu, bəzi daha önəmli strateji və geosiyasi amillərlə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafə və hələlik yeganə nöqtə olması, bölgənin Moskva-Ankara diplomatik münasibətlərində başlıca vasitəçi rolu oynaması ilə əlaqədar idi.[492] Həmçinin 4 iyun 1918-ci il tarixli Batum müqaviləsinə görə Naxçıvan Türkiyənin himayəsinə keçdiyindən türklər bu bölgəyə öz əraziləri kimi baxırdılar. Türk heyətinin rəhbəri Y.Kamal bəy Rusiyaya yola düşmək ərəfəsində, dekabrın 13-də Mustafa Kamal paşa ilə görüşərkən "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə, nə yapalım?" deyə soruşduqda o, "Naxçıvan türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni yapınız",- cavabını vermişdi.[493]

Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər konfransın 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olundu. Türk heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Lakin Rusiya tərəfi bunu qətiyyətlə rədd edirdi. Naxçıvan məsələsi ilə bağlı Çiçerinlə aparılan müzakirələrin düyünə düşməsi türk heyətini yenidən İ.Stalinlə görüşməyə sövq etdi. İ.Stalin türk heyəti ilə Naxçıvan məsələsini müzakirə etdi. Azərbaycan nümayəndəsi B.Şahtaxtinski də bu müzakirələrdə iştirak edirdi. İ.Stalin Naxçıvan məsələsi ilə bağlı B.Şahtaxtinskinin fikrini soruşduqda, o bildirdi ki, "Naxçıvanın Rusiyanın himayəsində müstəqil bir dövlət olaraq qalması" məqbuldur.[494]

---

[491] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s.314

[492] Yenə orada, s. 302.

[493] Mustafa Kamal Paşa. Nahçıvan Türk Kapısıdır. Dinleyip Nakleden: Faruk Sümer. Türk Dünyası Tarih Dergisi, Nisan 1992, Sayı 64, s. 5-6; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 396-397.

[494] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 397

1921-ci il martın 10-da keçirilən iclasda Türkiyə nümayəndələri belə bir mövqedən çıxış edirdilər ki, Naxçıvan bölgəsi əhalisinin türk qoşunlarını dəvət və qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olduğunu göstərir. Qeyd edək ki, Gümrü (Aleksandropol) müqaviləsində də Naxçıvanın Türkiyənin himayəsi altında olduğu təsbit edilmişdi.[495] Naxçıvanın Türkiyənin himayəsində qalması ilə bağlı təklif qəbul olunmadıqda, türk heyəti təklif etdi ki, Naxçıvan Türkiyə ilə Azərbaycanın müştərək himayəsi altında müstəqil bir dövlət olsun. Lakin Rusiya tərəfi bu təklifi də qəbul etmədi. Belə olan təqdirdə türk heyəti bildirdi ki, Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır.[496]

Nəticədə, Rusiya tərəfinin "Naxçıvan vilayətinin Azərbaycanla daimi əlaqədə olması və onun himayəsi altında muxtariyyətdən istifadə etməsi" formulu Türkiyənin "Azərbaycanın bu protektoratı hər hansı bir üçüncü dövlətə güzəştə getməməsi" şərti ilə tamamlandı. Naxçıvan mahalının sərhədlərinin müəyyənləşdirilməsi hərbi ekspertlərə tapşırıldı.[497]

Konfransın martın 12-də keçirilən iclasında əsasən Naxçıvan dairəsi və Ermənistan arasında müəyyənləşdirilən sərhədlər ətrafında mübahisələr getdi. Rusiya tərəfi bildirdi ki, ekspertlərin müəyyənləşdirdiyi sərhəd xətti Azərbaycanın maksimum tələblərini də ötüb keçir, çünki o, heç vaxt İrəvan qəzasının hər hansı bir hissəsinə himayəçiliyə iddia etməmişdir. Rusiya tərəfinin fikrincə, Sovet respublikaları arasında sıx əlaqələr olduğundan bu məsələ birinci dərəcəli əhəmiyyət kəsb etməsə də, Şərur-Dərələyəz dairəsinin sərhədini etnik prinsipə müvafiq çəkmək lazım gəlir. Türkiyə tərəfi isə haqlı olaraq məsələnin bu cür qoyuluşuna kəskin etiraz etdi və öz mövqeyini əsaslandırmaq üçün aşağıdakı dəlilləri gətirdi: a) Məhz bu yerlərdə məlum qanlı hadisələr baş vermiş və türk qoşunlarının bölgəyə gəlməsinə ehtiyac yaranmışdır; b) Bütün bu dairə müsəlmanlarla məskunlaşmışdır və s. Bütün bunlara görə

---

[495] ARDA, f. 28, siy. 1, iş 55, v. 86

[496] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 397

[497] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 302-303

həmin ərazi üzərində də himayə hüququ Azərbaycana verilməlidir.[498]

Nəhayət, sonda Türkiyənin təklifi ilə Şərur-Dərələyəz dairəsinin Naxçıvana keçməsi və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədin Kömürlü dağ (6930) və Saray Bulaq (8071) dağlarından, Ararat stansiyasından başlaması barədə razılığa gəlindi və bütün bu məsələlərin Azərbaycan, Ermənistan və Türkiyə nümayəndələrindən ibarət qarışıq komissiyanın razılaşdırılmasına verilməsi qərara alındı.[499]

Konfransın 1921-ci il martın 14-də keçirilən iclasında Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi.[500] Beləliklə, danışıqlarda yaranmış gərginliklərə baxmayaraq, türk diplomatiyası göstərdiyi ciddi səylər sayəsində Moskva konfransında Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail ola bildi, Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı.[501]

Müqavilənin 3-cü maddəsində deyilirdi ki, "Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir".[502] "Naxçıvanın ərazisi" adlı I (B) əlavəsində bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: "Ararat stansiyası - Saray Bulaq dağı – Kömürlüdağ - Sayatdağı (7868) – Qurdqulaq kəndi - Həməsür dağı (8060) - 8022 yüksəkliyi - Kükü dağı (8282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".[503] Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi.

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Qars müqaviləsinin beşinci maddəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini qəti olaraq həll etdi. Burada deyilirdi: "Türkiyə hökuməti ilə Ermənistan və Azərbaycan Sovet

---

[498] ARPİİ SSA, f. 609, siy. 1, iş 94, v. 48-54;Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 303

[499] Yenə orada, v. 53-54

[500] Yenə orada, v. 59

[501] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 399

[502] ARDA, f.28, siy.1, iş 67, v. 3; ARPİİSSA, f.609, siy.1, iş 94, v.93

[503] İsmayil Soysal. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları. I cilt (1920-1945). 2. Baskı. Ankara, 1989, s.38

hökumətləri Naxçıvan vilayətinin bu müqavilənin 3 nömrəli əlavəsində müəyyən edilmiş sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar bir ərazi olduğu məsələsində müttəfiqdirlər".[504]



Qars danışıqlarının aparıldığı bina

Müqavilə maddəsindən də göründüyü kimi, burada Moskva müqaviləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni, "Azərbaycanın bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmamışdı.[505] "Naxçıvanın ərazisi" adlı 3 nömrəli əlavədə bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyasına (bu stansiyanı Ermənistan SSR-də saxlamaqla), sonra düz xətlə qərbi Daş-Burun dağına (3142) və daha sonra suayrıcı xətlə şərqi Daş-Burun dağı (4108) və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağırsaq dağı (6607), (6587 suayrıcı xətti ilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6625 yük-

---

[504] ARDA, f. 28, siy. 1, iş 69, v. 9-19; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 413

[505] Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 2004, s.18

səkliyindən keçərək Kömürlü dağına (6839), (6930) və daha sonra 3080 - Sayatdağ (7868) yüksəklikləri ilə Qurdqulaq kəndi, Həməsür dağı (8160), 8022 yüksəkliyi, Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".[506]

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi.[507] Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi.

Bununla belə, Moskva müqaviləsindən fərqli olaraq Naxçıvanın statusu və tabeçiliyinə aid Azərbaycanın himayəçilik hüququ haqqında müddəa Qars müqaviləsində əks olunmamışdır.

Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir..."[508]

Naxçıvanın tarixi müqəddəratında, onun Azərbaycanın tərkibində saxlanılmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin də rolu böyükdür. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələr onu imzalayan dövlətlər tərəfindən birtərəfli qaydada ləğv edilə bilməz.

Naxçıvan ətrafında beynəlxalq danışıqlar və onun nəticələri bölgədə cərəyan edən ictimai-siyasi proseslərə də ciddi təsir edirdi. Naxçıvan diyarında keçirilən rəy sorğusu (1921) onun Azərbaycan SSR tərkibində qalmasını və muxtariyyətləşdirilməsinin təsdiq etdi. Beləliklə, Azərbaycan SSR tərkibində Naxçıvanın muxatariyyətləşdirilməsinin həyata keçirilməsi üçün hər cür hüquqi zəmin meydana gəldi. Əsas məsələ bu ideyanın reallaşdırılmasından ibarət oldu. Məhz bu


---

[506] ARPİİSSA, f.609, siy.1, iş 94, v.114-115; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 413-414

[507] Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi. Tərtib edən və ön sözün müəllifi İ.Hacıyev. Bakı, 1999, s.17

[508] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 22-ci kitab. Bakı, 2007, s. 249

istiqamətdə ciddi çətinliklər yaranmağa başladı və Naxçıvanın Azərbaycan SSR tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi.



Qars müqaviləsinin (13 oktyabr 1921-ci il)
bağlandığı qatar otağı
(Qars muzeyi)

Azərbaycan SSR-in partiya, sovet və təsərrüfat orqanları Naxçıvan Respublikasında dövlət və təsərrüfat quruculuğu məsələləri ilə bilavasitə məşğul olur və əhaliyə yeni həyat quruculuğunda hərtərəfli köməklik göstərirdi. Naxçıvanda vəziyyəti öyrənmək üçün 1921-ci il aprelin 13-də AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosu Naxçıvana komissiya göndərməyi qərara aldı.[509] Həmin ilin payızında RK(b)P MK-nın Qafqaz bürosunun qərarı ilə diyarın kənd təsərrüfatının bərpası üçün Naxçıvana 20 min manat qızıl pul, 10 vaqon taxıl ayrıldı.[510] Eyni zamanda, Azərbaycan SSR XKS-in sədri N.Nərimanovun sərəncamı ilə Naxçıvanda təsərrüfat və mədəni quruculuq üçün 5,5 milyard manat pul ayrıldı.[511] 1921-ci ilin sonunda Naxçıvan Respublikasında sovetlərə seçkilər keçirildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in I Sovetlər qurultayı çağırıldı. Qurultay diyarda sovet, təsərrüfat və mədəni quruculuğa dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab

---

[509] ARPİİSSA, f.1, siy.74, iş 123, v.10
[510] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.47
[511] Yenə orada

Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradıldı.

Naxçıvan SSR Sovetlər qurultayı ölkədə ali dövlət hakimiyyəti orqanı idi. Qurultaylar arasında isə bu vəzifəni Naxçıvan MİK yerinə yetirirdi. Naxçıvan SSR MİK-i Xalq Komissarları Sovetini formalaşdırırdı. Xalq Komissarları Soveti həm MİK, həm də Sovetlər qurultayı qarşısında məsul idi.[512]

1922-ci il mayın 22-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının Azərbaycan MİK tərəfindən təqdim olunmuş layihələrini müzakirə etdi. Naxçıvan diyarı haqqında Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı Azərbaycan SSR-in qəyyumluğu altında muxtar respublika elan edilərək, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın".[513] Əsasnamədə göstərilirdi ki, Naxçıvan diyarının dövlət hakimiyyəti Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq təşkil edilir.

Naxçıvan SSR Konstitusiyasının layihəsində deyilirdi: "Naxçıvan SSR, dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların bərabər hüquqlara malik olmalarını təsdiq edərək, bu zəmində hər hansı imtiyazların və ya üstünlüklərin müəyyən olunmasının, yaxud bunlara yol verilməsinin, eləcə də milli azlıqlara qarşı hər cür zülmün və ya onların hüquq bərabərliyinin məhdudlaşdırılmasının respublikanın əsas qanununa zidd olduğunu elan edir".[514]

Naxçıvan diyarı haqqında Əsasnamə və Naxçıvan SSR Konstitusiyasının layihələri AK(b)P MK-nın Rəyasət Heyətində müzakirə edildi. Layihələrin son variantı, xüsusilə, Naxçıvan diyarının muxtariyyəti haqqında məsələ RK(b)P MK-nın müzakirəsinə verildi. 1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikasının yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi. 1922-ci ilin dekabrın 12-də Zaqafqaziya Sovetlərinin birinci qurultayı Azərbaycan SSR tərkibində Naxçıvanla bağlı qərar çıxardı: "Naxçıvan Respublikası Azərbaycanın muxtar vahid hüququnda ayrılmaz tərkib hissəsi hesab edilsin".[515]

---

[512] Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2011, s.480
[513] ARPİİSSA, f.1, siy.74, iş 127, v.158
[514] Третья сессия Закавказского ЦИК-а V созыва. Стенограф. Отчет. Тифлис, 1931, с. 98
[515] Первый Закавказский съезд Советов. Тифлис, 1923, с.144

1922-ci ilin dekabrında Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR ZSFSR-də birləşdi. Dekabrın 30-da hər üç respublika ZSFSR tərkibində SSRİ-yə daxil oldu. Bununla Azərbaycan SSR-in suveren hüquqları məhdudlaşdırıldı. Buna baxmayaraq, Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətinin təsbit edilməsi ləng də olsa həyata keçirilirdi.

RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin Rəyasət Heyəti Cənubi Qafqaz Sovetləri birinci qurultayının 1923-cü il 18 yanvar tarixli qərarı əsasında "Naxçıvanı Muxtar Respublikaya çevirməyi, Naxçıvan Xalq Komissarları Sovetini və Naxçıvan MİK-i Naxçıvan Diyarının İcraiyyə Komitəsinə çevirməyi" təklif etdi.[516]

AK(b)P Mərkəzi Komitəsi iki gün sonra həmin qərarı müzakirə edərək Naxçıvan MİK və XKS-nin ləğv olunması və Naxçıvan Diyar İcraiyyə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Yanvarın 22-də AK(b)P MK-nin Rəyasət Heyəti bu məsələ ilə əlaqədar Diyar partiya konfransı çağırmağı və məsələni Naxçıvan Diyarı sovetlər qurultayında müzakirə edib bəyannamə hazırlamağı tapşırdı. Naxçıvan Diyar Partiya Təşkilatının 1923-cü il fevralın 23-də keçirilən üçüncü qurultayı Azərbaycan SSR-in tərkibinə daxil olmasını bölgənin iqtisadi, siyasi və mədəni inkişafı üçün mühüm zərurət kimi qiymətləndirdi və belə bir qətnamə qəbul etdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın...".[517]

1923-cü il fevralın 27-də üçüncü Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi məsələsini geniş müzakirə etdi və bəyanatla bölgənin ayrılmaz hissəsi kimi Azərbaycana daxil olmasını vacib saydı. Qurultayın qərarında deyilirdi ki, Naxçıvan SSR Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın; bütün Naxçıvan diyarı özünün aparatları ilə muxtar diyar hüququnda Azərbaycan SSR-in tərkibinə daxil olsun.[518] Qurultayın başqa bir qərarı ilə qəzalar ləğv edildi, Naxçıvan Muxtar Diyarının bütün ərazisi isə 6 sahəyə bölündü: Tumbul,


---

[516] Гулиев Дж.Б. К истории образования Второй Республики Азербайджана. Баку, 1997, с.129

[517] NMRDA, f.40, siy.4, iş 15, v.10

[518] Yenə orada, v.7

Cəhri, Əbrəqunus, Şahtaxtı, Noraşen və Ordubad. Azərbaycan MİK-in 1923-cü il iyulun 16-da keçirilən üçüncü sessiyası Naxçıvan diyarının Azərbaycan SSR-in muxtar ərazisi kimi onun tərkibinə daxil olması haqqında Naxçıvan Sovetlər qurultayının vəsatətini təsdiq etdi.[519]



Naxçıvan MSSR (1924-1929-cu illər)

Naxçıvan SSR-in muxtar diyar kimi təşkil olunması Azərbaycan MİK-in Naxçıvan Muxtar Diyarı haqqında Əsasnamə ilə həyata keçirilirdi. Bununla Naxçıvanın əvvəlki siyasi hüquqları məhdudlaşdırıldı. Respublikadan təcrid olunmuş şəraitdə yaşayan Naxçıvan üçün bunu qənaətbəxş hesab etmək olmazdı. Lakin muxtar diyar dövrü uzun sürmədi. 1923-cü il dekabrın 11-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Respublikasına çevrilməsi məsələsini müzakirə edərək Azərbaycan MİK-ə təklif etdi ki, Naxçıvan Muxtar Respublikasının yaradılması barədə məsələni Cənubi Qafqaz MİK qarşısında qaldırsın.[520]

---

[519] Paşayev A. Açılmamış səhifələrin izi ilə, s.382

[520] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.54

Azərbaycan SSR MİK 1923-cü il dekabrın 31-də Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qəti qərar qəbul etdi və Cənubi Qafqaz MİK-dən bu qərarın təsdiq olunmasını xahiş etdi. Cənubi Qafqaz MİK-in 1924-cü il yanvarın 8-də keçirilən birinci plenumu Naxçıvan Muxtar Diyarının muxtar respublikaya çevrilməsi haqqında qərar qəbul etdi.[521] Buna uyğun olaraq Naxçıvan MİK-in birinci plenumu 1924-cü il yanvarın 18-də muxtar diyarın Naxçıvan MSSR-ə çevrilməsi məsələsini müzakirə etdi. Naxçıvan MSSR MİK, XKS və əkinçilik, daxili işlər, ədliyyə, maarif, səhiyyə nazirlikləri yaradıldı, inzibati cəhətdən o, Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü.[522]

AK(b)P MK Rəyasət Heyətinin 1924-cü il 4 fevral tarixli qərarı ilə Naxçıvan Respublikası haqqında Əsasnamə hazırlanmağa başlandı. Azərbaycan MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsbit olundu.

Naxçıvanın muxtariyyəti sovet milli dövlət quruculuğunda özünəməxsus yer tuturdu. Cənubi sovet respublikaları içərisində Azərbaycanla eyni zamanda, muxtar qurumlara malik olan Gürcüstan SSR ilə müqayisə aparılsa, bu qurumlar (Abxaziya və Acarıstan MSSR-lər) titul xalqdan fərqli etnosları-abxaz və acarları əhatə edirdi. Naxçıvan isə Azərbaycanın həyatının ayrılmaz tərkib hissəsi olub, onun əhalisi ilə eyni idi. Bu məsələ də Naxçıvan muxtariyyətinin xüsusiyyətlərindən idi. Beləliklə, Naxçıvanın muxtariyyətləşdirilməsi prosesi başa çatdı. Təbii ki, bundan sonra Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının dinamikası və onun həyata keçirilməsi, bu problemlərin Azərbaycan dövlətçiliyində yeri və rolunun müəyyən edilməsi ən önəmli məsələ oldu.

6.2.Naxçıvan MSSR Azərbaycan SSR-in muxtar qurumu kimi (1920-ci illərin ortaları-80-ci illərin sonu)

1920-ci il aprelin 28-də Azərbaycan SSR müstəqil dövlət kimi elan edilmişdi. Buna baxmayaraq, Sovet Rusiyasının siyasəti nəti-

---

[521] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.55
[522] NMRDA, f.40, siy.2, iş 5, v.5

cəsində tədricən onun suveren hüquqları məhdudlaşdırılmağa başlandı. 1920-ci ilin sentyabrında Azərbaycan SSR və RSFSR arasında bağlanmış müqavilələr ilə ölkədə hərbi quruculuq tamamilə Sovet Rusiyasına keçdi. Azərbaycan SSR-in Gürcüstan və Ermənistan ilə birlikdə 1922-ci ildə ZSFSR-də birləşməsi onun suveren hüquqlarının məhdudlaşdırılması yolunda yeni bir mərhələ oldu. Azərbaycan SSR-in ZSFSR tərkibində 1922-ci ilin dekabrında SSRİ-yə daxil edilməsi ilə onun formal müstəqilliyinə də son qoyuldu. 1923-cü ildə Azərbaycan SSR-in tərkibində əhalisinin müəyyən hissəsi ermənilərdən ibarət olan Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması[523] ilə Azərbaycanın ərazi bütövlüyü üçün təhlükə mənbəyi də formalaşdırıldı. 1924-cü ildə muxtariyyətləşdirilməsi başa çatdırılan Naxçıvan MSSR, məhz belə bir şəraitdə fəaliyyət göstərməli oldu.

Sovet dövləti Naxçıvanda sovet hakimiyyətinin qələbəsindən etibarən onun idarəsini siyasi-hüquqi baxımdan öz məqsədlərinə tabe etməyə çalışırdı. Azərbaycan SSR-in əsas hüquqi sənədi olan 1921-ci il Konstitusiyasında Naxçıvanla bağlı xüsusi maddə əks olunmamışdı. Naxçıvanın muxtariyyətləşdirilməsi prosesində onun siyasi-hüquqi statusunun müəyyənləşdirilməsi də diqqət mərkəzinə keçdi.[524] Naxçıvan MSSR haqqında Əsasnamənin layihəsini hazırlamaq üçün komissiya yaradıldı. Naxçıvan Respublikası haqqında Əsasnamənin layihəsi 1924-cü il fevralın 24-də AK(b)P MK Rəyasət Heyətində müzakirə olundu.[525] Azərbaycan MİK-in 1924-cü ilin aprelində təsdiq etdiyi Naxçıvan MSSR haqqında yeni Əsasnamədə qeyd edilirdi ki, Azərbaycan SSR MİK Naxçıvanın yerli əhalisini Azərbaycan SSR-in əhalisinə qohum tanıyaraq və ərazi vəziyyətini nəzərə alaraq Naxçıvan, Şərur və Ordubad qəzalarından ibarət tərkibdə Azərbaycan SSR daxilində muxtar respublika elan etməyi, ona Naxçıvan MSSR adını verməyi qərara almışdır.[526] Bu Əsasnamənin 2-ci maddəsinə görə isə "Naxçıvan MSSR Azərbaycan SSR-in tərkib hissəsidir və onun tərkibinə muxtar respublika kimi daxil olur. Naxçıvan MSSR-in Azər-

---

[523] К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку, 1989, с.152-153

[524] Naxçıvanda Konstitusiya quruculuğu problemi haqqında daha ətrafl bax: Naxçıvan Muxtar Respublikası Konstitusiyalarda. Tərtibçi, oçerk və mətnlərin müəllifi E.Y.Cəfərli. Bakı, 2014

[525] ARPİİSSA, f.1, siy.74, iş 135, v.104

[526] Yenə orada, v.166

baycan SSR-lə qarşılıqlı münasibətləri Azərbaycan SSR-in Konstitusiyası ilə müəyyənləşdirilir".[527] Azərbaycan SSR-in IV Sovetlər qurultayı (1925, mart) Azərbaycan SSR Konstitusiyasına etdiyi əlavəyə görə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan SSR-in tərkibinə daxil idi.[528]

Bu sənədlər Naxçıvanın siyasi-hüquqi statusu üçün kifayət deyildi. Ona görə də Naxçıvan MSSR-in Konstitusiyasının qəbulu zəruri idi. Muxtar qurum kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanaraq 1925-ci il 27 dekabr tarixində Naxçıvan SSR MİK-in IV çağırış ikinci sessiyasında qəbul olundu və baxılmaq üçün Azərbaycan MİK-ə göndərildi.

1926-cı il aprelin 8-də Azərbaycan MİK-in katibi T.Şahbazinin sədrliyi ilə yaradılmış komissiya Naxçıvan MSSR-in konstitusiya layihəsinə baxaraq, düzəliş və əlavələrlə birlikdə bəyəndi. 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan MSSR-in ilk Konstitusiyasını yekdilliklə qəbul etdi.[529]

Konstitusiya ümumi müddəalar (1-2-ci maddələr), Mərkəzi hakimiyyətin təşkili (3-54-cü maddələr), Büdcə hüququ (54-60-cı maddələr) və Naxçıvanın gerbi və bayrağı haqqında (61-63-cü maddələr) dörd bölmədən ibarət idi. Burada təbii ki, ən əsas məsələlərdən biri Naxçıvanın ərazi mənsubiyyətinin təsbit edilməsi idi. Orada qeyd edilirdi ki, "...Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının himayəsi altındadır, onun əsas tərkib hissəsidir və Naxçıvan Sovet Sosialist Respublikasının Azərbaycan Sovet Sosialist Respublikası ilə qarşılıqlı münasibətləri sonuncunun Konstitusiyası ilə müəyyən edilir. Naxçıvan Sovet Sosialist Respublikasında dövlət hakimiyyəti orqanları Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası əsasında yaradılır."[530] Konstitusiyada Naxçıvanın ali və mərkəzi icra orqanları, yerli hakimiyyətin təşkili müəyyən edirdi. Naxçıvan Sovetlər qurultayı ali hakimiyyət orqanı idi. Sovetlər qurultayı tərəfindən onun qarşısında məsuliyyət daşıyan və qurultaylararası dövrdə ali hakimiyyət orqanı olan Mərkəzi İcraiyyə Komitəsi

---

[527] NMRDA, f.40, siy.4, iş 20, v.8
[528] Гулиев Дж.Б. К истории образования Второй Республики Азербайджана, с.131
[529] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.55
[530] NMRDA, f.40, siy.2, iş 5, v.1

seçilirdi. Ali icraedici orqan Xalq Komissarları Soveti idi. Mərkəzi hakimiyyət orqanları kimi daxili işlər, ədliyyə, əmək, sosial təminat, təhsil, əkinçilik, səhiyyə, Fəhlə-Kəndli Müfəttişliyi və Xalq Təsərrüfat Şurası yaradılırdı.[531] Naxçıvanın özünün gerbi və bayrağının da qəbul edilməsi dövlətçiliyin mühüm atributları idi.

Naxçıvanın 1926-cı il Konstitusiyasından bəhs edərkən bir faktı xüsusilə qeyd etmək lazımdır. Azərbaycan SSR-in ilk Konstitusiyası 1921-ci ildə qəbul edilmişdi. 1922-ci ildə SSRİ təşkil olunduqdan sonra 1924-cü ildə onun Konstitusiyasının qəbul edilməsinə baxmayaraq, Azərbaycan SSR-in yeni Konstitusiyasının qəbul edilməsi yalnız 1927-ci ildə mümkün olmuşdur. Buradan aydın olur ki, Azərbaycanın SSRİ-nin tərkibinə daxil olmasından sonra, mövcud reallığa uyğun olan ilk Konstitusiya məhz Naxçıvan MSSR-in Konstitusiyası olmuşdur. Bir maraqlı fakt da ondan ibarətdir ki, Azərbaycan SSR MİK-in 23 dekabr 1923-cü il tarixli, Zaqafqaziya MİK-in 8 yanvar 1924-cü il tarixli qərarına, habelə birincinin 9 fevral 1924-cü il tarixli dekretinə baxmayaraq, həm "Naxçıvan SSR haqqında Əsasnamə"də (1924-cü il), həm də Naxçıvanın ilk Konstitusiyasında (1926-cı il) "Naxçıvan Sosialist Sovet Respublikası" adına "Muxtar" sözü əlavə edilməmişdir. Bu məsələ konstitusion səviyyədə Naxçıvanın ikinci Konstitusiyasında (1937-ci il) öz həllini tapdı və Naxçıvan muxtariyyəti məhz həmin ildən "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlandırıldı.[532]

Naxçıvan MSSR-in 1926-cı il Konstitusiyası sovet dövlət quruculuğundan irəli gələn bir sıra çatışmazlıqlara (icra orqanının qanunvericilik hüququna malik olması, insan və vətəndaş hüquqları və azadlıqlarını nəzərə almaması və s.) baxmayaraq, Naxçıvanın siyasi-hüquqi vəziyyətini hər hansı bir Əsasnamə ilə deyil, konstitusion nöqteyi-nəzərdən təsbit etməsi ciddi əhəmiyyətə malik idi.

Yuxarıda qeyd edildiyi kimi, 1927-ci ildə Azərbaycan Konstitusiyası qəbul edildiyi zaman Naxçıvanın siyasi statusu ilk dəfə geniş şəkildə burada rəsmiləşdirilmişdir. V çağırış Ümumazərbaycan Sovetlər qurultayında 1927-ci il 26 martda təsdiq olunan bu Konstitusiyanın V bölməsində (52-54-cü maddələr) Naxçıvandan bəhs edi-

---

[531] Daha ətraflı bax: Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.392-400

[532] Naxçıvan Muxtar Respublikası konstitusiyalarda, s.22

lirdi. 52-ci maddəyə görə Naxçıvan SSR Azərbaycan SSR-in tərkib hissəsi olub, onun protektoratlığında idi. [533]

Bütövlükdə Sovetlər İttifaqında, o cümlədən onun müttəfiq respublikalarından olan Azərbaycan SSR-in ciddi problemi ondan ibarət idi ki, Konstitusiya deklarativ xarakter daşıyır, onun əsas müddəaları həyata keçirilmirdi. Bu Naxçıvan MSSR-də də özünü göstərirdi. Konstitusiyanın qəbul edildiyi və təsdiq olunduğu dövrdə Naxçıvanın siyasi, sosial-iqtisadi və mədəni həyatı kəskin sarsıntılar ilə müşahidə olunurdu.

Leninin sosializm quruculuğunun tərkib hissəsi olan sənayeləşdirmə, kənd təsərrüfatının kollektivləşdirilməsi və mədəni inqilabın gedişində ciddi əyintilərə yol verilir, bunun günahları xalqın ayrı-ayrı təbəqələrinin üzərinə qoyularaq, geniş zorakılıq və təqib siyasətinə əl atılırdı. 1920-1930-cu illərdə geniş vüsət alan və bütün SSRİ üçün xarakterik olan bu proses Naxçıvanda daha ağır şəkildə təzahür edirdi. Hüquq-mühafizə orqanları (Xalq Daxili İşlər Komissarlığı, Fövqəladə Komissiya, Dövlət Siyasi İdarəsi və s.) faktiki olaraq, əhaliyə qarşı cəza orqanlarına çevrilmişdi. Bunun mahiyyəti ondan ibarət idi ki, SSRİ-nin cənub sərhədlərində yerləşən Naxçıvanda hər hansı anti-sovet meyillərinə ağır zərbə vurulsun, onun Azərbaycanla əlaqələrinə maneçilik törədilsin, sovet totalitar rejimi bərqərar edilsin.

Bu istiqamətdə görülən əsas tədbirlərdən biri 1925-ci ilin martında SSRİ Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkovun Zaqafqaziyaya səfəri çərçivəsində Naxçıvana gəlişi və onun nəticələri olmuşdu. Rıkov Naxçıvanla tanış olduqdan sonra buradakı vəziyyəti "sovet nizamsızlığı" adlandırmış və burada qayda-qanun yaratmağı tələb etmişdi. Bundan sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində M.C.Bağırov (sədr), Ə.H.Qarayev, S.İ.Qorobçenko və İ.İ.İsayevdən ibarət komissiya yaradılmışdır. Cəmi 15 gün ərzində fəaliyyət göstərən Komissiya öz fəaliyyəti haqqında məruzə hazırlamışdır.[534] Bə-

---

[533] Конституция (Основной закон) Азербайджанской Социалистической Советской Республики. Баку, 1927, с.29

[534] Uzun müddət Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivində "Tamamilə məxfi" qrifi altında saxlanan "Naxçıvan diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın məruzəsi" R.İ.İvanov tərəfindən tədqiq edilmiş və kitabında çap olunmuşdur: İvanov R.İ. Basqın. Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər. Naxçıvan, 2009

zən Rıkovun fikirləri və onun əsasında aparılan təhqiqatın nəticəsində meydana gələn bu məruzə birmənalı şəkildə qəbul edilir və Naxçıvandakı ümumi vəziyyəti qiymətləndirmək üçün obyektiv mənbə kimi qiymətləndirilir. Tədqiqatçılardan biri isə öz kitabında "Naxçıvan və ya stalinizmin mənbələri" adlı başlıq ayıraraq, stalinizmin periferiyada yaranması və 1920-ci illərin sonlarında genişlənən bolşevik təcavüzünün ilk olaraq Naxçıvanda özünü göstərməsini qeyd edir.[535] Burada həqiqət vardır, lakin prinsipial məsələ o zamankı Naxçıvan gerçəkliyinin belə iri miqyaslı repressiya üçün əsas verib və ya verməməsindədir. Bu nəticəni komissiyanın məruzəsi üzrə çıxarmaq, tamamilə yanlışdır və artıq qeyd edildiyi kimi bu məruzə yuxarıdan göstəriş üzrə təşkil edilmiş komissiya tərəfindən hazırlanmış, yuxarıların fikrinin və öz repressiv fəaliyyətinin əsaslandırılmasına xidmət etmişdir. Beləliklə, həmin dövrdə cəmi beş il ərzində sovet hakimiyyətinin qurulduğu bir diyarda böyük gözləntiləri əsas götürərək bir neçə gün ərzində geniş miqyasa malik olan repressiya tədbirləri həyata keçirmək üçün zəmin olmamışdır. Əksinə, repressiyanı daha da genişləndirmək məqsədi ilə Naxçıvandakı vəziyyət və insanlar haqqındakı məlumatlar mümkün olduqca qaraldılmışdı. Bu repressiya tədbirlərinə gəldikdə isə onu qeyd etmək lazımdır ki, o, nəinki Azərbaycan SSR-də, hətta SSRİ-də o zaman həyata keçirilən ən qəddar cəza tədbiri idi. Bu Naxçıvanı yerli idarəetmə kadrlarından məhrum etmək, insanlar içərisinə qorxu salmaq və onu müstəqillik arzularından məhrum etmək məqsədini güdürdü. Komissiyanın sərəncamı ilə 160 nəfər həbs edilmiş, 33 partiya işçisi məhbus vaqonunda Bakıya göndərilərək, məhkəməyə verilmişdir. Bağırovun göstərişi ilə 16 vəzifəli şəxs Ordubad vağzalında əhalinin gözü qarşısında güllələnmişdi. Naxçıvan xanları, Bənəniyar və Kəngərli bəylərindən tanınmış ailələrin 40-dan çox üzvü mülkiyyətini itirərək doğma yerlərini tərk etmiş, bir çoxu Sibir sürgünündə vəfat etmişdi.[536] Naxçıvana təzyiq bununla bitmədi. 1928-ci ilin sonları-1929-cu ilin əvvəllərində Bağırov komissiyasının üzvlərindən olan Qarayev Naxçıvan səfərindən sonra AK(b)P-nin Mərkəzi Komitəsinə məruzəsində diyardakı vəziyyətdən bəhs edərkən sovet

---

[535] Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. М.,2010, с.516-530
[536] Там же, с.526-527

rejiminin cinayətkar fəaliyyətinin üstündən keçərək, subyektiv faktorları ön plana çəkmişdi.[537]

1930-cu illərdə Naxçıvan əhalisi deportasiya və sürgünlərə də məruz qalmışdır. 1930-cu illərin ikinci yarısında Naxçıvandan mindən çox ailə sürgün edilmişdi. 1930-1940-cı illərdə Naxçıvan MSSR-in Ordubad rayonundan 67 ailə, Culfa rayonundan 107 ailə, Şahbuz rayonundan 47 ailə, Şərur və Sədərəkdən 110 ailə, Naxçıvan rayonu və şəhərindən 178 ailə (cəmi 509 ailə) Qazaxıstan və Sibirə sürgün edilimişdi.[538]

Belə bir vəziyyətdə sovet dövlətinin siyasi xətti, xüsusilə kollektivləşdirmə kimi cinayətkar bir siyasətin "uğurla" həyata keçirilməsinə nail olunurdu. Bunun nəticəsi idi ki, Naxçıvan MSSR-də kənd li təsərrüfatları 1928-ci ildə 9,3, 1930-cu ildə 41,5, 1932-ci ildə 87,2, 1937-ci ildə 98,9 və 1940-cı ildə 100 faiz kollektivləşdirilmişdi.[539]

1920-1930-cu illərin siyasi, sosial-iqtisadi və mədəni tədbirləri geniş repressiyalar ilə müşayət olunurdu. Naxçıvanın əhalisi ilə yanaşı, onun ərazisinə də qəsd edilirdi. RK(b)P Zaqafqaziya Diyar Komitəsi, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti və hökumətinin yaxından iştirakı ilə Azərbaycan torpaqlarının Ermənistana verilməsi təşkil edilirdi. Belə ki, bu qurumlar tərəfindən 1920-ci illərdə Azərbaycan torpaqları mərhələ-mərhələ, hissə-hissə Ermənistan SSR-ə verildi.

Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb, öz ərazilərinə birləşdirməyə nail oldular. 1929-cu il fevral 18-də Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kv. km ərazisi - Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi.[540]

Naxçıvan əhalisi sovet dövlətinin zorakılıq siyasəti ilə barışmaq istəmir, repressiya tədbirlərinə qarşı müxtəlif vasitələr ilə mübarizə

---

[537] Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе, с.529-530

[538] Hüseynbəyli N.M. XX əsrin 20-30-cu illərində Naxçıvan MSSR-də siyasi repressiyalar və onun nəticələri. Tarix üzrə fəlsəfə doktoru dis.-nın Avtoreferatı. Naxçıvan, 2006, s.19

[539] Naxçıvan tarixi.Üç cilddə, ikinci cild, s.384

[540] Paşayev A. XIX-XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları. Bakı, 2011, s.210

aparırdı. Onların içərisində antisovet üsyanlar da mühüm yer tuturdu. 1920-1930-cu illərdə Cəhri (1921, 28 yanvar), Qaraçuq, Tırkeş (1921, 18 fevral), Naxçıvan, Şərur, Ordubad rayonlarının dağ kəndlərində (1930, fevral) və digər yerlərdə üsyanlar baş vermişdi.[541] Naxçıvandakı anti-sovet üsyanlar 1920-1930-cu illərdə Azərbaycanda baş verən digər antisovet üsyanları içərisində mühüm yer tuturdu.[542] Baş Siyasi İdarənin məxfi-siyasi şöbəsinin ÜİK(b)P-yə Zaqafqaziyada antisovet elementlərin fəallaşması ilə əlaqədar hazırladığı 1930-cu il 15 oktyabr tarixli arayışında göstərilirdi ki, 1930-cu il ərzində Azərbaycanın Gəncə, Nuxa, Zaqatala və Naxçıvan MSSR-in Qarabağlar rayonlarında kütləvi silahlı üsyan baş vermiş, kollektivləşmə zamanı yol verilmiş nöqsanlar üsyanların başlanması üçün əsas səbəblərdən olmuşdur. Bu üsyanda yalnız kasıb və ortabablar deyil, həmçinin bəzi sovet işçiləri, partiyaçılar və komsomolçular da iştirak etmişdir.[543]

1930-cu illərin ortalarına doğru Sovet dövləti keçid dövrünün başa çatmasını əsas götürərək yeni siyasi mərhələyə keçdi. Bu xətt öz əksini tarixə Stalin Konstitusiyası kimi daxil olmuş 1936-cı il Konstitusiyasında tapmışdır. Bu Konstitusiya 1936-cı il dekabrın 5-də qəbul edilmişdir. Konstitusiyaya görə, ZSFSR əvəzinə Azərbaycan, Ermənistan və Gürcüstan müstəqil şəkildə SSRİ-nin tərkibinə daxil olmuşdur. SSRİ Konstitusiyasının 24-cü maddəsində Naxçıvan MSSR Azərbaycan SSR-in tərkib hissəsi kimi qeyd edilmişdir.[544] Beləliklə, 1936-cı il Konstitusiyası ilk sovet Konstitusiyası idi ki, burada Naxçıvan MSSR rəsmən təsbit olunmuşdur.

SSRİ-nin 1936-cı il Konstitusiyasının ardınca müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in yeni Konstitusiyaları qəbul edilir. Azərbaycan SSR-in yeni Konstitusiyası 1937-ci il 14 martda qəbul edilir. Bu Konstitusiyada Naxçıvana dair iki fəsil-V (maddə 57-66) və VI (maddə 67-74) fəsillər ayrılmış, Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanları və dövlət idarə orqanları təsbit edilmişdir.[545]

---

[541] Paşayev A. XIX-XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları, s.384-392

[542] Azərbaycan tarixi. Yeddi cilddə, altıncı cild. Bakı, 2000, s.41-50

[543] Cəfərov C. Stalinizm və Azərbaycan kəndi. Bakı, 2012, s.74

[544] Конституция (Основной закон) Союза Советских Социалистических Республик. М., 1937, с.14

[545] Azərbaycan Sovet Sosialist Respubliqasının Konstitusiyası (Əsas qanunu). Bakı, 1937

1927-ci il Konstitusiyası ilə müqayisədə 1937-ci il Konstitusiyasında Naxçıvan MSSR-ə belə geniş yer ayrılması təsadüfi olmayıb, SSRİ miqyasında baş verən mərkəzləşmənin təzahürü, muxtar qurumların fəaliyyətinin məqsədəuyğun şəkildə reqlamentlləşdirilməsi ilə əlaqədar idi. Belə ki, Naxçıvan MSSR qanunları Azərbaycan SSR qanunları ilə düz gəlmədikdə, Azərbaycan SSR qanunlarına əməl edilməli idi (maddə 21). Azərbaycan SSR Baş (Ali – İ.H.) Sovetinin Prezidiumu (Rəyasət Heyəti – İ.H.) Naxçıvan MSSR XKS-nin qərar və sərəncamlarını ləğv edə bilərdi (maddə 33) və s.

SSRİ Konstitusiyasının ardınca Azərbaycan SSR Konstitusiyası qəbul edildiyi kimi, onun ardınca da Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyası üzərində iş başladı və sentyabrın 18-də IV Fövqəladə Ümumnaxçıvan Sovetlər qurultayı tərəfindən qəbul edildi. Çox maraqlıdır ki, bu Konstitusiyanın qısa bir zamanda hazırlanması və Naxçıvanda rəsmən qəbul edilməsinə baxmayaraq, Azərbaycan SSR Ali Soveti tərəfindən yalnız 1941-ci il aprelin 7-də təsdiq olunmuşdur.[546]

Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyası 1926-cı il Konstitusiyasına nisbətən daha geniş olub, on bir fəsil və 114 maddədən ibarət idi.[547] Burada da əsas məsələlərdən biri Naxçıvan MSSR-in Azərbaycan dövlətçiliyində yeri ilə bağlı idi. Bu məsələ Azərbaycan SSR-in Konstitusiyası ilə eyni zamanda, Naxçıvan MSSR Konstitusiyasında da təsbit edilirdi. Naxçıvan MSSR Konstitusiyasının 13-cü maddəsinə görə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası muxtar respublika hüququ ilə Azərbaycan SSR-in tərkibinə daxildir.

Stalin Konstitusiyasının, onun ardınca müttəfiq respublikaların və onların tərkibinə daxil olan muxtar respublikaların Konstitusiyalarının qəbul edilməsi ölkədə qanunçuluğu möhkəmləndirmək, insan və vətəndaş hüquq və azadlıqlarını təmin etmək əvəzinə 1937-1938-ci illərdə "böyük terror"la müşahidə olundu. Günahkar hesab edilən şəxsləri qısa müddətdə cəzalandırmaq məqsədi ilə qeyri-məhkəmə orqanları, o cümlədən üçlüklər təşkil edilirdi. Üçlüklərin qərarları

---

[546] Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu).Naxçıvan ASSR Baş Soveti tərəfindən 1938-ci il iyulun 25-də və 1939-cu il iyulun 28-də qəbul edilmiş dəyişiklik və əlavələrlə. Bakı, 1941

[547] Bu barədə daha geniş bax: Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.400-412

üzrə 1937-ci ildə Naxçıvan MSSR-dən 2757 nəfər kəndlərdə təxribatçı fəaliyyət ilə məşğul olmaq, xarici cinayətkar ünsürlərə xidmət etmək adı altında Qazaxıstana sürgün edilmişdi. Ümumiyyətlə, bu dövrdə 35 mindən çox naxçıvanlı siyasi repressiyaya məruz qalmışdı.[548]

Bütün bunlara baxmayaraq, Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da xalq 1941-1945-ci illər SSRİ-Almaniya müharibəsində qələbəyə töhfə vermək uğrunda mübarizəyə başladı. Faşizm bütün bəşəriyyətə qarşı düşmən olmaqla eyni zamanda, Azərbaycana da ciddi təhlükə idi. Təsadüfi deyil ki, Azərbaycan, Bakı nefti Hitler Almaniyasının planında xüsusi yer tuturdu.[549] Ona görə də, 1941-1945-ci illər müharibəsinin döyüş meydanlarında, partizan hərəkatında və arxa cəbhədə göstərilən fədakarlıq faşizm üzərində qələbə ilə birgə, Azərbaycan dövlətçiliyi üçün də mühüm əhəmiyyətə malik idi. Azərbaycan faşizm üzərində qələbədə xüsusi rol oynadı.[550] Naxçıvan MSSR-in də bu qələbədə böyük payı vardır.[551] Müharibə illərində 29500 nəfər naxçıvanlı səfərbərliyə alınmış, onlardan 15500 nəfəri, yəni yarıdan çoxu müharibədə həlak olmuşdu. Müharibədə iştirak edən naxçıvanlılardan üç nəfəri-Qəzənfər Əkbərov, Abbas Quliyev və Nəcəfqulu Rəfiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[552]

Naxçıvan 1941-1945-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikasının Cənubi Azərbaycana yardım göstərməsində bir növ körpü rolunu oynamış, ölkə rəhbərliyinin Arazın o tayında cərəyan edən hadisələrə təsir mərkəzlərindən biri idi. Müharibə başlayandan sonra, Azərbaycan Sənaye İnstitutunda təhsilini yarımçıq qoyaraq Naxçıvana qayıdan, 1941-1943-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında, 1943-1944-cü illərdə Xalq Komissarları

---

[548] Bu barədə daha geniş bax: Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.381, 414

[549] Султанов Ч. История не любит сослагателного наклонения, и все же...Баку, 2011, с.223,225

[550] Bu problem Azərbaycan tarixşünaslığında geniş tədqiqat obyekti olmuşdur: Мадатов Г.А. Азербайджан в Великой Отечественной войне. Баку, 1975; Азербайджанская ССР в период Великой Отечественной войны. тт. I-II. Баку, 1976, 1977 и др.

[551] Naxçıvan tarixinin 1941-1945-ci illər müharibəsi dövrü də geniş tədqiq edilmişdir: Cəfərov F. Naxçıvan İkinci Dünya müharibəsi illərində. Bakı, 2016; Hacıyev İ. Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı (1941-1945-ci illər). Bakı, 2008; Hüseynov X.A. Avropa ölkələrində partizan və antifaşist müqavimət hərəkatında Azərbaycan SSR-in Naxçıvan MSSR-dən olan döyüşçülərinin döyüş yolu. Bakı, 2012 və b.

[552] Naxçıvan tarixi. Üç cilddə, üçüncü cild. Naxçıvan, 2015, s.23,28

Sovetində, sonra isə dövlət təhlükəsizliyi orqanlarında çalışan gənc Heydər Əliyev bu proseslərin şahidi və iştirakçısı olmuşdur.[553]

1941-1945-ci illər müharibəsində faşist Almaniyası üzərində qələbənin ümumdünya əhəmiyyətinə baxmayaraq, müharibədən sonrakı dövrdə Azərbaycan SSR, o cümlədən Naxçıvan MSSR-in həyatında gözlənilən demokratik dəyişikliklər baş vermədi. Əksinə, Azərbaycan SSR yeni ciddi çətinliklər ilə üzləşdi. Ermənistan SSR-nin 1945-ci ilin noyabrında Dağlıq Qarabağın onun tərkibinə daxil edilməsi haqqında təklifi[554] sovet rəhbərliyi tərəfindən həyata keçirilməsə də, Ermənistan SSR-də yaşayan azərbaycanlıların deportasiyasına qərar verildi. Bu deportasiya, mahiyyət etibarı ilə həm də, Azərbaycan xalqına, onun dövlətçiliyinə qarşı çevrilmiş bir hadisə idi. Təəssüf ki, azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası uzunmüddət hüquqi-siyasi qiymətini almamışdır. Yalnız Ümummilli lider Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında bu hadisəyə ilk dəfə həqiqi qiymət verildi. Fərmanda deyilirdi ki, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən, qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən

---

[553] Bu barədə bax: Adriyanov V., Mirələmov H. Heydər Əliyev. Bakı, 2008, II fəsil, s.33-50

[554] Bu barədə bax: Mahmudov Y., Şükürov K. Qarabağ: Real tarix. Faktlar. Sənədlər. Bakı, 2009, s.76-79

cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır."[555]

Naxçıvan MSSR-in Ermənistan SSR-dən deportasiya edilən azərbaycanlıları qəbul edərək, onların əzabına şərik çıxması və öz torpaqlarında yerləşdirməsi xalq qarşısında böyük xidmət idi. Müqayisə üçün bir faktı xüsusi qeyd etmək lazımdır ki, SSRİ Nazirlər Sovetinin deportasiyaya dair 1947-ci 23 dekabr tarixli qərarında əhalinin məhz Kür-Araz ovalığına köçürülməsi nəzərdə tutulmuşdu.[556] Buna baxmayaraq, Naxçıvan Ermənistan SSR-dən deportasiya olunan azərbaycanlıların qəbul edilməsində iştirak etmiş, DQMV ərazisində isə bir nəfər də köçürülən əhali yerləşdirilməmişdi. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsi rəisinin Ermənistan SSR-dən köçürülən 500 təsərrüfatdan ibarət kolxozçuların və digər azərbaycanlıların 1951-ci ilin yazına kimi Naxçıvan MSSR-in Noraşen rayonuna (hazırda Şərur rayonu.-İ.H.) köçürülməsinə icazə verilməsi haqqında SSRİ Nazirlər Soveti qarşısında qaldırılmış məsələ barəsində Naxçıvan MSSR Nazirlər Sovetinin sədrinə məktubundan aydın olur ki, deportasiyanın ilk vaxtlarından başlayaraq Ermənistanın Qarabağlar, Vedi və Artaşes rayonlarından olan təsərrüfatlar köçürmə bileti belə olmadan Naxçıvan MSSR rayonlarında yerləşdirilmişdir.[557]

Müharibədən sonrakı stalinizm dövründə (1945-1953) olduğu kimi, N.S.Xruşovun dövründə (1954-1964) də Naxçıvanın siyasi, sosial-iqtisadi və mədəni həyatında ciddi dəyişiklik edilməsi, bununla onun Azərbaycan SSR-in həyatındakı rolunun daha da canlandırılması istiqamətində əsaslı tədbirlər görülmədi. Bunun nəticəsi idi ki, "sənaye məhsulunun həcmi 1956-1960-cı illərdə 6 faiz, 1961-1965-ci illərdə 8 faiz, 1956-1965-ci illərdə cəmi 14 faiz artmışdı. İnkişafı kənd təsərrüfatının vəziyyətindən asılı olan yüngül, yeyinti sənaye sahələri, inkişafına böyük imkanlar olan tikinti materialları istehsalı sahələri əsasən durğunluq dövrünü keçirmişdi...Ümumiyyətlə, 60-cı illərin ikinci yarısınadək olan təqribən 40 il ərzində Naxçıvanın iqtisadiyyatı Azərbaycanın bir sıra başqa ərazilərinə nisbətən, aşağı inkişaf səviy-

---

[555] "Azərbaycan" qəzeti, 1997, 19 dekabr

[556] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Sənədlər toplusu. Bakı, 2013, s.81-83

[557] Yenə orada, s.404

yəsində olmuş, sənaye məhsulunun artım sürətinə görə o, həm də keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdən birini tutmuşdu."[558] Naxçıvanın belə bir vəziyyətdə olması SSRİ-nin rəhbər orqanları tərəfindən də bu vəziyyət təsdiq edilmişdi. "1960-cı illərin əvvəllərində SSRİ Dövlət Plan Komitəsi xalq təsərrüfatının inkişafı gedişinə dair hazırladığı arayışda, eləcə də SSRİ Ali Sovetinin yenə həmin vaxt apardığı təhlildə Qafqazın və Orta Asiyanın muxtar vilayətləri və muxtar respublikaları içərisində əhalisinin hər nəfərinə düşən sənaye məhsulu istehsalına görə Naxçıvan Muxtar Respublikasının 10-cu və ya axırıncı yerlərdən birini tutduğu etiraf olunmuşdu."[559]

Naxçıvanın həyatında köklü dəyişikliklər Heydər Əlirza oğlu Əliyevin Azərbaycan SSR-ə ilk rəhbərliyi dövründə (1969-1982) başlandı. Heydər Əliyevin SSRİ rəhbərlərindən biri kimi Moskvada işlədiyi dövrdə də (1982-1987) bu kurs davam etdirilmişdir.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk dövründən etibarən onun inkişafının bütün sahələri üzrə hərtərəfli plana malik olmuş, onun gələcəyinin strategiyasını müəyyən etmiş və bu xətti ardıcıl şəkildə həyata keçirmişdir. Bu barədə aydın təsəvvür yaratmaq üçün 1969-1982-ci illərdə Azərbaycanın əsas sosial-iqtisadi göstəricilərindən bəzilərini xatırlatmaq yerinə düşər. Ölkə əhalisinin sayı bu illərdə 5112,8 min nəfərdən 6406,3 min nəfərə çatmışdır. Ümumi ictimai məhsul 749,1 milyon manatdan 2292,7 milyon manata, istehsal edilmiş milli gəlir 329,2 milyon manatdan 1045,8 milyon manata çatmışdır.[560]

Heydər Əliyev bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda sovet hakimiyyətinin qurulmasından keçən əlli ilə yaxın bir dövr ərzində onun inkişafına dair mükəmməl konsepsiya formalaşdırmışdır. Bu konsepsiyanın əsasında Naxçıvanın SSRİ-nin muxtar qurumları içərisində qabaqcıl yer tutmasına nail olmaq ilə bərabər, Azərbaycan SSR-ə inteqrasiyasını təmin etməklə Azərbaycan dövlətçiliyinin güclü dayaqlarından birinə çevrilməsi dayanmışdır. Heydər Əliyevin rəhbərliyi sayəsində ilk dəfə olaraq Naxçıvan MSSR-in Konstitusiya hüquqlarının tam mənada həyata keçirilməsi təmin edilmişdir.

---

[558] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvanın iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, s.26

[559] Yenə orada

[560] Xalqa həsr olunan illər. Heydər Əliyev-80. Statistik məcmuə. Bakı, 2003, s.12-13

O, bununla da kifayətlənməmiş, SSRİ-nin 1977-ci il Konstitusiyasına[561] uyğun olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası qəbul edilərkən bütövlükdə Azərbaycan (bu Konstitusiyanın 73-cü maddəsi ilə Azərbaycan dilinin dövlət dili statusu təsbit edilmişdir), o cümlədən Naxçıvan MSSR-in fəaliyyətinin siyasi-hüquqi bazasının möhkəmləndirilməsinə nail olmuşdur. Həmin Konstitusiyanın III bölməsinin VIII fəsli, VI bölmənin XV və XVI fəsilləri Naxçıvan MSSR-ə həsr edilmişdir.[562] 1978-ci il Konstitusiyası ilk dəfə olaraq özünün ali dövlət hakimiyyəti orqanlarının timsalında Naxçıvan MSSR-in də qanunvericilik təşəbbüsünə malik olmasını təsbit etmişdi. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının digər bölmələrində də Naxçıvan MSSR-ə aid mühüm maddələr var idi (Azərbaycan SSR Ali Sovetinin üç sədrindən birinin Naxçıvan MSSR-dən seçilməsi (maddə113) və s.).

SSRİ və Azərbaycan SSR Konstitusiyalarına uyğun olaraq 1978-ci il mayın 30-da Naxçıvan MSSR Ali Soveti sayca üçüncü Konstitusiyanı qəbul etmişdir.[563] Naxçıvan MSSR-in yeni 1978-ci il Konstitusiyasında "ilk dəfə olaraq siyasi sistem, sosial inkişaf və mədəniyyət, xalq deputatının statusu, Naxçıvan MSSR vətəndaşlığı kimi fəsillər, habelə Naxçıvan MSSR-in milli dövlət və inzibati ərazi quruluşu adlı ayrıca bölmə (6-7-ci fəsillər) əks etdirilmişdir. Naxçıvan MSSR-in üçüncü Konstitusiyası ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili və fəaliyyətində də bir sıra dəyişikliklər etmişdi."[564] Dövlətçiliyin atributları olan gerb və bayraq haqqındakı IX fəslə görə Naxçıvan MSSR-in Dövlət gerbi və bayrağı Azərbaycan SSR-in Dövlət Gerbi və bayrağı idi, lakin onun üzərində "Naxçıvan MSSR" sözləri yazılmışdır.

Heydər Əliyev Naxçıvan MSSR-in siyasi-hüquqi statusu ilə birlikdə, onun sosial-iqtisadi, siyasi və mədəni həyatının inkişafını təmin etməklə onun Azərbaycan dövlətçiliyindəki rolunu möhkəmləndirirdi, inkişaf etmiş Naxçıvan inkişaf etmiş Azərbaycan dövləti demək idi.

Heydər Əliyev Naxçıvan iqtisadiyyatını inkişaf etdirmək üçün ilk əvvəl ən vacib məsələdən-əsaslı kapital qoyuluşundan başladı. Bu

---

[561] Конституция (основной закон) Союза Советских Социалистческих Республик. М., 1977
[562] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, 1978
[563] Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, 1982
[564] Naxçıvan tarixi. Üç cilddə, üçüncü cild., s.221

barədə bəzi xarakterik faktlar aydın təsəvvür yaratmağa imkan verir. 1966-1970-ci illərdə muxtar respublikanın xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu 1961-1965-ci illərdə olduğuna nisbətən 4,8 dəfə çox idi.1971-1975-ci illərdə isə xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu əvvəlki 46 il (1925-1970-ci illər) ərzində qoyulmuş əsaslı vəsaitdən xeyli çoxdur. Ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün 1970-1985-ci illərdə Naxçıvan MR-a 900 milyon manat sərmayə qoyuldu. Onun orta illik həcmi 60 milyon manat təşkil edirdi ki, bu da əvvəlki on ilin orta illik göstəricisindən (21 milyon) 2,9 dəfə çox idi. Nəticədə muxtar respublikada xalq təsərrüfatının müxtəlif sahələrinə aid 783 milyon manatlıq əsas fondlar tikilib istifadəyə verildi.[565] Xalq təsərrüfatına əsaslı vəsait qoyuluşunun artımı iqtisadiyyatın sahə strukturunun təkmilləşdirilməsinə imkan verdi. Naxçıvan iqtisadiyyatının inkişafının ən mühüm nailiyyətlərindən biri də onun ərazi üzrə yerləşməsinin təkmilləşdirilməsində idi. 1970-1980-ci illərin sonlarına doğru Naxçıvanda istehsal olunan ümumi sənaye məhsulunun həcmində bölgələrin payı artmağa başladı.[566] İqtisadi sahədə əldə edilən nailiyyətlər sosial-mədəni həyatda da ciddi irəliləyişlər ilə müşahidə olunurdu. Əhalinin rifah halı ildən–ilə yüksəlir, sosial strukturu aqrar-sənaye diyarının quruluşuna uyğunlaşırdı. Naxçıvanda təhsil səviyyəsi və keyfiyyəti xeyli yüksəlmişdi. Təsadüfi deyildi ki, Azərbaycan elminin hər bir sahəsində Naxçıvan təhsilinin yetirmələri aparıcı rol oynayırdı.[567] Naxçıvan ədəbi mühiti, teatr mədəniyyəti və incəsənətin digər sahələri yeni inkişaf yoluna çıxdı. Bu sahələrin xarakterik xüsusiyyəti ondan ibarət idi ki, onlar bölgəsəl səciyyə daşımamış, Azərbaycanın sosial-mədəni həyatına da ciddi stimul vermişdir.

1974 və 1984-cü illərdə Naxçıvan MSSR-in 50 və 60 illik yubileyləri qeyd edilmişdir. Naxçıvanın 50 illik yubileyində çıxış edən Heydər Əliyev muxtar respublikanın o zamankı vəziyyətini hərtərəfli təhlil etmiş və demişdir: "Naxçıvan torpağında əsaslı dəyişikliklər hə-

---

[565] Nadirov A.A.,Nuriyev Ə.X.,Muradov Ş.M. Naxçıvanın iqtisadiyyatı XX əsrdə, s.32

[566] Bu barədə daha ətraflı bax: Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999; Naxçıvan Muxtar Respublikası-80. Tarixi-statistik məcmuə. Bakı, 2004; Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan, 2004, s.47-61; Qasımov Ə. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası.Bakı, 2009

[567] Bu barədə iki cildlik Naxçıvan ensiklopediyasında ətraflı məlumat almaq olar: Naxçıvan ensiklopediyası İki cilddə. Birinci, ikinci cild, İstanbul, 2005

yata keçirilmiş, iri sənaye müəssisələri tikilmiş, kolxoz və sovxozlar yaradılmış və möhkəmlənmiş, mədəni inqilab olmuşdur. İndi iki gündə Naxçıvanda buraxılan məhsul bütün 1913-cü il ərzində istehsal etdiyi qədərdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının təşkil etdiyi 1924-cü ildəkinə nisbətən sənaye istehsalının həcmi 150 dəfədən çox artmışdır. Keçən il respublikada elektrik enerjisi istehsalı müharibədən əvvəlki 1940-cı ildəkindən 183 dəfə çox olmuşdur. Mahlıc, ipək, konserv istehsalı xeyli artmışdır."[568]

1970-1980-ci illərdə Naxçıvanda yaradılan maddi-mədəni resurslar, xüsusilə insanların Azərbaycançılıq ideyasına sədaqəti Ermənistanın Dağlıq Qarabağ ermənilər ilə birlikdə Azərbaycana qarşı ərazi iddiaları və silahlı müdaxiləsi zamanı bu diyarı dövlətin ərazi bütövlüyü və istiqlaliyyət uğrunda mübarizənin mərkəzinə çevirdi.

[568] Naxçıvan Muxtar Respublikasının yubileyləri. 1924-1984. Naxçıvan, 2016, s.65

YEDDİNCİ FƏSİL

NAXÇIVAN AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN YENİDƏN ƏLDƏ EDİLMƏSİ VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏDƏ

7.1. Naxçıvan Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ilk dövründə (1980-ci illərin sonu-90-ci illərin başlanğıcı)

1980-ci illərin sonunda SSRİ-də yaranmış şəraitdən istifadə edən erməni millətçiləri DQMV-ni Ermənistana birləşdirmək üçün qeyri-qanuni aksiyalara başladılar. 1989-cu il fevralın 20-də Dağlıq Qarabağ Vilayət Sovetinin növbədənkənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında" məsələ müzakirə olundu və qərar qəbul edildi.[569] SSRİ rəhbərliyinin ikili siyasəti hadisələri qızışdırdı, ermənilər bundan istifadə edərək daha da fəallaşdı. Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda və respublikanın bir sıra şəhərlərində etiraz mitinqləri keçirildi. Qarabağ münaqişəsi, Ermənistandan vəhşi üsullarla qovulan azərbaycanlıların Naxçıvana axını, Naxçıvanın sərhəd kəndlərinə silahlı basqınlar əhalini fəal mübarizəyə qaldırdı. "Daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi"[570] minlərlə naxçıvanlını küçələrə, meydanlara çıxardı. Onlar Sovet imperiyasına, onun muxtar respublikadakı sosial dayaqlarına qarşı da mübarizə aparırdı. Muxtar respublikanın vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz mitinqləri və yürüşləri keçirildi.

1988-ci il noyabrın 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında 30 mindən çox adam toplandı. Mitinqçilər Vilayət partiya komitəsinin birinci katibinin mitinqə gəlməsini tələb etdilər. O, isə mitinqi dağıtmaq məqsədilə adamların üzərinə tank yeritdi. Nəticədə yaralananlar oldu. Naxçıvan camaatı tankları yandırmaqla bərabər, Vilayət

---

[569] Qətiyyətin təntənəsi. Sənədli xronika, s.11

[570] Məmmədov Ş. 80-ci illərin sonu-90-cı illərin əvvəllərində Naxçıvanda milli-demokratik hərəkat//Naxçıvan Muxtar Respublikası-75. Bakı Universitetinin Xəbərləri. Xüsusi buraxılış. 1999, №3, s.181

partiya komitəsinin binasına hücum etdilər.[571] Bunları bəhanə edən hökumət noyabrın 24-də Naxçıvan şəhərində xüsusi vəziyyət və komendant saatı tətbiq etdi.[572] 22 noyabr 1988-ci il tarixli mitinqdə Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı da qaldırıldı.

Ermənilər mütəmadi olaraq Naxçıvanın sərhəd kəndlərinə silahlı hücumlar edir, Naxçıvana gələn qatarların yolunu kəsir, ona zərər yetirir və mane olurdular. 1989-cu il iyulun 5-də Naxçıvan şəhərində, Ordubad və Culfa rayonlarında çoxminlik mitinqlər keçirilir, respublika hökumətindən Naxçıvanın müdafiəsi üçün konkret tədbirlər görmək tələb olunur. İyulun 18-də Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın təhlükəsizliyini təmin etmək məqsədilə Naxçıvan MSSR Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etdi.[573]

1989-cu ilin noyabr-dekabr aylarında Naxçıvanda "sərhəd hərəkatı" genişləndi, İran İslam Respublikası ilə Azərbaycan SSR-nin Naxçıvan MSSR arasındakı sərhəd xəttinin götürülməsi ilə bağlı tədbirlər keçirildi. 1990-cı ilin əvvəlindən başlayaraq erməni yaraqlılarının Naxçıvanın sərhəd kəndlərinə basqınları, dinc sakinlərin öldürülməsi faktları artdı. Martın 26-27-də Şahbuzun Şada kəndinə ermənilər silahlı basqın etdi, atışma zamanı 6 nəfər yaralandı. Martın 28-də Sədərək kəndinin atəşə tutulması nəticəsində 1 nəfər həlak oldu, 3 nəfər yaralandı. Bir gün sonra ermənilər Babək rayonunun Gərmə-çataq kəndində bir nəfəri qətlə yetirdi. Bütün bunlar Naxçıvanda siyasi vəziyyəti gərginləşdirdi, bununla belə əhalinin ermənilərə qarşı mübarizəsi gücləndi.

Azərbaycanın azadlıq hərəkatı tarixinə daxil olan "Sərhəd hərəkatı" məhz Naxçıvanda başlandı. 1988-ci ilin noyabr ayında Naxçıvanda ümumrespublika mitinqində əhalinin tələbi kimi irəli sürüldü. Həmin mitinqdə Cənubi Azərbaycanda, İran İslam Respublikasında yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması məsələsi qoyuldu. 1988-1989-cu illərdə Naxçıvanda, Ordubadda, Culfada, Şərurda, Sədərəkdə, hətta kəndlərdə keçirilən mitinqlərdə də Şimali Azərbaycanla

---

[571] Allahverdiyev Q. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında//Tarix və onun problemləri. Bakı, 2000, №1, s.157

[572] Qətiyyətin təntənəsi. Sənədli xronika, s.12

[573] Hacıyev İ. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında. Bakı, 2016, s.20

Cənubi Azərbaycan arasında əlaqələrdən geniş söhbət getsə də, əməli işə keçilməsi 1989-cu ilin noyabr ayında qərarlaşdırıldı. Rəsmi dairələrə, sərhəd qoşunlarının rəhbərliyinə müxtəlif vasitələrlə, xüsusən çoxminli mitinqlərdə tikanlı məftillərin yığışdırılması tələbləri verilməklə yanaşı, hər dəfə də göstərilirdi ki, əks halda xalq öz gücü ilə bunu həyata keçirəcəkdir.

Bu dövrdə Azərbaycan milli-azadlıq hərəkatının özünəməxsus tərkib hissəsi kimi Naxçıvanda meydana gələn "Sərhəd hərəkatı"da meydana gəlməkdə idi. Muxtar respublikanın 17 min hektara yaxın münbit torpaq sahəsi sərhəddə tikanlı məftillər arasında qalmışdı, onlardan istifadə olunmurdu. Vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər. "Sərhəd hərəkatı" isə genişlənirdi.[574] 1989-cu ilin dekabr ayında keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyeva Naxçıvan əhalisinin sərhəd səddi ilə bağlı tələblərini sessiyaya çatdırdı və xahiş etdi ki, bu məsələ rəsmi yolla təcili həll edilsin.[575]

Dekabr ayının 4-də və 12-də bütün sərhəd boyu məşəllər qaldırmaqla və tonqallar yandırmaqla aksiyalar keçirildi. Bu zaman Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı.[576] Dekabrın 12-də keçirilən sərhəd aksiyasından sonra qəti qərarlaşdırıldı ki, Cənubi Azərbaycanla əlaqələrin yaradılması məqsədilə Araz kənarındakı torpaqların əhalinin istifadəsinə verilməsi üçün tikanlı məftillər sökülsün.[577] Aksiya iştirakçıları hökumət qarşısında 4 tələb irəli sürdü:

1.1921-ci il Qars müqaviləsi gündəliyə gətirilsin.

2.Naxçıvan üzərində Türkiyənin himayəsi bərpa olunsun. İranla danışıqlar aparılıb Naxçıvana şose və dəmiryolu çəkilsin.

3.Cənubi Azərbaycanla sadələşdirilmiş gediş-gəliş sistemi təşkil olunsun.

4.Tikanlı çəpərlə Araz çayı arasındakı sahə camaatın istifadəsinə verilsin.

---

[574] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı,1996, s.216
[575] "Şərq qapısı" qəzeti, 1992, 2 yanvar
[576] Yenə orada, 1991, 28 may
[577] Yenə orada, 1991, 31 dekabr

Xalq cəbhəsi (Azərbaycan Xalq Cəbhəsi (AXC) rəsmən 1989-cu il iyunun 16-da Bakıda təsis edilmişdir – İ.H.) dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə olunmadı.[578] İmperiyanın rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi.[579]

Dekabrın 29 və 30-da Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyevanın kabinetində Azərbaycan SSR Xarici İşlər naziri H.Sadıqov, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini R.Sadıqov, Azərbaycan SSR Ali Sovetinin göndərdiyi deputat qrupunun üzvləri M.Nəsirov, Ə.Şəkinski, M.Məmmədov və b. ilə aparılan danışıqlar bir daha göstərdi ki, AXC üzvləri, Naxçıvan əhalisi sözlərində qətidirlər və onların işi haqq işidir.

Dekabrın 30-da axşam Naxçıvan sərhəd qoşunlarının komandiri polkovnik V.Jukov Naxçıvan televiziyası vasitəsilə ultimatum verdi. SSRİ-nin sərhədlərinin toxunulmaz olduğunu söyləyən V.Jukov sərhəddi sökmək istəyənlər barəsində ciddi tədbirlərin görüləcəyini bəyan etdi. Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km. Sovet-İran sərhədlərində həyəcanlar başlandı. Minlərlə adam tikanlı məftillərə doğru yürüş etdi, insanlar ölümü belə gözlərinin qarşısına alaraq sərhəd qurğularını dağıtdı.[580] Nəticədə, SSRİ-nin dövlət sərhəddi boyunca çəkilən tikanlı məftillər elliklə söküldü. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan insanların ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi.

Naxçıvan Muxtar Respublikasından başlanıb, Azərbaycanın digər sərhəd rayonlarına da yayılan bu ümumxalq hərəkatına imperiya və hegemonluq mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommu-

---

[578] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.216

[579] Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001, s.60

[580] Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA). f.1, siy. 19, iş 8953, v.71

nist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu anti-demokratik, bir qrup ekstremistin və cinayətkar ünsürlərin əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar.[581] 1990-cı il yanvarın 2-də axşam Moskva televiziyasının «Время» (Zaman) xəbərlər proqramı belə bir məlumat yaydı:"Azərbaycanın Naxçıvan MSSR ərazisində bir qrup ekstremist İranla sərhədi pozub, sərhəd zolağını, avadanlıqları məhv edib və sərhədçilərlə kobud davranaraq onlara hədə-qorxu gəlib".

Moskvanın təzyiqi altında Azərbaycan KP MK 1990-cı il yanvarın 2-də "Naxçıvan MSSR-də dövlət sərhədində kütləvi nizamsızlıq haqqında" qərar qəbul etdi. Qərarda sərhəd qurğularının sökülməsi pislənmiş və bunun respublikada yenidənqurma prosesinə ciddi zərbə vurduğu göstərilirdi.[582]

1990-cı il yanvarın 4-də SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanov, Sov.İKP MK-nın katibi A.N.Girenko, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov, SSRİ DTK sədrinin birinci müavini, ordu generalı Bobkov, ordu generalı Varennikov, general-polkovnik Şatalin, general-mayor Şironkin Naxçıvana gəldilər. Sərhəd hərəkatı ilə bağlı vəziyyəti sabitləşdirmək məqsədi ilə gəlsələr də, bu işlə bacara bilmədilər, alovlanmış milli-azadlıq hərəkatını söndürə bilmədilər. 1988-ci ildən Azərbaycanda başlanan milli-azadlıq hərəkatının şanlı səhifələrindən olan Naxçıvanın "Sərhəd hərəkatı" uzun illərin həsrətli nəticəsi kimi meydana çıxmışdır. Bu hadisəni "Səhər" qəzeti 13 yanvar 1990-cı il tarixli sayında "Oda düşdü oda salan" başlıqlı məqalə ilə geniş şərh edərək, respublika ictimaiyyətinə ilk dəfə olaraq obyektiv məlumat vermişdi. 1989-cu il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi bayramına çevrildi. 1990-cı ildən isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

"Sərhəd hərəkatı" rəsmi səviyyədə siyasi və tarixi qiymətini ilk dəfə məhz Naxçıvanda, Heydər Əliyevin rəhbərlik etdiyi Muxtar Respublika Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında almışdır. Heydər Əliyev Dünya Azərbaycanlılarının Milli Həmrəylik və Bir-

---

[581] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.217

[582] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005). Bakı, 2005, s.17

lik günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunmasını, siyasi əhəmiyyətli qərar qəbul edilməsini, Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addım kimi qiymətləndirmişdi.[583] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr tarixli sessiyasında 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik gününün elan edilməsi, hər il bayram edilməsi, həmin gün Naxçıvan Muxtar Respublikasının ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi.

Erməni millətçiləri tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsinin ortaya atılması ilə respublikada ictimai-siyasi vəziyyət mürəkkəbləşdi. Ermənistan hərbi birləşmələri tez-tez Azərbaycan ərazisinə basqın edirdilər. Naxçıvan MSSR Ermənistan SSR-dən zorla qovulan azərbaycanlıları qəbul edir və yerləşdirirdi. Muxtar respublika Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular. Erməni daşnakları Naxçıvan iddialarını da açıq bəyan edir və sərhəd kəndlərinə silahlı basqınlar edirdilər. Şərur rayonunun Kərki kəndi 18-19 yanvar 1990-cı ildə SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunaraq[584] kəndin 320 sakini qovulub çıxarıldı.[585] Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi. Naçıvanın ərazi bütövlüyünün pozulması, ermənilərin Naxçıvan MSSR-ə bütöv sərhəd boyunca silahlı hücum etməsi, əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının tədbir görməməsi Naxçıvan əhalisini ən radikal addımlar atmağa məcbur etdı. 19 yanvar 1990-cı ildə Naxçıvanda xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı.

Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası muxtariyyət statusundan istifadə edərək SSRİ adlı bir imperiyaya qarşı kəskin etiraz formasını seçdi. Bu etiraz bütün dünyaya səs saldı. Müttəfiq respublikanın tərkibində olan Naxçıvan Muxtar Respublikası Ali Soveti sovet rejiminə qarşı yönəldilən və onun müəyyən mənada iç üzünü

---

583 Qayıdış (1990-1993). Sənədlər toplusu, s.208

584 Yenə orada, s.757

585 Azərbaycan tarixi. Yeddi cilddə, yeddinci cild. Bakı, 2008, s.244

açan cəsarətli bir qərar qəbul etdi: SSRİ-nin Əsas Qanununun (Konstitusiyasının) 81-ci maddəsinə əsaslanan Naxçıvan parlamenti Azərbaycan SSR-in, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən mühüm tarixi qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi.[586] "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə "Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan" Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi. Bununla əlaqədar qəbul edilmiş qərarda deyilirdi:

"1. Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir. 2.Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin. 3.Yaranmış vəziyyətlə əlaqədar Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun. 4.Naxçıvan Muxtar Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın. 5.SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Muxtar Respublikasına edilən təcavüzə son qoyulsun. 6.Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın".[587]

Eyni zamanda, Ali Sovetin 19 yanvar 1990-cı il tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin qərarını dünya ictimaiyyətinə çatdırmaq, qonşu və dost ölkələrdən kömək istəmək məqsədilə İrana və Türkiyəyə gedib danışıqlar aparmaq üçün xüsusi nümayəndə heyətinin tərkibini təsdiq etdi. İrana gedəcək nümayəndə heyətinin tərkibinə T.Əliyev, R.Axundov, Q.Allahverdiyev, S.Axundov və b., Türkiyəyə gedəcək nümayəndə heyətinə isə E.İbrahimov, Y.Babayev, Ə.Şamilov, S.Əkbərov və b. daxil edilir. Nümayəndələrin bir qismi gedə bilməsə də, bəziləri qey-

---

[586] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.757

[587] "Şərq qapısı" qəzeti, 1990, 20 yanvar

ri-leqal şəkildə İrana keçə bildilər.[588] Naxçıvanlılar öz azadlıqsevərliklərini bir daha nümayiş etdirərək Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvan MSSR Ali Sovetinin binasının üstünə taxdılar. Bu müqəddəs bayraq bir həftə orada dalğalandı. 27 yanvar 1990-cı ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin tarixi qərarının ləğv etdi.[589]

Naxçıvanın SSRİ-nin tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi qərarı böyük tarixi əhəmiyyətə malikdir. SSRİ tarixində misli görünməmiş bu hadisə dünya ictimaiyyətinin diqqətini Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana qarşı imperiya və onun əlaltısı olan Ermənistanın hərəkətlərinə yönəltdi.[590] Bununla əlaqədar Heydər Əliyev demişdir: "Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi..."

7.2.Naxçıvan tarixində Heydər Əliyev dövrü (1990-1993-cü illər)

7.2.1.Heydər Əliyevin Naxçıvandakı fəaliyyətinin SSRİ-nin dağılmasında və Azərbaycanın müstəqillik əldə etməsində rolu (1990-1991-ci illər)

Ermənistanın 1980-ci illərin sonlarında Azərbaycana qarşı ərazi iddialarının başlanması, bilavasitə Heydər Əliyevin 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırılması ilə bağlı idi. Amerikan tarixçisi Odri Alştadt da qeyd edir ki, Əliyevin uzaqlaşdırılması ilə ermənilərin böyük uğurlara ümidləri artdı.[591] Bu eyni zamanda, daima Heydər Əliyevin diqqət mərkəzində olan Naxçıvana da bir zərbə idi.

Heydər Əliyevin Bakıda törədilmiş Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi, faciənin

---

[588] Allahverdiyev Q. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında (1988-1990-cı illər), s. 158

[589] Газета «Бакинский рабочий» , 1990, 28 января

[590] Allahverdiyev Q. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında (1988-1990-cı illər)//Dirçəliş-XXI əsr, Bakı, 2000, №7-8, s.69

[591] Одри Л.Альштадт. Кто может исцелить рану? Нагорный Карабах в 21 веке// Карабах. История в контексте конфликта. СПб., 2014, с.283

günahkarlarını kəskin ittiham etməsi ona olan təzyiqləri daha da artırmışdı.

Heydər Əliyev Azərbaycana qayıtmaq qərarına gəlmiş, SSRİ və Azərbaycan rəhbərləri bundan bərk narahat olmuşdular. Onun Azərbaycana qayıtmasına mane olmağa çalışırdılar. Azərbaycanın o zamankı rəhbəri Ayaz Mütəllibov Moskvaya Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər".[592] Bakı hava limanında Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi.[593] Ona edilən xəbərdarlıqlara baxmayaraq, xalqı ilə bir olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya qayıtdı. Xalq bu gəlişi böyük ümid və sevinclə qarşıladı. Lakin iqtidar o qədər təşvişə düşmüşdü ki, bir qrup əlaltısının iştirakı ilə təyyarə meydanında piket təşkil etdirmişdi.[594]



İki gündən sonra - iyulun 22-də Heydər Əliyev Naxçıvana gəldi.[595] Həmin gün o, Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən mitinqə dəvət olundu və orada çıxış etdi.[596] Heydər Əliyev çıxışında dedi: "Hələlik Naxçıvandayam. Əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edirsə, buna etiraz etmirəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir."[597] Bir aydan sonra - 21 avqust 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti

---

[592] Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994, s.46
[593] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.8
[594] "Şərq qapısı" qəzeti, 1990, 2 avqust
[595] Qayıdış. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşri. Bakı, 2008, s.84
[596] Yenə orada, s.29
[597] "Azərbaycan" qəzeti, 2003, 22 iyul

qərara aldı: "Naxçıvan şəhərində anadan olduğunu, təhsil aldığını, uzun illər xidmət etdiyini və hazırda Ümumittifaq təqaüdçüsü olub Naxçıvan şəhərində yaşadığını nəzərə alaraq, Naxçıvan MSSR Konstitusiyasının 28-ci maddəsinə uyğun olaraq, 1923-cü ildə anadan olmuş, Azərbaycan pasportu olan, azərbaycanlı Heydər Əliyev - Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan MSSR vətəndaşı sayılsın."[598] Heydər Əliyev respublikanın müxtəlif bölgələrindən gəlmiş nümayəndələrlə görüşlər keçirdi, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırdı.

Naxçıvanda yaşayan Heydər Əliyevə böyük ehtiram və hörmət, el sevgisi və xalq məhəbbəti onun vətən, xalq qarşısında gördüyü işlərə, etdiyi xidmətlərə görə idi və günü-gündən artırdı. Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlığına namizədlər irəli sürüləndə naxçıvanlılar tərəddüd etmədən Heydər Əliyevin namizədliyini yekdilliklə müdafiə etdilər. Sentyabrın 30-da Azərbaycan SSR xalq deputatlarının və yerli xalq deputatları sovetinin seçkiləri keçirildi, Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR-in xalq deputatı və Naxçıvan MSSR-in xalq deputatı seçildi. Heydər Əliyevin siyasi fəaliyyəti ilk addımlardan etibarən Naxçıvanın tarixi dövlətçilik ənənələrinin bərpasına başladı.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyası keçirildi. Heydər Əliyevdən sessiyaya sədrlik etmək təkidlə xahiş edildi. O ərəfədə Azərbaycanda ictimai- siyasi vəziyyət həddindən artıq mürəkkəb olduğundan sessiyaya sədrlik etmək müdriklik və siyasi uzaqgörənlik tələb edirdi.

Heydər Əliyevin sədrlik etdiyi həmin sessiya təkcə Naxçıvanda yox, bütün Azərbaycanda tarixi bir hadisə oldu. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və b. tarixi qərarlar qəbul etdi.[599]


Azərbaycanda ilk dəfə olaraq bu sessiyada milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından, müstəqilliyə can atan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir sıra qərarlar qəbul edildi. Sessiya

---

[598] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.45

[599] Qayıdış. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşri, s. 129-131, 148-150

Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi. Ali Məclisin birinci sessiyası Azərbaycan Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi haqqında məsələyə baxdı. 1990-cı il noyabrın 17-də həmin bayraq alqış sədaları altında sessiya keçirilən zala gətirildi. Sessiya Azərbaycan Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış etdi.



Həmin sessiyada 1990-cı ilin yanvar hadisələrinə siyasi qiymət verilməsi, Bakıda fövqəladə vəziyyətin götürülməsi və Dağlıq Qarabağda vəziyyət haqqında, habelə digər mühüm əhəmiyyətli qərarlar qəbul edildi.[600] Deputat Afiyəddin Cəlilov sessiyanın iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sədri seçildi.[601] Naxçıvanda bu cür gözlənilməz addımların atılması bilavasitə Heydər Əliyevin təşəbbüsünün nəticəsi idi. Hələ Bakıda əyləşənlər ölkənin müstəqilliyi barədə qərarın qəbul edilməsi üçün tərəddüdlərdən qurtula

[600] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.66-95; "Şərq qapısı" qəzeti, 1990, 18 noyabr
[601] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005), s.46

bilmədiyi bir vaxtda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi artıq milli dövlətçilik ənənələrinin təşəkkülünə istiqamətlənmiş qəti qərarlar qəbul edirdi.

Azərbaycanın müstəqilliyini istəməyən, hələ də SSRİ-nin boyunduruğunda qalmaq istəyindən əl çəkməyən ölkə rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarları "dövlətçiliyə qəsd" adlandırdı və Naxçıvanın blokada vəziyyətinə düşməsi daha kəskin xarakter aldı. Heydər Əliyev qətiyyətlə deyirdi ki, SSRİ adlı dövlət mütləq dağılacaq. Elə bu inamın nəticəsi idi ki, SSRİ-nin mövcud olduğu bir dövrdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılırdı. Sovetlər İttifaqının dağıdıldığını görən M.Qorbaçov SSRİ-nin saxlanılması üçün yeni ittifaq müqaviləsinin bağlanması, ittifaq üzrə referendum keçirilməsi və bu yolla SSRİ-ni saxlamaq barədə göstəriş verdi.

Azərbaycan rəhbərliyi vəzifəsini qorumaq naminə İttifaq layihəsinə və referendum keçirilməsinə razılıq verdi. Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında kəskin tənqid etdi. Göstərdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir.[602]

Azərbaycanın gələcəyi naminə Naxçıvanın tutduğu mövqe, burada həyata keçirilən demokratik tədbirlər ölkə rəhbərliyi üçün də bir nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti sessiyasının qərarı ilə dövlətin adı "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Cümhuriyyətinin üç rəngli bayrağı Dövlət bayrağı kimi qəbul olundu.[603]

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin reallığa çevrilməsi üçün mübarizəsini davam etdirirdi. Bu məqsədlə o, respublika Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında SSRİ-nin saxlanılmasına münasibət bildirməsi üçün keçirilməsi nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin,

---

[602] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.104-105

[603] Azərbayca Respublikası Milli Məclisinin Arxivi (AR MMA), f.2941, siy.1, iş 263, v.153

heç bir şərt qoymadan tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir".[604]

1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında SSRİ-nin saxlanılmasına dair Ümumittifaq referendumunda muxtar respublikanın iştirak etməməsi barədə qərar qəbul edildi. Sessiyada Heydər Əliyev referendumun əleyhinə çıxış etdi və müvafiq qərarın qəbul olunması da məhz onun təşəbbüsü ilə baş tutdu. İqtidarın bunu "separatcılıq" kimi qiymətləndirməsi, muxtar respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan Muxtar Respublikası Kommunist Partiyasının rəhbərliyi referendumun keçirilməsi barədə mövqeyindən çəkilmədi. Ancaq Naxçıvanda bu referenduma seçicilərin 20 faizə yaxın bir hissəsi qoşuldu və səsvermə baş tutmadı. Demokratik qüvvələr referendumu boykot etdilər. Saxta referendumda iştirak etməmiş Naxçıvana qarşı hücum başlandı. Aprelin 5-də muxtar respublika Ali Məclisinin sədri A.Cəlilov vəzifədən azad edildi.

Moskva ermənilərin əli ilə Naxçıvan əhalisini cəzalandırmağa çalışdı. Şərur və Sədərək rayonları güclü atəşə tutuldu. Erməni daşnaklarının "Böyük Ermənistan" yaratmaq planlarında Naxçıvan mühüm yer tutur. Dağlıq Qarabağ münaqişəsi başlayandan erməni işğalçıları Naxçıvanın sərhəd kəndlərini atəşə tuturdular. 1990-cı il yanvarın 19-da Kərkinin işğalından sonra ermənilərin Sədərəyə, Şərura, Gərməçatağa, Buzqova, Şadaya, Günnütə, Cağazirə və b. yaşayış məntəqələrinə hücumları artmışdı. Yerli əhalidən ölən və yaralananlar olurdu. Bakı-Şərur sərnişin qatarı Mehri rayonu ərazisində atəşə tutulurdu. Sərnişin qatarlarının təhlükəsiz hərəkəti barədə söz versələr də, ermənilər verdikləri sözə əməl etmirdilər. 1991-ci il aprelin 20-də Ordubad-Mehri zonasında Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun və Ermənistanın Mehri və Sisyan rayonlarının yerli hakimiyyət və hüquq mühafizə orqanları rəhbərlərinin görüşü olmuşdu. Azərbaycan dəmir yolunun Mehri sahəsində dəmiryol nəqliyyatının təhlükəsiz və fasiləsiz işləməsi məsələləri müzakirə edildi.[605] Qatar-

---

[604] "Səs" qəzeti,1991, 15 mart

[605] Qətiyyətin təntənəsi. Sənədli xronika, s. 127

ların hərəkəti bərpa edilsə də, aprelin 28-dən etibarən yenidən dayandırıldı. Çünki həmin gün erməni yaraqlıları Sədərək qəsəbəsini atəşə tutmuş, nəticədə 13 nəfər yaralanmış, onlarla yaşayış evi və ictimai bina dağıdılmışdı. Mayın 7-də Batabat yaylağındakı və Culfa rayonunun Ərəfsə kəndi yaxınlığındakı milis postlarına atəş açılmışdı. Mayın 13-də SSRİ Daxili İşlər Nazirliyinin nümayəndəsinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Sədərək rayonu və Ermənistanın Yexeqnadzor və Ararat rayonları sovet və hüquq mühafizə orqanları nümayəndələrinin görüşü keçirilmiş, sərhədyanı rayonda vəziyyət müzakirə olunmuşdu.

Heydər Əliyev Kommunist Partiyasının mürtəce siyasətinə etiraz əlaməti olaraq 1991-ci il iyulun 19-da partiya sıralarını tərk etdi.[606] Kommunist Partiyası və sovet dövlətinin süqutu gücləndi.

Sovet dövlətini saxlamaq üçün qiyamçıların göstərdiyi 1991-ci il Avqust dövlət çevrilişi cəhdi uğursuzluğa düçar oldu. Naxçıvandan fərqli olaraq Azərbaycan rəhbərliyinin qiyamı dəstəkləyən mövqeyi xalqın ciddi narazılığına səbəb oldu.

Avqust ayının 22-dən başlayaraq respublikanın bir sıra şəhərlərində mitinqlər keçirildi. Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən, 60 mindən cox adamın iştirak etdiyi izdihamlı mitinq və nümayişlər nəticəsində xalq avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının çağırılmasına nail oldu. Sessiya Naxçıvan Muxtar Respublikasında kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar respublika ərazisində AKP-nin və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu.[607] Mitinq və nümayişlərdə respublikada prezident seçkilərinin dayandırılması, Kommunist Partiyası hakimiyyətinin ləğv edilməsi, muxtar respublikada milli müdafiə komitəsinin yaradılması, Bakıda fövqəladə vəziyyət rejiminin ləğv olunması, Leninin abidələrinin sökülməsi və b. məsələlər tələb edilirdi.[608]

Naxçıvanda baş verən hadisələrin də ciddi təsiri ilə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il av-

---

[606] Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı, 2003, s.153; Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. V hissə. Ömrün Naxçıvan aşırımları. Bakı, 2013, s.214-217

[607] "Həyat" qəzeti, 1991, 28 avqust

[608] Qətiyyətin təntənəsi. Sənədli xronika, s. 169-170

qustun 30-da Azərbaycanın dövlət müstəqilliyi ilə bağlı Bəyannamə qəbul etdi. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev "Azadlıq bəyannaməsi"nin legitimliyinin təmin edilməsi üçün referendum keçirilməsi, 1920-ci il aprelin 28-də Azərbaycanın işğal edildiyi və Azərbaycan Demokratik Respublikasının zorakılıqla ləğv olunduğunun orada təsbit məsələsini təklif etsə də, bu vacib təklif qəbul olunmadı.[609]

1991-ci il sentyabrın 2-də Naxçıvan şəhərində çoxminli mitinqdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yarımçıq qalmış növbədənkənar sessiyasının çağırılması və Heydər Əliyevin Ali Məclisin sədri seçilməsi tələb edilirdi. Bir gün sonra, sentyabrın 3-də, çətinliklə də olsa, deputatlar toplanır və yetərsay alındığından sessiya öz işinə başlayır. Ali Məclisin və şəhər İcra Hakimiyyətinin binaları qarşısına toplanan əhali Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsini tələb edirdilər.

Seçicilərin təzyiqi ilə deputatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürdülər. Heydər Əliyev dəfələrlə çıxış edib, namizədliyini geri götürdüyünü bildirsə də, bu bir nəticə vermədi. Sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri lehinə səs verməklə, 5 nəfər bitərəf qalmaqla Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi.[610]

Heydər Əliyevin sədrliyi ilə işini davam etdirən sessiyada "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında", "Azərbaycan Respublikası Prezidentliyinə seçkilər haqqında" məsələlər müzakirə edildi. Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı.[611] Belə bir qərarın qəbul olunması bir çox obyektiv səbəblərlə bağlı idi. Qərarda göstərilirdi ki, "Prezident seçkiləri Azərbaycanda demokratiyanın və xalqın səsinin boğulması şəraitində keçirildiyindən bütün demokratik qüvvələr həmin seçkilərin təxirə salınmasını"[612] tələb edir. Naxçıvan parlamentinin bu qərarı bəzi qüvvələr tərəfindən birmənalı qəbul edilmədi, onlar şayiə yayaraq bu qərarı Azərbay-

---

[609] Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər), s.154

[610] "Şərq qapısı" qəzeti, Xüsusi buraxılış. 1991, sentyabr

[611] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 1996, s. 124

[612] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.139

candan ayrılmaq cəhdi kimi qiymətləndirməyə çalışırdılar.[613] Bunun iftira olduğunu qeyd edərək Ali Məclis bəyan edirdi ki, qəbul edilən sənədlərdə, bütün deputatların, Ali Məclisin Sədri Heydər Əliyevin sessiyadakı və sentyabrın 5-də Naxçıvan televiziyası ilə çıxışlarında "Azərbaycanın bütövlüyü və onun bölünməzliyi haqqında qətiyyətlə fikir söylənilmiş" və "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir" kimi fikirlər xüsusi vurğu ilə səslənmişdir.

Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək, ermənilərin silahlı basqınlarından qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı.[614] Bir həftə sonra Sədərək rayonundakı milis postu yenə atəşə tutuldu. Erməni quldurları Ordubad rayonu ərazisindən iki nəfər çobanı və min başa yaxın mal-qaranı, Şahbuz rayonu Güney Qışlaq kəndi ərazisindən 250 baş xırdabuynuzlu heyvanı aparmışlar. Sentyabrın 11-də Azərbaycan dəmir yolu hərbiləşdirilmiş mühafizə dəstəsinin üç atıcısı zorla Mehriyə aparılmış, onların tabel silahı alınmış və döyülmüşlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Ermənistan Ali Sovetinin sədri L.Ter-Petrosyanla telefonla danışmış, Azərbaycan dəmir yolunun Mehri stansiyasında sərnişin və yük qatarlarına və həmsərhəd kəndlərə basqınların, adamların tutulub girov saxlanılmasının, mal-qaranın qaçırılmasının kökünü kəsmək üçün tədbirlər görülməsini tələb etmişdir.[615]

Sentyabrın 20-də Ermənistanın Sisyan rayonu ərazisindən 60 nəfərlik quldur dəstə Batabatdakı Biçənək adlanan yerdə yerləşən teleradio ötürücüsünü dağıtmış, cihazları sıradan çıxarmışlar. Erməni yaraqlıları tərəfindən zorla aparılmış 2 çobanın - Xəlil Xəlilovun, Əşrəf Abbasovun - meyitləri sərhəd yaxınlığından tapılmışdır. Oktyabrın 16-da Ordubad ilə Mehri rayonunun sərhəddində tərəflər girov tutulmuş adamları bir-birinə qaytarmışlar.

Azərbaycanda müstəqillik aktının qəbul edilməsinə ay yarım qalmış, hələ sovet hakimiyyətinin mövcud olduğu bir vaxtda

---

[613] "Azərbaycan" qəzeti, 1990, 9 iyun

[614] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.544

[615] Qətiyyətin təntənəsi. Sənədli xronika, s. 190

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə bu prosesin - sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılmasının əsası qoyuldu.[616] Naxçıvanda Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması ilə əlaqədar ordu quruculuğuna başlanıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 7 sentyabr 1991-ci il tarixli sessiyası bu barədə qərar qəbul etdi.[617]

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri boykot etdilər. Prezident seçkiləri Naxçıvan Muxtar Respublikası ərazisində kecirilmədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi bununla kifayətlənməyərək, 1 oktyabr tarixli qərarı ilə keçid dövrü ittifaq orqanlarında Azərbaycan Respublikasının iştirakını qeyri-mümkün saydı, respublika rəhbərliyinin müstəqillik məsələsində qeyri-ardıcıl mövqeyini ittiham etdi.[618]

Azərbaycan Respublikasının rəhbərliyi Heydər Əliyevin müstəqillik uğrunda mübarizəsinə qoşulmaq, bu prosesi daha da yaxınlaşdırmaq əvəzinə Naxçıvanla konfrontasiya yolu tutdu. İş o yerə çatdı ki, Naxçıvanın konstitusion hüquqlarının pozulmasına əl atıldı. Azərbaycan Respublikası Ali Soveti tərəfindən respublika Konstitusiyasının "Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri vəzifəyə görə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavinidir" müddəasının təsbit olunduğu 112-ci maddəsinin 2-ci hissəsi çıxarıldı. Naxçıvanın Azərbaycan dövlətçiliyindəki rolunu yüksək qiymətləndirən Heydər Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində bu hüquqazidd qərar 1991-ci il oktyabrın 17-də ləğv edildi.[619]

Beləliklə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi ilə Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Naxçıvan həlledici mövqeyə keçdi. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər Azərbaycanın müstəqilliyinin elan edilməsinə və SSRİ-nin ittifaq dövləti kimi

---

[616] "Şərq qapısı" qəzeti, 2004, 19 avqust

[617] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.479-480, 763

[618] Yenə orada, s.170-172

[619] Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər), s.156

dağılmasına əsaslı zəmin yaratdı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi. Naxçıvanda gedən demokratik dəyişikliklərin sorağı Azərbaycandan uzaqlara yayılırdı. Azərbaycanın müstəqil dövlət kimi siyasi fəaliyyətinin bir sıra konseptual istiqamətləri də məhz bu dövrdə işlənib hazırlanmışdı.[620] "...Naxçıvanda fəaliyyət göstərdiyi dövrlərdə... Heydər Əliyev əslində Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyaları ilə yaşayırdı. O çətin vəziyyətdə, blokada şəraitində, ona qarşı daxili qüvvələrin törətdiyi qəsd, onu hakimiyyətdən kənar etmək cəhdlərinə baxmayaraq Heydər Əliyev təkcə Naxçıvan üçün yox, bütün Azərbaycan üçün düşünürdü."[621] Heydər Əliyev bir xalq deputatı, sonra isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərdiyi dövrdə Naxçıvan parlamentində təkcə Naxçıvan Muxtar Respublikası üçün yox, bütün respublika üçün böyük əhəmiyyət kəsb edən qərarlar qəbul edildi: "Naxçıvan Muxtar Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikası dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası yerləşən silahlı qüvvələrin statusu haqqında", "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında", "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyəti və idarəetmə orqanları haqqında SSRİ Qanunu barədə"[622] və s. Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, xarici dövlətlərlə əlaqələrin yaradılmasına, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətlərinin yaxşılaşdırılmasına və başqa bir sıra vacib məsələlərin həllinə yönəldildi.

---

[620] Naxçıvan. Azərbaycan beynəlxalq jurnalı. 2004, mart (01), s.23
[621] Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002, s. 242
[622] "Şərq qapısı" qəzeti,1996, 10 may

7.2.2.Heydər Əliyevin Naxçıvanda Azərbaycan dövlətçiliyini möhkəmləndirməsi. Naxçıvanın muxtar dövlət statusunun təmin edilməsi üçün zəmin hazırlanması (1991, oktyabr-1993, iyun)

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Preambula və altı bölmədən ibarət olan Konstitusiya aktında Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edilir, onun dövlət, siyasi və iqtisadi quruluşunun əsasları müəyyən edilirdi. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin elan edilməsindən sonra, onun rəsmən tanınması başlandı və ilk dəfə Türkiyə Respublikası noyabrın 9-da onu rəsmən tanıdı. Sonralar bu proses davam etdirildi.

Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya aktının qəbul edilməsi ilə xalqın tarixi arzusuna qovuşmasına baxmayaraq, müstəqilliyin reallaşdırılması o qədər də asan olmadı. Ən başlıca məsələlərdən biri müstəqillik ideyalarını dönmədən həyata keçirə biləcək dövlət hakimiyyətinin yaradılması idi. Müstəqilliyin ilk illərində bunu təmin etmək mümkün olmadı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991-1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir."[623]

Müstəqilliyin elan edilməsindən sonra, A.Mütəllibov hökuməti hakimiyyətini (1991, 18 oktyabr-1992, 6 mart) davam etdirdi. Bu hakimiyyət siyasi və sosial-iqtisadi sahədə, xüsusilə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında konkret proqrama malik deyildi. Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının getdikcə genişləndiyi bir şəraitdə bu olduqca təhlükəli idi. Məhz belə bir şəraitdə 1992-ci ilin fevralın 26-da Azərbaycan xalqına qarşı Xocalıda soyqırım aktı törədildi.[624]

---

[623] Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda İlham Əliyevin nitqi// "Azərbaycan" qəzeti, 2016, 18 oktyabr

[624] Ходжалы. Очевидцы о военных преступлениях. Суд над Арменией. СПб., 2015

1992-ci il martın 6-da Mütəllibov istefaya göndərildi. Bu hakimiyyəti daha da zəiflətdi. Mayın 8-də Azərbaycanın Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Belə gərgin vəziyyətdə də hakimiyyət uğrunda mübarizə davam edirdi. Mütəllibovun yenidən hakimiyyətə qayıtmaq cəhdi (14-18 may) uğursuzluğa düçar oldu. Hakimiyyət böhranı davam etdirildi. Bu böhranın ən mühüm səbəblərindən biri də Naxçıvana münasibətdə rəqabət siyasətinin davam etdirilməsi idi. Təəssüflə qeyd etmək lazımdır ki, nəinki, Mütəllibov hakimiyyəti, eləcə də özünü demokratik hesab edən qüvvələr də Naxçıvana qarşı eyni platformada birləşmişdilər. Bunun nəticəsi idi ki, "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda Naxçıvanda həyata keçirilən Ümumazərbaycan əhəmiyyətli hadisələrin heç biri dəyərləndirilməmiş, yeni tarixi şəraitdə Naxçıvanın statusuna toxunulmamışdı, halbuki təcrübi baxımdan Konstitusiya Aktında Naxçıvana da yer ayrılmasına ciddi ehtiyac var idi.

Bütün bunlara baxmayaraq, Naxçıvanın rəhbəri kimi Heydər Əliyev Mərkəzlə eyni platformada birləşən qüvvələrin konfrontasiya siyasətinə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi xətti ilə cavab verdi. Azərbaycanın Dövlət Müstəqilliyinin elan edilməsi mühüm hadisə kimi Naxçıvanda da yüksək qiymətləndirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev bu münasibətlə Azərbaycan xalqını təbrik etdi. Təbrik teleqramında bu hadisənin mahiyyəti dəyərləndirilməklə eyni zamanda, Naxçıvanın rolu və sonrakı fəaliyyətinə də toxunulur və qeyd edilirdi ki, Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir... Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərinin həyata kecirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər.[625] Bu konseptual müddəa işdə də ardıcıllıqla davam etdirildi.

---

[625] "Həyat" qəzeti, 1991, 23 oktyabr

Azərbaycanın Dövlət müstəqilliyinin elan edilməsindən sonra, ən vacib məsələlərdən, eləcə də müstəqillik üçün təhlükə yaradan amillərdən biri muxtar respublika ərazisindəki hərbi və sərhəd qoşunları hissələri ilə yeni münasibətlərin qurulması idi. Bununla əlaqədar olaraq, Ali Məclisin 1991-ci il 26 oktyabr sessiyasında Naxçıvan Muxtar Respublikası ərazisində olan hərbi hissələrin statusu haqqında məsələ müzakirə olundu və qərar qəbul edildi. Qərarda Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Sovet İttifaqı hərbi qüvvələrinin statusu ilə əlaqədar bütün məsələləri hərtərəfli öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiyanın yaradılması nəzərdə tutulmuşdu.[626] Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi sayəsində Naxçıvanda yerləşmiş qoşun və sərhəd hissələrinin fəaliyyəti ilə bağlı bütün məsələlər Azərbaycanın mənafeyinə uyğun həll edildi. Məhz onun ciddi tələblərindən sonra müəmmalı şəkildə 1990-cı ilin sonunda Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sərhəd məntəqələrinin Ermənistan ərazisindəki sərhəd məntəqələrinə tabe etdirilməsi barədə qərar ləğv edildi. Onlar yenidən Naxçıvan ərazisində yerləşən 41-ci sərhəd dəstəsinin tabeliyinə qaytarıldı.

Noyabrın 6-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini N.Şam və SSRİ Baş Dövlət Sərhəd İdarəsinin şöbə rəisi A.Bessonov, eləcə də Zaqafqaziya hərbi dairəsindən, sərhəd qoşunları qərargahından yüksək rütbəli hərbçilər Naxçıvana gəldilər. Ali Məclisin sədri son zamanlar sərhədçilər tərəfindən törədilən hüquqa zidd hərəkətlərdən danışdı. Muxtar respublikanın ali hakimiyyət orqanları ilə hərbi hissələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş "Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin statusu haqqında" qərarın məqsəd və məzmunu barədə onlara məlumat verdi.

Növbəti gün Ali Məclisin Sədri Heydər Əliyevin muxtar respublika ərazisində yerləşən bütün hərbi hissələrin komanda heyəti ilə görüşü oldu. Ali Məclisin qəbul etdiyi "Naxçıvan Muxtar Respublikasının müda-

---

[626] Qayıdış (1993). Sənədlər toplusu., s.514-516; Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər), s.161

fiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında" qərarı bu sahədə aparılan bütün danışıqların məntiqi yekunu oldu. Qərarda deyilirdi ki, Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlər Azərbaycan xalqına, muxtar respublika əhalisinə məxsusdur. Muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən aparılmamalıdır.[627]

Muxtar respublikanın ərazisindəki sovet hərbi hissələri ilə məsələnin həlli ilə eyni zamanda, milli hərbi hissələrin yaradılması zərurəti də ortaya çıxmışdı. Müstəqilliyin qarantı olan vacib məsələlərdən biri kimi bu da ilk dəfə Naxçıvanda reallaşdırılmışdır. Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda milli ordu hissələri formalaşdırıldı, regionun ərazi bütövlüyünün və təhlükəsizliyinin müdafiəsi üçün zəruri təminat əldə edildi.

Ermənistan tərəfindən Naxçıvanın blokadaya alınmasına və muxtar respublikaya yönəlmiş erməni təcavüzünə qarşı müdafiənin təşkili də diqqət mərkəzində idi. 1991-ci il noyabrın 5-də Naxçıvan-Bakı istiqamətində və əks istiqamətdə sərnişin qatarlarının hərəkəti bərpa olundu. Erməni tərəfi ilə danışıqlar zamanı tələb olundu ki, dəmir yolunun Mehri sahəsində qatarların hərəkətinin təhlükəsizliyi təmin edilsin. Ermənistan prezidenti Heydər Əliyevi əmin etmişdir ki, erməni tərəfi Mehri rayonunun ərazisində qatarların təhlükəsiz hərəkətini təmin edəcəkdir. Noyabrın 28-də yük qatarlarının hərəkəti bərpa edildi. Sərnişin qatarlarının təhlükəsizliyinə erməni tərəfi təminat vermədiyindən onların hərəkəti dayandı. Erməni tərəfin avantürist siyasəti isə davam etdirilirdi. Dekabrın 8-də erməni yaraqlıları Ordubad dəmir yolu stansiyası təmir briqadasının 12 işçisini girov götürdülər.

Dekabrın 16-da isə Bakı-Şərur qatarı saxlanıldı. Dekabrın 19-da Heydər Əliyevin Ermənistan prezidenti ilə danışığından sonra 12 nəfər geri qaytarıldı. Eyni zamanda, dekabrın 16-dan saxlanılan Bakı - Şərur qatarı azad edildi.

Erməni silahlı birləşmələri qısa fasilədən sonra, 1992-ci il mayın 5-də sərhədi keçərək, Naxçıvan Muxtar Respublikasının sərhədyanı yaşayış məntəqələrinə yenidən basqın etdilər. Sədərək qəsəbəsi

---

[627] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.522

üzərinə hücumda beş piyadaların döyüş maşınının, iki zirehli transportyorun və bir tankın köməyi ilə 700-ə yaxın silahlı erməni hərbi qulluqçusu iştirak etmişdir.[628] Sədərək qəsəbəsi, Havuş, Günnüt, Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdu. Mayın 7-də səhər tezdən Sədərək qəsəbəsi və Havuş kəndi müxtəlif toplardan atəşə tutulmuş, 20 nəfər yaralanmışdı. Sədərəkdə böyük dağıntılar olmuşdu.[629]

Mayın 5-də Naxçıvan şəhərində, mayın 7-də Şərur rayonunun mərkəzində mitinq keçirildi. Heydər Əliyev hər iki mitinqdə çıxış etmiş, sabitliyi saxlamaq naminə bütün qüvvələrin birləşməsini zəruri hesab etmişdi. Azərbaycan ərazisindən buraya elektrik enerjisi və yanacaq verilməsini təmin edən kommunikasiya xətləri Ermənistanda bağlanılmışdı. Telefon və teleqraf rabitəsi pozulmuş, dəmir yolunda hərəkət dayanmışdı. Naxçıvan Muxtar Respublikası yenə işıqsız və qazsız qalmışdı.

Mayın 8-də "Milliyyət" qəzetində Naxçıvandakı hərbi vəziyyətlə bağlı məlumatlar verilmişdi. S.Dəmirəl ABŞ prezidenti Corc Buş ilə telefon danışığında bildirmişdi ki, Ermənistan Naxçıvana hücumları davam etdirsə, Türkiyə kənar müşahidəçi kimi qala bilməyəcəkdir.[630] Sədərək rayonunda təhlükəsizliyi təmin etmək məqsədilə orada hərbi vəziyyət elan edildi. 1992-ci il may ayının əvvəllərində Naxçıvan Muxtar Respublikasında, Azərbaycanın Ermənistanla sərhədlərində gərginlik yenidən artdı. Düşmən Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək niyyətində idi.

Naxçıvan ətrafında blokadanın daraldılması da buna xidmət edirdi. 1991-ci ilin dekabr ayından Naxçıvan Muxtar Respublikasına qaz verilməsinin dayandırılmasına elektrik enerjisinin verilməsi də əlavə olundu, 1992-ci ilin iyul ayından elektrik enerjisi də kəsildi. 1992-ci ilin aprel ayından buraya qatarların hərəkəti tam dayandırılmışdı.[631]

---

[628] Qətiyyətin təntənəsi. Sənədli xronika, s. 288
[629] Yenə orada, s.289
[630] "Naxçıvan" qəzeti, 1992, 8 may
[631] Azərbaycan tarixi. Yeddi cilddə, yeddinci cild, s.334-335

Naxçıvan üçün həyati əhəmiyyət malik olan bu məsələlərin həlli ilə bərabər, muxtar respublikanın gələcək inkişafının perspektivləri də müəyyənləşdirilirdi. Azərbaycanda ilk dəfə olaraq iqtisadi islahatlara, məhz Naxçıvanda başlandı. 1992-ci il aprelin 6-da Ali Məclisin sessiyasında iqtisadi islahatlarla bağlı məsələlər müzakirə edildi: "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi haqqında". İlk növbədə Culfa rayonunun Şurut və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatlarına başlandı.[632] Torpaqlar pay norması əsasında həmin kəndlərdə yaşayan əhaliyə paylandı. Kənddə yaşayan hər bir kəndliyə sahibkar hüququ verildi. Diyarda yaradılmaqda olan sosial-iqtisadi münasibətlər əhalinin maddi vəziyyəti və rifah halının yaxşılaşdırılmasına ciddi təsir göstərdi.

Naxçıvanda həyata keçirilən yeni dövlətçilik tədbirləri kimi onun qonşu xarici dövlətlər-Türkiyə və İranla siyasi və iqtisadi əlaqələrinin yaradılması da qeyd edilməlidir. 1992-ci il martın 22-25-də Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə səfər edib, qardaş ölkənin dövlət başçıları ilə danışıqlar apardı.

Heydər Əliyevin Baş nazir Süleyman Dəmirəl ilə görüşündə Naxçıvan Muxtar Respublikasının statusu məsələsindən də bəhs olundu. Bununla əlaqədar Süleyman Dəmirəl qeyd edirdi ki, Türkiyə xarici qüvvələrin Naxçıvanın statusunu dəyişdirmək cəhdlərinə etinasız qalmayacaq və muxtar respublikaya hər cür yardım göstərəcəkdir. Martın 24-də tərəflər arasında 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalandı. Sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutuldu. Türkiyə Naxçıvana 100 milyon dollar kredit verdi və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi.[633] Sədərək-Türkiyə yolu tikildi. Qarşılıqlı avtonəqliyyat əlaqələri yarandı. "Türksat" rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi. Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında Heydər Əliyevin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına

---

[632] "Şərq qapısı" qəzeti, 2003, 22 iyul

[633] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.607

qovuşurdu. Heydər Əliyev deyirdi: "Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk islam dünyasına bir qapıdır".

Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda həyata keçirilən bütün tədbirlər Azərbaycan xalqının konsolidasiyasına, onun dövlətçiliyinin daha da möhkəmləndirilməsinə xidmət edirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında hər il dekabr ayının 31-nin Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi bayram edilməsi barədə qərarı da bunu bir daha təsdiq edir.[634]

Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda dövlət müstəqilliyinin möhkəmləndirilməsi uğrunda çətin və ardıcıl iş aparıldığı dövrdə, Mərkəzdə hakimiyyət uğrunda mübarizə davam edir və dövlətin suverenliyi üçün labüd təhlükə yaradırdı. Belə ki, Azərbaycan Xalq Cəbhəsi 1992-ci ilin mayında A.Mütəllibovun yenidən hakimiyyətə qayıtmaq cəhdini Konstitusiyanı bərpa etmək adı ilə dəf edərək özü hakimiyyəti ələ aldı. Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında İsa Qəmbər sədr seçildi və Prezident səlahiyyətlərinin icrasına (1992, 17 may-17 iyun) başladı. Azərbaycan Xalq Cəbhəsinin nəzarəti altında həyata keçirilən prezident seçkisi nəticəsində Əbülfəz Əliyev (Elçibəy) prezident (1992, 17 may-1993, 1 sentyabr) seçildi. Beləliklə, Azərbaycan Xalq Cəbhəsi yenidən bərpa olunduğunu elan etmiş Müsavat partiyası ilə birlikdə hakimiyyəti ələ aldı. Azərbaycan Xalq Cəbhəsi və Müsavat cütlüyünün hakimiyyəti də ölkəni dərin siyasi böhrandan çıxara bilmədi. Fürsətdən istifadə edən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı silahlı təcavüzünü davam etdirdi. 1992-ci il mayın 18-də Laçın işğal olundu. 1993-cü il aprelin 2-də isə Kəlbəcər rayonu ələ keçirildi. Beləliklə, Ermənistan Dağlıq Qarabağın hüdudlarında kənarda olan Azərbaycan torpaqlarının işğalı ilə münaqişəni yeni mərhələyə keçirdi.

Bu hakimiyyətin yol verdiyi ən ağır səhvlərdən biri də Mütəllibov hakimiyyətinin Naxçıvana qarşı anti-dövlətçilik siyasətini nəinki, ara-

---

[634] Qayıdış. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşri, s. 271-274

dan qaldırmaq, hətta daha da dərinləşdirməkdən ibarət oldu. Yalnız Heydər Əliyevin müdrikliyi və zəngin dövlətçilik təcrübəsi Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qalmasına şərait yaratdı.

Heydər Əliyev əvvəlki dövrdə olduğu kimi, Rusiya qoşunlarının Naxçıvandan çıxarılması və milli ordu hissələrinin formalaşdırılması istiqamətində fəaliyyətini davam etdirirdi. Ali Məclisin qərarı ilə Rusiya qoşun hissələrinin Naxçıvandan çıxarılması və Milli ordunun yaradılması prosesi başlandı. 1992-ci ilin iyul ayında Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi idarəsi və 75-ci motoatıcı diviziyasının komandanlığı ilə danışıqlar aparıldı. Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisin Rəyasət Heyətinin 25 iyun 1992-ci il tarixli iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Müdafiə Nazirliyi tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi.[635] Azərbaycanda birinci olaraq Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verildi.

1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Milli Ordusuna verilməsi haqqında sənədlərin imzalanması ilə Rusiya ordusunun hərbi hissələri avqustun 18-də Naxçıvan Muxtar Respublikasını tərk etdi.[636]

Aparılan danışıqların nəticəsində Sovet İttifaqının sərhəd qoşunlarının Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsi ləğv olundu. 41-ci sərhəd dəstəsinin funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının Naxçıvanda yaradılan birinci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalandı. İlk milli sərhəd qoşunlarının yaradılması da Naxçıvandan başlandı. Sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı qaldırıldı. 1992-ci il sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin gərgin əməyi və çevik diplomatik gedişləri sayəsində heç bir insidentə yol verilmədən Naxçıvan ərazisini sonuncu rus sərhədçisi də

---

[635] Qayıdış. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşri, s.542

[636] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.771; "Şərq qapısı" qəzeti, 1998, 24 iyun

tərk etdi.[637] Bütün keçmiş müttəfiq respublikalar içərisində ilk dəfə olaraq sovet imperiyasının ordu hissələri bütünlüklə Naxçıvandan, ondan bir müddət sonra isə bütün Azərbaycandan çıxarıldı.

Ermənistan silahlı qüvvələrinin Naxçıvana qarşı genişlənən təcavüzünün dəf edilməsi istiqamətində də işlər davam etdirilirdi. 1992-ci il mayın 18-də muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. qəsəbə və kəndlərinə güclü hücumlar başlandı. Ermənistan silahlı qüvvələri, hətta zəhərli kimyəvi silahdan istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvanlıların hamısı Sədərəyin müdafiəsinə qalxdı. Onlar qəhrəmanlıqla vuruşurdular. Qəsəbənin yüz metrliyindəki Mil dağından 10 gün müddətində 17 şəhidin cəsədini götürmək mümkün olmadı.

Heydər Əliyevin şəxsi nüfuzu bir günlük atəşkəs yaratmağa kömək etdi, şəhidlərin cəsədləri 1992-ci il mayın 28-də döyüş zonasından götürüldü.[638] Kəndlərə xeyli ziyan dəymiş, evlər və inzibati binalar dağıdılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu.[639] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev erməni təcavüzünün qarşısını almaqda diplomatik vasitələrdən geniş istifadə etdi. Hələ martın 23-də onun Türkiyəyə səfəri zamanı Baş nazir Süleyman Dəmirəl bütün dünyaya bəyan etmişdi ki, Naxçıvan Muxtar Respublikasının statusunda bir dəyişiklik meydana gələrsə, mövcud müqaviləyə əsasən Türkiyə öz sözünü deyəcəkdir. Mayın 18-də gecə Türkiyə Nazirlər Kabineti toplanıb geniş bəyanat qəbul etdi. Türkiyə rəhbərliyinin və Heydər Əliyevin birgə səyləri sayəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. 57 dövlət bu təcavüzü pislədi. NATO xüsusi bəyanat verdi.[640] Rusiya burada geri çəkilməyə məcbur oldu. MDB Birləşmiş Silahlı Qüvvələrinin Baş komandanı marşal Şaposnikovun qeyd etdiyi kimi, Türkiyənin Naxçıvana kömək etməsi üçüncü dünya müharibəsinə gətirib çıxara bilərdi. Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi.

---

637 "Dövran" qəzeti, 1998, 16 dekabr

638 "Şərq qapısı" qəzeti, 1992, 28 may

639 "Oğuz yurdu" qəzeti, 2001, 15 sentyabr

640 Azərbaycan tarixi. Yeddi cilddə, yeddinci cild, s.333

Ermənistan Naxçıvanın blokadasının başa çatdırılması və möhkəmlənidirilməsi yönündə fəaliyyətini davam etdirirdi. 1992-ci il aprelin 24-də Azərbaycanın digər torpaqları ilə yeganə əlaqə vasitəsi olan dəmir yolu kəsildikdən sonra, iyulun 13-də qalan kommunikasiya xətlərinin də fəaliyyətinə son qoyuldu. Ermənilər bununla uzun müddət mühasirədə saxladıqları Naxçıvanı diz çökdürməklə Azərbaycana daha ağır zərbə vurmaq istəyirdilər. Naxçıvan Muxtar Respublikası əhalisinin iradəsini qırmaq mümkün olmadı. Naxçıvanlılar hər cür çətinliyə, aclığa, qışda 40 dərəcəyə çatan şaxtaya dözdülər. Qaz olmadığından, enerji fasilələrlə verildiyindən və az olduğundan ağacların 70 faizi kəsilib yandırıldı, lakin diyar mübarizəsini davam etdirdi.

Heydər Əliyev bütün imkanlardan istifadə edərək Naxçıvanı blokadadan çıxarmağa, əhalinin vəziyyətini yaxşılaşdırmağa çalışırdı. Bunun üçün Türkiyə və İranla əlaqələr davam etdirilir, Naxçıvanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsi sahəsində geniş iş aparılırdı.

Türkiyə ilə əməkdaşlığın ən önəmli məsələlərindən biri Araz çayı üzərində körpünün tikintisi oldu. Naxçıvan körpüsü Türkiyənin Qafqaz və Orta Asiya dövlətlərinə keçidini təmin edən bir qapı idi. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında "Sədərək-Dilucu" 228 m-lik "Ümid körpüsü" açıldı.[641] Körpünün rəsmi açılışında Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük nümayəndə heyəti gəlmişdi. Baş nazir Süleyman Dəmirəl körpünün açılışını Azərbaycanla Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. Heydər Əliyev həmin körpünü "arzu və ümidlərin körpüsü" kimi dəyərləndirdi. Muxtar respublika parlamentinin qərarı ilə Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi.[642]

Muxtar respublikanın İranla da əlaqələri genişlənirdi. Heydər Əliyev 1992-ci il avqustun 22-26-da İran İslam Respublikası Prezidentinin dəvəti ilə Tehrana səfər etdi. Naxçıvan Muxtar Respublikasının ehtiyacları ilə bağlı qonşu dövlətlə danışıqlar aparıldı.[643] Iran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi

---

[641] Naxçıvan Muxtar Respublikası. 1969-1999. Naxçıvan, 1999, s.11

[642] "Azərbaycan" qəzeti, 1999, 9 iyun

[643] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.653

və mədəni əməkdaşlıq haqqında 16 maddədən ibarət protokol imzalandı.[644] Bağlanmış protokola əsasən muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, hər ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olundu. Oktyabr-noyabr aylarında İran İslam Respublikasından Naxçıvana yardımlar, neft, dizel yanacağı, kömür və ərzaq məhsulları göndərildi. Dekabrın 3-də Şahtaxtı-Poldəşt arasında üzən körpü istifadəyə verildi.[645] Həmin gün İrandan Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanıldı. Türkiyədən-İqdir şəhərindən Naxçıvana elektrik xətti çəkildi.[646] Muxtar respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. İranla Naxçıvan arasında Poldəşt və Culfada müştərək bazarlar açıldı.

İran və Türkiyə dövləti, ayrı-ayrı şirkətlər Naxçıvana yardım göstərməklə kifayətlənmir, burada yeni müəssisələr tikmək, mövcud müəssisələri modernləşdirmək, avadanlıqlarla təchiz etmək, muxtar respublikanı azad iqtisadi zonaya çevirmək üçün kömək edəcəklərini bildirirdilər. Konsulluqların açılması üçün razılıq əldə edildi. Bir qədər sonra Türkiyənin Naxçıvana yeni təyin olunmuş baş konsulu Orxan Ərtoğrul 1993-cu ilin yanvarında Heydər Əliyev tərəfindən qəbul edildi. Naxçıvan Muxtar Respublikasının paytaxtında ağıryüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən yeni aeroport martın 1-də işə salındı. Sınaq uçuşları müvəffəqiyyətlə nəticələndi.

Türkiyə və İranla iqtisadi, ticarət, mədəni əməkdaşlığının mahiyyəti Mərkəzdəki anti-Naxçıvan qüvvələri tərəfindən qəsdən təhrif edilirdi. Onlar bu əlaqələri Naxçıvanda separatizm meyillərinin güclənməsi kimi təqdim edirdilər. Dövlət nümayəndələri muxtar respublikaya kömək etmək əvəzinə, onun rəhbərliyinə təzyiq göstərir, konstitusiya hüquqlarını məhdudlaşdırmağa çalışırdılar. Muxtar respublika Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilirdi: "Ali Məclisin Rəyasət Heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqın-

---

644 Qayıdış (1990-1993). Sənədlər toplusu, s.658-662
645 Yenə orada, s.774
646 AR MMA, fond 2941, siy. 1 a, iş 1, v.30-31

da yayılan şayiələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir".[647]

Heydər Əliyev Naxçıvanın düşdüyü blokada vəziyyətindən çıxarılmasında və əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında dünyanın iri dövlətlərinin humanitar yardım göstərməsi istiqamətində fəaliyyət göstərirdi. Elə bu məqsədlə də Heydər Əliyev 1993-cu il yanvarın 20-də ABŞ prezidenti B.Klintona məktub göndərdi. Məktubda deyilirdi: "... Sizə çatdırmaq istəyirik ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası artıq səkkiz aydır ki, ağır iqtisadi blokada şəraitindədir. Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə bağlayan və Ermənistanın ərazisindən keçən bütün kommunikasiya xətləri pozulmuşdur. Buna görə də muxtar respublikanın iqtisadiyyatının zəruri ehtiyatlarla təmin olunmasında, əhalinin ərzağa, elektrik enerjisinə, yanacağa olan minimum tələbatının ödənilməsində son dərəcə çətinliklər yaranıb."[648]

ABŞ prezidenti Heydər Əliyevin məktubuna dərhal reaksiya vermiş, ABŞ-ın Bakıdakı səfiri Ricard Mayls Naxçıvana gəlmiş, Naxçıvanın ehtiyaclarını öyrənmişdir. Bir aydan sonra ABŞ-ın Naxçıvana təcili humanitar yardımı başlanmışdır. ABŞ-dan uçan və bir milyon ABŞ dolları dəyərində olan tibb ləvazimatı və ərzaq məhsulları ilə yüklənmiş "Boinq" təyyarəsi martın 9-da Naxçıvana gəlmişdir. Martın 21-də Fransadan Naxçıvana humanitar yardım göndərilmişdir. Martın 24-də Türkiyə hökuməti Naxçıvana 25 milyon Amerika dolları həcmində kredit ayırmışdır. Türkiyə və İran dövlətlərinin, şirkətlərinin və qeyri-hökumət təşkilatlarının Naxçıvana yardımları davam etmişdir.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyini yeni şəraitdə möhkəmləndirmək və inkişaf etdirmək konsepsiyası Mərkəzi hakimiyyət tərəfindən müqavimətlə qarşılanırdı. Heydər Əliyevin siyasətinin xalq içərisində rəğbətlə qarşılanması və dəstəklənməsi isə Mərkəzi hakimiyyəti narahat etməyə başlamışdı. Buna görə də Mərkəzi hakimiyyət Naxçıvana qarşı məkrli planlar tərtib etməyə başlamışdı. Bu özünü iki isti-

---

[647] "Azərbaycan" qəzeti, 1999, 9 iyun

[648] Qətiyyətin təntənəsi. Sənədli xronika, s. 378

qamətdə göstərirdi: əvvəla, Naxçıvana qarşı dövlət çevrilişi planı hazırlanıb, həyata keçirməyə cəhd edilir; ikinci, Naxçıvanın muxtar statusunun ləğvi üçün təbliğat aparılırdı. Hakimiyyət ideoloqları başa düşə bilmirdi ki, hər iki halda Azərbaycan dövlətçiliyi üçün necə böyük təhlükə yarana bilərdi. Bu baxımdan hər iki planın həyata keçirilməsinin qarşısının alınması, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə verilən böyük töhfə idi.

Mərkəzi hakimiyyət Naxçıvanda hakimiyyətini möhkəmləndirmək planına nail olmaq üçün hakimiyyət strukturlarını ələ almağa çalışırdı. Bu məqsədlə ilk əvvəl Baş nazir vəzifəsi ələ keçirilmişdi.[649] Əsas vəzifə isə Naxçıvan Muxtar Respublika Ali Məclisinin sədri vəzifəsinə yiyələnmək, daha doğrusu isə Heydər Əliyevi uzaqlaşdırmaq idi. Cəbhəçilərin Ali Məclisin sessiyasında təfriqə salmaq və bununla Heydər Əliyevə qarşı müəyyən planları həyata keçirmək cəhdləri boşa çıxandan sonra çevriliş etmək yolu gündəmə gəldi.

Mərkəzin bu strateji planı ölkənin daxili işlər nazirliyi vasitəsi ilə həyata keçirilirdi. İyul ayının axırlarından Xalq Cəbhəsinin Naxçıvan polisini siyasətə cəlb etmək, ondan öz siyasi məqsədləri naminə istifadə etmək cəhdləri aydınlaşmağa başladı.[650] Belə bir şəraitdə Azərbaycan Respublikasının o zamankı daxili işlər naziri İsgəndər Həmidov Naxçıvana gəlir və avqustun 20-21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində olur. Danışıqlar zamanı razılıq əldə olunur ki muxtar respublikanın daxili işlər naziri vəzifəsinə daha layiqli, təcrübəli şəxs təyin edilsin və bu vəzifə hələlik birinci müavin Ə.Ələkbərova həvalə edilsin.[651] İ.Həmidov isə bu vəzifədə AXC-nin fəal üzvü S.Mustafayevi görmək istəmiş, 18 avqust 1992-ci il tarixdə 1718 nömrəli əmr vermişdi. Heydər Əliyevlə söhbətindən sonra bu vəzifəyə kadr təyin etməyin onun səlahiyyətinə aid olmadığını bilib, bu məsələni hələlik açmamışdır. Heydər Əliyev İranda olarkən I.Həmidov S.Mustafayevin nazir təyin olunması haqqındakı əmri Naxçıvan Muxtar Respublikası DİN-nə göndərmişdir. Naxçıvan Muxtar Respublikası DİN-nin polis əməkdaşları bu təyinatı qəbul

---

[649] Daha ətraflı bax: Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər), s.169-170

[650] "Azərbaycan" qəzeti, 1997, 23 oktyabr

[651] Yenə orada

etməmiş, 1 sentyabr 1992-ci il tarixdə Azərbaycan daxili işlər nazirinin müavini R.Quliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikası DİN polis əməkdaşlarının iclası keçirilmiş və bu iclasın etiraz bəyanatını Azərbaycan və Naxçıvan Muxtar Respublikası rəhbərliyinə göndərmişlər.[652] Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşlarının hüquq və şərəfini Müdafiə Komitəsi Respublika Prezidentinə, Ali Sovetə və Baş Prokurora müraciət etmişdir.[653] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 sentyabr 1992-ci il tarixli sessiyası Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri vəzifəsini müzakirə etdi. Namizədlərin adları gündəliyə salındı. Alternativ qaydada seçki keçirildi. Ə.Ələkbərov 86 səsdən 69 səs, S.Mustafayev isə 3 səs topladı. Ə.Ələkbərov Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri vəzifəsinə seçildi.[654] AXC-nin Naxçıvanda hakimiyyəti qeyri-qanuni yolla yiyələnmək üçün polisi ələ keçirməsi taktikası baş tutmadı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti 15 oktyabr 1992-ci il tarixdə "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaranmış vəziyyət haqqında" məsələ müzakirə etdi. Qəbul edilmiş qərar respublika Prezidentinə və Ali Sovetə göndərildi. İ.Həmidov planın baş tutmayacağını gördükdə başqa bir hüquqa zidd hərəkətə yol verdi və Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri və bir sıra əməkdaşları daxili işlər orqanlarından çıxardı.

Yaranmış vəziyyət Bakının anti-konstitusion tədbirlərini müdafiə edən yerli qüvvələri fəallaşdırdı. AXC Naxçıvan şöbəsi Heydər Əliyevin əleyhinə qızğın təbliğat aparırdı. Oktyabrın 24-də isə AXC hakimiyyəti ələ almaq üçün silahlı çevriliş etdi. Naxçıvanda xalq cəbhəsinə məxsus silahlı dəstələr muxtar respublika Daxili İşlər Nazirliyi, Televiziya və Radio Verilişləri Komitəsi, Rabitə İdarəsi, şəhər elektrik şəbəkəsi binalarını, habelə telestudiyanı zəbt edib hakimiyyət əleyhinə bəyanat verdilər.[655] Lakin xalq çevriliş cəhdini dəstəkləmədi. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Hətta Nehrəm, Cəhri kəndlərindən adamlar piyada Naxçıvan şəhərinə yürüş

---

[652] Qayıdış (1990-1993). Sənədlər toplusu, s.383-385
[653] Yenə orada, s.385-389
[654] Qayıdış (1990-1993). Sənədlər toplusu, s. 388; "Respublika" qəzeti, 1999, 9 may
[655] "Şərq qapısı" qəzeti, 1992, 28 oktyabr

etdilər. Qısa bir vaxtda 50 mindən çox adam Heydər Əliyevi müdafiə etmək üçün Ali Məclis binasının qarşısına gəldi.[656] Belə bir şəraitdə Ali Məclisin Sədri Heydər Əliyev prezident Əbulfəz Elçibəylə, Ali Sovetin sədri İsa Qəmbərovla dəfələrlə telefon danışıqları aparır, Naxçıvan cəbhəçilərinin qeyri-qanuni hərəkətlərinin qarşısını almaq, yaranmış gərginliyi aradan qaldırmaq üçün təcili tədbirlər görmələrini tələb edirdi. Prezident və digər rəhbər şəxslər tərəfindən heç bir qəti tədbir həyata keçirilmədi.

Belə olduqda Naxçıvan rəhbərliyi tərəfindən çevriliş cəhdində iştirak edən cəbhəçilərə xəbərdarlıq edildi ki, əgər onlar bir saat ərzində Daxili İşlər Nazirliyinin və dövlət televiziya və radio verilişləri komitəsinin binalarını azad etməsələr, silahsız xalq kütləsi özünün təzyiqi ilə buna nail olacaqlar. Camaat Xalq Cəbhəsi silahlılarını dövlət idarələrindən qovub cıxardı. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi. Heydər Əliyev bu hadisələr haqqında sonra belə demişdir: "...oktyabrın 24-də Xalq Cəbhəsi Naxçıvanda çevriliş etmək istədi. Bunu da etdi. Silahlı dəstələr ilə gedib Daxili İşlər Nazirliyini, Televiziyanı zəbt etdilər və televiziya ilə bizim əleyhimizə çıxış etdilər. Biz bunun qarşısını yenə də kütlənin köməyi ilə aldıq. Bax, məhz bu zaman, bu gərgin dövrdə mən istəyirdim ki, Naxçıvana bu təzyiqlər olmasın."[657]

Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası keçirildi. Sessiyada Heydər Əliyev haqlı olaraq dedi: "Açıq demək lazımdır ki, bu çevriliş cəhdi Muxtar Respublikanın DİN-i və Televiziyanı tutmaq deyil, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və onun rəhbərliyinə qarşı yönəldilmişdi".[658]

Naxçıvanda konstitusion hakimiyyəti zəiflətməklə bərabər, digər qeyri-konstitusion fəaliyyətə-muxtar respublikanın statusuna qarşı tədbirlərə də əl atılırdı. Bu fəaliyyətin də əsas hədəfi Ali Məclisin Sədri Heydər Əliyev idi. Respublikanın dövlət katibi 1992-ci il noyabr ayının 2-də Bakı Dövlət Universitetində çıxışında və "Müxalifət" qəzetinə verdiyi müsahibədə Naxçıvanın muxtariyyət

---

[656] Azərbaycan tarixi. Yeddi cilddə, yeddinci cild, s.336
[657] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4-cü kitab. Bakı, 1997, s.251
[658] "Naxçıvan" qəzeti, 1992, 10 noyabr

statusuna qarşı çıxmışdı.[659] Respublikanın bir qrup ziyalıları dövlət katibinin bu məsuliyyətsiz çıxışından narahat olmuş və mətbuatda ona cavab verilmişdi.[660] Azərbaycan Xalq Cəbhəsinin II qurultayında da Naxçıvanın mövcud statusunun ləğvindən bəhs edilmişdi.[661] AXC-Müsavat hakimiyyəti dövründə Naxçıvanın muxtariyyətinin ləğv olunması məsələsinin Ali Sovetin gündəliyinə çıxarılmasına cəhd olunmuşdu.

Mərkəzi hakimiyyət bu aktın nə hüquqi, nə də təcrübi tərəflərini nəzərə almaq istəmirdi. Heydər Əliyevin həm ölkə, həm də beynəlxalq hüquq müstəvisində apardığı mübarizə ilə bu cəhdləri də boşa çıxardı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il 25 oktyabr tarixli qərarı ilə mövcud şəraitdə AXC-Müsavat iqtidarının muxtar respublikanın statusu ilə bağlı əsassız, zərərli iddialarını qəti rədd etdi. Qeyd olundu ki, "...xüsusi coğrafi və geosiyasi şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər hansı bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan Muxtar Respublikasının hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır".[662]

Heydər Əliyevin Naxçıvanda müstəqillik dövrü fəaliyyəti onun şəriksiz Ümumazərbaycan lideri olmasını təsdiq etdi. Ölkənin və xalqın onun ətrafında birləşməsi qarşısıalınmaz prosesə çevrildi. Respublikanın mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə əmək adamları dəfələrlə Naxçıvana, Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş etdilər.[663]

Respublika əhalisinin böyük bir hissəsi ölkəni düşdüyü vəziyyətdən çıxarmaq üçün yeni bir partiyanın yaradılmasını zəruri hesab edirdi. Mövcud partiya və təşkilatlara xalqın inamı qalmamışdı. Respublikanın müxtəlif bölgələrində "Heydər Əliyev partiyası" adlı təşkilatlar yaradılırdı. 1992-ci ilin aprel-may aylarında Bakıda Heydər Əliyevdən xəbərsiz onun tərəfdarları mitinqlər keçirir, yaş senzi ilə bağlı Konsti-

---

659 "Müxalifət" qəzet, 1993, 4 fevral

660 "Naxçıvan" qəzeti, 1993, 16 mart

661 Qayıdış (1990-1993). Sənədlər toplusu, s.322; Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər), s.183

662 Qayıdış (1990-1993). Sənədlər toplusu, s.414

663 "Xalq qəzeti",1997, 2 dekabr

tusiyaya edilmiş ədalətsiz əlavənin ləğvini istəyirdilər. Heydər Əliyevin yüz minlərlə tərəfdarlarının vahid, mütəşəkkil, güclü bir təşkilatda birləşməsi tarixi zərurətə çevrilmişdi. 1992-ci ilin avqustunda "Səs" qəzetində çap olunmuş "Heydər bəyi biz çağırmalıyıq!" adlı müraciət qısa müddət ərzində cəmiyyətdə böyük rezonans doğurdu. Həmin il oktyabr ayında ictimaiyyətin mütləq əksəriyyətinin göstərdiyi inadlı və qətiyyətli təsiri altında ölkənin tanınmış ziyalılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə ünvanladıqları "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti[664] bu kampaniyaya rəsmən start verdi. Bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin-Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı. 91 ziyalının timsalında milyonların arzusunun, siyasi seçiminin əks olunduğu məktuba Heydər Əliyev "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı ilə xeyir-dua verdi.[665]

Yeni Azərbaycan Partiyasının təsis konfransını Bakıda keçirmək mümkün olmadı. Konfrans 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi. Müxtəlif bölgələrdən 550-dən çox nümayəndə gəlmişdi. Konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Konfransda YAP-ın İdarə Heyəti, Siyasi Şurası və Nəzarət-Təftiş Komissiyası seçildi.[666] Partiyanın 21 noyabr 1992-ci il tarixli bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir. "Yeni Azərbaycan Partiyası parlament tipli par-

---

664 "Səs" qəzeti, 1992, 16 oktyabr

665 Qayıdış (1990-1993). Sənədlər toplusu, s.442-446

666 Yenə orada, s.447; Vəliyev İ., Hüseynov Y. Azərbaycan siyasi partiyaları və ictimai təşkilatları. Bakı, 1995, s.30

tiyadır".[667] "Bizim şüarımız müxalifət naminə müxalifət ola bilməz. Bizim prinsipimiz – konstruktivlikdir."[668]

Beləliklə, Azərbaycanın müstəqilliyinin təmin edilməsi sahəsində Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda əldə olunan tarixi təcrübə, yeni müstəqil dövlət quruculuğu modeli bütün ölkə tərəfindən qəbul olundu.

7.3. Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası. Naxçıvanın yeni statusunun təsbit edilməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1993-cü il iyun hadisələri ərəfəsində ölkədəki vəziyyətdən bəhs edərkən qeyd etmişdir ki, əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O, böyük dövlət adamı, vətənpərvər insan kimi o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlamışdır. 1993-cü il dönüş ili idi.[669]

1993-cü ildə Azərbaycan Xalq Cəbhəsi-Müsavat hakimiyyəti dövlət idarəsini çıxılmaz vəziyyətə gətirdi. Dövlət həyatının bu və ya digər sahəsi deyil, bütövlükdə sistem dərin böhrana təslim edildi. Mövcud hakimiyyətin içərisindən çıxmış hərbi qruplaşmanın Gəncədə başladığı qiyam ölkəni labüd fəlakətə, Vətəndaş müharibəsi təhlükəsinə yönəltdi. Belə bir şəraitdə, məhz Heydər Əliyev dövlətin və xalqın gələcəyinin qarantı kimi bütün məsuliyyəti üzərinə götürdü. O,1993-cü il iyunun 9-da hökumət tərəfindən göndərilmiş təyyarə ilə Bakıya gəldi. Qarşıda duran ilk vəzifə Vətəndaş müharibəsi təhlükə-

---

667 "Azərbaycan" qəzeti, 1999, 9 iyun

668 Qayıdış (1990-1993). Sənədlər toplusu, s.448

669 Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda İlham Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 2016, 18 oktyabr

sinin aradan qaldırılması oldu. Heydər Əliyev iyunun 13-14-də böyük siyasi iradə nümayiş etdirərək, Gəncədə hərbi müxalifətlə müzakirələr apardı, yol xəritəsini müəyyən etdi. Heydər Əliyevin nüfuzu və tədbirləri siyasi stabilliyə doğru atılan ilk mühüm addım oldu.

İyunun 15-də xalqın arzuladığı gün gəldi, nəhayət, Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasında Ali Sovetin sədri seçildi. Həmin günün tarixi önəmi nəzərə alınaraq, 1997-ci ilin iyununda qanunverici orqan tərəfindən "Milli Qurtuluş Günü" elan edildi.

Heydər Əliyevin həmin dövrdəki çıxışları, nitqləri və müsahibələri sübut edir ki, o, Azərbaycan Respublikasında dövlət quruculuğu sahəsində aydın və əsaslı plana malik idi. Bunu yaxşı anlayan daxili və xarici düşmənlər Heydər Əliyevə qarşı eyni sırada yer aldı, hər cür müqavimətə baxmayaraq, dövlət quruculuğu ardıcıl şəkildə davam etdirildi. İlk növbədə qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi istiqamətində işlər başlandı. Bu, həmin qüvvələri dəstəkləyənlər tərəfindən ciddi müqavimətlə qarşılandı, ən xəyanətkar metodlara əl atıldı. Belə bir xəyanət nəticəsində 1993-cü il iyulun 23-də Ağdam Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Separatçı qüvvələrin fəallaşdırılması da bu planın tərkib hissəsi idi. 1993-cü il avqustun 7-də cənub bölgəsində oyuncaq "Talış-Muğan Respublikası" elan olundu.

Heydər Əliyev belə bir gərgin şəraitdə siyasi zəkası ilə ən optimal üsullar tətbiq etməklə, Azərbaycan üçün ən az itki ilə vəziyyətdən çıxmağa, dövlətçiliyi qorumağa nail ola bildi. Avqustun 17-də Milli Məclisdə Lənkəran hadisələri müzakirə edildi, bu hadisələr dövlət müstəqilliyinin əleyhinə olan qüvvələrin siyasi oyunu kimi qiymətləndirildi. Avqustun 23-də separatçılar məğlub edildi. Bu cəbhədəki xəyanətkar qüvvələri hərəkətə keçirdi. Avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də isə Qubadlı işğal olundu.

Daxili və xarici qüvvələrin pozuculuq və təcavüzkar fəaliyyətinin qarşısının alınması üçün ölkədə dövlət hakimiyyətindəki boşluqların aradan qaldırılması zəruri idi. Bu məqsədlə vəzifəsinin icrasını qoyaraq Kələki kəndinə getmiş Ə.Elçibəy impiçment qaydasında vəzifəsindən kənarlaşdırıldı, avqustun 29-da keçirilən referendumda da xalq ona etimad göstərmədi. Oktyabrın 3-nə təyin edilmiş yeni prezident seçkilərində xalq səs çoxluğu ilə Heydər Əliyevi dövlət başçısı seçdi.

Heydər Əliyevin genişlənən dövlətçilik fəaliyyəti ilə imkanlarını itirəcəklərini anlayan düşmən qüvvələr də fəallığını davam etdirməkdə idi. 1993-cü il oktyabrın sonlarında Zəngilan rayonu da xəyanət nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən ələ keçirildi. Heydər Əliyevin rəhbərliyi ilə ölkənin müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlər artırıldı. 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Noyabrın 23-də Milli Şura tərəfindən "Müdafiə haqqında" qanun qəbul edildi, ordu quruculuğunun hüquqi bazası gücləndirildi. Heydər Əliyev bilavasitə hərbi quruculuğa rəhbərlik üçün, cəbhə bölgələrinə də səfərlər edirdi. Bütün bunların nəticəsində düşmən hücumlarının nəinki qarşısı alındı, hətta 1994-cü ilin əvvəllərində Füzuli və Cəbrayıl istiqamətində uğurlu əməliyyatlar nəticəsində bir sıra yaşayış məskənləri azad edildi. 1994-cü il mayın 8-də isə Bişkek protokolu imzalandı və bu sənədə əsasən 1994-cü ilin mayın 12-də iki dövlət arasında atəşkəs elan olundu.

Azərbaycanın dövlətçiliyi möhkəmləndirildikcə ona qarşı müqavimət də artmaqda davam etdirilir, lakin uğurla dəf edilirdi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişlərinin qarşısı uğurla alındı. Heydər Əliyev bu hadisələrdən bəhs edərkən demişdir ki, "...həm respublikadan qaçıb Moskvada yerləşən adamların təxribatları, həm də burada böyük vəzifələr iddiası ilə yaşayan adamların əməlləri gətirib 94-cü ildə oktyabr hadisələrinə çıxartdı. Dövlət çevrilişinə qarşı cəhdin qarşısı alında. Bundan sonra nəticə çıxarılmalı idi, amma çıxarılmadı. Yenə həmin qüvvələr birləşib XTPD-ni (Xüsusi Təyinatlı Polis Dəstəsi.-İ.H.) ortaya atdılar ki, bunların vasitəsi ilə dövləti devirsinlər. Bu niyyət də baş tutmadı...Ondan sonra nə etdilər? Körpünü partlatmaq istədilər, terror hərəkətlərinə əl atdılar. İstədilər ki, körpünü partladıb dövlət başçısını öldürsünlər. O da baş tutmadı..."[670]

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsi üçün iqtisadi islahatlar proqramının hazırlanması və həyata keçirilməsinə də xüsusi diqqət verirdi. Neft strategiyası onun mərkəzi məsələlərindən idi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu əslində yalnız, neft müqaviləsi olmayıb Azərbaycanın dünya miqyasında etibarlı tərəfdaş kimi tanınmasının təsdiqi idi.

---

[670] Heydər Əliyev . Müstəqilliyimiz əbədidir. 4-cü kitab, s.266

Azərbaycanda siyasi sabitliyin təmin edilməsi, atəşkəsin əldə olunması, iqtisadi islahatlar proqramının reallaşdırılması uğurlu xarici siyasət ilə paralel olaraq davam etdirilirdi. 1993-cü il sentyabrın 24-də Azərbaycan MDB-yə daxil oldu. Rusiya ilə münasibətlər nizama salındı, Mərkəzi Asiya respublikaları ilə gərginlik aradan qaldırıldı, Türkiyə ilə ənənəvi strateji əlaqələr yeni səviyyəyə yüksəldildi, qonşu İranla da əlaqələr yaxşılaşdırıldı, Avropa dövlətləri ilə əlaqələr də genişləndirildi və s. Xarici siyasət xəttində beynəlxalq təşkilatlar ilə əməkdaşlığa xüsusi önəm verilirdi. Azərbaycan 1994-cü ilin yanvarında NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qəbul edildi, mayın 4-də isə onun Çərçivə sənədini imzaladı.

Heydər Əliyevin Azərbaycan dövlətçilıyinin inkişaf etdirilməsi sahəsində əldə etdiyi nailiyyətlər onun yeni konstitusiyada təsbit edilməsi zərurətini irəli sürdü. O zaman Azərbaycanın qüvvədə olan 1978-ci il Konstitusiyası da Heydər Əliyevin dövlətçilik fəaliyyətinin nəticəsi kimi yaranmışdı. Onun qəbul edilməsindən sonra, dövlət həyatında köklü dəyişikliklər baş vermiş, Azərbaycanda dövlət quruluşu, siyasi və iqtisadi sistem dəyişmişdi, lakin əvvəlki iqtidarların heç biri zamanın çağırışlarına cavab verə bilməmiş, Əsas Qanunda müəyyən dəyişikliklər ilə kifayətlənilmişdi. Tarixin hökmü ilə Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanması və qəbul edilməsi missiyası da Heydər Əliyev tərəfindən yerinə yetirildi.

Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün bütün şərait təmin edildikdən sonra, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarına uyğun olaraq Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya komissiyası yaradıldı. 1995-ci il noyabrın 12-də keçirilən referenduma qədər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyasının və onun işçi qrupunun dəfələrlə iclası keçirilmiş, hər bir məsələ üzrə geniş müzakirələr aparılmışdır.[671] Burada çox maraqlı bir məqam vardır: bu iclasların bir hissəsi layihənin hazırlanması, digər hissəsi isə onun layihəsinin ümumxalq müzakirəsi üçün dərcindən (1995, 15 oktyabr) sonra keçirilmişdir. Dövlət dili haqqında maddə isə 1995-ci il 31 oktyabr

---

[671] Daha ətraflı bax: Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, s.125-129, 165-195, 312-323 və s.

iclasında xüsusi müzakirə olunmuşdur.[672] 1995-ci il noyabrın 10-da keçirilən iclasda isə Heydər Əliyev görülən işlərə yekun vurmuş, Konstitusiya layihəsinin mahiyyəti haqqında demişdir: "Bu konstitusiya layihəsinin ən əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının tam müstəqilliyini təmin edir, ölkəmizin ərazi bütövlüyünü təmin edir, Azərbaycan xalqının hüquqlarının toxunulmazlığını təmin edir, vətəndaşlarımızın hər birinin hüquqlarının qorunmasını təmin edir və Azərbaycan xalqının, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir."[673] Nəhayət, Konstitusiya noyabrın 12-də keçirilən referendumla qəbul edildi. Azərbaycan dövlətçiliyi yeni mərhələsinə qədəm qoydu.

Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyə başlaması ilə, onun hakimiyyətinin birinci dövründə və SSRİ rəhbərlərindən biri olduğu zamandakı kimi Naxçıvana dövlətçilik münasibətini yenidən bərqərar etdi. Naxçıvanın Azərbaycan Respublikasının siyasi strukturunda yeri möhkəmləndirildi. Lakin Naxçıvanın yeni rəhbərliyi yaranmış vəziyyəti kifayət qədər qiymətləndirə bilmədi, respublika rəhbərliyinin dəstəyini real işlər ilə möhkəmləndirmədi. Bunun nəticəsi idi ki, idarəçilik sahəsində müəyyən boşluqlar, hakimiyyət orqanları arasında anlaşılmazlıqlar yaranmağa başlamış, nəticədə bir çox sahələrdə mənfi hallar baş qaldırmışdı. Yuxarıda qeyd edildiyi kim keçmiş prezident Ə.Elçibəyin iyun hadisələrindən sonra Ordubadın Kələki kəndinə qaçması, onun ətrafında mövcud hakimiyyətə zidd qüvvələrin toplanması və fəaliyyəti də gərginlik mənbəyi kimi qalırdı. Belə bir çətin şəraitdə respublika rəhbərliyi təsirli tədbirlər gördü, Ordubad rayonunda kadr islahatı ilə vəziyyət stabilləşdirildi.[674]

Görkəmli dövlət xadimi Azərbaycan dövlətçiliyinin bu mərhələsində əsas diqqətini Naxçıvanın hüquqi-siyasi sisteminin möhkəmləndirilməsinə yönəltdi. Ötən tarixi təcrübə göstərdi ki, bu sahədə problemlər var və Mərkəzi hakimiyyətin subyektiv mövqeyindən asılı olaraq Naxçıvanın statusu müzakirə obyektinə çevrilə bilər. Bunun qarşısını birdəfəlik almaq məqsədi ilə Azərbaycan Respublikasının Kons-

---

[672] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, s.422-436

[673] Yenə orada, s.477

[674] Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər), s.210-211

titusiya layihəsində Naxçıvanın statusu və idarə sisteminə xüsusi yer ayrılmışdı. Lakin çox maraqlıdır ki, Naxçıvanın muxtar dövlət status məsələsinə qarşı çıxanlar da var idi. Heydər Əliyev Konstitusiya Komissiyasının son iclasında onlara cavab olaraq bildirmişdi: "Konstitusiya layihəsinin bir fəsli yenə də müəyyən bir maraq doğurmuşdur. Bu, Naxçıvan Muxtar Respublikasına aid olan fəsillər və ona aid olan maddələrdi. Bəziləri bu maddənin əhəmiyyətini dərk etmədən, bu işə səthi yanaşaraq, formal nöqteyi-nəzərdən münasibət göstərərək belə bir fikir söyləyirlər ki, Azərbaycan unitar dövlətdir, unitar dövlətin içərisində muxtar respublika bir dövlət kimi ola bilməz. Bəziləri belə bir fikir söyləyirlər ki, guya bu, gələcəkdə Azərbaycanın federallaşmasına gedən bir yol açır və sairə. Bunlar tamam əsassızdır, çox cılız fikirlərdir...Hesab edirəm ki, bu fəsil də tamamilə əsaslı yazılıbdır və Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini təmin edən bu maddə çox böyük tarixi əhəmiyyətə malikdir-həm bizim tarixi keçmişimizə görə, Azərbaycanın tərkibində bu muxtar respublikanın yarandığı zamandan indiyədək keçdiyimiz dövrdə rastlaşdığımız halları nəzərə alaraq, həm də gələcəyimiz üçün."[675] Bu fikirlər Konstitusiya layihəsinin referendumla qəbul edilməsi ilə, bir daha təsdiqini tapdı. Azərbaycan Respublikası Konstitusiyasının III bölməsinin VIII fəsli bilavasitə Naxçıvan Muxtar Respublikasına (maddə 134-141) həsr edilmişdir. Burada təbii ki, ən önəmli maddə Naxçıvan Muxtar Respublikasının statusunu müəyyən edən 134-cü maddədir. Həmin maddəyə görə, "I.Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. II. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. III. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. IV.Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir. V.Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına; Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikası Konstitusiyasına, qa-

---

[675] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4-cü kitab, s.476-477

nunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır. VI.Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya qanunu ilə təsdiq edilir."[676] Bu maddənin birinci bəndi ilə Azərbaycanda konstitusiya tarixində ilk dəfə olaraq Naxçıvanın hüquqi statusu qəti şəkildə müəyyənləşdirilir. Qalan bəndlər isə mahiyyət etibarı ilə muxtar dövlət statusunun hüquqi sərhədlərini göstərir. Beləliklə, Naxçıvanın muxtar dövlət statusu Azərbaycanın unitar dövlət quruluşuna nəinki, zidd gəlmir, əksinə onu daha da möhkəmləndirilir. Belə bir yanaşma dünya təcrübəsini nəzərə almaqla eyni zamanda, dünya konstitusiya quruculuğunu da zənginləşdirmiş oldu. Digər önəmli bir məsələ Naxçıvan Muxtar Respublikasında hakimiyyətin bölünməsi prinsipinin təsbiti və həyata keçirilməsi ilə bağlı idi. Konstitusiyanın 135-ci maddəsinin birinci bəndinə görə, "Naxçıvan Muxtar Respublikasının qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir." 136-cı maddə ilə Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Ali Məclisin Sədri hesab olunur. Beləliklə, Azərbaycan Respublikasının dövlət quruluşu mexaniki şəkildə Naxçıvana tətbiq edilmir, faktiki olaraq, muxtar respublika üçün parlament idarə sistemi müəyyən edilirdi. Bununla da muxtar respublikanın idarə sistemi ilə ümumrespublika idarə sistemi arasında unikal ahəngdarlıq və hüquqi baza təmin edilirdi. Azərbaycan Respublikası Konstitusiyasının Naxçıvana dair fəslində Ali Məclis (maddə 137-139), Nazirlər kabineti (maddə 140) və yerli icra hakimiyyətinə (maddə 141) dair hüquqi məsələlər təsbit edilmişdir.

Azərbaycan Respublikasının "Dövlət hakimiyyəti" adlanan ikinci bölməsinin V ("Qanunverici hakimiyyət"), VI ("İcra hakimiyyəti") və VII ("Məhkəmə hakimiyyəti") fəsillərində, həmçinin V bölmənin ("Hüquq və qanun") X fəslində ("Qanunvericilik sistemi") müvafiq

---

[676] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016, s.53-54

olaraq Naxçıvan Muxtar Respublikasına aid hüquqi məsələlər həllini tapır.[677]

Beləliklə, Naxçıvanın muxtariyyət tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının statusu qəti şəkildə həllini tapdı. Bu status, həm Naxçıvanın Azərbaycan dövlətçiliyindəki tarixi roluna, həm də bu sahədəki perspektivinə verilən yüksək dəyərin nəticəsi idi.

---

[677] Naxçıvan Muxtar Respublikası konstitusiyalarda. Kitabın tərtibçisi, oçerk və mətnlərin müəllifi Elman Cəfərli. Bakı, 2014. s.172-173

SƏKKİZİNCİ FƏSİL

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNDƏ ROLU (1995-Cİ İLİN SONLARINDAN BİZİM GÜNLƏRƏDƏK)

8.1. Naxçıvanda yeni hakimiyyət orqanlarının təşkili. Naxçıvanın yeni Konstitusiyasının qəbul edilməsi

Azərbaycan Respublikası Konstitusiyasının 1995-ci ilin noyabrında qəbul edilməsi ilə eyni zamanda, parlamentə də seçkilər keçirildi. Beləliklə, dövlət quruculuğunun yeni mərhələsinə qanunvericilik orqanının formalaşdırılması ilə başlandı. Azərbaycan dövlətçiliyində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikasında üç qat seçki keçirildi. Seçicilər Konstitusiya layihəsi və Azərbaycan Respublikasının parlamenti ilə birgə, Ali Məclisə də seçkilərdə iştirak etdi. Seçki dairələrində 45 nəfərə qarşı 153 nəfər deputatlığa namizədliyini irəli sürdu.[678] Keçirilən seçkidə 36 seçki dairəsi üzrə seçkilər baş tutdu. Muxtar respublikada səsvermə hüququ olan vətəndaşlardan 176236 nəfər, yəni ümumi seçicilərin 89,9%-i iştirak etdi.[679] 8 seçki dairəsində seçkilər baş tutmadığından təkrar seçkilər 26 noyabrda keçirildi. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası oldu.

Azərbaycan Respublikasının yeni Konstitusiyası ilə Naxçıvanın yüksək statusunun təsbit edilməsi diyarın yeni tarixi şəraitdə idarə edilməsinə rəhbərlik edəcək ali vəzifəli şəxsə olan tələbləri daha da artırırdı. Bunu nəzərə alan sessiya Vasif Talıbovu yekdilliklə Ali Məclisin sədri seçdi.

Vasif Talıbov 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində Naxçıvanda cərəyan edən ictimai-siyasi proseslərin fəal iştirakçısı, Ulu öndər Heydər Əliyevin sadiq silahdaşlarından idi. O, 1991-ci ilin sentyabrından 1994-cü ilin aprelinədək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin baş köməkçisi, 1994-cü ilin aprelindən 1995-ci

---

[678] Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. Bakı, 2003, s.500

[679] Yenə orada, s. 501

ilin dekabrınadək Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici-iqtisadi əlaqələr üzrə birinci müavini olmuşdur. Yeni Azərbaycan Partiyasının yaranmasında fəal iştirak etmiş, 1995-ci il aprelin 8-də partiyanın muxtar respublika təşkilatının sədri seçilmişdir.

Vasif Talıbov Ali Məclisin sədri vəzifəsində Heydər Əliyevin dövlətçilik ideyalarını ləyaqətlə həyata keçirmiş, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu təcrübəni uğurla davam etdirmişdir. Heydər Əliyev 1999-cu il oktyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən görüş zamanı demişdir ki, "...Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşirdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində (qeyd etdiyimiz kimi Vasif Talıbov 1995-ci ilin dekabrında bu vəzifəyə seçilmişdir.-İ.H.) o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər...Amma məni ən çox sevindirən-şübhəsiz ki, bu da görülən işlərin nəticəsidir-Naxçıvanda yaranmış sağlam ictimai-siyasi mühitdir. Sağlam mühitdə insanların hamısının üzü gülür. İnsanlar 1993-cü, 1994-cü illərin, bəlkə də, 1995-ci ilin əsarətindən qurtardılar. İndi insanlar, şübhəsiz ki, burada ağır blokada şəraitində yaşayır, amma işləri görmək üçün yol tapırlar...Şübhəsiz ki, bunlar Vasif Talıbovun rəhbərliyi altında sizin hamınızın birgə fəaliyyətinizin nəticəsidir."[680]

Beləliklə, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında baş verən dəyişikliklər diyarın da Konstitusiyasının qəbul edilməsi üçün əlverişli şərait yaratdı.

Naxçıvanın 1978-ci il Konstitusiyasının müstəqillik dövrünün tələblərinə cavab verməməsi və bunun yeni müddəalar ilə müasir vəziyyətə uyğunlaşdırılması sahəsində ilk təşəbbüs məhz Heydər Əliyevə məxsus olmuşdur. Belə ki, 1992-ci il yanvarın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik mülahizələri, hüquq-mühafizə və millətlərarası münasibətlər daimi komissiyası Naxçıvanın 1978-ci il Konstitusiyasının 103-cü maddəsinin ("Maddə 103. Naxçıvan MSSR Alı Sovetinin Rəyasət Heyəti.")[681] yeni redaksiyası haqqında və "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında"

---

[680] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 22-ci kitab. Bakı, 2007, s.285

[681] Naxçıvan Muxtar Respublikası konstitusiyalarda, s.112

Konstitusiya Aktı ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Konstitusiya Qanunu"nun layihəsini Ali Məclisin müzakirəsinə vermək haqqında qərar qəbul etmişdi. Burada ilk dəfə "hakimiyyətin bölgüsü" prinsipi təsbit edilmişdir.[682] Yalnız Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbulu üçün də hüquqi bazanı hazırladı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 23 dekabr 1995-ci il tarixli qərarı ilə Vasif Talıbovun sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiya yaradıldı. Komissiya Naxçıvanın 12 fəsil və 146 maddədən ibarət olan Konstitusiya layihəsinin ilk variantını hazırladı və Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyaya təqdim etdi.

Təqdim olunan layihə Azərbaycan Respublikasının Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən dörd dəfə müzakirə olundu. Komissiyanın 1998-ci il yanvar ayının 14-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev çıxış edərək Naxçıvanın keçdiyi tarixi inkişaf yoluna, onun sovet konstitusiyaları tarixinə dair münasibətini bildirmiş və Naxçıvanın yeni Konstitusiyası haqqında fundamental fikirlərini söyləmişdir. O demişdir: "...Mən hesab edirəm ki, Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanla, Azərbaycanla Türkiyənin sərhəddi üçün tarixi bir hadisədir. Çox tarixi bir hadisədir ki, o vaxt həm Azərbaycanın tərkibində Naxçıvanda muxtariyyət yaranıbdır, həm də o sərhədlər həmin müqavilələrlə nizamlanarakən Azərbaycanın Türkiyə ilə kiçik də olsa, bir sərhədi yaranıbdır. O sərhəd 1921-ci ildə həmin müqavilələr ilə yaranlbdır. Amma 1991, 1992, 1993-cü illərdə o sərhədin olmasının və 1991, 1992-ci illərdə o körpünün yaranmasının Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə nə qədər böyük rol oynadığını artıq hamı görür. Mən bax, bu bəzi tarixi məqamları yada salaraq bildirmək istəyirəm ki, Naxçıvanın muxtariyyətini qoruyub saxlamalıyıq və Naxçıvana ona lazım

---

[682] Naxçıvan Muxtar Respublikası konstitusiyalarda, s.124

olan hüquqlar verilməlidir."[683] Müzakirə edilən layihə beynəlxalq hüquq institutları və təşkilatları tərəfindən yüksək qiymətləndirildi.

Heydər Əliyevin imzası ilə Konstitusiya layihəsi müzakirə edilmək üçün 1998-ci il aprelin 12-də Naxçıvan Ali Məclisinə göndərildi. Layihə aprelin 15-də "Şərq qapısı" qəzetində dərc edildi, aprelin 28-də isə Ali Məclis tərəfindən qəbul olundu. Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq dekabrın 29-da Milli Məclisdə təsdiq olundu və elə həmin gün Prezident Hydər Əliyev tərəfindən imzalandı. Naxçıvanın yeni Konstitusiyası 1999-cu il yanvarın 8-də dərc edilərək qüvvəyə mindi.[684]

Naxçıvanın yeni Konstitusiyası ilkin variantdan fərqli olaraq 6 fəsil və 50 maddədən ibarət idi.[685] Konstitusiya Naxçıvanın siyasi və sosial xüsusiyyətlərini, tarixi ənənələrini özündə əks etdirir. Naxçıvanın dövlət quruluşunu, onun təşkilini, ali hakimiyyət orqanlarının səlahiyyətlərini müəyyən edir, muxtar dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı əlaqələrini, Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ilə munasibətlərini tənzimləyir. İlk dəfə 1998-ci il Konstitusiyası ilə muxtar respublika rəhbərinə konstitutsion səviyyədə (Maddə 5. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi) xarici siyasətlə bağlı müəyyən hüquqlar tanınırdı.

Beləliklə, 1998-ci il Konstitusiyası Naxçıvanın konstitusiya quruculuğu tarixində yeni bir mərhələ oldu və Azərbaycan dövlətçiliyində Naxçıvanın rolu hüquqi-siyasi baxımdan yüksəldi.

8.2. Naxçıvan: muxtar dövlətin əsas inkişaf istiqamətləri və nailiyyətləri

Muxtar dövlət kimi Naxçıvanın Azərbaycan dövlətçiliyindəki rolu ilk əvvəl dövlət quruculuğu prosesindəki özünəməxsus iştirakı ilə müəyyən edilə bilər. Bu bir tərəfdən Azərbaycan Respublikasının qanunverici orqanının formalaşmasındakı yeri və Naxçıvan millət vəkillərinin Milli Məclisin qanunvericilik fəaliyyətindəki iştirakı ilə əlaqədardır. Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan Respublikasının

---

[683] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 14-cü kitab. Bakı, 2005, s.88
[684] Naxçıvan Muxtar Respublikası konstitusiyalarda, s.126
[685] Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Bakı, 2010

1995-ci il Konstitusiyasına dair referendum ilə eyni vaxtda Milli Məclisə də seçkilər keçirilmişdir. Sonrakı seçkilər hər beş ildən bir olmaqla, 2000, 2005, 2010 və 2015-ci illərdə keçirilmişdir.

Digər mühüm bir məsələ, Naxçıvan Ali Məclisinin formalaşması, onun səmərəli fəaliyyəti, Naxçıvanda dövlətçiliyin möhkəmləndirilməsi vasitəsi ilə Ümumazərbaycan miqyasında prosesə dəstək verilməsi ilə bağlıdır. Azərbaycan Respublikası Milli Məclisinə seçkilər ilə eyni zamanda, Naxçıvan Muxtar Respublikasında keçirilən seçkilər də müvafiq çağırışlar üzrə yüksək səviyyədə təşkil edilmiş, diyarı hərtərəfli təmsil edən parlamentin formalaşdırılması təmin olunmuşdur.[686]

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın və Naxçıvanın həyatına dair dövrün bütün çağırışlarına cavab verən məsələlər müzakirə etmiş, vacib sənədlər qəbul etmişdir.[687] Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən nəşr edilmiş "Rəsmi sənədlər (1996-2011-ci illər)"[688] toplusu və Ali Məclisin sədri Vasif Talıbovun çıxışları[689] Naxçıvanın ali dövlət orqanı və onun fəaliyyətinin müəyyən istiqamətləri üzrə ətraflı təsəvvür yaradır. Bu sənəd və çıxışların mahiyyətini Naxçıvanın Azərbaycan dövlətçiliyindəki rolunun müəyyən edilməsi, bu istiqamətdə əldə olunan tarixi təcrübəyə böyük önəm verilməsi və ən başlıcası, onların müasir dövlət quruculuğuna tətbiqi vasitəsi ilə həyatiliyinin təmin edilməsi təşkil edir. Ali Məclisin sədri Vasif Talıbov "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq simpoziumunda "Tarix boyunca Naxçıvan və müasir dövr" adlı məruzəsində demişdir: "...Arxeoloji qazıntılar zamanı hələ miladdan əvvəlki dövrlərə aid Naxçıvan diyarından aşakar edilən materiallar ayrıca bir əyalətin deyil, geniş mənada Azərbaycan tarixinin ayrı-ayrı problemlərinə işıq salmağa imkan vermişdir..."[690]

Ən vacib istiqamətlərdən biri də Ulu öndər Heydər Əliyevə dair qəbul edilən sənədlər, bu sənədlərdə Ulu öndərin Azərbaycan dövləti və xalqı qarşısında xidmətlərinin qeyd edilməsi, onun Naxçıvan dövrü

---

[686] Naxçıvan tarixi. Üç cilddə, üçüncü cild, s.403-411

[687] Bax: Hacıyev İ.Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, social-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər), s.62-70

[688] Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər (1996-2011-ci illər). Naxçıvan, 2012

[689] http://files.preslib.az/projects/nax/vasift.pdf

[690] Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər (1996-2011-ci illər), s.6

fəaliyyətinin Azərbaycan dövlətçiliyinin qorunması və möhkəmləndirilməsindəki rolunun müəyyən edilməsidir. Vasif Talıbov Ümummilli lider Heydər Əliyevin 85-ci ildönümünə həsr edilmiş təntənəli yığıncaqda demişdir ki, "1990-1993-cü illər tarixə Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü kimi düşmüşdür...Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu tarixi şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı. Üçrəngli bayrağımız ilk dəfə olaraq milli liderin sədrliyi ilə keçən Naxçıvan parlamentinin iclas zalında qaldırıldı..."[691] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış altıncı sessiyası Heydər Əliyevin tarixi rolunu nəzərə alaraq, 2013-cü ili muxtar respublikada "Heydər Əliyev ili" elan etmişdir.

Ulu öndər Heydər Əliyevin nəzəri baxışları və tarixi təcrübəsi əsasında Azərbaycan Respublikasının 1995-ci il və Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyasında Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə Mərkəzlə Muxtar Respublika arasında münasibətlərin daha dolğun hüquqi-siyasi bazası yaradıldı və ardıcıl şəkildə həyata keçirildi. Bunun parlaq nümunəsi kimi Naxçıvan Muxtar Respublikasının yubileylərinə dair dövlət başçıları Heydər Əliyev və İlham Əliyevin sərəncamlarını və diyara müntəzəm səfərlərini qeyd etmək olar. Heydər Əliyevin 1996-cı il oktyabrın 29-31-də Naxçıvana üç günlük səfəri ilə bu tarixi hadisələrin əsası qoyulmuşdur. Heydər Əliyev Naxçıvana səfəri çərçivəsində H.Cavidin məqbərəsinin açılışında (29 oktyabr) və bir sıra mühüm görüşlərdə (30-31 oktyabr) nitqlər ilə çıxış etmişdir.[692]

Heydər Əliyevin sərəncamı ilə 1999-cu il fevralın 4-də Naxçıvan Muxtar Respublikasının 75 illiyi qeyd edilmiş, dövlət başçısı şəxsən bu tədbirlərdə (1999, 10-15 oktyabr) iştirak etmişdir.[693] 2002-ci il 15-

---

[691] Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər (1996-2011-ci illər), s.318

[692] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. Bakı, 1998

[693] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi ikinci kitab. Bakı, 2007, s.159-288; Həmçinin bax: Hacıyev İ.Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, social-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər), s.72-73

19 iyun və 10-15 avqustda Heydər Əliyev Naxçıvanda işgüzar səfərdə olmuşdur.[694] Naxçıvan Muxtar Respublikası ilə belə sıx təmas Naxçıvanın Azərbaycan Respublikasının həyatındakı rolunu daha da artırmışdır.



Prezident İlham Əliyev də bu ənənəni daim davam etdirmişdir. Onun 2004-cü il 9 fevral tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 80, 2009-cu il 6 fevral sərəncamı ilə 85 və 2014-cü il 14 yanvar sərəncamı ilə 90 illik yubileyləri qeyd olunmuşdur. Prezident hər bir yubiley tədbirində - 2004-cü il 12-14 mayda 80 illik, 2009-cu il 3-5 avqustda 85 illik,[695] 2014-cü il 7-8 apreldə 90 illik yubileylərində[696] iştirak etmiş, hər dəfə də Naxçıvanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirmişdir. Bunlarla eyni zamanda, Prezident İlham Əliyevin 2004-cü il sentyabrın 2-də, 2005-ci il dekabrın 19-20-də, 2006-cı il dekabrın 20-21-də, 2007-ci il oktyabrın 16-17-də,

---

[694] Bax: Hacıyev İ.Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, social-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər), s.73-76

[695] "Azərbaycan" qəzeti, 2004, 16 may

[696] Bax: Naxçıvan Muxtar Respublikası - 85. Naxçıvan, 2009

2008-ci il iyunun 3-4-də,[697] 2010-cu il oktyabrın 5-6-da, 2012-ci il mayın 30-da, 2015-ci il dekabrın 1-də, 2016-cı il mayın 13-də və 2017-ci il yanvarın 11-də Naxçıvana işgüzar səfərdə olmuşdur.



Prezident İlham Əliyev 2017-ci il yanvarın 11-də Naxçıvana yeni səfəri zamanı əvvəlki səfərlərinə də toxunaraq qeyd etmişdir ki, "...Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Bu, mənim Prezident kimi muxtar respublikaya sayca 13-cü səfərimdir. On üç il ərzində on üçüncü dəfədir ki, Naxçıvandayam. Bu rəqəm özlüyündə bir göstəricidir, onu göstərir ki, Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, respublikanın problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm və Naxçıvana həmişə çox böyük diqqət verilir, böyük qayğı göstərilir."[698]

---

[697] Bax: Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan, 2014

[698] http://www.president.az/articles/22436

Heydər Əliyev və Prezident İlham Əliyevin Naxçıvanın yubileylərinə yetirdiyi diqqət və səfərlərinin dinamikası bir daha sübut edir ki, Mərkəzi hakimiyyətlə Naxçıvan arasında əsil dövlətçilik münasibətləri bərqərar edilmiş və onun daha da inkişaf etdirilməsi üçün etibarlı bünövrə qurulmuşdur. Bu münasibətlər sistemində Heydər Əliyevin Naxçıvan rəhbərliyi dövründə yaradılmış Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin fəaliyyətinin təşkili də qeyd edilməlidir. 2002-ci il oktyabrın 11-də daimi nümayəndəliyin Bakı şəhərində yeni binasının açılışı münasibəti ilə keçirilən tədbirdə bu bir daha qeyd edilmişdir. Heydər Əliyev çıxışında demişdir: "...Azərbaycanın mərkəzi rəhbərliyi tərəfindən həmişə Naxçıvana çox ögey münasibət göstəriblər. Mən bunun şahidiyəm. Onlar Azərbaycan uğrunda 1920-ci illərdə çalışan, çarpışan, o müqavilələlərə (1921-ci il Qars və Moskva müqavilələri nəzərdə tutulur.-İ.H.) nail olan insanlardan fərqli idilər. Çünki o insanlar Azərbaycan haqqında düşünürdülər, onun bütövlüyü haqqında düşünürdülər, onun gələcəyi haqqında düşünürdülər. Amma sonra bir-birini əvəz edən Azərbaycan rəhbərliyi, təəssüf ki, bunları unutdular və 1930-cu illərdə də, 1940-cı illərdə də, 1950-ci illərdə də, 1960-cı illərdə də Naxçıvana qarşı ögey münasibət var idi. Bu həqiqətdir..." Bu münasibətlər Azərbaycanın müstəqillik əldə etməsindən sonra da davam etdirilmiş və blokada şəraitində olan Naxçıvanın vəziyyəti ağırlaşmışdır. Heydər Əliyev qeyd etmişdir ki, "Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasının Bakıda daimi nümayəndəliyi yarandı. İndi keçən illər onu göstərir ki, həqiqətən bu çox lazım imiş."[699]

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası tərkibində muxtar dövlət kimi konkret əraziyə malikdir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 6-cı maddəsinə görə "Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir." Bununla eyni zamanda, diyar Ümumazərbaycan miqyasında qəbul edilmiş, lakin onun yerli xüsusiyyətlərini nəzərə alan inzibati-ərazi bölgüsünə malikdir. Tarixi ənənəyə əsasən Naxçıvan şəhəri paytaxt statusunu qorumuşdur.

1930-cu ildə həyata keçirilən rayonlaşdırma zamanı təşkil edilmiş Babək (1978-ci ilədək Naxçıvan), Culfa, Ordubad, Şahbuz və Şərur (1930-1964-cü illərdə Noraşen, 1964-1990-cı illərdə İliç) rayonları qalmaqda davam etmiş, lakin müstəqillik uğrunda mübarizə və

---

[699] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. Bakı, 2012, s.20-22

müstəqillik dövrünün tələblərinə uyğun olaraq yeni rayonlar da təşkil edilmişdir. 1990-cı il avqustun 28-də Sədərək (151, 34 kv.km.) və 2004-cü il martın 19-da Kəngərli (681, 94 kv.km.) rayonları yaradılmışdır. Bununla da Naxçıvanın inzibati-ərazi idarəsinin optimal vəziyyətinə nail olunmuşdur. Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasına əsasən (maddə 141), "Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir."

Vasif Talıbovun Ali Məclisin sədri seçilməsi ilə Naxçıvan Muxtar Respublikasında stabil hakimiyyətin yaradılması diyarın Ermənistan tərəfindən blokadasına baxmayaraq sosial-iqtisadi və mədəni inkişaf sahəsində də böyük uğurlara yol açdı. Bu sahələr üzrə Naxçıvanın Azərbaycan həyatındakı rolu genişləndi və daha da möhkəmləndi.



Muxtar respublikanın həyatında dönüş ili olan 1996-cı ildən başlayaraq sosial-iqtisadi göstəricilər kəmiyyət və keyfiyyət baxımından yüksəlməyə başladı. Belə ki, 2015-ci ildə Ümumi Daxili Məhsul (ÜDM) istehsalı 1995-ci ildəkinə nisbətən 56,4 dəfə artaraq 2 milyard 467 milyon 422 min manat təşkil etmiş, hər nəfərə düşən ÜDM isə 42 dəfə artmışdır.[700]

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əlievin rəhbərliyi ilə həyata keçirilən regionların inkişafına dair Dövlət Proqramları nəticəsində mümkün olmuşdur. 2004-2008[701], 2009-2013[702] və 2014-2018-

---

[700] Hacıyev İ. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında. Bakı, 2016, s.197

[701] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). "Azərbaycan" qəzeti, 2004, 12 fevral

[702] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)// "Azərbaycan" qəzeti, 2009, 15 aprel

ci[703] illər üzrə belə Dövlət Proqramları qəbul edilmişdir. Hər bir Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasına mühüm yer ayrılmışdır. Bununla eyni zamanda, Naxçıvanda da sosial-iqtisadi inkişafa dair xüsusi Dövlət Proqramı təsdiq edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etmişdir.[704] Bu Dövlət Proqramında əvvəlki on ildə (2004-2014) görülmüş təşkilati tədbirlər və nailiyyətlərə də toxunulur, perspektivlər müəyyən edilirdi. Dövlət Proqramında qeyd edilirdi ki, "Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Hər iki dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur." 2004-2008 və 2009-2013-cü illər Dövlət Proqramlarının həyata keçirilməsi nəticəsində muxtar respublikanın makroiqtisadi göstəriciləri yaxşılaşmış, "Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 10,3 dəfə, pərakəndə əmtəə dövriyyəsi 11,1 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, bir

---

[703] Azərbaycan Respublikası regionlarının 2014-2018-c illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı//Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı, 2014, №2

[704] "Şərq qapısı" qəzeti, 2014, 2 sentyabr

işçiyə hesablanmış orta aylıq əməkhaqqı 9,8 dəfə, əhaliyə göstərilən pullu xidmətlər isə 12,9 dəfə artmışdır."

2014-2018-ci illəri əhatə edən üçüncü Dövlət Proqramı Naxçıvanın sosial-iqtisadi inkişaf tarixində yeni mərhələ təşkil etməlidir. Dövlət Proqramında göstərildiyi kimi onun "icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynayacaqdır."[705]

2014-2018-ci illər Dövlət Proqramı qəbul edildikdən keçən dövr ərzində uğurla həyata keçirilməyə başlamışdır. Prezident İlham Əliyev Naxçıvana 2017-ci 11 yanvar səfəri zamanı buradakı quruculuq işlərini yüksək qiymətləndirərək demişdir: "Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanıb. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var". Əsas məqsədlərdən biri bu çiçəklənmə dövrünün davam etdrilməsi idi. Bunun nəticəsi idi ki, Prezidenti İlham Əliyev Dövlət Proqramının həyata keçirilməsini daha da sürətləndirmək və miqyasının genişləndirilməsini təmin etmək məqsədi ilə 2017-ci il 11 yanvar səfərindən sonra "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" yanvarın 12-də sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, "zəngin tarixə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, lakin parlaq inkişaf yolu keçərək Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında özünəməxsus yer tutmuş, ölkəmizin inkişafında hər zaman əhəmiyyətli rol oynamışdır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də dinamik inkişaf edən muxtar respublikada infrastrukturun

---

[705] "Şərq qapısı" qəzeti, 2014, 2 sentyabr

müxtəlif sahələrində irimiqyaslı layihələr həyata keçirilmiş, elektrik stansiyaları istismara verilmiş, yeni yollar çəkilmiş, müasir sənaye və kənd təsərrüfatı müəssisələri yaradılmış, idman kompleksləri, təhsil, səhiyyə, mədəniyyət və turizm ocaqları inşa olunmuş, nəticədə minlərlə iş yeri açılmışdır. Şəhər və rayon mərkəzlərində, ayrı-ayrı yaşayış məntəqələrində əsaslı abadlıq-quruculuq işləri görülmüş, istirahət bağları və parklar salınmış, müasir üslublu tikililər, milli arxitekturalı binalar ucaldılmış, tarixi memarlıq abidələri bərpa edilmişdir."[706]

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında 2017-ci il xüsusilə seçilir. Əldə olunan nailiyyətlər, qazanılan uğurlar həyatın bütün sahələrini əhatə etmişdir. Muxtar respublikada 2017-ci ildə Ümumi Daxili Məhsul istehsalı 2 milyard 701 milyon manatdan artıq olub ki, bu da bir il öncəsi göstəricidən 1,5 faiz çoxdur.[707] Ümumi Daxili Məhsulun tərkibində ilk yeri 24,6 faizlik payla sənayə tutub və maddi istehsalın payı 58,7 faiz təşkil edib. Muxtar respublikada 967 milyon manatdan artıq sənaye məhsulu istehsal edilmişdir.[708] Əgər 1990-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2017-ci ildə bu müəssisələrin sayı 7,9 dəfə artaraq 442-yə çatmışdır. Muxtar respublikada 372 növdə məhsul istehsal olunur ki, bunun da 344 növü yerli imkanlar hesabına ödənilir. Naxçıvan elektrik idxal edən bölgədən ixrac edən muxtar respublikaya çevrilmişdir. 8 elektrik stansiyası mövcuddur ki, bunun da 7-si son illərdə inşa edilmişdir. Enerji istehsalında alternativ və bərpa olunan enerjinin payı 60 faizdən çoxdur. Muxtar respublika on ildən artıqdır ki, tamamilə qazlaşdırılmışdır. 453,4 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 933 milyon manatlıq tikinti-quraşdırma işləri aparılmışdır. 236 müxtəlif təyinatlı obyekt tikilmiş, yaxud yenidən qurulmuşdur.[709] Muxtar respublika 50-dən çox xarici ölkə ilə ticarət əlaqələri aparır. 2017-ci ildə xarici ticarət dövriyyəsinin həcmi 459,9 milyon ABŞ dollarına çatmışdır.

Sosial sahədə də böyük uğurlar qazanılmışdır. Son illərdə 200-dən çox ümumtəhsil məktəbləri tikilmişdir ki, bunun 10-u 2017-ci ilə

---

706 "Azərbaycan" qəzeti, 2017, 13 yanvar
707 "İki sahil" qəzeti, 2018, 24 yanvar
708 "Şərq qapısı" qəzeti, 2018, 24 yanvar
709 Yenə orada

aiddir. 2011-2017-ci illərdə 96 kənd mərkəzi, 377,7 min kvadratmetr yaşayış sahəsi istifadəyə verilmiş, 70 km uzunluğunda yeni asfalt yol salınmışdır. 60-dan çox tarix-mədəniyyət abidəsi bərpa olunmuş, muzeylərin sayı 30-a çatmışdır. Muxtar respublikaya 413,4 min nəfər turist gəlmişdir. Əhalinin pul gəlirləri, orta aylıq əməkhaqqı artmışdır.

Bütün bunlar beynəlxalq reytinq agentliklərinin diqqətini cəlb etmişdir. Naxçıvan Muxtar Respublikası "Caspian European Club"un 18 parametr və 6 qrup üzrə 2017-ci il nəticələrinə görə, investisiya reytinq müsabiqəsində birinci yerə çıxmışdır.[710]

Naxçıvanın sosial-iqtisadi və mədəni inkişafında əldə etdiyi nailiyyətlər muxtar respublikanın əhalisinin sayının artmasında özünü göstərmişdir. 1996-cı ildə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 337,8 min nəfər idisə, 1999-cu il əhali siyahıya almasına görə 354,1 min, 2009-cu ildə 397,3 min, 2016-cı ildə isə 444,4 min nəfər olmuşdur.[711] Buradan aydın olur ki, 1996-2016-cı illəri əhatə edən iyirmi il ərzində əhalinin sayı 106,6 min nəfər artmışdır. 2017-ci ilin sonunda əhalinin sayı 452, 6 min nəfərə çatmışdır.

Naxçıvan Muxtar Respublikasının Azərbaycan dövlətçiliyindəki rolunun ən mühüm göstəricilərindən biri də dövlət sərhədlərinin müdafizəsi və Ermənistan silahlı qüvvələrinin təcavüzkar siyasətinin qarşısının alınmasındakı rolu ilə bağlıdır.

Muxtar respublikanın şimal və şərqdə Ermənistan ilə sərhəd xəttinin uzunluğu 246 km, qərbdə Türkiyə Cümhuriyyəti ilə 11 km, cənubda isə İran İslam Respublikası ilə 204 km.-dir. Azərbaycanın Naxçıvan üzrə dövlət sərhədlərinin mühafizəsində Naxçıvan sərhəd dəstəsinin mühüm xidməti vardır. Bu sərhəd dəstəsi 1992-ci il avqustun 22-də Azərbaycan Respublikasının yurisdiksiyasına keçmiş ilk milli sərhəd dəstələrindən biridir.[712] Heydər Əliyev 1996-cı il oktyabrın 30-da Naxçıvana səfəri zamanı sərhəd dəstəsinin əsgər və zabitləri ilə görüşü zamanı bu sərhəd dəstəsinin yaradılması və tarixi rolundan bəhs edərək demişdir: "Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının böyük sərhədi var... Bu sərhədləri

---

[710] "Şərq qapısı" qəzeti, 2017, 28 dekabr

[711] Azərbaycanın demoqrafik göstəriciləri. 2016. Bakı, 2016, s.42-43

[712] Naxçıvan Sərhəd Dəstəsi// Naxçıvan Ensiklopediyası. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. İki cilddə, ikinci cild, İstanbul, 2005, s.164-165

qorumaq üçün sərhəd dəstələri yaradılıb və bunlardan biri də Naxçıvan sərhəd dəstəsidir. Bu sərhəd dəstəsi hələ 1920-ci ildən fəaliyyət göstərən, keçmiş Sovetlər İttifaqına mənsub olan 41 nömrəli Naxçıvan sərhəd dəstəsinin maddi-texniki bazası əsasında yaradılmışdır... Azərbaycan öz müstəqil yolu ilə getməyə başlayanda respublikamızda sərhəd dəstələri yaratmaq zərurəti meydana çıxdı. O cümlədən, burada Azərbaycanın ərazisindən ayrı düşmüş və o illərdə, elə indi də blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında da bu problemi həll etmək lazım idi. Biz bu problemi həll etdik. Sovetlər İttifaqına mənsub olan sərhəd dəstələri o vaxt, 1992-ci ildə Rusiyanın sərəncamına keçmişdi. Azərbaycanın payını almaq üçün, bu əmlakın müstəqil Azərbaycanın ixtiyarına verilməsi üçün çox cəhdlər göstərilirdi. O vaxt Azərbaycan prezidenti fərman vermişdi ki, sərhəd dəstələrinin əmlakı bölünsün: 50 faizi Rusiya Federasiyasının, 50 faizi isə Azərbaycan Respublikasının sərəncamına verilsin. Ancaq mən burada bununla razı olmadım. Bilirsiniz ki, o vaxt Naxçıvan Muxtar Respublikası müstəqil siyasət aparırdı və bu da ona görə idi ki, Azərbaycan Respublikasının o zamankı rəhbərliyi ölkənin mənafelərini qorumağa qadir deyildi. Ona görə də burada, Naxçıvanda Azərbaycanın mənafelərini qorumaq üçün müstəqil qərarlar qəbul etmək məcburiyyətində idim. Mən Azərbaycan prezidentinin verdiyi fərmanla razı olmadım, Rusiya Federasiyası ilə danışıqlar apardım və nəhayət, o vaxt burada yerləşmiş, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, sonra Rusiya Federasiyasının sərəncamında olan 41 nömrəli sərhəd dəstəsinin bütün əmlakı – həm bu qərargahda yerləşən, həm də sərhəd boyu zastavalarda, komendaturalarda olan bütün qurğular, silahlar, sursatlar, ləvazimatlar, texnika Naxçıvan Muxtar Respublikasının sərəncamına keçdi. Böyük danışıqlardan, gərgin mübarizədən sonra buna nail olmaq mümkün oldu. Xatirimdədir, burada, bax bu meydanda, həmin o ağ binada qərargah rəisinin otağında biz sərhəd dəstəsinin Naxçıvan Muxtar Respublikasına təhvil verilməsi haqqında sənədlər imzaladıq. Beləliklə, bu dəstə son tüfənginə, tapançasına, avtomobilinə qədər Naxçıvan Muxtar Respublikasının, demək, Azərbaycan Respublikasının sərəncamına keçdi. Bu, bizim tariximizdə çox mühüm hadisədir və bu gün fürsətdən istifadə edib bunu yada salıram."[713]

---

[713] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 7-ci kitab, s.498-500

Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə diyarın Ermənistanın təcavüzündən qorunması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsi sayəsində diyarın etibarlı müdafiə sistemi yaradıldı. Təsadüfi deyil ki, həm Heydər Əliyev, həm də Prezident İlham Əlievin Naxçıvana səfərləri zamanı hərbi-müdafiə məsələləri daim diqqət mərkəzində durmuşdur. Heydər Əliyev Naxçıvana 1996-cı ilin oktyabrında səfəri çərçivəsində Naxçıvan hərbi qarnizonunun əsgər və zabitləri ilə görüşü zamanı bu məsələni xüsusilə qeyd etmiş və demişdir ki, "...Naxçıvanda Azərbaycan Milli Ordusunun böyük bir hissəsi yaranıb və yaranır. Mən Azərbaycan Milli Ordusunun vəziyyəti ilə daim maraqlanır, ona qayğı göstərir, sizin işləriniz, vəziyyətiniz haqqında məlumat alıram.

Məmnunam ki, burada işlər normal səviyyədə gedir, Naxçıvanın blokada şəraitində olmasına, Azərbaycanın əsas torpağından ayrı düşməsinə, bir çox çətinliklərin, problemlərin olmasına baxmayaraq, Naxçıvanda yerləşən hərbi hissələr çox yaxşı vəziyyətdədir. Bu, bizim borcumuzdur...."[714]

Bu siyasəti davam etdirən Prezident İlham Əliyev 2004-cü ilin mayında Naxçıvana səfəri zamanı "N" hərbi hissəsində yeni korpusun açılışı zamanı demişdir: "Hər bir hərbi hissədə şərait yüksək olmalıdır. Burada, Naxçıvanda bu istiqamətdə çox böyük işlər görülür. Naxçıvanda yerləşən hərbi hissələr muxtar respublikanı çox möhkəm qoruyurlar və mən Ali Baş Komandan kimi burada aparılan işlərdən razıyam."[715]

Naxçıvanın Ermənistanın təcavüzündən qorunmasının təşkili istiqamətində görülən tədbirlər 2004-cü il noyabrın 1-də buradakı hakim yüksəkliklərin etibarlı müdafiə sisteminin yaradılması ilə nəticələnmişdir.

Naxçıvan Azərbaycanın hərbi əməkdaşlıq siyasətində də fəal rol oynayır. 2014-cü il avqustun 19-da burada Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin görüşü keçirilmişdir. Azərbaycanın müdafiə naziri bildirmişdir ki, üçtərəfli görüş zamanı regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsə-

---

[714] Yenə orada, s.495

[715] http://files.preslib.az/projects/nax/ianax.pdf

lələri ətrafında fikir mübadiləsi aparıldı, hərbi sahədə əməkdaşlıq üzrə bir sıra qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.[716]

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıqda da Naxçıvan mühüm yer tutur. Bunun nəticəsidir ki, 2015-ci ilin mayı və 2017-ci ilin iyununda Naxçıvanda hər iki dövlətin hərbi qüvvələrinin iştirakı ilə uğurlu hərbi təlimlər keçirilmişdir. Sonuncu hərbi təlim həm Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı, həm də Naxçıvanın müdafiə sisteminin daha da möhkəmləndirilməsində xüsusi yer tutur. Hərbi təlimdən bəhs edən Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir və düşmənə layiqli cavab verməyə qadirdir. Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradın keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrin güc və qüdrətini bir daha nümayiş etdirdi. Zakir Həsənov Naxçıvanda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərə görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.[717]

Heydər Əliyevin Naxşıvana rəhbərliyi dövründə muxtar respublikanın tarixində ilk dəfə olaraq xarici dövlətlər ilə birbaşa əlaqələr quruldu. Bu əlaqələr faktik olaraq, Naxçıvanın taleyində mühüm rol oynadı, Ermənistanın blokadası şəraitində diyarın əhalisini məhv olmaqdan xilas etdi, Ermənistanın təcavüzünün qarşısının alınmasında tarixi rol oynadı. Ulu öndər Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra daha bir yeniliyin əsası qoyuldu. Naxçıvan Azərbaycanın beynəlxalq əlaqələri və xarici siyasətində xüsusi aktora çevrildi. Bu yeniliklər Nax-

---

[716]http://azertag.az/xeber/Naxchivanda_Azerbaycan_Turkiye_ve_Gurcustan_mudafie_nazirlerinin_gorusu_kechirildi-784510

[717] http://azertag.az/xeber/Naxchivanda_Azerbaycan_Turkiye_birge_herbi_telimleri_kechirilib-1070749

çıvanın yeni Konstitusiyasında da rəsmiləşdirildi. Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyasının 5-ci maddəsinin (Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi) II hissəsinin 8-ci bəndində yazılır: "Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir." Həmin maddənin III hissəisində isə qeyd edilir ki, "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil edir".

Beləliklə, Naxçıvanın Azərbaycanın beynəlxalq əlaqələri və xarici siyasətində iştirakı iki istiqamətdə özünü göstərir. Əvvəla, Azərbaycan dövləti beynəlxalq əlaqələri və xarici siyasətində Naxçıvanın fəal iştirakını təmin edir; ikinci, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Konstitusiya çərçivəsində beynəlxalq əlaqələrdə Naxçıvanı təmsil edir. Bəri başdan qeyd etmək lazımdır ki, Naxçıvanın Azərbaycan Respublikasının xarici siyasətindəki rolu və təcrübəsini nəzərə alan Heydər Əliyevin tapşırığı ilə 1997-ci idə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvanda Konsulluq məntəqəsini, bir qədər sonra onun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaratmışdır. 2005-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Xarici İşələr Nazirliyinin Naxçıvan İdarəsi təşkil edilmişdir. İdarənin Əsasnaməsi ilə ona Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirilməsi tapşırılmışdır.[718] Prezident İlham Əliyevin Naxçıvana səfəri zamanı 2008-ci il iyunun 3-də idarənin Naxçıvan şəhərinin mərkəzində yeni tikilmiş binasının açılışı olmuşdur.

Heydər Əliyevin xarici siyasət xəttində Emənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli vacib yer tutmuşdur. Bu məqsədlə Ermənistan rəhbərliyi ilə birbaşa görüşlərin keçirilməsi təcrübəsinə də üstünlük verilmişdir. Heydər Əliyev 1999-cu il oktyabrın 11-də və 2002-ci il avqustun 14-də Naxçıvan Muxtar Respublikasının

---

[718] http://files.preslib.az/projects/nax/vasift.pdf

Sədərək rayonu ərazisində Ermənistan prezidenti Robert Köçəryan ilə iki dəfə təkbətək görüş keçirmişdir.[719] Dağlıq Qarabağ problemi Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrlərinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdə qiymətləndirici missiyasının üzvlərinin, ATƏT-in Minsk qrupu həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin Naxçıvanda qəbulu zamanı da müzakirə edilmişdir.

Azərbaycanın İran və Türkiyə ilə ikitərəfli münasibətlərinin inkişafında da Naxçıvan xüsusi rol oynamışdır. Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan şəhərində 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının konsulluqları fəaliyyətə başlamışdır. Heydər Əliyev Azərbaycanın rəhbəri olduğu dövrdə, 1996-cı il oktyabrın 31-də İranın baş naziri ilə Naxçıvanda görüşmüşdü. Prezident İlham Əliyev də bu ənənəni davam etdirmiş, 2005-ci ilin dekabrında İran İslam Respublikasının prezidenti Mahmud Əhmədinejadı Naxçıvanda qəbul etmişdir. İlham Əliyev birgə mətbuat konfransında bu görüşün tarixi əhəmiyyətindən də bəhs edərək demişdir: "Bir müddət bundan əvvəl biz, hörmətli cənab Prezidentlə Məkkə şəhərində görüş keçirdik və ikitərəfli əlaqələri müzakirə etdik, geniş fikir mübadiləsi apardıq. Mən cənab Əhmədinejadı Naxçıvana dəvət etdim ki, burada görüşək. Həm İrandan Naxçıvana qazın verilməsini qeyd edək, eyni zamanda, yenidən görüşüb ikitərəfli əlaqələri müzakirə edək, aramızda olan siyasi-iqtisadi, mədəni əlaqələri müzakirə edək. İki ölkə arasında əlaqələr çox yüksək səviyyədədir. Biz çox səmərəli əməkdaşlıq edirik və bu əməkdaşlığın praktik nəticələri vardır."[720] Bu əməkdaşlığın praktik nəticəsi idi ki, 2007-ci il oktyabrın 17-də Şahtaxtı-Poldəşt körpüsü açılmışdı. 2016-cı il dekabrın 20-də isə Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarı işə düşmüşdü.

Naxçıvan Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin inkişafına da öz töhfələrini vermişdir. 2008-ci il iyunun 4-də Prezident İlham Əliyev Türkiyə Cümhuriyyətinin baş naziri Rəcəb Tayyib Ərdoğanı Naxçıvan Muxtar Respublikası Ali Məclisində rəsmən qarşılamış, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına dair danışıqlar

---

[719] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika. Bakı, 2012, s.205,218

[720] "Azərbaycan" qəzeti, 2005, 21 dekabr

aparılmışdır. Pəcəb Tayyib Ərdoğan "Duzdağ" Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişdir.

Naxçıvan 2012-ci il martın 7-də Azərbaycan, Türkiyə və İranın xarici işlər nazirlərinin görüşünə ev sahibliyi etmişdir.

2013-cü il fevralın 28-də Gürcüstan prezidenti Mixael Saakaşvili Azərbaycana səfəri çərçivəsində Naxçıvanda olmuş, Ali Məclisdə qəbul edilmişdir.

Naxçıvan Azərbaycanın ikitərəfli münasibətləri ilə birgə, beynəlxalq tədbirlərə də ev sahibliyi etmişdir. Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısının (2009-cu il 3 oktyabr) Naxçıvanda keçirilməsi də təsadüfi deyildi. Prezident İlham Əliyev toplantıda yekun nitqində demişdir: "Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir."[721] Görüşün nəticələrinə görə "Naxçıvan Bəyannaməsi" imzalanmışdır.[722] Görüşün ən mühüm nəticələrindən biri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması olmuşdur. 2014-cü il oktyabrın 24-də isə Naxçıvanda Şuranın III Biznes forumu keçirilmişdir. Naxçıvan siyasi-iqtisadi əlaqələr ilə eyni zamanda beynəlxalq mədəniyyət mərkəzi kimi də diqqəti cəlb edir. Bunun nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün "İslam mədəniyyəti paytaxtı" elan edilmişdir. Prezident İlham Əliyevin 2016-cı il 2 iyun sərəncamı ilə Təşkilat Komitəsi yaradılmışdır.[723]

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının beynəlxalq əlaqələri və xarici siyasətində iştirak etməklə bərabər, özü də Konstitusiya çərçivəsində beynəlxalq əlaqələr həyata keçirmişdir. Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov Şimali Kipr Türk Cümhuriyyətinə (2007, 14-17 noyabr), Türkiyə Cümhuriyyətinə (2010, 26-29 aprel), İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinə (2011, 6-7 sentyabr), Gürcüstan Respublikasının Acarıstan Muxtar Respublikasına (2012, 27-29 yanvar), Avstriyanın Ştiriya Federal əyalətinə

---

[721] Azərbaycan" qəzeti, 2009, 4 oktyabr

[722] www.e-qanun.az/framework/doc/19037

[723] Azərbaycan" qəzeti, 2016, 3 iyun

(2012, 6-9 may), İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinə (2015, 9 iyun), Gürcüstan Respublikasının Acarıstan Muxtar Respublikasına (2017, 5-6 may), İran İslam Respublikasına (2017, 17-18 dekabr) rəsmi və işgüzar səfərlərdə olmuş, iqtisadi və dostluq münasibətlərinə dair sənədlər imzalamışdır. Naxçıvan Muxtar Respublikasının böyük nüfuzu və sosial-iqtisadi potensialı xarici dövlətlərin də ona olan marağına səbəb olmuşdur. "Naxçıvan şəhəri ilə Belarusun Brest şəhəri arasında 2012-ci ildə "qardaşlaşmış şəhər" münasibətləri yaradılmış, Gürcüstanın Batumi, Bolqarıstanın Veliko-Trnovo, Çinin Çun-Çin və Malayziyanın Kota Kinabulu şəhərləri arasında isə bu münasibətlərə dair niyyət protokolları hazırlanmışdır."[724] Bundan əlavə "...Naxçıvan Muxtar Respublikası özünün muxtar dövlət statusuna əsasən, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində və Avropa Birliyinin Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri Konfransında da uğurla təmsil olunur. Bu qurumlar vasitəsilə qitənin ayrı-ayrı regionları, muxtariyyətləri və federal subyektləri ilə birbaşa əlaqələr yaradan və səmərəli əməkdaşlıq edən Naxçıvan Muxtar Respublikası həm də Avropa siyasətinin formalaşması və həyata keçirilməsi prosesində yaxından iştirak edir. 2012-ci ildə Fransanın Strasburq şəhərində Yerli və Regional Hakimiyyətlər Konqresinin 23-cü plenar sessiyasında ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının statusunu və sərhədlərini müəyyən edən Moskva və Qars müqavilələri beynəlxalq təşkilatların sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir."[725]

Beləliklə, Ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikasının 1995, Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyası ilə Naxçıvan muxtariyyəti yeni status aldı. Naxçıvanın Azərbaycan dövlətçiliyindəki yeri və rolu möhkəmləndi.

---

[724] "Şərq qapısı" qəzeti, 2015, 31 oktyabr

[725] Yenə orada

NƏTİCƏ

Azərbaycanın dövlətçilik tarixi ölkə tarixinin ən mühüm tərkib hissəsidir. Azərbaycanın zəngin dövlətçıilik tarixinə malik olmasının nəticəsidir ki, qədim, orta əsr və yeni dövrdə bəzi imperiyaların hakimiyyəti altına düşsə də, dövlətçiliyini bərpa etməyə nail ola bilmişdi. 1991-ci ilin oktybarında Azərbaycan yenidən müstəqilliyini bərpa etməyə nail ola bilmiş, lakin onu yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. 1993-cü ildə Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlməsi nəticəsində dövlət müstəqilliyi üçün daxili və xarici təhlükələr aradan qaldırılmış, müstəqillik möhkəmləndirilmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövründə Azərbaycan dövlətçiliyi yeni mərhələyə qədəm qoymuş, dünya birliyində layiqli yer tutmağa nail olmuşdur.

İstər tarixən, istərsə də müasir dövrdə Azərbaycan dövlətçiliyi tarixində onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın xüsusi rolu olmuşdur. Bunun nəzərə alınması nəticəsində Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixindəki rolu və yeri kompleks tədqiq edilmişdir. Bunun üçün "dövlət" və "dövlətçilik" haqqında nəzəri-təcrübi baxışlar nəzərdən keçirilmişdir. Dövlətin meydana gəlməsinin təbii-tarixi proses olduğu və onun yaranmasının xalqın həyatında mütərəqqi rol oynaması əsas götürülmüşdür. Dövlətin ölüb getməsi haqqında marksist baxışlardan fərqli olaraq, zaman keçdikcə onun möhkəmlənməsi, yeni funksiyalar kəsb edərək daha da inkişafı müddəası müəyyən edilmişdir. Əldə edilən nəzəri və təcrübi müddəaların Azərbaycan dövlətçilik tarixinə tətbiqi nəticəsində ölkədə dövlətin yaranmasına dair yeni baxış irəli sürülmüşdür. Bu baxışa görə, Azərbaycanda dövlətin təşəkkülünün ilkin mərhələsi kimi dövlətyaranma prosesi ayrılmışdır. Qeyd edilmişdir ki, Azərbaycanda dövlətin meydana gəlməsi burada formalaşan tayfaların siyasi birliklərinə, eyni zamanda şəhər-dövlət başlanğıcına əsaslanmışdır. Bu müddəa Naxçıvanın timsalında təsdiqini tapmışdır.

Azərbaycanın dövlətçilik tarixi və Naxçıvanın bu prosesdə rolu xronoloji-problem prinsipi zəminində qədim zamanlardan müasir dövrədək ardıcıl şəkildə araşdırılmışdır. Naxçıvan ilk mərkəzləşdirilmiş Azərbaycan dövləti olan Manna dövründə siyasi proseslər və əlaqələrdə fəal iştirak etmiş, Midiya və Əhəməni imperiyaları və Makedoniya-

lı İsgəndər dövrünün əsas aktorlarından olmuşdur. Bunun nəticəsi idi ki, Naxçıvan e.ə. IV əsrdə meydana gələn Atropatena dövlətinin həyatında mühüm yer tutmuşdur.

Naxçıvanın adının e.ə. I əsr müəllifi İosif Flavi və e.II əsr müəllifi Klavdi Ptolomeyin əsərlərində çəkilməsi xüsusi dövr kimi ayrılmış, bununla eyni zamanda onun yaşayış məskəni və bölgə kimi tarixinin daha qədim olduğu qeyd edilmişdir. Ola bilər ki, araşdırmalar zamanı Naxçıvanın daha qədim dövrdə çəkilmiş adı da müəyyən edilsin.

Tədqiqat nəticəsində qədim zamanlardan etibarən Azərbaycan dövlətçiliyində Naxçıvana aid bir sıra yeni fikirlər irəli sürülmüş və təsdiq olunmuşdur. Belə ki, Naxçıvan III-VII əsrlər kimi mürəkkəb bir dövrdə Azərbaycanın şimalı və cənubu arasında dövlətçilik ənənələrinin birləşdirici faktoru kimi çıxış etmişdir. İslamın qəbulu və islam mədəniyyətinin inkişafına da Naxçıvan öz töhfələrini vermiş, Ərəb xilafətinin parçalanmasından sonra Azərbaycanda meydana gələn türk-müsəlman dövlətlərinin yaranması və möhkəmləndirilməsində mühüm rol oynamışdır. Bununla eyni zamanda Naxçıvanın siyasi və sosial-iqtisadi potensialı burada Naxçıvançahlıq (X əsrin 80-ci illəri-1065/1066) kimi siyasi qurumun təşəkkülünə imkan vermişdir. Naxçıvanın Azərbaycan həyatındakı mühüm rolunun nəticəsi idi ki, dövrün ədəbi əsərlərində, o cümlədən Qətran Təbrizinin yaradıcılığında xüsusi yer tutmuşdu.

Naxçıvanın siyasi nüfuzu, onun strateji əhəmiyyəti nəticəsində şəhər və bölgə Azərbaycan dövlətçiliyində böyük əhəmiyyətə malik olan Atabəylər dövlətinin paytaxtı olmuş, bununla ilk dəfə yeni funksiyaya nail ola bilmişdir. Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində ən önəmli rolundan biri də bu dövlətçilik itirilən zaman onun bərpası uğrunda mübarizənin mərkəzlərindən biri olması idi. Təsadüfi deyil ki, Naxçıvandakı Əlincə qalası Azərbaycanın azadlıq uğrunda mübarizəsinin simvollarından birinə çevrilmişdir.

Naxçıvan Azərbaycan dövlətçiliyinin tarixində xüsusi yer tutan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri və Mərkəzləşdirilmiş Səfəvilər dövlətinin həm meydana gəlməsi, həm də dövlətçilik tarixinə vacib səhifələr yazmışdır. Bunun nəticəsi idi ki, Nadir şahın qətlindən sonra Azərbaycan ərazisində xanlıqlar meydana gəldikdə Naxçıvan da müstəqil xanlığın mərkəzi olmuşdur. Rusiya işğalı nəticəsində Naxçıvan xanlığının ələ keçirilməsinə, müxtəlif inzibati-ərazi bölgüsü nəticəsində

onun ərazi birliyinin pozulmasına baxmayaraq, Naxçıvan müstəmləkə əsarətinə qarşı müstəqillik ideyalarının meydana gəlməsi və həyata keçirilməsində böyük xidmət göstərmişdir.

Naxçıvan Azərbaycan dövlətçilik tarixində yeni səhifə açan Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkə üçün əhəmiyyətli rol oynamışdır. Naxçıvan Azərbaycanın tarixi torpağı kimi bölgənin ermənilərin əlinə keçməsinə yol verməmiş, Araz-Türk Respublikası kimi dövlət qurumunda həlledici rol oynamışdır.

Azərbaycanın sovetləşdirilməsi, Sovet Rusiyasının yaxından iştirakı ilə Azərbaycanın tarixi torpaqları olan Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi ilə Naxçıvanın ölkənin digər torpaqlarından ayrı salınması, nəhayət, Naxçıvanın muxtariyyətləşdirilməsi ilə Azərbaycanın dövlətçilik tarixində yeni dövr başlandı. Tədqiqatlar göstərir ki, yalnız Naxçıvanın və onun əhalisinin Azərbaycan dövlətçiliyinə töhfəsi nəticəsində yaranmış yeni vəziyyətin bütün təhlükələrini dəf etmək mümkün oldu. Bu iradə olmasaydı 1921-ci il Qars müqaviləsinə nail olmaq da mümkün olmazdı.

Naxçıvanın muxtar qurumu kimi Azərbaycan SSR-in tərkibindəki tarixi də mürəkkəb və ziddiyyətli olmuşdur. Yalnız Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) Naxçıvanın muxtariyyətinin real məzmun alması mümkün olmuşdur. Bu dövrdə bütün ölkədə olduğu kimi, Naxçıvanda da yaradılan siyasi, sosial-iqtisadi baza SSRİ-nin dağılması və müstəqillik uğrunda mübarizədə həlledici rol oynamışdır.

Ulu öndərin Naxçıvandakı fəaliyyəti (1990-1993) nəticəsində Naxçıvan Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin mərkəzinə çevrilmiş, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün böyük işlər görmüşdür. Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlməsi ilə müstəqillik dönməz şəkil almışdır. Heydər Əliyevin tarixi rolu nəticəsində Naxçıvanın Azərbaycan dövlətçiliyindəki xidmətləri yeni, 1995-ci il Konstitusiyasında təsbit edilmiş, 1998-ci ildə isə Muxtar Respublikanın Konstitusiyası qəbul edilmişdir. 1995-ci ilin sonlarında Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi ilə Naxçıvanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının yeni mərhələsinə qədəm qoymuş, Azərbaycan dövlətçiliyi tarixinə yeni səhifələr yazmış-

dır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə sərəncamında qeyd edilir ki, "Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir."

BİBLİOQRAFİYA

Azərbaycan dilində

1. Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Bakı: Nurlan, 2008, 559 s.
2. Ağamalı F.R. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı: Azərbaycan ensiklopediyası NPB, 1999, 304 s.
3. Axundlu Y.İ. İstiqlalın əzablı yolu. Bakı: Adiloğlu, 2013, 480 s.
4. Allahverdiyev Q. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında// Tarix və onun problemləri. Bakı, 2000, №1, s.156-160
5. Azərbaycan arxeologiyası. Daş dövrü. Altı cilddə. I c. Bakı: Şərq-Qərb, 2008, 448 s.
6. Azərbaycan dövlətçilik tarixi. Respublika elmi konfransının materialları. Sumqayıt Dövlət Universiteti, 2012, 233 s.
7. Azərbaycanın dövlətçilik tarixində Səfəvilər dövlətinin yeri. Elmi-nəzəri konfransın materialları. Bakı: Ağrıdağ, 2001, 136 s.
8. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə.İkinci cild. Bakı: Elm, 2007, 632 s.
9. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). Naxçıvan: Əcəmi NPB, 2010, 384 s.
10. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. Azərbaycan cildi. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. 2007, 884 s.
11. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA). f.1, siy. 19, iş 8953
12. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Xəbərlər"i. Xüsusi buraxılış. Naxçıvan: Tusi, 2013, 314 s.
13. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy.1, iş 20
14. ARDA, f. 28, siy. 1, iş 55
15. ARDA, f.28, siy.1, iş 67
16. ARDA, f. 28, siy. 1, iş 69
17. ARDA, f.28, siy.l, iş 185
18. ARDA, f. 894, siy. 2, iş 94
19. ARDA, f. 894, siy. 2, iş 102
20. ARDA, f.894, siy. 10, iş 31
21. ARDA, f. 894, siy. 10, iş 37
22. ARDA, f. 894, siy. 10. iş 76
23. ARDA, f. 894, siy. 10, iş 178
24. ARDA, f. 970, siy. 1, iş 1
25. ARDA, f. 970, siy. 1, iş 1
26. ARDA, f. 970, siy. 1, iş 1
27. ARDA, f. 970, siy. 1, iş 42
28. ARDA, f. 970, siy. 1, iş 54

29. ARDA, f. 970, siy. 1, iş 54
30. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (AR MMA), fond 2941, siy.1a, iş 1
31. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, siy.1, iş 24
32. ARPİİSSA, f.1, siy.2, iş 18
33. ARPİİSSA, f.1, siy.74, iş 123
34. ARPİİSSA, f.1, siy.74, iş 127
35. ARPİİSSA, f.1, siy.74, iş 135
36. ARPİİSSA, f.1, siy.74, iş 135
37. ARPİİSSA, f. 609, siy.1, iş 6
38. ARPİİSSA, f.609, siy.1, iş 71
39. ARPİİ SSA, f. 609, siy. 1, iş 94
40. ARPİİSSA, f.609, siy.1, iş 94
41. ARPİİSSA, f.609, siy.1, iş 94
42. ARPİİSSA, f. 1022, siy.5, iş 56
43. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)// Azərbaycan q. 2004, 12 fevral
44. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)// Azərbaycan q. 2009, 15 aprel
45. Azərbaycan Respublikası regionlarının 2014-2018-c illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı//Azərbaycan Respublikasının Qanunvericlik Toplusu. 2014, №2
46. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI-YNE, 2001, 360 s.
47. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas qanunu). Bakı, 1937, 32 s.
48. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, 1978, 64 s.
49. Azərbaycan Respublikasının Konstitusiyası. Yeni redaksiyada. Bakı, 2016, 68 s.
50. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild, Bakı: Çıraq, 2005, 720 s.
51. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007, 400 s.
52. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci il qədər. Bakı: Azərbaycan, 2009, 872 s.
53. Azərbaycan tarixi. Yeddi cilddə. I-VII cildlər. Bakı: Elm, 2007-2008
54. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014, 380 s.
55. Azərbaycan tarixində Naxçıvan (Tarixi oçerklər). Bakı: ADPU, 1996, 142 s.
56. "Azərbaycan" qəz., 1919, 14 yanvar
57. "Azərbaycan" qəz., 1919, 5-31 yanvar
58. "Azərbaycan" qəz., 1919, 23 oktyabr

59. “Azərbaycan” qəz., 1919, 4 noyabr
60. “Azərbaycan” qəz., 1990, 9 iyun
61. “Azərbaycan” qəz., 1997, 23 oktyabr
62. “Azərbaycan” qəz., 1997, 19 dekabr
63. “Azərbaycan” qəz., 1999, 9 iyun
64. “Azərbaycan” qəz., 2003, 22 iyul
65. “Azərbaycan” qəz., 2005-ci il, 21 dekabr
66. “Azərbaycan” qəz., 2009, 4 oktyabr
67. “Azərbaycan” qəz., 2014, 8 aprel
68. “Azərbaycan” qəz., 2016, 3 iyun
69. “Azərbaycan” qəz., 2017, 13 yanvar
70. Azərbaycanın demoqrafik göstəriciləri. 2016. Bakı, 2016
71. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda İlham Əliyevin nitqi //Azərbaycan q., 2016, 18 oktyabr
72. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Toplu. Bakı: Azərbaycan ensiklopediyası NPB, 1998, 440 s.
73. Azərbaycvan Respublikasının Prezidenti İlham Əliyevin “RİA Novosti” Agentliyinəmüsahibəsi//https://ria.ru/interview/20161018/-1479448628.html
74. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 226 s.
75. Babayev S.Y. Naxçıvanda Kitabi-Dədə Qorqud toponimləri. Bakı: XXI – Yeni Nəşrlər Evi, 1999, 224 s. + şəkilli
76. Baxşəliyev V. B. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003, 168 s.
77. Baxşəliye V., Seyidov A. Naxçıvanın qədim tarixi (etüdlər). Bakı: Azərbaycan, 1995, 62 s.
78. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
79. Baxşəliyev V., Marro C., Carolin H., Alıyev N., Dessaint Ph., S.Sanz. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan, Əcəmi NPB, 2012, 80 s.
80. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar NPM, 2010, 156 s.
81. Baxşəliyev V., Ristvet L., Gopnik H., Aşurov S. Naxçıvanda arxeoloji tədqiqatlar. Naxçıvan, 2010, 119 s.
82. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Balı: Elm, 2008, 304 s.
83. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
84. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, Kitab Klubu MMS, 2015, 320 s.
85. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006

86. Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi (12 oktyabr 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları). Naxçıvan: Əcəmi NPB, 2012, 88 s.
87. Behbud ağa Şahtaxtinski: Sənədlər və materiallar. Toplayanı, tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev. Naxçıvan, 2017, 336 s.
88. Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı: Nafta-Rress, 1998, 148 s.
89. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s.
90. Budaqova S. Naxçıvan diyarının siyasi tarixi. Bakı: Elm və təhsil, 2014, 112 s.
91. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Şərq-Qərb, 2007, 424 s.
92. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi. Dərs vəsaiti. Naxçıvan: Qeyrət, 2016, 338 s.
93. Cəfərli E.Y. Rusiya və Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri). Naxçıvan: Əcəmi NPB, 2017, 224 s.
94. Cəfərli E.Y. Dövlət quruluşunun formaları. Bakı: MBM, 2009, 60 s.
95. Cəfərov C.M. Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər). Bakı: Elm, 2008, 300 s.
96. Cəfərov C.M. Stalinizm və Azərbaycan kəndi (1920-ci illərin sonları – 30-cu illər). Bakı: Elm, 2012, 144 s.
97. Cəfərov Ə.Naxçıvan Paleolit düşərgəsi//NDU-nun Elmi Əsərləri. 1999, № 4, s.28-33
98. Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, 172 s.
99. Çingizoğlu Ə. Abbasqulu xan Kəngərli (Tarixi-bioqrafik tədqiqat). Bakı: Mütərcim, 2013, 68 s.
100. Çingizoğlu Ə., Qacar M. Türk atabəyləri. Bakı: Mürtəcim, 2015, 212 s.
101. Dövran q., 1998, 16 dekabr
102. Elman H. Naxçıvan Muxtar Respublikası. 85 ilin 15 ili. Bakı: Şir vannəşr, 2009, 438 s.
103. Emin A. (Şıxəliyev). İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi" nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi NPB, 2016, 144 s.
104. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
105. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika (1987-2011). Bakı: Letterpress, 2012, 912 s.
106. Əhmədova F. Nəriman Nərimanov. İdeal və gerçəklik. Bakı: Elm və həyat, 1998, 170 s.

107. Əhmədova F. B.Şahtaxtinskinin V.Leninə məktubunda mərkəzi hakimiyyətin Azərbaycana dair siyasətinin təhlili// Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, 2016, s.263-275
108. Əkbər N. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından – XIV əsrə qədər). Bakı: Qanun, 2010, 756 s.
109. Ələsgərzadə Ə.Yusif ibn Küseyir və Mömінə xatın türbələrinin kitabələri// A.Bakıxanov adına Tarix İnstitunun Əsərləri. Bakı, 1947, I cild.
110. Əliyarov S.S. "Dədəm Qorqud" kitabında anaxaqanlıq tarixinin izləri// Tariximiz. Bakı: Mütərcim, 2012, 560 s.
111. Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası. Nailiyyətlər, problemlər. Birinci cild. Bakı: Azərnəşr, 2001, 284 s.
112. Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası. Nailiyyətlər, problemlər. İkinci cild. Bakı: Azərnəşr, 2001, 264 s.
113. Əliyev Ə. Biz əzablı ömür yaşadıq. Xatirələr. Bakı: Yazıçı, 1994, 64 s.
114. Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Elm və həyat, 2004, 316 s.
115. Əliyev Ə. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə (1920-1921-ci illər). Bakı, 1960, 38 s.
116. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 120 s.
117. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 4-cü kitab. Bakı: Azərnəşr, 1997, 528 s.
M a d d ə 14. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi çağırışının səlahiyyət müddəti**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyət müddəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

M a d d ə 15. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədlərə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanunu qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilə bilməzlər.

M a d d ə 16. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi**

Seçkilərin nəticələrinin düzgünlüyü qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir.

M a d d ə 17. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətinin bitməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlığından çıxanların yerinə seçkilər keçirilmir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisi 31 deputatın səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

M a d d ə 18. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il iki növbəti sessiyaya yığılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyaları Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında və ya öz təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən çağırılır.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarının iclasları açıq keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının tələbi ilə və ya Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclası keçirilə bilər.

M a d d ə 19. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;

2) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanunu qüvvəyə minmiş hökmü olduqda;

4) icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq etdikdə, din xadimi olduqda, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olduqda;

5) özü imtina etdikdə.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Bu haqda müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

M a d d ə 20. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının toxunulmazlığı**

I. Səlahiyyət müddəti ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının şəxsiyyəti Naxçıvan Muxtar Respublikasında toxunulmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatını tutan orqan bu barədə dərhal Naxçıvan Muxtar Respublikası prokuroruna xəbər verməlidir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının toxunulmazlığına yalnız Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər.

M a d d ə 21. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Naxçıvan Muxtar Respublikası Ali Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

M a d d ə 22. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz iş qaydasını müəyyən edir və Ali Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, daimi və başqa komissiyaları təşkil edir.

M a d d ə 23. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktları**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə qanunlar və qərarlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunlar və qərarlar Azərbaycan Respublikasının Konstitusiyası və bu Konstitusiya ilə müəyyən edilmiş qaydada qəbul edilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

M a d d ə 24. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusu;

3) Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin statusu;

4) Azərbaycan Respublikasının iqtisadi və vergi siyasətinə uyğun olaraq vergilər;

5) Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;

6) sosial təminat;

7) ətraf mühitin qorunması;

8) turizm;

9) səhiyyə, elm və mədəniyyət;

10) Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

M a d d ə 25. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;

2) Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;

3) Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;

4) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi;

5) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi;

6) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə etimad;

7) Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;

8) Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi;

9) Bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanlarının təsdiqi;

10) Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddənin I hissəsinin 1-ci və 2-ci bəndlərində göstərilən məsələlərə dair qanunlar, qalan məsələlərə dair isə eyni qaydada qərarlar qəbul edilir.

M a d d ə 26. **Qanunvericilik təşəbbüsü hüququ**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna mənsubdur.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun qanunvericilik təşəbbüsü qaydasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verdiyi qanun və qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdiyi qanun və qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və qərar layihəsini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikasının Baş naziri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu təcili elan edibsə, bu müddət 20 gün təşkil edir.

VI. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir.

M a d d ə 27. **Qanunların və qərarların imzalanması**

I. Qanunlar və qərarlar qəbul edildiyi gündən 10 gün müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanır.

II. Təcili elan olunan qanun və qərar layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edildiyi gündən 24 saat ərzində imzalanır.

M a d d ə 28. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktlarının qüvvəyə minməsi**

Qanunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

M a d d ə 29. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən seçilir, ona tabedir və ona hesabat verir. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən geri çağırıla bilər.

II. Yaşı otuzdan aşağı olmayan, Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilə bilər.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçkisi qaydasını Naxçıvan Muxtar Respublikasının Ali Məclisi müəyyən edir.

M a d d ə 30. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini itirdikdə müəyyən edilmiş müddətdə yeni sədr seçilənə qədər onun səlahiyyətlərinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, o da olmadıqda müavini tərəfindən yerinə yetirilir.

M a d d ə 31. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vəzifədən kənarlaşdırılması**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifədən kənarlaşdırılması qaydası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

M a d d ə 32. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin səlahiyyətləri**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri:

1) Ali Məclisin növbədənkənar sessiyalarını çağırır;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarına sədrlik edir;

3) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

4) Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir;

5) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı öz mandatından imtina etdikdə və qanunla müəyyən edilmiş digər hallarda onu deputat mandatından məhrum edir;

6) Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar qərar qəbul edir;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavinliyinə namizədlərin seçilməsi və Ali Məclisin Sədr müavinlərinin vəzifədən azad edilməsi barədə Ali Məclisə təklif verir;

8) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aparatını təşkil edir və onun rəhbərliyini təyin edir;

9) bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən digər məsələləri həll edir.

M a d d ə 33. **Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qərarlar qəbul edir.

III F ə s i l
İCRA HAKİMİYYƏTİ

M a d d ə 34. **Naxçıvan Muxtar Respublikasında icra hakimiyyəti**

I. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanıdır.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabedir və onun qarşısında müntəzəm hesabat verir.

M a d d ə 35. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin statusu**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

M a d d ə 36. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi**

I. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə Naxçıvan Muxtar Respublikasının Baş naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının nazirləri və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

M a d d ə 37. **Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikasının Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

M a d d ə 38. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclasları**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclaslarına bir, qayda olaraq, Naxçıvan Muxtar Respublikasının Baş naziri sədrlik edir.

M a d d ə 39. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri**

I. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti:

muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

muxtar respublikanın büdcəsini icra edir;

muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir; muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;

nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti iqtisadi və mədəni sahələrdə Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının Nazirlər Kabinetində təmsil edir.

M a d d ə 40. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları**

I. Ümumi qaydalar müəyyən etdikdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları başqa qayda müəyyən edilməmişsə, dərc edildiyi gündən qüvvəyə minir.

M a d d ə 41. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-

dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

M a d d ə 42. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi-pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

IV F ə s i l
MƏHKƏMƏ HAKİMİYYƏTİ

M a d d ə 43. **Məhkəmə hakimiyyətinin həyata keçirilməsi**

I. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası, mülki və cinayət məhkəmə icraatı vasitəsi ilə və qanunla nəzərdə tutulan digər vasitələr ilə həyata keçirilir.

IV. Cinayət məhkəmə icraatında Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədi ilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

VII. Məhkəmə icraatı həqiqətən müəyyən edilməsini təmin etməlidir.

M a d d ə 44. **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, Naxçıvan Muxtar Respublikasının ərazisində apelyasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini təmin edir. O, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədrinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikasının qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğunluğu;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının qanunlarına uyğunluğu;

3) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına uyğunluğu.

III. Hər kəs onun hüquq və azadlıqlarını pozan Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından bu maddənin II hissəsinin 1-3-cü bəndlərində göstərilən məsələlərin Naxçıvan Muxtar Respublikasının

Ali Məhkəməsi tərəfindən həll edilməsi üçün, habelə bələdiyyə və məhkəmə aktlarından Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə qanunla müəyyən edilmiş qaydada şikayət verə bilər.

IV. Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətinin həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət verilə bilər.

V. Naxçıvan Muxtar Respublikasının məhkəmələri insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Naxçıvan Muxtar Respublikası qanunlarının şərh edilməsi haqqında qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə müraciət edə bilər.

VI. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

VII. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir.

M a d d ə 45. **Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri**

I. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə birinci instansiya məhkəmələridir.

II. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

M a d d ə 46. **Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

I. Naxçıvan Muxtar Respublikası Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

II. Naxçıvan Muxtar Respublikası Prokurorluğu ərazi prokurorlarının Naxçıvan Muxtar Respublikası prokuroruna və Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Naxçıvan Muxtar Respublikası prokurorunu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təklifi əsasında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin edir.

IV. Ərazi və ixtisaslaşdırılmış prokurorları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Azərbaycan Respublikası Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və azad edir.

V Fəsil
QANUNVERİCİLİK SİSTEMİ

Maddə 47. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının hüquqi qüvvəsi

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası birbaşa hüquqi quvvəyə malikdir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasıdır.

Maddə 48. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir.

II. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikası qanunvericilik sisteminə uyğundur.

III. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Naxçıvan Muxtar Respublikasının aşağıdakı normativ hüquqi aktlarından ibarətdir:

1) Naxçıvan Muxtar Respublikasının Konstitusiyası;

2) Naxçıvan Muxtar Respublikasının qanunları;

3) Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları;

4) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları;

5) Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarmm normativ aktları.

M a d d ə 49. **Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktları**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalıdır.

II. Naxçıvan Muxtar Respublikasının qanunları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olmamalıdır, yalnız dərc edilmiş qanunların tətbiqi və icrası Naxçıvan Muxtar Respublikasında bütün vətəndaşlar, icra hakimiyyəti və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına zidd olmamalıdır, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

IV. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına zidd olmamalıdır, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sərəncamlarına, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aktlarına zidd olmamalıdır.

VI Fəsil
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR

Maddə 50. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin və əlavələrin qəbul edilmə qaydası

I. Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra təklif, qanunlar üçün nəzərdə tutulmuş qaydada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə imzalamaq üçün təqdim olunur.

IV. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

KEÇİD MÜDDƏALARI

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul edildikdən və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il mayın 30-da qəbul edilmiş Naxçıvan Muxtar Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.

II. Naxçıvan Muxtar Respublikasının xalq deputatlarının səlahiyyətləri yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclas günü başa çatır.

Yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin azı 31 deputatının seçildiyinin elan edildiyi gündən sonra bir ay ərzində keçirilir.

III. 1995-ci il sentyabrın 12-də qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 79-cu maddəsi bu Qanun əsasında seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1-ci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

IV. Bu Konstitusiyanın qəbul edildiyi günədək Naxçıvan Muxtar Respublikasının ərazisində qüvvədə olan Naxçıvan Muxtar Respublikasının qanunları və başqa normativ hüquqi aktları bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT HAKİMİYYƏTİNİN QANUNVERİCİ VƏ İCRAEDİCİ ORQANLARININ İNKİŞAF TARİXİ

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi*, sədrlər	
25.1.1922	
18.1.1924	Talıblı
1929-1933	Fərzəliyev Məmməd Rüstəm oğlu (1879)

Naxçıvan MSSR Ali Sovetinin** Rəyasət Heyəti, sədrlər

1946-1951	Məmmədov Cəbrayıl İbrahim oğlu (1910-1976)
1951-1952	Cəfərov Cəfər Hüseynqulu oğlu (1913-1957)
1952-1953	Məmmədov Cəbrayıl İbrahim oğlu (1910-1976)
1953-1963	Məmmədov Hüseyn Qurban oğlu (1906-1970)
4.1963-1990	Əliyeva Səkinə Abbas qızı (1925-2015)

Naxçıvan Muxtar Respublikası Ali Soveti – Ali Məclisi, sədrlər

17.11.1990-5.4.1991	Cəlilov Afiyəddin Cəlil oğlu (1946-1994)
3.9.1991-15.6.1993	Əliyev Heydər Əlirza oğlu (1923-2003)
4.1993-12.1995	Həsənov Namiq Həsən oğlu (1944)
16.12.1995 – h.h.	Talıbov Vasif Yusif oğlu (1960)

Naxçıvan SSR Xalq Komissarları Soveti, sədrlər

İşlədiyi illər	Naxçıvan SSR Xalq Komissarları Soveti
1920 - 1921	Qədimov Ə.
6.1921 - 3.5.1922	Şahtaxtinski Behbud ağa (1881-1924)
1922 - 27.2.1923	Əliyev Teymur Mahmud oğlu (1896-1938)

Naxçıvan MSSR Xalq Komissarları Soveti – Naxçıvan MSSR– Naxçıvan Muxtar Respublikasının Nazirlər Soveti, sədrlər

	Naxçıvan MSSR Xalq Komissarları Soveti
18.1.1924 - 1925	Seyidbəyli
1925 - 1927	Sultanov Həmid Həsən oğlu (1889-1938)
1927 - 1928	Musayev Hüseyn Məmməd oğlu (1938)

---

* 1922-1937-ci illərdə Naxçıvan MSSR-də dövlət hakimiyyətinin ali qanunverici, sərəncamverici və nəzarətedici orqanı.

** 1937-ci il 17 sentyabrda Naxçıvan MSSR Ali Soveti yaradılmışdır.

	Naxçıvan MSSR Nazirlər Soveti
1929-1933	Məmmədxanov Məmmədxan Məmmədxan oğlu (1881-1938)
1938 - 1942	Balamətov Balamət Yüzəhməd oğlu (1907)
1943 - 1944	Gülməmmədov İsak Musa oğlu
1944 - 1946	Gözəlov Adıgözəl Xəlil oğlu (1907)
1947 - 1950	Balamətov Balamət Yüzəhməd oğlu (1907)
1953 - 1955	Novruzov Nemət Hüseyn oğlu (1908)
1955 - 1959	Rəhimov Rəhim Kərəm oğlu (1920-2009)
1959 - 1964	Əsgərov Məmməd Həsən oğlu (1918-1988)
1964 - 1966	İsmayılov Ramazan Əkbər oğlu (1928)
1970 - 1979	Nəbiyev Yusif Mustafa oğlu (1926-1980)
1979 - 1982	Mehdiyev İmran Əzim oğlu (1936)
1982 - 3.1988	Hacıyev Zülfü Saleh oğlu (1935-1991)
3. - 11.1988	İsayev Heydər İsa oğlu (1936-1999)
1989 - 1.1990	Cəlilov Afiyəddin Cəlil oğlu (1946-1994)
Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Baş nazirlər	
1990 - 9.1991	Əliyev Mirismayıl Mirəli oğlu (1941)
1992-2000	Xanbabayev Şəmsəddin Hüseynqulu oğlu (1939)
2000-h.h.	Baxşıyev Əlövsət Qəzənfər oğlu (1956)
Xalq Daxili İşlər Komissarlığı – İctimai Asayişin Mühafizə Nazirliyi - Daxili İşlər Nazirliyi	
	Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı*
28.3.1946	Naxçıvan MSSR Daxili İşlər Nazirliyi**
1962	Naxçıvan MSSR İctimai Asayişin Mühafizə Nazirliyi***
1968	Naxçıvan MSSR Daxili İşlər Nazirliyi****
18.1.1924-	Babayev K.
1930	Yaqubov Həmid
15.7.1934 -	Vakulçik P.V.
- 3.4.1937	Xocayev N.M.

* 1920-ci ildə yaradılan Daxili İşlər Şöbəsi 1924-cü ildə komissarlığa çevrilib.
** 1946-cı ildə Naxçıvan MSSR-də Daxili İşlər Nazirliyi təsis olunub.
*** 1962-ci ildə DİN Asayişin Mühafizə Nazirliyi adlandırılıb.
**** 60-cı illərin sonlarında DİN yenidən bərpa olunub.

3.4.1937- 8.10.1937	Məmmədov Q.İ
12.10 - .1937	müvəq. vəzifəni icra edən Lisin
1 - .1938	vəz. icra edən. Qranskiy Aleksey Konstantinoviç (1902)
28.5 - .6.1938	Dasayev A.A.
1938 - 2.1939	Mehdiyev M.A.
- 30.4.1939	Aydəmirov Mirzə Məlik oğlu (1901-1988)
30.4.1939 - 8.1941	Aydəmirov Mirzə Məlik oğlu (1901-1988)
8.1941 - 7.8.1942	Quliyev Yaqub Həsən oğlu (1906)
7.8.1942 - 30.4.1951	Nağıyev Qarabala Məşədi Nağı oğlu (1909-1981)
30.4.1951 - 1952	Nuriyev Şərif İsmayıl oğlu (1911)
31.3.1952 - 10.5.1954	Həsənov İbrahim Əli oğlu (1912-1985)
1954-1963	Nuriyev Şərif İsmayıl oğlu (1911)
1963-1965	Yaqubov Məmməd Qurban oğlu (1921)
1965-1968	Əbülhəsənov Yusif Cabbar oğlu (1923)
1968-1974	Yaqubov Məmməd Qurban oğlu (1921)
1974-1977	Qurbanov Rəşid
1977-1981	Əbülhəsənov Yusif Cabbar oğlu (1923)
1981-1986	Sadıqov Sadıq Zeynal oğlu (1934)
1986-1987	Səfərov Sevindik
1987 - 1989	Usubov Ramil İdris oğlu (1948)
1989-1990	Rəfiyev Fəxrəddin Cəlil oğlu (1951-2006)
1990-1992	Məmmədov Məmməd Xeyrulla oğlu (1948)
17.9.1992-10.1992	Ələkbərov Əsgər Ələkbər oğlu (1954)
1993-1994	Usubov Ramil İdris oğlu (1948)
25.8.2017-h.h.	Ələkbərov Fazil Nəriman oğlu (1971)

Naxçıvan Cümhuriyyət prokuroru və Xalq Ədliyyə Komissarlığı*

1924	Qurbanov İ.
1924-1926	Tarverdiyev İsa
1926-1927	Babayev Yaqub Rəsul oğlu (1896)
1927-1928	Tarverdiyev İsa
1928-1930	Qəhrəmanov Vahid Pənah oğlu (1900-1978)
1930-1931	Şirəliyev Şirəli

* 18 yanvar 1924-cü ildə Xalq Ədliyyə Komissarlığı yaradılmışdır.

1931-1932	Babayev Yaqub Rəsul oğlu (1896)
1932-1933	Qəhrəmanov Vahid Pənah oğlu (1900-1978)
1933-1934	Hüseynəliyev H.
1934-1937	Fətullayev Yunis
5.1937-6.1938	Şəfiyev İsmayıl
Ədliyyə Komissarlığı	
15.8.1938-30.3.1946	Hacıyev Əbdülmənaf Qəhrəman oğlu (1896-1984)

Naxçıvan MSSR Ədliyyə Nazirliyi**

30.3.1946-12.4.1948	Hacıyev Əbdülmənaf Qəhrəman oğlu (1896-1984)
12.4.1948-26.7.1952	Mehdiyev Mehdi Əliheydər oğlu (1917)
26.7.1952-30.6.1955	Mustafayev Abdulla Ziyad oğlu
30.6.1955-dekabr 1956***	Sultanov Sultan Yunis oğlu
10.5.1971****-30.4.1977	Rüstəmov Yusif Müslüm oğlu (1922-1997)
17.1.1980-16.1.1984	Əliyev İmamverdi İsrafil oğlu (1948)
16.7.1984-2.4.1990	Məmmədov Azər Yusif oğlu (1952)
26.10.1990-17.11.1990	Abdullayev Süleyman Abbasəli oğlu (1947)

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi*****

17.11.1990-07.5.1993	Abdullayev Süleyman Abbasəli oğlu (1947)
31.3.1998-24.7.2000	Əkbərov Məhəmməd Hüseyn oğlu (1958)
02.11.2001-h.h.	Əliyev Suliddin Abbas oğlu (1970)

Naxçıvan MSSR Prokurorluğu

1938-1942	Ağayev Hüseyn Əli oğlu (1890)
1942-1944	İsmayılov Məmmədağa Məhəmməd oğlu (1910-1944)
1944-1948	Qəhrəmanov Nağı Ələkbər oğlu (1905-1980)
1948-1951	Qarəhmədov İbadulla İsmayıl oğlu (1910)
1951-1959	Əkbərov Seyfulla Əkbər oğlu (1915-1995)
1959-1962	Fətəliyev Fətəli Şıxəli oğlu (1914)

** 30 mart 1946-cı il tarixdə Naxçıvan MSSR Ədliyyə Nazirliyi adlandırılmışdır
*** 1956-cı ildə Naxçıvan MSSR Ədliyyə Nazirliyi ləğv edilmişdir
**** 5 may 1971-ci ildə Naxçıvan MSSR Ədliyyə Nazirliyi yaradılmışdır
***** 17 noyabr 1990-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi adlanmışdır.

1962-1967	Qarayev Yelmar Fərman oğlu (1923)
1967-1975	Həsənov Rəşid Cəlil oğlu (1926-1978)
1975-1980	Rzayev Həbib Allahverdi oğlu (1923-1997)
1980-1981	Sultanov Ələddin Camal oğlu (1928)
1982-1986	Ələkbərov Əyyub Əsgər oğlu (1938)
1986-1990	İbişov Ağamməd Hüseyn oğlu (1942)
Naxçıvan Muxtar Respublikası Prokurorluğu	
1991-1992	Hüseynov Hüseyn Muxtar oğlu (1944)
1993-1995	Nəcəfov İsa Əli oğlu (1952)
1995-2000	Qəribov Fikrət Atlıxan oğlu (1958)
2001-h.h.	Şahverdiyev Səbuhi Zəhmət oğlu (1972)

Naxçıvan MSSR Baş-Ali Məhkəməsi, sədrlər

1932-1935	Yusifzadə Ağababa Əsgər oğlu (1886-1938)
1935-1937	Əfəndiyev
1937-1938	Məhərrəmov N.
1938-1942	Orucəliyev Ramazan
1942 - 1945	Hüseynov Məhərrəm Mirzə oğlu (1915)
1945-1951	Mamedov Müslüm Həsən oğlu
1951-1952	Gülməmmədov İsak Musa oğlu (1918)
1952-1958	Sultanov Sultan Yunis oğlu (1922)
1958-1967	Seyidov Həsən Həmid oğlu (1923)
1967-1976	Bayramova Sitarə Əlipaşa qızı (1929)
1976-1978	Kazımov Qəni Məmməd oğlu (1926)
1978-1983	Sadıqov Hacıbala Mürseyib oğlu (1935)
1983-1988	Həsənov Musa Paşa oğlu (1948-2016)
1988-1990	Hüseynov Şamxal Mürsəl oğlu (sədr əvəzi)

Naxçıvan MR Ali Məhkəməsinin sədrləri

1990-1993	Hacıyev Zakir Qafar oğlu
1993-1997	Abdullayev Süleyman Abbasəli oğlu (1947)
1997-2018	Süleymanov Ramiz Rəhim oğlu (1953)
2018-h.h	Əliyev Qasım Vəli oğlu (1971)

Naxçıvan vilayət əksinqilab və təxribatçılığa qarşı mübarizə üzrə fövqəladə komissiya, sədrlər

1921 - 1922	Əliyev İskəndər
1922 - 6.1923	Novruzov A.Q.

Naxçıvan MSSR FK-nın siyasi bürosu, rəislər

6.1923 - 1924	Novruzov A.Q.

DSİ-nin Naxçıvan vilayət şöbəsi, rəislər

1927	Rəhmanov Asəf Səttar oğlu (1889)
1929	Yaqubov Abdülhəmid Qulu oğlu (1897)
2.1933 - 7.1934	Qasımov Eyyub Mikayıl oğlu (1901) , rəis vəzifəsinin icraçısı

Dövlət Təhlükəsizliyi Xalq Komissarlığı - Komitəsi; Milli Təhlükəsizlik Nazirliyi; Dövlət Təhlükəsizliyi Xidməti

30.4 - .8.1941	Quliyev Yaqub Həsən oğlu (1906)
- 21.9.1943	vəzifəni icra edən Padarov Hacı Məmməd İbrahim oğlu (1908)
21.9.1943 - 6.6.1944	Padarov Hacı Məmməd İbrahim oğlu (1908)
14.6.1944 - 3.5.1951	Fərəcov Həsən Müseyib oğlu (1905-1977)
3.5.1951 - 31.3.1953	Həsənov İbrahim Əli oğlu (1912-1985)
10.5.1954 - 19.7.1955	Həsənov İbrahim Əli oğlu (1912-1985)
1955 - 1960	Əlizadə Mamed Əli oğlu (1919)
9.1960 - 8.1962	Hüseynov İlhüseyn Pirhüseyn oğlu (1925-2006)
1962 - 1969	Zamanov Abbas Məmmədtağı oğlu (1924)
12.1969 - 1976	Hüseynov Bahadur Məmədqulu oğlu (1921-2017)
1976 - 1983	Sarıyev Allahverdi Mustafa oğlu (1921)
1983-1986	İmranov Nəriman Şamo oğlu (1944)
1986-1990	Xəlilov İnayət Hidayət oğlu (1939)
24.3.1990-1.5.1992	Mirzəyev İsfəndiyar İsa oğlu (1949)
20.9.1992-7.1.1997	Əsgərov Abbas Məmməd oğlu (1950-2014)
1997-2002	Əliyev Vahid Əli oğlu (1969)
18.12.2015-25.8.2017	Ələkbərov Fazil Nəriman oğlu (1971)

Azərbaycan K(b)P– KP- Naxçıvan vilayət komitəsi

	Naxçıvan diyar komitəsi
	Azərbaycan K(b)P Naxçıvan diyar komitəsi
	Azərbaycan K(b)P Naxçıvan vilayət komitəsi
	Azərbaycan KP Naxçıvan vilayət komitəsi
	Azərbaycan KP Naxçıvan respublika komitəsi
1921	Vəlibəyov Bahadur Qasım oğlu (1894-1940)
1924	Tahirov Yusif Paşa oğlu (1893-1938)
1925 -	Şahbazov Ələsgər Abbas oğlu (1898-1973)
1927-	Tağıyev İbrahim Tağı oğlu (1894-1937)
1931-	Rəhimov Ağaverdi Hacı Yarəli oğlu (1895-1936)
- 1933	Vəlibəyov Bahadur Qasım oğlu (1894-1940)
1933 - 1934	Məmmədov Əliqara Yəhya oğlu (1902)
1934 - 12.1936	Mehdiyev Mehdi Adıgözəl oğlu (1895-1937)
12.1936 - 1937	Rəhmanov Həsənəli Paşa oğlu (1938)
1937	Sultanov Sultan Teymur oğlu (1905-1938)
1938	Nəzərov İbrahim Əli oğlu
1938 - 10.1940	İsmayılov Kazım Heydər oğlu
10.1940 - 1.1948	Nəcəfov Hüseyn Hümbət oğlu (1907)
1.1948 - 5.1951	Yusifov Yusif Niftalı oğlu (1906-1995)
1952 - 12.1955	Əsgərov İsmayıl Nəsrulla oğlu (1914)
12.1955 - 10.3.1961	Məmmədov Xurşud Bayramqulu oğlu (1906)
10.3.1961 - 3.1970	İbrahimov Hacıağa Xəlil oğlu (1923-1992)
3.1970 - 28.12.1975	Hüseynov Aslan Ağahüseyn oğlu (1916)
28.12.1975 - 6.12.1983	Rəhimov Kamran Nəbi oğlu (1928-2007)
6.12.1983 - 11.1988	Mustafayev Nurəddin Elyaz oğlu (1942)
11.1988 - 1.1991	İsayev Heydər İsa oğlu (1936-1999)

QEYDLƏR

İSMAYIL MUXTAR OĞLU HACIYEV

N A X Ç I V A N
AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ

NAŞİR
Akif Dənzizadə

DİZAYN
Rəşad Zülfüqarov

OPERATORLAR
Jalə İbrahimova
Türkanə İsmayılova

Çapa imzalanmış 24.02.2018.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 23,25 ç.v.
Sifariş №27. Tiraj 500 nüsxə.

İSMAYIL HACIYEV

NAXÇIVAN AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ

ISBN 978-9952-514-18-6